بسم الله الرحمن الرحيم

Bakı 1432 / 2011

Bu kitab **Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin DK-110d-07/20** nömrəli icazə məktubu ilə nəşr olunmuşdur.


**Kitabın orijinal adı:** Hakka Adanmış Gençlik
**Müəllif:** Osman Nuri TOPBAŞ
**Anadolu türkcəsindən Azərbaycan türkcəsinə uyğunlaşdıran:** Nurlan MƏMMƏDZADƏ
**Elmi və bədii redaktor:** Dr. Abbas QURBANOV
**Nəşrə hazırlayan:** Ömər QURBANOV
**Dizayn:** Tural SƏLİMOV

Bakı - 2011
İpəkyolu Nəşriyyatı: 67
ISBN: 978 9952 462 05 0

İPƏKYOLU NƏŞRİYYATI

Bakı Şəhəri Səbail Rayonu
Cəfərov Qardaşları, 16
**Tel:** (+994 12) 492 32 23
**Faks:** (+994 12) 492 21 67
**Web sayt:** ipekyolunesriyyati.az
**Elektron poçt:** director@ipekyolunesriyyati.az

# Haqqa Həsr Olunmuş

# GƏNCLİK

**Osman Nuri Topbaş**

AZƏRBAYCAN RESPUBLİKASI "İPƏKYOLU" MMC
İPƏKYOLU
THE REPUBLIC OF AZERBAIJAN "IPEKYOLU" LLC

# Azərbaycan Nəşri Üçün
# ÖN SÖZ

*Biz aciz bəndələrini başda İslam, iman və Quran olmaq şərtiylə sayıb qurtara bilməyəcəyimiz nemətləriylə təchiz edən Allah-Təalaya sonsuz həmd-sənalar olsun!*

*Bəşəriyyəti imansızlıq və cəhalət qaranlıqlarından xilas edib əbədi səadətə çatdırmağa səbəb olan, misilsiz nümunəvi şəxsiyyət, ən böyük müəllim və rəhbərimiz, kainatın fəxri Həzrət Məhəmməd Mustafaya, Onun Əhli-Beytinə və əshabına sonsuz salət və salam olsun!*

Allah-Təalanın biz bəndələrinə lütf etdiyi ən böyük nemətlərdən biri əbədi həyatın **səadət** və ya **fəlakət** sərmayəsi olan **"ömür"**dür. Onun hər anı əbədi qazanc və səadətə, eyni zamanda insanlıq neməti zay edildiyi təqdirdə fəlakət və xəcalətə səbəb olacaq xüsusiyyətdədir. Bu səbəblə onu Quran və Sünnəyə görə dəyərləndirmək, ağıl və vicdan sahibi olan hər bir insanın ən mühüm işidir.

Bununla yanaşı əbədi səfərə hazırlıq baxımından həyatın hər mərhələsi eyni deyil. Bunun ən bərəkətli mövsümü və belə demək mümkünsə, bahar fəsli **"gənclik"**dir. Çünki gənclik çalışqanlıq, gümrahlıq, cəsarət, mətanət, həyəcan və güc mövsümüdür. Bu səbəblə də insan ömrünün ən əhəmiyyətli çağıdır.

Bir insanın yaşadığı təxminən 70-80 illik ömür uşaqlıq və gənclik illərində atılan təməllərin üstündə formalaşmaqdadır. Bu baxımdan insan həyatının ilk mərhələsi sanki bir ömrə bərabərdir.

Başqa cür desək, gənclik həyat bulağının axacağı məcranı müəyyənləşdirmək xüsusunda bir başlanğıc təşkil etmək baxımından da çox mühümdür. Yəni şəxsiyyətin əsas vəsf və istiqamət etibarilə formalaşdığı bir mövsümdür. Bu mövsümdə haqq və xeyir istiqamətindən azacıq uzaqlaşmaq belə sonrakı yaşlarda dönüşü çətin olan zəlalət va-

dilərində sürüklənməyə səbəb olar. Bu həqiqəti ifadə etmək üçün atalar “Ağac yaşkən əyilər” deyiblər.

Bu səbəblə gənclərin bacarıq, fərasət, bəsirət və güclü iradəylə hərəkət edib enerjilərini haqqa və xeyrə sərf edə bilmələri hədsiz dərəcədə əhəmiyyətlidir.

**Mövlana həzrətləri** buyurur:

*“Gənclik illərini qənimət bilib qulluq borcunu ödəyən kəs necə də xoşbəxtdir. Belə bir insan dini və insani vəzifələrini yerinə yetirər. Bədəni sapsağlam ikən, ürəyində və canında güc-qüvvət varkən qulluğunu ifa etməyə çalışar.*

*Çünki o gənclik çağı yamyaşıl bir bağa bənzəyir. Bol meyvələr verir. İxtiyar çağında isə bədən quraq torpağa bənzəyər. Quraq tarlada da heç vaxt yaxşı bitki yetişməz.”*

Eyni zamanda ömrün ən enerjili çağı olan gənclikdə ruhi həyəcanlar qədər nəfsani arzular da zirvədədir. Buna görə nəfsani iştahları zəifləmiş olan yaşlılarla müqayisədə gənclərin nəfslərinə hakim olub ilahi riza istiqamətində yaşaya bilmələri Allah qatında daha çox qiymətlidir. Yəni gənclər aşdıqları əngəllərin şiddətinə nisbətlə əlavə mükafata da nail olarlar. Çünki əldə edilən bir nəticənin dəyəri ona çatmaq üçün kənarlaşdırılan maneələr nisbətindədir.

Lakin ömrün ən münbit mərhələsi olan gəncliyi layiqli şəkildə dəyərləndirə bilmək xüsusunda insan oğlu çox vaxt qəflət içindədir. Bəşər tarixinin şahid olduğu ən müstəsna gənclərdən biri olan **Həzrət Əli** رضي الله عنه belə buyurur:

*“Əldən çıxmadan əvvəl bu iki şeyin qədrini bilmək çətindir. Biri sağlamlıq, digəri isə gənclikdir.”*

Təəssüf ki, nemət əldən çıxmadan onun qiymətini layiqincə dərk edə bilənlər çox azdır. Bunun üçün də gənclərin əllərindəki gənclik sərvətini cahilanə və duyğusuzca hədər etməsi qarşısında ən çox təəssüflənənlər o neməti itirdikləri üçün qədrini daha yaxşı bilən yaşlı insanlardır. Buna görə də:

***“Eh, kaş ki, gənclər bilsə, ixtiyarlar da edə bilsə!”*** –deyilmişdir.

Gənclik neməti hələ əldə ikən dünya görmüş insanların təcrübələriylə vaxtını dəyərləndirə bilənlər ən ağıllı və bəxtiyar insanlardır. Necə ki, hədisi-şərifdə buyurulur:

"*Allah uşaqsayağı hərəkət etməyən, xeyrə yönəlib, arzu və istəklərini tərk edən vüqarlı və kamil gənci sevər.*" (Əhməd, IV, 151)

Digər tərəfdən **"gənc"** kəlməsi fars dilində **"xəzinə"** deməkdir. Buna əsaslanaraq belə deyə bilərik ki, gənclik insan ömrünün xəzinəsidir. Bu xəzinəni dəyərləndirmə şəklinə görə insan ya böyük bir zənginliyə nail olur, ya da ziyana düşür.

Elə isə halımızı və gələcəyimizi tez-tez düşünməli, beşiklə tabut arasındakı eniş-yoxuşlu, dəyişən şərtlər və sürprizlərlə dolu həyat macəramızı ciddiyyətlə təfəkkür etməliyik. Unutmamaq lazımdır ki, **qəflətlə yaşanan həyat uşaqlıqda oyun, gənclikdə şəhvət, orta yaş dövründə qəflət, ixtiyarlıqda əldən çıxanlara həsrət və min bir peşmançılıqdan ibarətdir.**

Millətlərin gələcəyi haqqında əvvəlcədən fikir sahibi olmaq kəramət və ya kəhanət deyil. Bunun üçün o millətin gənclərinin öz enerjilərini haralarda sərf etdiklərinə baxmaq kifayətdir.

Hər dövrün gəncliyi aldığı tərbiyəyə görə öz enerjisini sərf edəcək bir həyat tərzi seçər. Gəncliyin həyat tərzi isə o millətin gələcəyini göstərən bir güzgüdür. Əgər bir millətin gəncləri öz güclərini xeyir, mənəviyyat və fəzilət yolunda xidmətə sərf edirsə, deməli o millətin gələcəyi parlaqdır.

Tariximizdəki şanlı zəfərlər mənəvi güc qarşısında maddi gücün necə məğlub olduğuna ən bariz misaldır. Bütün dünya şahiddir ki, qəlbləri imanla dolu olan o şanlı nəslin sahib olduğu mənəvi güc düşmənin qat-qat artıq olan maddi gücünə qalib gəlmişdir.

Bunun əksinə, bir millətin gəncləri öz enerjilərini nəfsi arzular istiqamətində zay edirsə onların mənsub olduqları millətin aqibəti ziyandan başqa bir şey deyildir. Müasir Qərb dünyası maddi istək və ehtiyacları təhqik nəticəsində əldə etdiyi rifaha baxmayaraq ruhi böhranlara sürüklənməkdən xilas ola bilməmişdir. Pozğunluq, içki və narkotika bəlası ilə intihar nisbətinin bəşər tarixində görülməmiş bir dərəcəyə çatması bu ruhi səfalətin aşıq-aydın bir göstəricisidir.

Hər cür maddi doyuma rəğmən ruhi aclıq insani və əxlaqi dəyərləri zəiflətməkdə və qorxunc hal alan silah sənayesi ilə materialist dünya nəhayət özünü sancıb öldürən bir əqrəb kimi faciəli aqibətə doğru sürüklənməkdədir.

Bu səbəblə qəlbi imanla dolu müsəlman gənclərin onların maddi rifahına aldanaraq ruhi böhran içindəki tərzlərinə heyran olmaları son dərəcə təhlükəlidir. Bu hal sağlam bir insanın xəstəyə qibtə edib onu təqlid etməsindən fərqlənmir.

Nəticə etibarilə gənclərimiz yanlış hiss, fikir və davranışların çirkabına qapıldıqdan sonra xilas olmağa çalışmaqdansa, ilk başdan maddəni məna ilə bütünləşdirən öz mədəniyyətimizin əsl prinsiplərinə sarılmalı, milli və dini kimliklərini yenidən kəşf etməyə çalışmalıdırlar. Bunun üçün də fərasət və bəsirətlə hərəkət edib, xüsusilə tarixi təcrübələrdən istifadə etməlidirlər.

Unutmamaq lazımdır ki, tarix millətlərin yaddaşı deməkdir. Milli təcrübələr mənsuməsidir. Buna görə keçmişin unudulduğu yerdə millətin sonu olar. Çünki millət bir mənada tarixdən ibarətdir. Onu mənəvi dəyərlərindən və tarix şüurundan uzaqlaşdırsanız geriyə insan sürüsü qalar.

**Qiymətli gənc!**

Unutma ki, yeni əsərlər və gənc nəsillər keçmişdən miras aldığı ünsürlərin zənginliyi nisbətində canlı, güclü və davamlıdır. Millətlərin davamlılığı həssas, duyğulu və səviyyə əldə etmiş bir qəlbə sahib olan fədakar nəsillər yetişdirməklə mümkündür. Uşaqlarına qəhramanlıq dastanını layla kimi oxuyan nəslin dininə, dilinə, tarixinə, bayrağına, vətəninə və millətinə, bir sözlə bütün maddi-mənəvi dəyərlərinə sahib çıxacaqdır.

Nəticə etibarilə gənc nəsillərin qəlbləri milli və mənəvi dəyərlərinə sahib çıxacaq xeyirli bir övlad olaraq yetişməyin səy və həyəcanı ilə dolu olmalıdır. Şair bu məsuliyyəti necə də gözəl dilə gətirir:

*Sahibsiz olan məmləkətin batması haqdır,*
*Sən sahib olarsan bu vətən batmayacaqdır…*

(M. A. Ersoy)

**İgid Gənc!**

Azərbaycan və Türk xalqı çətin zamanlarda çiyin-çiyinə qardaş köməyini bir-birlərindən əsirgəməmişdilər. İlahi qədər bu iki qardaş ölkəni bir-birinə möhkəm bağlarla bağlamışdır. Azərbaycan dünyaya Türkiyə vasitəsi ilə çıxarkən, Türkiyə də Qafqaz və Orta Asiyaya Azərbaycan vasitəsi ilə çıxır. Bu birlik sadəcə iqtisadiyyatın inkişafına deyil, milli-mənəvi bağların da möhkəmlənməsinə xidmət edir. Türkiyə ilə dərin tarixi, mədəni, din və dil əlaqələri olan Azərbaycanın son dövrlərdə daha da güclənməsində Türk dünyasının yetişdirdiyi böyük dövlət və siyasət xadimlərindən mərhum Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Onun "Biz iki dövlət bir millətik" ifadəsi Azərbaycan-Türkiyə arasındakı qardaşlıq və dostluq münasibətlərinin ən gözəl tərənnümüdür.

Bu gün Azərbaycan xalqı istər XX əsrin əvvələrində qurulan Azərbaycan Xalq Cümhuriyyətini, istərsə də XX əsrin axırlarında müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikasını tanıyan ilk dövlətin qardaş Türkiyə olduğunu böyük bir minnətdarlıq hissləri ilə xatırlayır.

1915-ci ildə Bakıda Anadolu Türklərinin Qurtuluş savaşına dəstək vermək məqsədi ilə Qardaş Köməyi adlı bir təşkilat qurulmuşdur. Bu təşkilatın vasitəsi ilə Anadolunun Qurtuluş savaşında iştirak etmək üçün minlərlə insan səfərbər olmuşdur. Bu insanlar mal-dövlətlərini, zinət əşyalarını Anadoluya göndərmək üçün toplayırdılar.

Türkiyənin istiqlalını qorumaq üçün Çanaqqala müharibəsində canından keçərək şəhid olan azərbaycanlı könüllülər isə xalqlarımızın tarixi yaddaşında layiqli yerini alaraq sonrakı nəsillərə nümunə olmuşdur.

1918-ci ildə Azərbaycanın istiqlalı uğrunda can verən Qafqaz İslam Ordusunun yüzlərlə şəhid əsgəri bu gün müstəqil Azərbaycan torpağında iki qardaş ölkənin bayraqlarının kölgəsində, şəhid azərbaycanlı qardaşları ilə qucaq-qucağa yatırlar.

Milli və mənəvi dəyərləri bilən və yaşadan, tarixinin üzərində gələcəyini qura bilən bir gənclik gələcəyə ümidlə baxmaq istəyən bir millətin duasıdır. Keçmişdəki təcrübələri yaşlıların əllərindən, ze-

hinlərindən və könüllərindən alıb gələcəyə ötürmək gənclərin müqəddəs vəzifəsidir.

Ürəyində din, dil, millət, bayraq və vətən sevgisi olan və bu ruhda böyüyən gənclik bir gün əlbəttə Azərbaycan torpağı olan Qarabağda da üç rəngli şanlı Azərbaycan bayrağını dalğalandıracaqdır.

**Nizamilər, Füzulilər, Şəmsi-Təbrizilər, Yəhya Təbrizilər, Hüdayilər, Abdulqadir Geylanilər, Yunislər və Mevlanalar** kimi ürəklərini Xaliqin şəfqət nəzəriylə bütün məxluqata dərgah edən könül ərlərin və onlardan feyz alaraq izlərini təqib edən gözəl insanların varsa,

Sinəsi Quranla dolu analar şir ürəkli igidlər dünyaya gətirirsə,

Dünya sənin gözündə kiçilmiş, axirət səadəti və Allah rizası ən böyük ideal halına gəlmişsə,

Unutma ki, **SƏN BÖYÜK BİR MİLLƏTİN DAVAMI və NƏVƏSİSƏN!..**

Fəzilətlərlə dolu olan mədəniyyətin təqibçisi, şan və şərəflə dolu keçmişin bugünkü təmsilçisi olduğunun şüur və vüqarıyla ruhunu yoğurmalısan!

**Fərasətli Gənc!**

Sahib olduğun məhdud imkanları sonsuz sərmayəyə çevirə bilməyin yollarını axtarıb insanlıq şərəf və heysiyyətinə yaraşan bir həyatın necə yaşana biləcəyini öz mədəniyyətindən öyrənməlisən.

Yaşadığın həyatın din, iman, ailə, millət, bayraq və vətənin üçün bir məna ifadə etməsinin zəruri olduğunu dərk etməlisən.

Bu dəyərlərin tələb etdiyi məsuliyyətləri düşünməlisən. Bu dünyada başıboş buraxılmadığını, Allah-Təalanın bizi ülvi bir qayə üçün yaratdığını heç vaxt unutmamalısan.

**Fəzilətli Gənc!**

Həm zahirən, həm də batinən mükəmməl təhsil almalı, beləliklə həm Haqqa gözəl bir qul ola bilməyin elminə yiyələnməli, həm də halal yolla qazanc əldə edə bilmək üçün yaxşı bir peşə sahibi olmağa çalışmalısan.

Onu da unutma ki, dünya və axirət səadətinə nail ola bilmək üçün iman eşqiylə dolu bir qəlblə fədakarcasına xidmət və çalışma zəruridir. Çünki Haqqa məhəbbətin ölçüsü fədakarlıqla müəyyənləşir. Haqqın rizasını hədəf alaraq vəzifə və məsuliyyətlərini böyük bir fədakarlıq və həssaslıqla yerinə yetirməli, insanlıq heysiyyətini zədələyən çirkinliklərdən uzaq durmalısan.

Allaha qarşı qulluq vəzifələrini yerinə yetirməyin hər şeydən əvvəl gəldiyini unutmamalı, fani olanların və gələcək qayğıları arasında qalıb əbədi gələcəyini təhlükəyə atmaqdan narahat olmalısan. Fani dünyalıqların son nəfəsdə heç nəyə yaramayacağının şüuru içində yaşamalı, gələcəyi və həqiqi səadəti lütf edəcək olanın Allah-Təala olduğunu yadından çıxarmamalısan.

Çünki **"**(Ey Rəbbimiz!) **Yalnız Sənə qulluq edir və yalnız Səndən yardım diləyirik."** (əl-Fatihə, 5) ayeyi-kərimısinin gərəyi olaraq biz Rəbbimizə nə qədər gözəl qulluq edə bilsən, ilahi yardıma da o nisbətdə nail ola bilərik.

Məhz bu şüurla yaşamağa müvəffəq olan gənclər əllərindəki gənclik sərvətini ən doğru şəkildə dəyərləndirərək əsla zərər etməyəcəkləri mənəvi bir qazanc qapısını da tapmış olarlar.

Bu əsər dahi də olsalar, elm, irfan və təcrübə ilə əldə edilə bilən bəzi nəsihətlərə qulaq asmaq ehtiyacı hiss edən gənclərimizə azacıq da olsa faydalı olmaq məqsədi ilə qələmə alınmışdır.[1]

Heç vaxt yaddan çıxarmamaq lazımdır ki, hər insan Allahın verdiyi bütün nemətlərdən, xüsusilə də gəncliyini harda və necə tükətdiyindən hesaba çəkiləcəkdir. Allah-Təala bu həqiqəti belə ifadə edir:

**"Sonra da həmin gün** (Allahın dünyada sizə əta etdiyi) **nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız!"** (ət-Təkasur, 8)

**Rəsulullah** ﷺ də belə buyurur:

---

1. Fürsətdən istifadə edərək, bu kitabın hazırlanmasında əməyi olan Dr. Murat Kaya, M. Akif Günay və İbrahim Hakkı Uzuna və eyni zamanda kitabın Azərbaycan dilində nəşrində zəhmət çəkən Dr. Abbas Qurbanov və Nurlan Məmmədzadəyə təşəkkür edir və çalışmalarının özləri üçün bir sədəqeyi-cariyə olmasını Rəbbimizdən niyaz edirəm.

*"Heç bir bəndə qiyamət günü ömrünü harada tükətdiyindən, elmiylə necə əməl etdiyindən, malını haradan qazanıb hara xərclədiyindən, bədənini harada yorduğundan hesaba çəkilmədən bir addım belə ata bilməz!"* (Tirmizi, Qiyamət, 1/2417)

**Rəbbimiz hər birimizə, xüsusilə də gənc qardaşlarımıza bu sualların cavabını ağ üzlə və vicdan rahatlığıyla verə biləcək şəkildə feyzli bir həyat yaşamağı qismət etsin. Gəncliyinə, gücünə, qüvvətinə, imkanlarına aldanaraq önündəki çətin keçidləri unutmaq qəflətindən qorusun. Qəlbi məscidlərə bağlı, Allaha ibadətlə yetişən, Quran və Sünnə ruhaniyyətinin bütün hüceyrələrinə qədər işlədiyi iman nuruyla münəvvər, millətini, vətənini, bayrağını və torpağını hər şeydən çox sevən gənclər zümrəsinə daxil eyləsin…**

**Amin!..**

Osman Nuri Topbaş
Mart 2011
Üsküdar

Bütün Zamanlara Örnək Bir Gənc:

# Məhəmmədul-Əmin صلى الله عليه وسلم

# İnsanın Örnək Alma Ehtiyacı

Həyatının hər mərhələsində insanın yol göstərəcək bir rəhbərə, nümunə götürəcəyi bir örnəyə ehtiyacı var. Çünki insan dinini, dilini, şəxsiyyətini formalaşdıran davranışlarını, vərdişlərini rəhbər insanlar və seçdiyi nümunəvi şəxsiyyətlər vasitəsilə öyrənir.

Məsələn, bir uşaq ata-anası hansı dildə danışırsa o dili öyrənər. Bir çox hərəkət və davranışı ata-anasını təqlid edərək həyata keçirər. Daha sonrakı illərdə isə idrak və qabiliyyətləri pillə-pillə yüksəldikcə bir çox insandan müxtəlif dərslər alar.

Yəni insanın təlim-tərbiyəsi fitrətindəki təqlid qabiliyyəti ilə müsbət və ya mənfi örnəkləri təqlid etməsindən ibarətdir. Bu səbəblə hər kəsin özünə örnək seçdiyi insanların vəsfləri çox mühümdür.

Bəşəriyyətin həqiqi rəhbəri peyğəmbərlərdir. Onları ən gözəl şəkildə təqib edən peyğəmbər varisi alimlər, ariflər və Haqq dostları da peyğəmbərləri görməyənlər üçün nəbəvi irşad və davranış mükəmməlliyinin zamanlara yayılmış zirvələridir.

***Həzrət Peyğəmbər ﷺ həyatın bütün mərhələlərində bizə hər cəhətdən müstəsna örnək olmuşdur. Hər bir insan Onun Sünneyi-Səniyyəsində özünə nümunə götürəcəyi davranışların ən gözəlini tapar. Peyğəmbərimizin həyatı bütün rəng, ahəng və çeşnisiylə birlikdə ən müstəsna güllərdən hazırlanmış bir buketə bənzəyir ki, axtaranlar özləri üçün güllərin ən gözəlini o buketdə tapa bilərlər.***



*Zəmanəmizdə bir çox insan imansızlıq və əxlaqsızlıq fəlakətində məhv olub gedərkən, seldə üzən kötüklər kimi dövrün mənfi modalarına özünü qapdırmışkən, şirin dillə yaxınlaşıb İslamın nəzakət, zərafət və gözəlliklərini göstərmək, xüsusilə də onları misilsiz nümunəvi şəxsiyyət olan Həzrət Məhəmməd Mustafanın ﷺ könül dünyasıyla tanış etmək möminin böyük bir iman və vicdan borcudur.*

O rəhbərlərin arxasınca getmək əbədi qurtuluş və səadət səbəbidir.

Bunun əksinə, peyğəmbərləri və Haqq dostlarını deyil, başqalarını rəhbər görənlər qəflət, dələlət və üsyana sürüklənməkdən xilas ola bilməzlər. Çünki əyri yolun yolçularının və nəfsani arzularına ram olanların arxasınca gedənlərin həyatı həzin bir fəlakətlə nəticələnir.

Müasir insanın ən böyük problemlərindən biri də elə bu deyilmi? Əyləncə içində üzən bir sıra məşhurları örnək görərək onlara bənzəmək üçün əbədi səadətini təhlükəyə atan gənclərimiz necə də həzin xüsran içindədirlər!..

**Mövlana** -quddisə sirruh- insanın özünə yanlış modellər seçməsindəki qeyri-adiliyi bu misalla izah edir:

*"Quzunun qurddan qaçmasına təəccüb edilməz. Çünki qurd quzunun düşmənidir. Heyrət ediləcək şey quzunun qurda könül verib onun arxasınca getməsidir."*

İnsan toplumu sanki ən mülayimindən ən vəhşisinə qədər hər növ heyvanın yaşadığı bir meşəyə bənzəyir. Oradakı insanların kimisi tülkü kimi hiyləgər, kimisi kaftar kimi yırtıcı, kimisi qarışqa kimi ehtirasla mal toplayan, kimisi də ilan kimi zəhərlidir. Bunların bəzisi oxşayaraq dişləyər, bəzisi zəli kimi qan əmər, bəzisi də üzə gülər, arxada quyu qazar.



Daima incə ruhlu, zərif və rəqiq qəlbli rəhbərlərə möhtac

olan gənclərin cəmiyyətdəki qurd təbiətli, yırtıcı və məhv edici insanların arxasınca getməsi nə qədər acı bir fəlakətdir!

İnsanın nümunə götürmək ehtiyacını və təqlid meylini lazımınca qarşılayacaq ən mükəmməl örnək Rəsulullahdır ﷺ. Həzrət Peyğəmbərdən nümunə götürmək xüsusundakı nailiyyətimiz isə heç şübhəsiz Onun misilsiz örnək şəxsiyyətinə könüldən bağlanaraq, Onu bütün qəlbimizlə sevməkdən keçir.

*Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir.*

*(əl-Həşr, 7)*

## Yeganə Örnək Həzrət Peyğəmbər ﷺ

Tarixdə ən xırdalıqlarına qədər həyatı tədqiq edilə bilən yeganə insan Həzrət Məhəmməd Mustafadır. ﷺ Onun demək olar ki, hər sözü, hərəkət və duyğuları bir-bir qeyd edilərək tarixə nəqş edilmişdir. Demək olar ki, 1400 ildən bəri qələmə alınan bütün İslami əsərlər bir kitabı və bir insanı izah etmək üçün yazılmışdır: Qurani-Kərim və Həzrət Məhəmməd…



Allah-Təala əziz Peyğəmbərini insanda təcəlli edən bir sənət xariqəsi olaraq yaratmışdır. Onu aləmlərə rəhmət və bütün bəşəriyyətə əməli bir etalon qılmışdır. Bu etibarla Allah Rəsulunun həyatı qiyamətədək gələcək olan bütün nəsillərə əmsalsız bir nümunədir.

Rəsuli-Əkrəmin ﷺ həyatı pak və təmiz güzgü kimidir. Bu güz-

Allah-Təala Həzrət Peyğəmbəri bəşəriyyətə ən gözəl örnək şəxsiyyət olaraq təqdim etmiş, əshabi-kiram da Ondan nümunə götürmək və izini təqib etmək xüsusunda zirvəyə çıxmışdır.

Əshabi-kiram bütün fikir, söz və hərəkətlərində Ona tabe olmağa çalışırdılar. Bilməyən insanlar onlardan nə isə soruşduqda Rəsulullahdan gördükləri kimi cavab verər sonra da **"And olsun ki, sizin üçün Rəsulullahda üsveyi-həsənə** (ən mükəmməl örnək) **vardır"** (əl-Əhzab, 21) ayəsini oxuyardılar.

Hər hansı bir hərəkətlərinin səbəbini öyrənmək istəyənlərə Rəsulullahdan ﷺ belə gördüklərini deyər və yenə həmin ayəni oxuyardılar.

Səhv bir hərəkət gördükləri zaman dərhal onu sünnəyə uyğun şəkildə düzəldər və həmin ayəni oxuyardılar.

Yəni onlar

**"And olsun ki, sizdən Allaha və axirət gününə inananlar və Allahı çox zikr edənlər** (möminlər) **üçün Rəsulullahda üsveyi-həsənə** (ən mükəmməl bir örnək) **vardır."** (əl-Əhzab, 21) ayeyi-kəriməsini dillərindən düşürməz, daima Rəsulullahdan nümunə götürməyimizin zərurətini xatırladardılar. (Bax. Buxari, Salət 30, Azan 105, Vitr 5, Həcc 77, Təfsir 66/1, Eyman 32; Müslim, Müsafirin 8; Əbu Davud, Tətəvvül 26/1342; Tirmizi, Vitr 14/472…)




güyə baxaraq əxlaqını islah edib əyriliklərini düzəltmək hər möminin vəzifəsidir.

Allah-Təala Rəsulullahı ﷺ acizlik baxımından cəmiyyətin ən aşağı mərtəbəsində olan “yetimlik”dən həyata başlatmışdır. Sonra da Onu bütün təbəqələrdən keçirib qüdrət və qabiliyyət baxımından ən üst nöqtə olan peyğəmbərlik və dövlət rəhbərliyinə qədər yüksəltmişdir. Buna görə də cəmiyyət həyatının hər hansı bir təbəqəsində olan bir insan Onda özü üçün ən mükəmməl örnəkləri tapa bilər.

Allah-Təala ayeyi-kərimədə belə buyurur:

**“And olsun ki, sizdən Allaha və axirət gününə inananlar və Allahı çox zikr edənlər** (möminlər) **üçün Rəsulullahda üsveyi-həsənə** (ən mükəmməl bir örnək) **vardır.”** (əl-Əhzab, 21)

Allah Rəsulu ﷺ Abdullah və Əminənin yetimi olaraq zəiflərə və kimsəsizlərə nümunədir.

Yetkinlik yaşına çatmış bir gənc Rəsulullahın gəncliyini diqqətlə incələyərək özünə ən doğru yol xəritəsini çəkə bilər.

Halal ruzi qayğısı çəkən bir tacir Suriyadan Bəsrəyə gedən ticarət karvanının ən ulusu olan şəxsin həyatını özünə nümunə götürə bilər. Ruhaniyyətli bir ailə qurmaq istəyən mömin, Allah Rəsulunun xaneyi-səadətini nümunə götürərək iki dünya xoşbəxtliyinə çata bilər.[2]

***Rəsuli-Əkrəmin ﷺ həyatı saf və parlaq bir güzgü kimidir. Hər insan onda öz surətinivə ruhunu, içini və çölünü, sözünü və əməlini, əxlaqını və ədəbini seyr edib halının necə olduğunu müəyyənləşdirə bilər. Bu güzgüdə gördüklərinə görə əxlaqını islah edib əyriliklərini düzəltmək hər bir möminin vəzifəsidir.***

2. Bu barədə ətraflı məlumat üçün *Xoşbəxt Ailə Yuvası* adlı əsərimizə



Rəsulullah ﷺ özünə vəhy gətirən Cəbrayılın hüzurunda tələbələrə ən gözəl nümunədir. Əshabına ilahi həqiqətləri təbliğ edərkən də tərbiyəçilərə nümunədir.

Haqqı və xeyri təbliğ etmək istəyən, ancaq heç bir köməkçisi olmayan ideal bir məfkurə adamı özü üçün Peyğəmbərimizin Məkkə həyatından misilsiz dərslər çıxara bilər.

Uhudda məğlub olanlara, Məkkəni fəth etdikdə isə qaliblərə nümunədir.

Əgər insan maddəyə ram olmaqdan xilas olub ruhani bir həyat yaşamaq istəyərsə, Onun yetişdirdiyi Bilal, Yasir və Səvbanlara baxmalıdır. O sadiq səhabələrlə qəlbən bərabər olaraq könlünə həssaslıq, zəriflik və riqqət qazandırmalıdır.

***Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə itaət edin və əməllərinizi puça çıxartmayın!***
***(Muhəmməd, 33)***

Rəsulullah ﷺ on dörd əsrdən bəri ümmətinin könlündə heç solmayan nadir bir gülə çevrilmişdir. Müsəlmanlar adlarıyla, sənətləriylə, elmləriylə daima Onu yaşatmışlar. İslamın da yalnız Onu hər cəhətdən nümunə alaraq yaşana biləcəyini dərk etmiş və beləcə həqiqi səadəti tapmışlar.

İslamın könül feyzini dadmış olan dəvətçilər **"hidayətə vəsilə olmağı"**, fəqihlər **"Quran və hədislərdən hökm çıxarmağı"**, təfsirçilər **"Quranı başa düşməyi"**, təsəvvüfçülər **"Allahın əxlaqıyla əxlaqlanmağı"**, mütəfəkkirlər **"əşyanın həqiqətini anlamağı"**, şairlər **"varlığın səsli və ya səssiz bəyanlarına**

---

müraciət edə bilərsiniz.

**qulaq verməyi"**, musiqiçilər "**bədii tərənnümləri**" Rəsulullahdan ﷺ öyrənmişlər.

*Müsəlmanlar aləmin kamalını insanda, insanın kamalını da Rəsulullahda tapmışlar.* Onlar həqiqəti Rəsulullahda axtarmış və yaradılışın sirrini Onunla idrak etmişlər.

Onu da heç unutmamaq lazımdır ki, cahiliyyət dövrünün ən qaranlıq insanları Allah Rəsulunun izindən gedərək bəşəriyyətə rəhbərlik edən ulduz şəxsiyyətlər halına gəldilər. Elə isə biz də həyat səfərimizdə Rəsulullahı ﷺ və onu təqib edən Haqq dostlarını özümüzə rəhbər edək ki, əbədi səadətə nail ola biləK!

## Rəsulullahın ﷺ Yaşadığı Gənclik

Allah Rəsulu ﷺ gənclik illərində də cahiliyyət dövrünün çirkin əməllərindən uzaq idi. O, peyğəmbər olmadan əvvəl də şəxsiyyət və insanlıq cəhətdən qövmünün ən şərəflisi, əxlaq baxımından ən gözəli idi. Belə ki, Allah-Təala bütün müsbət xislət və məziyyətləri Onda cəm etdiyi üçün qövmü tərəfindən **"əl-Əmin"** vəsfinə layiq görülmüşdü.[3] **"Əmin"** artıq onun ikinci adı olmuş, hətta əsl adından önə keçmişdi.

Bir gün Rəsulullahdan ﷺ soruşdular:

"- Ya Rəsulallah, heç Allahdan başqasına ibadət etdinizmi?"

*"- Xeyr!"* cavabını verdi.



***İslam hüququ metodologiyasının ən mühüm simalarından olan Qərafi (v. 684) belə deyir:***

***"Rəsulullahın ﷺ heç bir möcüzəsi olmasaydı, yetişdirdiyi əshabi-kiram belə Onun peyğəmbərliyini sübut üçün kifayət edərdi."***

3. İbn-i Hişam, I, 191; İbn-i Sad, I, 121.

*Peyğəmbərlik gəlməzdən əvvəl Rəsulullahla ﷺ Bəsrə bazarında mal satdığı bir yəhudi arasında anlaşılmazlıq çıxmışdı. Yəhudi Peyğəmbərdən ﷺ Lat və Uzzaya and içməsini istədi. Allah Rəsulu:*

*"- Mən indiyə qədər onların adına heç vaxt and içmədim. Onlaırn yanından keçərkən də üzümü çevirib keçdim." buyurdu. Yəhudi:*

*"- Haqlısan, bu sözün yerinə düşdü." dedikdən sonra Həzrət Xədicənin köməkçisi Meysərəyə yaxınlaşıb:*

*"- Vallah O, kitablarımızda xüsusiyyətləri açıq-aydın xəbər verilən Peyğəmbərdir." –dedi. (İbn Sad, I, 156)*




"- Heç içki içdinizmi?"

*"- Xeyr! Mən Kitab və imanın nə olduğunu bilmədiyim vaxtlarda belə onların etdiklərinin küfr olduğunu bilirdim."* -buyurdu. (Diyarbəkri, I, 254-255)

**Ümmü Eymən** ﵂ belə nəql edir:

Qüreyş müşrikləri ildə bir dəfə Buvana bütünün yanında toplanaraq gecə düşənə qədər qurban kəsmək, saçlarını təraş etmək və etikafa girmək surətiylə mərasim keçirərdilər. Allah Rəsulu ﷺ orada iştirak etməkdən boyun qaçırdığı üçün əmiləri və bibiləri ona hirsləndilər. Bibiləri:

"- İlahlarımızdan üz döndərdiyin üçün bir fəlakətə düçar olacağından qorxuruq!" –deyərək o qədər israr etdilər ki, Peyğəmbərimiz ﷺ onlarla birlikdə getmək məcburiyyətində qaldı.

Bir müddət gözdən itdi, sonra qorxudan rəngi saralmış halda yanımıza gəldi. Bibiləri:

"- Nə baş verdi?" -deyə soruşdular. O da:

*"- Mənə cin toxunmasından qorxuram!"* –dedi.

Bibiləri:

"- Allah şeytanı sənə yaxın qoymaz. Səndə hər cür gözəl xislət var. Nə baş verdiyini danış." -dedilər. Həzrət Peyğəmbər ﷺ:

*"- Hər dəfə bütə yaxınlaşdıqda gözümə bəyaz və uzun boylu bir adam görünüb:*

*"- Ey Məhəmməd! Geri qayıt, əsla ona toxunma!" deyərək səslənirdi!"* –buyurdu.



Bundan sonra Varlıq Nuru hələ peyğəmbərlik vəzifəsi verilməsə də onların bayram və mərasimlərində əsla iştirak etmədi. (İbn Sad, I, 158)

Allah Rəsulu ﷺ hədsiz dərəcədə iffətli bir gənclik dövrü keçdi. Allah-Təala Onu ədəb və həyadan uzaq davranışlardan qorudu.

Fəxri-Kainat ﷺ Kəbənin yenidən inşasında əmisi Abbasla birlikdə daş daşıyırdı. Abbas رضي الله عنه daşların çılpaq çiynini incitməməsi üçün Rəsulullaha:

"- Paltarını çiyninə qoy!" -dedi. Varlıq Nuru paltarını çiyninə qaldırmaq istədikdə anidən yerə yıxıldı və gözlərini səmaya dikərək əmisinə:

*"- Paltarımı mənə ver!"* -dedi və dərhal onu götürüb üstünə örtdü. (Buxari, Həcc, 42)

Ogünkü cəmiyyətdə geyimə və örtünməyə bir o qədər də diqqət edilməz, ədəb və həyadan uzaq qiyafətlər adi bir şey kimi qarşılanardı. Buna baxmayaraq Allah Rəsulu ﷺ heç vaxt həya sərhədini aşan qiyafətlərlə görülməmişdir.

Allah Rəsulu belə buyurmuşdur:

*"Mən cahiliyyət dövründə yaşayan insanların adəti olan bir şeyi iki dəfə etməyə təşəbbüs göstərmişdim. Allah məni bundan qorudu.*

***Əshabi-kiramın dediyinə görə Allah Rəsulu ﷺ örtüyünə bürünən bakirə qızdan daha həyalı və ədəbli idi.***

***(Buxari, Ədəb, 77)***

*Bir gecə Məkkənin yuxarı tərəflərində qüreyşli bir neçə gənclə qoyunlarımızı otarırdıq. Yoldaşıma:*

*"Əgər qoyunlarıma baxsan, mən də gedib məkkəli gənclərin gecə qurduğu söhbət məclisində iştirak edərdim." -dedim. Yoldaşım:*



*"- Baxaram. Sən istədiyini et!" –dedi.*

*Mən yola çıxdım. Məkkəyə yaxınlaşanda dəf, qaval və fit səsləri eşitdim. Bunun nə olduğunu soruşdum. Filankəslə filankəsin toyudur dedilər.*

*Oturub səs gələn tərəfə baxmağa başladım. O əsnada Allah qulaqlarıma bir ağırlıq verdi və mən oradaca yuxuya daldım. Allaha and olsun ki, günəş çıxana qədər oyana bilmədim. Oyanan kimi də tez yoldaşımın yanına getdim.*

*"- Nə etdin?" –deyə soruşdu.*

*"- Heç nə etmədim!" –dedim və başıma gələnləri ona danışdım.*

*Başqa bir gecə yenə eyni şeyə niyyətləndim və mən yenə yuxuya getdim… Rəbbim məni peyğəmbərliklə şərəfləndirənə qədər də bunların xaricində heç bir pis işə meyil etmədim!"* (İbn İshaq, s. 58-59; İbn Kəsir, əl-*Bidayə*, II, 292)

**Rəsulullah ﷺ gəncliyində də həmişə faydalı işlərlə məşğul oldu.** Kiçik yaşda qoyun otararaq əmisinə kömək etdi. Necə ki, bir gün:

*"Allah-Təalanın göndərdiyi hər peyğəmbər qoyun otarmışdır."* –buyurmuşdu.

***Həyatımızın və könlümüzün mərkəzində hər zaman Həzrət Peyğəmbər ﷺ olmalıdır. Onun misilsiz örnək şəxsiyyəti xarakterimizin yeganə memarı və meyarı olmalıdır.***



Əshabi-kiram:

"- Siz də qoyun otardınızmı, ey Allahın Rəsulu?" – deyə soruşdu.

*"- Bəli, müəyyən pul qarşılığında məkkəlilərin qoyunlarını otarırdım."* –buyurdu. (Buxari, İcarə, 2, Ənbiya, 29; İbn Macə, Ticarət, 5)

Rəsulullahın ﷺ öz dediyinə görə Əcyadda ailəsinin qoyunlarını da otarmışdı. (İbn Sad, I, 126)

Hələ on iki yaşlarında ikən əmiləriylə birlikdə ticarət səfərlərinə çıxmışdı.[4] Daha sonra Həzrət Xədicə Peyğəmbərimizin əmin şəxsiyyətinə heyran olduğu üçün Ona öz ticarət karvanlarını idarə etməsini təklif etdi. Çünki Rəsulullah ﷺ ən əmin insan idi. İşini sağlam tutar və çox qazanardı.[5]

Peyğəmbərimiz ﷺ bəzi adamlarla şəriklik də etmişdir. Məkkə tacirlərindən **Saib bin Əbis-Saib** ؓ belə nəql edir:

"Allah Rəsulunun yanına gəldim. Əshabi-kiram məni tərifləyərək haqqımda yaxşı sözlər danışmağa başladılar. Rəsulullah ﷺ:

*"- Mən onu sizdən daha yaxşı tanıyıram."* – buyurdu.

Mən də öz növbəmdə:

***"- Düz deyirsən, atam-anam Sənə fəda olsun! Sən mənim şərikim idin. Özü də çox gözəl şərik idin. Nə əleyhimə çıxar, nə də münaqişə***

***Yer üzünün harasında olursa olsun insanlar arasında hökm sürən bir ədalət gözünüzə dəyərsə, insanların qəlblərini bir-birinə bağlayan bir rəhmət və şəfqət varsa, yaxud bir cəmiyyətdə varlılar şəfqətlə yoxsulların yardımına can atırsa, sağlam olanlar çarəsizlərə imdad edirsə, sərvət sahibləri yetimləri himayə edib dulları doyurursa, heç tərəddüdsüz bilin ki, bütün bu fəzilətlər daima peyğəmbərlərdən və onların izində gedən əməlisalehlərdən qalmışdır.***

---

4. İbn İshaq, *Sirət,* s. 53; Əbu Nuaym, *Dəlail*, I, 168; Diyarbəkri, *Tarixul-Xamis,* I, 260.
5. Hakim, III, 200/4834; Diyarbəkri, I, 262.



***edərdin!"*** -dedim. (Əbu Davud, Ədəb, 17/4836; İbn Macə, Ticarət, 63)

**Abdullah bin Əbil-Hamsa** ﷺ belə nəql edir:

"Peyğəmbərliyindən əvvəl Rəsulullah ﷺ ilə bir alış-verişimiz olmuşdu. Ona borclu qaldım, bir az gözləsə dərhal gətirəcəyimi vəd edərək oradan ayrıldım. Amma verdiyim sözü unutdum. Üç gündən sonra yadıma salıb sözləşdiyimiz yerə gəldikdə onun həmin yerdə gözlədiyini gördüm. Rəsulullah ﷺ bu işimə görə məni danlamadı da. Sadəcə:

*"- Ey gənc, mənə əziyyət verdin. Üç gündür ki, səni burada gözləyirəm."* –buyurdu. (Əbu Davud, Ədəb, 82/4996)

**Rəsulullah ﷺ gəncliyindən etibarən həmişə qərib və çarəsizlərin yanında oldu.** Məkkəyə gəlib mallarını satan, ancaq pulunu ala bilməyən qərib bir tacirin imdadına yetişmişdi. Həmçinin əmiləriylə birlikdə **Xilful-Fudul** cəmiyyətini qurub ömrü boyunca məzlumların sığınacağı olmuşdur.[6] Allah Rəsulu ﷺ bu cəmiyyət haqqında sonralar belə buyurmuşdu:

*"Abdullah bin Cüdanın evində əmilərimlə birlikdə Xilful-Fudulda mən də iştirak edirdim. Həmin məclisdən o qədər razı qaldım ki, onun əvəzində mənə qızılı dəvələr (yəni ən qiymətli dünya malları) verilsə, o qədər sevinməzdim. Belə bir məclisə indi də çağırılsam, yenə gedərəm."* (İbn Kəsir, *əl-Bidayə,* II, 295)

***Peyğəmbərimiz ﷺ həyatı boyunca ticari münasibətlərdəki müxatəblərinə və digər insanlara qarşı son dərəcə dürüst davranmışdır. Bir adama söz vermişsə, onu nəyin bahasına olursa-olsun yerinə yetirmişdir. İbn Abbas ﷺ deyir ki: "Rəsulullah ﷺ bir şey söylədiyi zaman mütləq onu edərdi." (Buxari, Şəhadət, 28)***

6. İbn Kəsir, *əl-Bidayə,* II, 295-296; İbn Sad, I, 128-129.

Həzrət Peyğəmbər ﷺ ailəsinə, qohum-əqrəbasına və digər insanlara qarşı hədsiz dərəcədə nəzakətli və vəfalı idi. Həmişə ağıllı və fərasətli hərəkət edərdi.

Rəsulullah ﷺ gəncliyində kainata və hadisələrə ibrətlə baxmağı və dərin təfəkkürə dalmağı sevərdi. Buna görə tez-tez tək qalaraq təfəkkür edərdi.

Xülasə, O ﷺ, gəncliyini faydalı yaşamış, ömrün ən qiymətli mərhələsini yaxşılıq və xeyirxah əməllərlə keçirmişdir.

*Rəsulullahın ﷺ hüznü daimi, təfəkkürü fasiləsiz idi. Zərurət olmadıqca danışmazdı. Sükunət halı uzun sürərdi. Bir sözə başladıqda yarıda qoymadan tamamlayaraq bitirərdi…*

## Həzrət Peyğəmbər və Gənclər

Allah Rəsulunun həyatı ilə tanış olduqda onun nübüvvət məfkurəsində gənclərin xüsusi yerinin olduğunu görürük.

İslamın bəşəriyyətə qazandırdığı dəyərlərdən bəhs edilərkən ümumiyyətlə qız uşaqlarının diri-diri basdırılmaqdan qurtarılması, qadının layiq olduğu haqq və hürriyyəti qazanması, hər kəsə qarşı ədalətli rəftar və bu kimi xüsuslar önə çıxarılmaqdadır. Ancaq burada göz ardı edilən mühüm bir xüsus var: **“Gənclər”…**

Rəsulullahın ﷺ bəşəriyyəti xilas edən məfkurəsinə ümumiyyətlə gənclərin könül verdiyini gördükdə…

Həbəşistan kralının qarşısında müsəlmanların gənc nümayəndəsi **Cəfər bin Əbu Talib**in zəka və fərasət dolu nitqini dinlədikdə…



*Nur Dağı, Məkkeyi-Mükərrəmə*

*Həzrət Peyğəmbər ﷺ peyğəmbərlik vəzifəsinin ilk günlərindən etibarən gənclərlə yaxından maraqlanmış, onların qəlbinə gedən damarı tutaraq xüsusi məhəbbət telləri təsis etmişdir.*

Yeni gələn ilahi dini təmsil üçün Mədinəyə müəllim göndərilən **Musab bin Ümeyr**in həyatını tədqiq etdikdə…

Hicrət əsnasında Allah Rəsulunun uğrunda canını təhlükəyə ataraq müşriklərin xain planlarını alt-üst edən cəngavərin iyirmi yaşında bir gənc olduğunu öyrəndikdə…

Aləmlərə rəhmət olaraq göndərilən Fəxri-Kainatın ﷺ Mədineyi-Münəvvərədəki xidmətçisinin on yaşında bir igid olduğunu oxuduqda…

Rəsulullahın on doqquz yaşındakı **Həzrət Usamə**ni böyük bir ordunun başına komandan təyin etdiyini öyrəndikdə…

Dinimizin əmr və qadağalarını İslam alimi olan gənc səhabələrdən öyrəndikdə Rəsulullahın ﷺ həyatında gənclərin nə qədər mühüm yerə sahib olduğunu anlamış oluruq.



Gəncliyin qiymətini çox yaxşı bilən Rəsulullah ﷺ hələ risalətinin ilk günlərindən etibarən gənclərlə yaxından maraqlandı. Onları xüsusi məhəbbət telləriylə özünə bağladı və onları bu könül iqlimində yetişdirdi. Məhz bu sayədə gənc səhabələr İslamın çilələrlə dolu ilk illərində imanları uğrunda işgəncə və əziyyətə qatlana bildilər. İslam dövlətinin təməllərinin atıldığı Mədinə dövründə də ilk sıralarda öz yerlərini aldılar.

### *Gəncləri Elmə Sövq Edərdi*

Fəxri-Kainat ﷺ gənclərin elm sahəsində yetişməsinə böyük əhəmiyyət verirdi. Çox vaxt gəncləri hər kəsin yanında təqdir edərək onları daha çox öyrənməyə təşviq edərdi. Elmdə ən yüksək dərəcəyə çatan səhabələrin gənclər olması Həzrət Peyğəmbərin bu çalışmasının nəticəsidir.

Rəsulullah ﷺ Mədinəyə hicrət etdikdə ilk növbədə Məscidi-Nəbəvini, sonra da onun bir guşəsində elm ocağı olan "Suffə"ni inşa etdirdi. Əshabi-Suffənin ilk müəllimi də şəxsən özü oldu. Yaxşı Quran və Sünnə təlimi alan və **"qurra"** adlanan **Əshabi-Suffə** sayı 70 ilə 400 arasında dəyişən gənclərdən ibarət bir qrup idi.

Allah Rəsulu ﷺ gənclərdən ibarət mükəmməl bir heyət qurdu. Xüsusilə də zəkasına və qabiliyyətinə etibar etdiyi gənclərlə daha yaxından maraqlandı. **Ənəs bin Malik, Həzrət Əli, Usamə bin Zeyd** رضي الله عنهم kimi hələ kiçik yaşlarından Allah Rəsulunun tərbiyəsində yetişən bu səhabə nəsli böyük İslam mədəniyyətinin demək olar ki, ana sütunu oldular. İslam dini onların sarsılmaz əzmiylə ölkələrə və sonrakı əsrlərə çatdı.

***Rəsulullah ﷺ gənc səhabə Muaz bin Cəbəl رضي الله عنه haqqında:***

***"Ümmətim içində halal və haramı ən yaxşı bilən Muazdır." buyurmuşdur.***

***(Tirmizi, Mənaqib, 32/3790-3791)***

### *Allah və Rəsulunun Sevdiyi Gənclər*

Əziz Peyğəmbərimiz ﷺ Allaha itaət edən və İslam əxlaqı ilə yetişən bir gəncin qiyamət günü ərşin kölgəsində olacağını xəbər vermişdir.[7]



7. Buxari, Azan, 36.

***Allah Rəsulunun zamanında iki qardaş vardı. Biri Rəsulullahın yanından heç ayrılmayıb Ondan elm öyrənir, digəri isə dolanışıqlarını təmin etmək üçün işləyirdi. İşləyən qardaş digərindən Allah Rəsuluna şikayət etdi. Peyğəmbərimizin cavabı belə oldu:***

***"- Bəlkə də sən onun sayəsində ruzi qazanırsan!" (Tirmizi, Zöhd, 33/2345)***

Çünki Allah-Təala belə bəndələrini sevir. Rəsulullah ﷺ buyurur:

*"Allah-Təala gəncliyini Allaha itaət yolunda keçirən gənci sevər."* (Süyuti, əl-Camius-Sağir, I, 65/1867)

Belə gənclərə qarşı Kainatın Fəxrinin də xüsusi məhəbbəti vardı. Onlara özlərini yetişdirmə şəraiti təşkil edər, maddi və mənəvi inkişafları üçün əlindən gələni əsirgəməzdi.

Həzrət Ömərin oğlu **Abdullah** bunları nəql edir:

"Rəsulullah ﷺ ilə bir səfərdə idik. Mən atam Ömərə aid cavan bir dəvənin üstündəydim. Onu ram edə bilmədiyim üçün elə hey qafilənin önünə keçirdim. Atam bu vəziyyət qarşısında gəlib dəvəni geri çəkir və:

"Dəvənə sahib ol! Allah Rəsulunun önünə keçmə!" –deyirdi. Buna şahid olan Rəsulullah ﷺ:

*"- Dəvəni mənə satarsanmı, ey Ömər!"* –deyə soruşdu. Atam:

"- O sizindir, ey Allahın Rəsulu!" –deyib dəvəni Peyğəmbərimizə satdı.



Fəxri-Kainat ﷺ mənə tərəf çevrilərək:

*"- Abdullah dəvə artıq sənindir, istədiyin kimi istifadə et!"* –buyurdu. (Buxari, Büyü, 47; Hibə, 25/2)

Rəsulullah ﷺ bəzən də sevdiyi bir gəncin əlindən tutub ona tam səmimiyyəti ilə tövsiyə edərdi. Bir gün **Həzrət Muaz**ın əlindən tutub:

*"- Ey Muaz! Vallahi, səni çox sevirəm!"* –buyurdu.

Muaz ﷺ:

"- Atam-anam Sənə fəda olsun, ey Allahın Rəsulu! Mən də Səni çox sevirəm!" –dedi. Sonra isə Fəxri-Kainat ﷺ ona belə buyurdu:

*"- Ey Muaz! Sənə hər namazın sonunda "Allahım! Səni zikr etmək, Sənə şükür etmək və layiqincə qulluq edə bilmək üçün mənə yardım et!" duasını oxumağı əsla tərk etməməyi tövsiyə edirəm."* (Əhməd, V, 244-245; Əbu Davud, Vitr, 26; Nəsai, Səhv, 60; Tirmizi, Zöhd, 30)

***Hədisi-şərifdə buyurulur:***

***"Allah-Təala gəncliyini Allaha itaət yolunda keçirən gənci sevər."***

***(Süyuti, əl-Camius-Sağir, I, 65/1867)***

### *Gənclər Rəsulullahın Yol Yoldaşı İdi*

Rəsulullah ﷺ dəvə ilə səfər edərkən bəzən gəncləri tərkinə alardı. Usamə bin Zeyd, Muaz bin Cəbəl, Həzrət Abbasın oğulları Fəzl, Kusəm və Übeydullah kimi bəxtiyar gəncləri tərkinə alıb onlara elm və ədəb təlim etmişdir.[8]

Hətta Məkkənin fəthi günü kimi mühüm bir hadisənin baş verdiyi əsnada Həzrət Zeynəbdən olan nəvəsi **Əli**ni tərkinə almış, şəhərə onunla birlikdə girmişdi. (İbn Əsir, Usdul-Ğabə, IV, 126)



8. Buxari, Təfsir 3/15, Elm 49, Cihad 46; Müslim, İman, 48, 49; Əhməd, I, 205; Hakim, III, 655/6411.

***Abdullah bin Cəfər ﷺ belə bir gözəl xatirə nəql edir:***

***"Bir gün Fəxri-Kainat ﷺ məni tərkinə aldı və bir sirr verdi, mən o sirri saxladım və heç kimə açmadım!"***

***(Müslim, Heyz, 79)***

## Rəsulullah ﷺ Gənclərə Dəyər Verirdi

Rəsulullah ﷺ həmçinin gənclərin fikirlərinə də dəyər verirdi. Məkkəlilərin Mədinəyə hücuma hazırlaşdıqlarını və böyük bir orduyla gəldiklərini xəbər tutanda Mədinədə qalıb müdafiə olunmağın daha münasib olacağını fikirləşmişdi. Lakin Bədir döyüşündə iştirak etməyən gənc səhabələr böyük həyəcanla düşmənlə üz-üzə döyüşmək istədilər. Buna görə döyüşün Uhudda olmasına qərar verildi.

Allah Rəsuluna sonsuz sevgi ilə bağlanan gənclər həyatlarının ən böyük inqilabını yaşadılar. İslamdan əvvəl dəyərsiz olduqları halda imanla şərəfləndikdən sonra hər biri ulduz insana çevrildilər. Vaxtilə tərk edilmiş neçə-neçə gənc Peyğəmbərin ﷺ tədris və tərbiyəsi sayəsində dünyaya istiqamət verən örnək şəxsiyyətlər halına gəldilər. Sanki ölülərdən dirilər çıxdı, kömürdən almaz əldə edildi.

İslamdan əvvəlki Ömər öz doğma qızını əlləriylə diri-diri basdıran, mərhəmətsiz və qəddar təbiətli bir insan idi. İslamdan sonra isə gözü yaşlı, könlü məhəbbət və şəfqətlə dolu, qarışqanı belə incitməkdən çəkinən Həzrət Ömər ﷺ oldu.



***"- Fəratın sahilində bir quzu tələf olsa, bu səbəblə Allahın məni hesaba çəkməsindən qorxuram."***[9] –deyərək öz nəfsini hesaba çəkdi. Gecələr belindəki un torbası ilə kimsəsizlərin, yoxsulların həndəvərində gəzdi.

9. İbn Əbi Şeybə, Müsənnəf, VIII, 153.

Başqa bir misal da **Abdullah bin Məsud** ﷺ həzrətləridir. Bu seçilmiş səhabə Bədirdə yerə yıxılan Əbu Cəhlin üstünə çıxıb sinəsində oturduqda can vermək üzrə olan azğın müşrik:



"- Çox hündür və yüksək bir təpəyə çıxdın, ey zavallı qoyun çobanı!" –deyə ona həqarət etmişdi. (İbn Hişam, II, 277)

Yəni o, keçmişinə baxdığımız zaman insanlar tərəfindən xor görülən "bəsit bir qoyun çobanı" idi. Hidayətə qovuşub Rəsulullahın tərbiyəsindən keçdikdən sonra qəlbi dərya halına gəldi, genişləndi, dərinləşdi. Böyük hüquq ekolu olan Kufə Məktəbi məhz bu şanlı səhabənin əsəridir. Bu gün hansı İslami elm sahəsinə baxsaq, onun adını ən başda görürük.

### *İslamı Qitələrə Yaydılar*

Qəlbləri imanın eşq və həyəcanı ilə dolu olan bu gənclər düşüncə və ideallarının mərkəzinə Allahın rizasını və Rəsulunun məhəbbətini yerləşdirdilər. Həzrət Peyğəmbərin təbliğ məktublarını çatdırmaq şərəfinə nail ola bilmək üçün bir-biriləriylə yarışdılar. Onun ən kiçicik bir arzusunu həyata keçirə bilmək üçün heç bir bəhanə gətirmədən hər cür fədakarlığı gözə aldılar. Yorulmadan və bezmədən sıldırımlı dağlar aşdılar, kimsəsiz səhralardan keçdilər. Böyük bir imanla cəlladların arasından keçərək kralların hüzurunda Allah Rəsulunun məktubunu oxudular. Bu müqəddəs vəzifə uğrunda canlarını belə verməkdən çəkinmədilər.

***Hədisi-şərifdə buyurulur:***

***"Əshabım (göydəki) ulduzlar kimidir. Hansına tabe olsanız doğru yolu taparsınız."*** ***(İbn Abdilbərr, Camiu Bəyanil-Elm, II, 91)***

O mübarək nəsil öz həyatını Allah və Rəsuluna fəda etdi. Allah yolunda xidmət onların könüllərində ən böyük zövq və ləzzət halına gəldi.

## İlk Müsəlmanlar


بسم الله الرحمن الرحيم محمد رسول الله

Bu mübarək din gənclərin könül iqlimində inkişaf etdi. Müsəlman olduqları zaman əshabi-kiramın əksəriyyətinin iyirmi yaşı yox idi. Gənc yaşda dinləri uğrunda bir çox məşəqqətlərə qatlandılar. Onların eşq və fədakarlıqla göstərdikləri

İran kisrasına göndərilən məktubu Abdullah bin Hüzafə رضي الله عنه aparmışdı. Kisra məktubda Həzrət Peyğəmbərin adının öz adından əvvəl yazılmasına qəzəblənərək o mübarək məktubu parça-parça edib, elçini də ağır sözlərlə təhqir etdi. Buna baxmayaraq Abdullah رضي الله عنه bir gəncə yaraşan cəsarətlə Kisra və yanındakılara nəsihət verdi və onlara xəbərdarlıq etdi. Daha da qəzəblənən Kisra Həzrət Abdullahın çölə çıxarılmasını əmr etdi. Abdullah رضي الله عنه miniyinə minib Mədinəyə yola düşdü. Yolda öz-özünə belə deyirdi:

"And olsun ki, mənim üçün iki yoldan (ölüm və ya qurtuluş) hansı olursa-olsun artıq qəm yemərəm! Çünki Rəsulullahın məktubunu yerinə çatdırıb vəzifəmi tamamladım."[1]

---

1. Əhməd, I, 305; İbn Sad, I, 260, IV, 189; İbn Kəsir, əl-Bidayə, IV, 263-266; Süheyli, VI, 589-590; Həmidullah, əl-Vəsaiq, s. 140.

xidmətlər sayəsində neçə-neçə ölkələr hidayətlə nurlandı və İslam əxlaqıyla səadətə qovuşdu.

Məsələn, **Həzrət Əli** رضي الله عنه İslamı qəbul etdiyi zaman hələ 10 yaşı vardı.

Peyğəmbərimizin azad etdiyi köləsi **Zeyd bin Harisə** رضي الله عنه iman etdiyi zaman 15 yaşında idi. Peyğəmbərimizi taiflilərin atdığı daşlara qarşı bədənini qalxan edərək qorumağa çalışdığı gün igid bir gəncdi. Əcəba, bu gün 15 yaşlı bir gənc hansı sevdaların ardınca qaçır?!

Həzrət Ömərin oğlu **Abdullah** رضي الله عنه İslamla şərəfləndiyi zaman 10 yaşında idi. 13 yaşında ikən Uhud döyüşündə iştirak etmək istəmişdi, amma hələ çox gənc olduğu üçün Allah Rəsulu ﷺ izin verməmişdi. Daha sonra böyük alimlər səfinin önünə keçərək ən çox hədis rəvayət edən ikinci səhabə olma şərəfinə nail oldu. Zəmanəmizdə bu yaşdakı bir gəncin fikir dünyası hansı səviyyədədir görəsən?!

***Həzrət Peyğəmbər*** ﷺ ***buyurur:***

***“Allah uşaq kimi (şıltaq) hərəkətlər etməyən, xeyrə yönəlib nəfsinin istəklərini tərk edən vüqar sahibi olan kamil gənci sevər.”***

***(Əhməd, IV, 151)***

**Abdullah bin Zübeyr** 7 və ya 8 yaşına çatanda atası onu Peyğəmbərimizə beyət etməyə göndərdi. Rəsulullah ﷺ Abdullahı görən kimi təbəssüm edərək ona tərəf çevrildi və beyətini aldı.



**Abdullah bin Hişam** رضي الله عنه Həzrət Peyğəmbərimizə (altı yaşında ikən) yetişmişdi. Anası Zeynəb binti Hümeyd onu (Məkkənin fəthində) Rəsulullahın ﷺ yanına aparıb:

“- Ya Rəsulallah! Oğlumdan müsəlman olduğuna dair beyət al!” –dedi. Rəsulullah ﷺ:

*“- O hələ çox balacadır!”* –buyurdu və başını oxşayaraq Abdullaha dua etdi.



Abdullah bin Hişam ﷺ böyüdükdən sonra bazara çıxıb qida maddələri alardı. İbn Ömərlə İbn Zübeyr onu bazarda görən kimi tez yanına gedib:

“- Bizi də bu mala şərik et! Çünki Allah Rəsulu ﷺ sənin üçün bərəkət duası etmişdir.” –deyərdilər.

Abdullah da onları şərik edərdi. Bəzən elə olurdu ki, bir dəvə yükü qədər qazanc əldə edər və onu evinə göndərərdi. (Buxari, Şirkət, 13)

**Cəfər bin Əbu Talib** ﷺ Mutədə şəhid edildiyi vaxt otuz üç yaşındaydı.[10] Bunu nəzərə alaraq deyə bilərik ki, Həbəşistana hicrət edib Nəcaşinin hüzurunda müsəlmanları təmsil edərək elm, hikmət və cəsarətlə çıxış etdikdə 17 yaşında bir gənc idi.

**Abdullah bin Məsud** və **Zübeyr bin Avvam** 16 yaşlarında müsəlman olmuşdular. **Əbdürrəhman bin Əvf** və **Sad bin Əbu Vaqqas** isə 17 yaşlarında imanla şərəflənmişdilər. Yəni onlar dövrümüzdəki orta məktəb tələbəsi yaşında idilər. Ancaq həyatları və ölümdən sonrası üçün son dərəcə mühüm qərar verib o uğurda hər cür fədakarlığa qatlana biləcək əzmkarlıq və cəsarət göstərdilər.

**Həyati əhəmiyyətli ən mühüm qərarlar gənclik çağında verilir.** Çünki gənclər fərqliliklərə və yeni dəyişimlərə ayaq uydurmaq baxımından yaşlılarla müqayisədə daha əlverişlidirlər. İslamın ilk illərində gənclər Peyğəmbərə ﷺ tabe olub bu yolda bir

***Səhabələr düşüncənin və idealın mərkəzinə tövhidi yerləşdirib, qəlblərindəki nəfsani mənfəətləri çıxarmağa nail oldu. Mal və can vasitə hökmünə gəldi. İmanın ləzzəti hiss olundu. Mərhəmət dərinləşdi. Xidmət etmək həyat tərzinə çevrildi. Böyük bir fədakarlıq və İslam şəxsiyyəti sərgiləndi. Bir hədis almaq üçün bir aylıq yol qət etdilər. Atını aldadan ravidən hədis alınmadı.***

10. İbn Hişam, III, 434.

çox cəfalara qatlandılar. Bunun müqabilində Əbu Ləhəb, Əbu Cəhl, Ümeyyə bin Xələf, Vəlid bin Muğirə və As bin Vail kimi qəlbi zindana dönmüş olan sabit fikirli bəzi yaşlılar şiddətlə İslama qarşı çıxdılar.



Son zamanlarda gəlinən nəticə də bu fikri dəstəkləməkdədir. Buna görə gənclər dinə yaşlılardan daha çox bağlanmaqda, Allaha və axirətə, yenidən dirilişə daha çox maraq göstərməkdə və təqva həyatına rəğbət etməkdədirlər. Bu gün Avropada gənclər İslamı daha asan qəbul edərkən, bir az yaşlılar bu xüsusda çətinlik çəkməkdədirlər.

Məkkənin ən varlı və yaraşıqlı gənclərindən olan **Musab bin Ümeyr** müsəlmanlığı qəbul etdiyi üçün ailəsi tərəfindən həbs edildikdə 18 yaşı vardı. O Musab ki, daha sonra Mədinəyə gedərək oranı Quranla, fərasəti və şirin diliylə fəth etdi. Zəmanəmizdə 18 yaşında olan bir gənc belə bir seçim qarşısında qalsa, bu qədər böyük və məsuliyyətli vəzifəni ifa edə bilərmi görəsən?!

Allah Rəsulunun kürəkəni **Osman bin Affan**, yaşadığı təqva həyatıyla "ümmətin əmini" ləqəbiylə yad edilmək şərəfinə nail olan **Əbu Übeydə bin Cərrah** və ədalətiylə əsrlərə işıq tutan **Həzrət Ömər** ﵁ iman etdikdə təxminən 25-31 yaşlarında idilər.

***Səhabə Rəsulullahdan ﷺ nə almışdı?***

***1. İnikas (əks etmə, sirayət, Allah Rəsulunun halıyla həmhal olmaq).***

***2. Əqrabiyyətin təhsili (Allaha yaxınlaşmaq, Onu qəlblə tanıya bilmək)***

***Bu sayədə onların həyatında xeyir və haqq bütün gözəlliyi ilə, şərr və batil də bütün çirkinliyi ilə dəqiqləşdi.***



**Abdullah bin Məsud ﷺ Suffə tələbələrindəndi. Orada Allah Rəsulunun təlim-tərbiyəsindən keçdi. Belə deyərdi:**

**“Bizə Allah Rəsulundan elə hallar keçdi ki, boğazımızdan keçən loğmaların zikrini eşidirdik.” (Buxari, Mənaqib, 25)**

Ən çox hədis rəvayət edən səhabələrdən **Cabir bin Abdullah** ﷺ İkinci Əqabə beyətində iştirak edəndə 15 yaşı vardı.

Rəsulullaha xidmət edən **Ənəs** ﷺ belə demişdir:

“Allah Rəsulu ﷺ Mədinəyə hicrət etdi. Onun əshabı arasında **Əbu Bəkr**dən başqa saçına və saqqalına dən düşən başqa bir adam yox idi. Həzrət Əbu Bəkr də saç-saqqalını xına və kətəm bitkisiylə boyamışdı.” (Buxari, Mənaqibul-Ənsar, 45)

“Nəbiyyi-Əkrəm ﷺ Mədinəyə gəldi. Əbu Bəkr ﷺ hicrət edən səhabələrin ən yaşlısı idi…” (Buxari, Mənaqibul-Ənsar, 45)

Mədineyi-Münəvvərədə İslama və müsəlmanlara qol-qanad gərənlər də gənclər idi.

Mədinənin liderlərindən fasiq Əbu Amir İslamdan üz çevirdiyi halda **Hanzala** müsəlman olmuş və Uhudda şəhadət şərbətini içmişdi. Münafiqlərin başçısı Abdullah bin Übeyin oğlu **Abdullah** səmimi müsəlmanlardan idi. **Əsad bin Zürarə, Uqbə bin Amir** və **Avf bin Haris** də İslama ən böyük xidmət edən gənc müsəlmanlardandı.

Rəsulullah ﷺ Mədinəyə hicrət etdiyi zaman Zeyd bin Sabit 11 yaşında bir yetim idi. Özü bunları nəql edir:

“Rəsulullah ﷺ Mədinəyə gəldiyi zaman məni hüzuruna apardılar. O, məni sevdi və bəyəndi. Orada olanlar:

"- Ya Rəsulallah! Bu uşaq Nəccar oğullarındandır. Allahın Sənə nazil etdiyi surələrdən on yeddisini əzbər bilir!" –dedilər. Bu, Həzrət Peyğəmbərin ﷺ çox xoşuna gəldi..." (Əhməd, V, 186)

Zeyd ؓ:

"- Mən də Bədir döyüşündə iştirak edəcəyəm" –deyərək Peyğəmbərimizin hüzuruna çıxdı. Ancaq Allah Rəsulu 13 yaşlı bu uşağın döyüşdə iştirakına izin vermədi.

Yenə böyük İslam alimi və ən çox hədis rəvayət edən səhabələrdən olan **Abdullah bin Abbasın** ؓ Həzrət Peyğəmbər ﷺ vəfat edərkən 13 yaşı vardı.

Gənc yaşda müsəlman olaraq İslam səmasında ulduza çev-



***Amr bin Cəmuhun oğlu Muaz ؓ qəbiləsindəki müsəlman gənclərlə sözləşərək bir gecə atasının bütünü xəlvətcə yaxınlıqdakı zibilliyə atdı. Ertəsi səhər bu mənzərəni görən Amr dəhşət içində qalaraq bütü atıldığı çuxurdan çıxardı. Onu yuyub təmizlədi, gözəl ətirlər vuraraq yerinə qoydu.***

***Eyni hadisə bir neçə gün təkrar etdi. Amr qılıncını bütün boynuna asdı ki, özünü medafiə etsin. Ertəsi gün bütünü yenə çuxurda görən Amr ibadət etdiyi cansız varlığın özünü belə qorumaqdan aciz olduğunu dərk etdi. Gözlərini şirk qaranlığından İslamın nurlu səhərinə açdı. Sonra da qövünü İslama dəvət etdi.***[1]

1. İbn Hişam, II, 61-63; Zəhəbi, Siyər, I, 182.



*Hər hansı bir səhabə evinə girdikdə xanımı ona iki sual verərdi:*

*1. Bu gün Qurandan neçə ayə nazil oldu?*

*2. Allah Rəsulunun sözlərindən nələri əzbərlədin?*

*Səhabə evdən çıxarkən də xanımı ona:*

*"- Allahdan qorx, haram qazanma! Biz dünyada aclığa səbir edərik, amma qiyamət günündə cəhənnəm əzabına dözə bilmərik!.." –deyərək nəsihət edərdi.*

*(Abdulhamid Keşk, Fi Rihabit-Təfsir, I, 26)*

rilən əshabi-kiram əlbəttə ki, sadəcə saydıqlarımızdan ibarət deyil. Bunlardan əlavə bir çox gənc səhabə vardır. Xüsusilə də ilk müsəlman olanların arasında gənc xanımların da olması çox diqqət çəkir. Həzrət Peyğəmbərin qızları **Həzrət Ruqiyyə, Ümmü Gülsüm** və **Fatimə** ilə yanaşı Həzrət Ömərin bacısı **Fatimə**, Həzrət Əbu Bəkrin qızları **Əsma** ilə **Aişə**, **Nəhdiyyə Xatın** və qızı, hicrət əsnasında Həzrət Peyğəmbəri ilahilərlə qarşılayan Nəccar oğullarının qızları bunlardan sadəcə bir misaldır.

Rəsulullah ﷺ onun otağında vəfat edərkən **Həzrət Aişə** çox gənc idi. Buna baxmayaraq o, ən çox hədis rəvayət edən və alimlərin müraciət etdiyi bir elm mənbəyi halına gəldi.

## Peyğəmbərimizin Gənclərə Verdiyi Vəzifələr

Həzrət Peyğəmbər ﷺ İslamın yayılması və öyrənilməsində gənclərə böyük vəzifələr vermişdi. Çünki Allahın insana bəxş etdiyi gənclik çağı bu kimi mühüm xidmətlərin ifasında ən böyük sərmayədir. İnsanın gənclikdə daha çox enerjisi olur. Vəzifəsini yerinə yetirərkən möhtac olduğu qüvvət, cəsarət və gözüqaralığı ən çox gənclikdə tapa bilir.

Hər hansı bir səhabə evinə girdikdə xanımı ona iki sual verərdi:

1. Bu gün Qurandan neçə ayə nazil oldu?

2. Allah Rəsulunun sözlərindən nələri əzbərlədin?

Bir gün Həzrət Peyğəmbər ﷺ ənsardan bir nəfərə:

"- Sizdən qızınızı istəyirəm." –buyurdu. Səhabə böyük bir sevinclə:

"- Ya Rəsulallah! Bu mənim üçün böyük bir şərəfdir!" –dedi.

Allah Rəsulu ﷺ:

"- Onu özüm üçün yox, Cüleybib üçün istəyirəm." –dedi. (Cüleybib bir o qədər də yaraşıqlı olmayan qara bir səhabə idi.)

Qızın atası:

"- Onda qızın anası ilə məsləhətləşim." –deyib getdi.

Xanımı da əvvəlcə çox sevindi, lakin Cüleybib adını eşitdikdə:

"- Cüleybib üçün? Yox, vallah ona qızımı verməərəm." –dedi.

Söhbəti eşidən qız:

"- Sizə mənim üçün elçi gəlib?" –deyə soruşdu. Anası məsələni ona açdı. Qızı:

"- Rəsulullahın arzusunu rədd edirsiniz?! Məni Rəsulullaha həvalə edin. O, qətiyyən mənim zərərimə olan bir şey etməz." -dedi.

Atası Rəsulullahın yanına qayıtdı, qızının cavabını ona çatdırdı. Peyğəmbərdə ﷺ qızı Cüleybiblə evləndirdi.

Bir müddət keçdikdən sonra Cüleybib iştirak etdiyi bir döyüşdə şəhid oldu. Allah Rəsulu ﷺ onun haqqında:

*"- Yeddi kafiri öldürüb, onlar da Cüleybibi şəhid ediblər!* **O, məndən, mən də ondanam."** -buyurdu. Sonra da cəsədini qolları arasına alıb şəxsən özü qəbrə qoydu.

Rəsulullah ﷺ Cüleybibin xanımı haqqında:

*"Allahım, bu qadının üzərinə xeyir və bərəkətini bol-bol yağdır. Onun həyatını çətinləşdirmə!"* –deyə dua etmiş, bu duasının bərəkəti də onun həyatında açıq-aydın görülmüşdür. (Əhməd, IV, 422, 425; Heysəmi, IX, 367-368)



Səhabə evdən çıxarkən də xanımı ona:

"- Allahdan qorx, haram qazanma! Biz dünyada aclığa səbir edərik, amma qiyamət günündə cəhənnəm əzabına dözə bilmərik!.." –deyərək nəsihət edərdi. (Abdulhamid Keşk, Fi Rihabit-Təfsir, I, 26)

***İslamın məzlum, əzilmiş və istismar olunmuş cəmiyyətlərdə sübh fəcri kimi sürətlə yayılmasının əsas səbəblərindən biri də əshabın yetişə bildiyi hər yerdə mükəmməl bir İslam şəxsiyyəti sərgiləməsi idi. Allah Rəsulunun xüsusi tələbələri olan əshabi-kiram Allahın qullarına Xaliqin şəfqət və mərhəmət nəzəriylə baxan, qayğıkeş, dürüst, adil, qəlbi təbliğ həyəcanı ilə dolu müstəsna möminlərdi.***

Məsələn, **Həzərt Əli**ni düşünək:

Əziz Peyğəmbərimizin mübarək varlığına qəsd edən müşriklər xain plan qurmuşdular. Allah Rəsulu evində istirahət edərkən səkkiz-on nəfərdən ibarət qatil birlikdə hücum edib Onun mübarək varlığını yox etmək istəyirdi. O gecə Allah Rəsulunun yatağında yatıb onun vücudunu yaralayacaq nizələrin könüllü hədəfi olmaq yalnız özünü Allah və Rəsuluna həsr etmiş mömin bir gəncin iman eşqi və həyəcanıyla mümkün ola bilərdi. Həzrət Əli ﷺ İslam tarixinin dönüş nöqtəsi olan o gecə canını ortaya qoyaraq unudulmaz bir xidmətə imza atmışdır.

Allah Rəsulu ﷺ özü həyatda ikən belə **Həzrət Əli, Əbdürrəhman bin Əvf, Abdullah bin Məsud, Zeyd bin Sabit** kimi gənc səhabələrə fətva səlahiyyəti vermişdi.

Vəhy katiblərini gənclər arasından seçmişdi. İslama dəvət məktublarını gənclərə yazdırmış və onlarla göndərmişdi.

Məsələn, Rəsulullah ﷺ bağladığı sazişləri əsasən **Həzrət Əli**yə yazdırardı. Həmçinin o, xüsusi adamlarla əlaqəli sərəncamları və mülk fərmanlarını da yazardı.[11]

11. İbn Sad, I, 267, 268, 272, 274, 285; İbn Abdilbərr, *İstiab*, I, 69, İbn

Allah Rəsulu ﷺ hələ 15 yaşı tamam olmamış **Zeyd bin Sabitə** o dövrdə çox ehtiyac olunan süryanicə və ibranicə kimi xarici dilləri öyrənmə vəzifəsi vermişdi.




**Zeyd bin Sabit** belə nəql edir:

“Rəsulullah ﷺ mənə:

*“- Zeyd, mənim üçün yəhudilərin dilində yazmağı öyrən. Vallahi mən yazı xüsusunda yəhudilərə etibar etmirəm!”* –buyurdu.

On beş gün keçmədən onların yazısını öyrəndim. Artıq yəhudilər Həzrət Peyğəmbərə məktub yazdıqda onu Peyğəmbərimizə mən oxuyurdum. Rəsulullah ﷺ bu məktublara cavab yazdırmaq istədikdə də onun adından mən yazırdım.”[12]

Əziz Peyğəmbərimiz 25 ﷺ yaşlı gənc **Musab bin Ümeyri** Mədinəyə müəllim göndərmişdi. 21 yaşlı **Muaz bin Cəbəli** də Yəmənə qazı və müəllim təyin etmişdi.

Rəsulullah ﷺ Məkkəni fəth edərkən 20 yaşı olan **Attab bin Əsədi** oraya vali təyin etmişdi.

Digər tərəfdən Həzrət Peyğəmbər ﷺ bir çox döyüşdə bayrağı şəxsən öz əliylə gənclərə vermişdir. Məsələn, Təbuk səfərində Nəccar qəbiləsinin bayrağını Quranı digərlərindən daha yaxşı bildiyi üçün **Zeyd bin Sabitə** vermişdir. **Həzrət Əli** Bədir döyüşündə bayraqdar ikən iyirmi yaşlarında idi.

***“Uşaqlarınızı öz yaşadığınız zamanəyə görə yox, onların yaşayacaqları zamanəyə görə yetişdirin.”***
***(Həzrət Əli)***

Əsir, *Usdul-Ğabə,* I, 62.
12. Əhməd, V, 186. Bax. Buxari, Əhkam, 40; Əbu Davud, Elm, 3/3645; Tirmizi, İstizan, 22/2715

Xeybərin fəthində də **Həzrət Əli** ﷺ ən mühüm vəzifəni öz öhdəsinə götürmüşdü. Mühasirə zamanı müsəlmanlar xeyli çətinlik çəkmiş, bütün hücumlar nəticəsiz qaldığı üçün yorğun və bitkin düşmüşdülər. Həmin günün sonunda Allah Rəsulu ﷺ belə buyurdu:

*"- Sabah bayrağı elə bir adama verəcəyəm ki, onun əlləriylə Allah Xeybərin fəthini lütf edəcək. Həmin adam Allahı və Rəsulunu sevir, Allah və Rəsulu da onu sevir!"*



Ordudakılar bayrağın kimə veriləcəyini fikirləşə-fikirləşə gecəni keçirdilər. Səhər açılanda Allah və Rəsulunun sevgisinə nail ola bil-

***Muaz*** ﷺ ***Yəmənə gedərkən Allah Rəsulu*** ﷺ ***ondan:***

***"- Sənin yanına hər hansı bir məsələ ilə bağlı gəlsələr nəyə görə hökm verərsən?" –deyə soruşdu. Muaz*** ﷺ***:***

***"- Allahın kitabına görə hökm verərəm." –dedi. Peyğəmbərimiz*** ﷺ***:***

***"- Əgər Allahın kitabında axtardığın hökmü tapmasan, nəyə görə hökm verərsən?" –deyə soruşdu. Muaz*** ﷺ***:***

***"- Rəsulullahın o məsələylə bağlı sünnəsinə görə hökm verərəm." –dedi. Rəsulullah*** ﷺ***:***

***"- Əgər Rəsulullahın sünnəsində də bir hökm tapmasan nə edərsən?" –deyə soruşduqda Muaz*** ﷺ***:***

***"- O zaman mən də öz ictihadımla hökm verərəm." –dedi. Bu cavabdan sonra Allah Rəsulu*** ﷺ ***əlini Muazın sinəsinin üstünə qoyaraq:***

***"- Rəsulunun elçisini, Rəsulunun razı qalacağı şeyə müvəffəq edən Allaha həmd olsun!" –buyurdu.***

***(Əhməd, V, 230; İbn Sad, III, 584; Diyarbəkri, II, 142)***

mək ümidiylə Onun hüzuruna tələsdilər. Rəsulullah ﷺ Həzrət Əlini çağırdı. Ona zireh geydirib əlinə bayrağı verərək belə buyurdu:

*"- Ey Əli, haydı irəli! Allah-Təala fəthi nəsib edənə qədər sağa-sola baxma!"*

Həzrət Əli dərhal irəli atıldı və fəth onun əliylə qismət oldu. (Buxari, Əshabun-Nəbi, 9; Müslim, Fəzailus-Səhabə, 32-34; Heysəmi, VI, 151)

Gördüyümüz kimi Rəsulullah ﷺ gənc səhabələrini ən gözəl şəkildə yetişdirmiş, onlara etimad etmiş və İslamın inkişafı prosesində mühüm vəzifələr vermişdir. Onlar da özlərinə verilən vəzifələri böyük iman eşqi və həyəcanıyla icra etmişlər. İslam dövlətini qitələrə və əsrlərə ötürmüşlər.

***"(İslamı) ilk əvvəl qəbul edib (bu işdə başqalarından) irəli düşən mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar. (Allah) onlar üçün əbədi qalacaqları, (ağacları) altından çaylar axan cənnətlər hazırlamışdır. Bu, böyük qurtuluşdur (uğurdur)!"***

***(ət-Tövbə, 100)***

# QURANİ-KƏRİMDƏ

# GƏNCLƏR

## Qurani-Kərimdə Gənclər

Qurani-Kərimdə imanlı gənclərə yol göstərmək məqsədiylə tarixdə nümunəvi şəxsiyyət sərgiləmiş gənclərin həyatlarından misallar yer almaqdadır. Onların iman mücadilələri, çətinliklər qarşısında göstərdikləri səbir və mətanət qiyamətə qədər gələcək nəsillərə örnək olmaqdadır.

Hər biri insanlıq səmasında ulduza çevrilmiş bu gənclərdən ilki heç şübhəsiz ki, Həzrət İbrahimdir عليه السلام.

### Həzrət İbrahim عليه السلام

Həzrət İbrahim عليه السلام Allaha dostluğun sirrinə vaqif olan bir gəncdir. Allahın ona bəxş etdiyi rüşd sayəsində ağlını ən gözəl şəkildə işlədərək Allahın varlıq və birliyi inancına sahib olmuşdur.

Həzrət İbrahimin kainatdakı gözəllikləri təfəkkür edərək Rəbbini tapması Qurani-Kərimdə belə nəql olunur:

**“Gecə qaranlığı** (onu) **bürüdükdə o, bir ulduz görüb: “Bu mənim Rəbbimdir!” dedi.** (Ulduz) **bat-**

***Həzrət İbrahimin* عليه السلام *duası:***

***“Ey Rəbbim! Mənə hikmət (peyğəmbərlik, elm) bəxş et və məni (Sənin rizanı qazanmış) salehlərlə (yaxşılar zümrəsinə) qovuşdur! Sonra gələnlər arasında mənə yaxşı ad qismət elə! (Gələcək nəsillər məni həmişə yad etsinlər, xatirimi əziz tutub adımı hörmətlə çəksinlər!) Məni Nəim cənnətlərinin varislərindən et! Atamı bağışla! Şübhəsiz ki, o, (haqq yolu) azanlardan oldu! (İnsanların qəbirlərindən çıxardılıb) dirildəcəyi gün (qiyamət günü) məni zəlil (rüsvay) etmə! O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər! Ancaq sağlam bir qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlərdən) başqa!”*** *(əş-Şuəra, 83-89)*





*Allah-Təala İbrahimə ﷺ belə vəhy etmişdir:*

*“Şübhə yoxdur ki, sən Mənim dostumsan, Mən də sənin. Əsla qəlbinə baxdığım zaman orada Məndən başqasını görməyim. Yoxsa mənə qarşı olan sevgini kəsərəm. Çünki Mən sevgim üçün elə birini seçirəm ki, onu odda yandırsam da qəlbi Məndən başqasıyla məşğul olmaz. O Mənim üçün belə olduğu zaman Mən də onun qəlbinə məhəbbətimi qoyaram. Ona lütf və ehsanlarım davam edər. Hətta onu özümə yaxın qılaram.”*

**dıqda isə: “Mən batanları sevmirəm”, söylədi.** (Sonra) **doğan ayı görüb: “Bu mənim Rəbbimdir!” – dedi.** (Ay) **batdıqda isə: “Doğrudan da, əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən zəlalətə düşənlərdən olardım”, - söylədi.** (Daha sonra) **doğan günəşi görüb: “Bu mənim Rəbbimdir, bu, daha böyükdür!” – dedi.** (Günəş) **batdıqda isə dedi: “Ey camaatım, mən, həqiqətən, sizin Allaha şərik qoşduqlarınızdan** (bütlərdən, səma cisimlərindən) **uzağam! Mən, həqiqətən, batildən haqqa tapınaraq** (dönərək) **üzümü göyləri və yeri yaradana çevirdim. Mən** (Allaha) **şərik qoşanlardan deyiləm!”** (əl-Ənam, 76-79)

Hədsiz dərəcədə zəkalı olan bu gənc Rəbbini tapdıqdan sonra Onun yolunda böyük bir tövhid mücadiləsinə başladı. Küfr və şirk bataqlığına batmış insanları qurtarmaq üçün böyük bir qərarlılıqla əlindən gələni əsirgəmədi.

Həzrət İbrahim ﷺ dedikləri gerçəklərə qulaq asmayan qövmünün halına çox acıyırdı. Onların sitayiş etdikləri, daşdan və taxtadan düzəldilmiş bütlərin acizliyini göstərmək məqsədiylə ağıllı bir plan qurdu. Bir bayram günü hər kəsin şənlikdə iştirak etdiyi əsnada bir balta götürüb bütxanaya getdi. Oradakı bütlərin hamısını qırdı. Sadəcə böyük bütü sındırmadı və baltanı onun boynuna asdı. Axşam olduqda Kəldani qəbiləsi bayram yerindən qayıtdıqda gödükləri mənzərə qarşısında böyük çaşqınlığa düşdülər. Təxmin edərək:

**“İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik!” – dedilər.”** (əl-Ənbiya, 60)



Sonra da dərhal Həzrət İbrahimi taparaq soruşdular:

“- Bu sənin işindirmi?!”

“- Xeyr, bu, böyük bütün işidir. Əgər danışa bilirsə ondan soruşun!”

Bütpərəst qövm vicdanlarına yönələrək etdikləri işin nə qədər səhv və ağılsız olduğunu düşündülər. Ancaq yenə də inadlarından dönməyib:

“- Sən yaxşı bilirsən ki, bütlər danışmaz.” –dedilər.

**“**(İbrahim) **dedi: “Elə isə Allahı qoyub sizə heç bir xeyir və zərər verə bilməyən bütlərəmi ibadət edirsiniz? Tfu sizə də, Allahdan başqa ibadət etdiyiniz bütlərə də! Əcaba,** (etdiyiniz əməllərin qəbahətini) **anlamırsınız?”** (əl-Ənbiya, 66-67)

Bütpərəst insanlar vicdanla qəbul etdikləri halda həqiqəti inadlarına qurban edərək Həzrət İbrahimi tonqala atmaq qərarına gəldilər. Ancaq Allah-Təala odu bu fədakar gənc üçün gülüstana çevirdi.

Allah-Təala Həzrət İbrahimdən razı olmuş, Onu:

**“**(Əhdə) **çox vəfalı olan** (Allahın qarşısındakı borcunu layiqincə ödəyən) **İbrahim!”**[13] deyə tərifləmişdir. Həmçinin Allah-Təala Onu:

*Həzrət İbrahim عليه السلام nəsihət istəyənlərə bunları söyləmişdir:*

*“İnsanların dünya işləriylə məşğul olduqlarını görsəniz, siz də axirət işləriylə məşğul olun. Onlar zahiri görkəmlərinin bəzənməsiylə məşğul olurlarsa, siz də daxili aləminizi bəzəməklə məşğul olun. Onlar bağ-bağça və sarayların abadlaşdırılmasıyla məşğuldurlarsa, siz də qəbirləri abad edin. İnsanlar bir-birinin nöqsanlarıyla məşğuldurlarsa, siz öz nöqsanlarınızla məşğul olun.”*

13. ən-Nəcm, 37.



*Bir nəfər Rəsulullahın ﷺ yanına gəlib ona:*

*“Ey Xayrul-Bəriyyə: Ey yaradılmışların ən xeyirlisi!” -deyə müraciət etmişdi. Həzrət Peyğəmbər dərhal müdaxilə edərək belə buyurdu:*

*“Bu dediyin İbrahimin عليه السلام vəsfidir.” (Müslim, Fəzail, 150)*

**“Rəbbi İbrahimə :** “(Əmrimə) **təslim ol!”** – **dedikdə, o: “Aləmlərin Rəbbinə təslim oldum!” –deyə cavab vermişdi.”**[14] Ayeyi-kəriməsi ilə təslimiyyət timsalı olaraq təqdim və təltif etmişdir.

İbrahim عليه السلام ağıl və hikmətlə danışardı. Allah onun fətanətiylə Nəmrudu necə məğlub etdiyini belə xəbər verir:

“(Ya Rəsulum!) **Allahın verdiyi hökmranlıq üzündən** (azğınlaşaraq) **İbrahim ilə Rəbbi barəsində mübahisə aparan şəxsi** (Nəmrudu) **görmədinmi?** (Və ya əhvalatını bilmirsən?) **İbrahim: “Mənim tanrım həm dirildir, həm də öldürür”, - dediyi zaman, o** (Nəmrud)**: “Mən də həm dirildir, həm də öldürürəm”, - demişdi. İbrahim ona: “Allah Günəşi şərqdən doğdurur, bacarırsansa, sən onu qərbdən doğdur!” – dedikdə, o kafir donub qalmışdı. Həqiqətən, Allah** (özünə) **zülm edənləri düz yola yönəltməz!”** (əl-Bəqərə, 258)

İbrahim عليه السلام nadir rastlanan gəncdi. Hələ uşaq ikən tövhidi və həqiqəti tapmaq üçün təfəkkür dünyasına dalıb çox böyük fikri nəticələr əldə etmişdir. Daha sonra iman həqiqətini yaşamaq və təbliğ etmək uğrunda böyük fədakarlıqlara qatlanmış, ağlı, fərasət və çalışmalarıyla Allah yolunda cihad etmişdir. Gənclərin ağıl, fikir, cəsarət və bir ideal uğrunda mücadilə həyəcanı

14. əl-Bəqərə, 258

kimi sağlam güclərindən haralarda istifadə edəcəklərinə də gözəl bir misal olmuşdur.

## Haqqa Qurban Olan Gənc: Həzrət İsmayıl عليه السلام

İbrahim عليه السلام əgər bir oğlu olsa onu Rəbbinə qurban edəcəyini vəd etmişdi.[15] Günü gəldikdə Allah-Təala Ondan verdiyi sözü yerinə yetirməsini istədi. Bu zaman Həzrət İbrahim və ailəsi sanki fəzilət yarışına girdilər. Hər biri təvəkkül, təslimiyyər, riza, sədaqət və səbir kimi gözəl xislətlərlə zirvə nümunələr sərgilədilər.

Həzrət İbrahim Rəbbindən gələn əmrə görə Həcər anamıza oğlu İsmayılı yuyundurmasını və gözəl ətirlərlə ətirləməsini tapşıraraq, Onu bir dostunun yanına aparacağını söylədi. Həzrət İsmayıla da özü ilə ip və bıçaq götürməsini tapşıraraq:

“- Oğlum, Allah rizası üçün qurban kəsəcəyəm!” –dedi.

Ərəfatda hacıların vəqfəyə durduğu yerə tərəf getməyə başladılar. Bu zaman şeytan insan cildində Həcər validəmizin yanına gəlib:

“- Bilirsən İbrahim oğlunu hara aparır?” –dedi. O da:



15. Razi, XXVI, 133; Təbəri, Tarix, I, 272-273; İbn Əsir, *əl-Kamil,* I, 111.

***Canı canan diləmiş verməmək olmaz ey dil,***
***Nə niza eyləyəlim ol nə sənindir, nə mənim…***

***(Füzuli)***

*“Ey insanlar! Rəbbinizdən qorxun. Atanın oğula, oğulun da ataya heç bir şeylə kara gələ bilməyəcəyi bir gündən həzər edin. Allahın vədi, şübhəsiz ki, haqdır. (Qiyamət günü mütləq gələcəkdir). Ehtiyatlı olun ki, dünya həyatı sizi aldatmasın. Şeytan sizi Allaha arxayın edib (Allah Öz bəndələrinə mehribandır, onların hamısını bağışlayacaq, günahlarından keçəcək deyə) tovlamasın!”*

*(Loğman, 33)*

“- Dostunun yanına aparır.” –cavabını verdi.

Şeytan:

“- Yox, kəsməyə aparır.” –dedi. Həcər anamız:

“- O, oğlunu çox Sevir!” –deyə cavab verdi.

Şeytan:

“- Allah əmr etdiyi üçün qurban edəcəkmiş!” –dedikdə Həcər anamız:

***“- Əgər Allah əmr edibsə, gözəl bir şeydir. Təvəkkül edərik.”*** –dedi.

Şeytan Həcər anamızı aldada bilmədikdə Həzrət İsmayılın yanına gedib:

“- Bilirsən atan səni hara aparır?” –dedi.

İsmayıl عليه السلام:

“- Dostunu ziyarətə” –cavabını verdi. Şeytan:

“- Yox, səni kəsməyə aparır. Rəbbinin ona belə əmr etdiyini zənn edir!” –dedi. Həzrət İsmayıl عليه السلام:

***“- O əmr edibsə, bunu sevə-sevə yerinə yetirərik!”*** deyərək şüytanı qovdu və onu daşladı.



Şeytan Həzrət İsmayılı da aldada bilməmişdi. Bu səfər Həzərt İbrahimə vəsvəsə edərək:

İbrahim عليه السلام:

“- Sən şeytansan! Tez yanımızdan uzaqlaş!”- dedi və onu daşladı Məhz həcdə qiyamətə qədər davam edəcək şeytan daşlama belə başladı. Bu

hadisə onların təslimiyyət və təvəkkül məhəbbətlərinin bir nişanəsi olaraq ümmətə nümunə oldu.

İbraim ﷺ oğlu İsmayıla bu işin həqiqətini açdı:

"- Oğlum! Yuxuda səni qurban kəsməklə əmr olundum." –dedi. Həzrət İsmayıl:



*Şeytan dalşanan yer, Mina*

"- Atacan, bunu sənə Allah əmr etdi?" –deyə soruşdu. İbrahim ﷺ:

"- Elədir!" –dedi. Bu cavabı alan İsmayıl ﷺ:

"- Atacan, sən əmr olunduğun şeyi et! İnşallah məni səbir edənlərdən olduğumu görəcəksən." –dedi. Canını fəda etməyə hazır olduğunu bildirdi. Atasını sevindirən bu ifadələrdən sonra da:

"- Atacan! Nəmrud səni tonqala atarkən səbir etdin. Allah səndən razı oldu. Mən də qurban edilməyə razıyam. İnşallah səbir etdiyimi görəcəksən. Səndən ayrıldıqda Rəbbimə, dünya nemətlərindən ayrıldıqda cənnətə qovuşacağam!" –dedi.

Bu hadisə baş verdikdə İsmayılın 13 ﷺ yaşı vardı.[16]

İsmayıl ﷺ daha sonra:

***"- Atacan, məhəbbətin şərti əmri gecikdirməməyindir! Elə isə haydı əmr olunduğun işi gör!"*** –deyərək atasına mətanət verdi.

İbrahim ﷺ oğlunu qurban etmək istədikdə bıçaq kəsmədi. Allah-Təala:

***"Allah, şübhəsiz ki, möminlərin canlarını və mallarını onlara haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır."*** ***(ət-Tövbə, 111)***

16. Bax. Hakim, *Müstədrək*, II, 605-606/4040; Təbəri, *Tarix*, I, 263-278.



*Bir müsəlman şəxsiyyət və davranışları baxımından "əhsən, əcməl və əkməl" səviyyəsinə çatmalıdır.*

*Əhsən, yəni hər işi ən gözəl olmalı, daima ətrafına gözəllik saçmalıdır.*

*Əcməl, yəni qəlblərə sevinc və fərəh verəcək zərafət və lətafətli olmalıdır.*

*Əkməl, yəni çox kamil, ən mükəmməl olmalıdır.*

*Belə ideal möminlərin hər işi və əsəri İslamın gözəlliyini, ehtişamını, incəliyini, səadət və gülər üzünü əks etdirir.*

**"- Biz ona belə xitab etdik: "Ya İbrahim! Artıq sən röyanın düzgünlüyünü təsdiq etdin!" Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Şübhəsiz ki, bu, açıq-aydın bir imtahan idi."** -deyə nida etdi və Həzrət İsmayılın yerinə böyük bir qurban göndərdi. (Bax. əs-Saffət, 104-107)[17]

Budur, 13 yaşındakı bir gəncin Rəbbinə itaəti və atasına hünəri…

## Həzrət Yusif عليه السلام

Qurani-Kərimdə həyatı haqqında məlumat verilən digər bir gənc də Həzrət Yusifdir. Yusif عليه السلام gözəllik, iffət, səbir və əfv abidəsidir.

Onun ibrətlərlə dolu həyatı başa gələn bəla və iztirablara necə sinə gəriləcəyinə və səbirlə qarşılandığı təqdirdə əziyyətlərin necə nemətə çevriləcəyinə dair müstəsna bir misaldır. İnsanın ən yaxını sayılan qardaşlarından nə kimi pisliklər görə biləcəyini onun həyatında ibrətlə müşahidə edirik. Quyuda başlayan çiləli bir səfərin uzun müddət zindan həyatına, oradan da Misir taxtına qədər necə uzandığını yenə onun həyatında görməkdəyik.

### *Çətin Bir İmtahan*

Gənc, gözəl, varlı və yüksək rütbə sahibi olan bir qadın bütün şəraiti hazırladı. Sonra da "هَيْتَ لَكَ"

17. Bax. Təbəri, *Tarix*, I, 275; İbn Əsir, *əl-Kamil,* I, 112; Hakim, *Müstədrək*, II, 606/4040.

"Haydı, al məni, mənim ol!" deyərək Həzrət Yusifi iffətsizliyə dəvət etdi. Lakin O: **"Allaha sığınıram, zalımlar xilas olmaz."** –deyərək oradan sürətlə uzaqlaşdı. Zinaya yaxınlaşmaqla zindana düşmək arasında seçim etmək məcburiyyətində qaldıqda isə heç tərəddüd etmədən belə dedi:

**"Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən xoşdur. Əgər** (bu qadınların) **hiyləsini məndən dəf etməsən, mən onlara meyl edər və cahillərdən olaram."**

Beləliklə Yusif عليه السلام Allaha sığınmış, Allah da onun iffətini qorumuşdu. (Bax. Yusif surəsi, 23-25, 33-34)



Böyüklərdən bəzisi demişdir ki,

"Nəfsin şərindən xilas olmaq onun arzularını yerinə yetirərək mümkün deyil. Bundan xilas olmağın çarəsi Allaha sığınaraq təqva yolunda məsafə qət edə bilməkdir."

***"Zinaya da yaxın düşməyin. Çünki o, çox çirkin bir əməl və pis bir yoldur!"* (əl-İsra, 32)**

***Uçurumun kənarında gəzən adam həlak olmağa məhkumdur. Zina cəmiyyətə, ailə həyatına və nəslə zəhər səpilməsidir…***

### *Zindanda da Haqqı Təbliğ*

Yusif عليه السلام zindana atıldığı zaman gərəksiz və faydasız yerə qəmə batıb vaxtını zay etmədi. Yaşadığı şəraitdə hansı saleh əməli işləyə biləcəyini düşündü. Allah-Təalanın özünə lütf etdiyi elmdən istifadə edərək zindan yoldaşlarının heyranlığını qazandı və onlara tövhid inancını izah etməyə başladı.

Zindan yoldaşları çox qəribə yuxu görmüşdülər. Yusif عليه السلام bunların yozumunu bildiyini söyləyərək onların diqqətini çəkdi. Bunu fürsət bilərək ilk növbədə

tövhidi təbliğ etməyə başladı. Özünün haqq din üzrə olduğunu, sahib olduğu elmin Allah tərəfindən bəxş edildiyini və misirlilərin səhv yolda olduğunu açıqladı. (Bax. Yusif, 36-41)

Rəvayət edildiyinə görə Həzrət Yusif zindanda xəstələri ziyarət edər, onları sağaltmağa çalışar, qulluqlarında durardı. Dərd-qəmi olanlara təsəlli verər, dara düşənlərin kədərini dağıdar, möhtaclara yardım edərdi. (Qurtubi, IX, 190)



Burada diqqət çəkən bir xüsus Həzrət Yusifin izlədiyi metod və üslubdakı gözəllik və incəlikdir. Diqqət çəkən başqa xüsus isə bir möminin ən çətin şərtlər altında belə İslamı təbliğ edib saleh əməl işləməyi ikinci plana atmamasının zərurətidir. Yəni Allah yolunda xidmət üçün fəaliyyətsiz oturub münasib şərtlərin olmasını gözləmək yox, ən çətin şərtlərdə belə əldən gələn əməyi göstərib Allah üçün edilə biləcək xidmətlərin yollarını araşdırmaq və buna zəmin hazırlamaq lazımdır.

***Fərasətli bir mömin hansı vəziyyətdə olmasına baxmayaraq əsla ümidsizliyə düşməz və bütün şərtlərdə xidmət üçün fürəst tapar. Çarəsizlərin çarəsi Allahdır.***

### *Həzrət Yusifin Gənc Heyəti*

Həzrət Yusif zindandan çıxıb Misirdə yüksək vəzifə tutduğu zaman gənclərdən ibarət bir heyət qurdu. Bu “(Yusif) **əmrindəki gənclərə dedi ki…**”[18] ayeyi-kəriməsindən anlaşılmaqdadır.

18. Yusif, 62.

Çünki gənclər yaşlılara nisbətdə daha dözümlü və dinamik olurlar. Xüsusilə də maddi və mənəvi cəhətdən təlim-tərbiyələrinə əhəmiyyət göstərilibsə, liderlərinin rəhbərliyi ilə çox gözəl nəticələrə nail olarlar.



## Həzrət Musa və Gənc Köməkçisi Yuşa عليه السلام

Qurani-Kərimdə Həzrət Musanın qissəsinə çox yer verilmişdir. Orada gənclərin tələskən və səbirsiz olmamaları, ani hərəkətlərdən və günah işləməkdən bacardıqca uzaq durmalarının lüzumundan bəhs olunur. Cəsarət, tədbir, Allaha sığınma, Allah rizası üçün fədakarlıq etmək, ixlas və səmimiyyətlə qarşılıq gözləmədən yaxşılıq etmək, ədəb, həya, əmin olmaq, sözündə durmaq və işini sağlam görmək kimi gözəl vəsflər tövsiyə edilir. Gənclərə mühüm vəzifə və məsuliyyətlər verilə biləcəyinə diqqət çəkilir.[19]

Həzrət Musa Xızır عليه السلام ilə görüşməyə gedərkən yanında gənc xidmətçisi Yuşa عليه السلام da vardı. Bu gənc Həzrət Musaya ixlasla xidmət edir, böyüklərə necə hörmət və xidmət ediləcəyinin örnəyini sərgiləyirdi. (Bax. əl-Kəhf, 61-65)

Rəvayət olunduğuna görə Həzrət Musa عليه السلام bu fərasətli gənci ordusunun başına komandan təyin etmiş, vəfatından sonra da yerinə xəlifə qoymuşdur.

***Xızırın عليه السلام Musaya عليه السلام qəribə və hikməti məchul hadisələri göstərdiyi səyahət əsnasında bir sərçə gəlib mindikləri gəmiyə qondu. Sonra dənizdən dimdiyi ilə su götürdü. Xızır عليه السلام bu mənzərəni Musa Peyğəmbərə göstərərək belə buyurdu:***

***"- Allahın elminin yanında sənin, mənim və bütün məxluqatın elmi bu quşun dənizdən dimdiyinə aldığı su qədərdir." (Buxari, Təfsir, 18/4)***

19. Taha, 17-18; əl-Qasas, 14-28.



*İnsanın hal və davranışları üzərində iki şeyin çox böyük təsiri var:*

*1. Yediyi qidanın halal və ya haram olması: Halal qida insana feyz və ruhaniyyət, haram qida isə səfalət və ağırlıq verir.*

*2. Sevdiyi insanların mənəvi halı. İnsan sevdiyi saleh kimsələrin gözəl hallarından, fasiqlərin də pisliklərindən payını alır.*

## Əshabi-Kəhf

Əshabi-Kəhf bütpərəst və zalım hökmdar olan Dakyanus dövründə Tarsusda yaşamış, iman və tövhid mücadiləsi vermiş bir qrup əməlisaleh gənclərdir.

Onlar imanlarında səbat və dözümlülük göstərib zülmlərə qatlanmaları və Allahın yolundan ayrılmamaları səbəbiylə mədh edilmişlər. Qiyamətə qədər gələcək bütün möminlər onları heyranlıqla yad edəcəkdir.

Kral Dakyanusun yaxınlarından olan bu gənclər qaranlıq və batil inanclar arasında həqiqəti tapmışdılar. Allaha sığınıb daima dua edərək yaşayırdılar. Allah da onların imanlarını gücləndirmişdir. Vaxtı gəldikdə isə imanlarını açıq formada nümayiş etdirib möhtəşəm bir iman cəladəti sərgilədilər. Ayeyi-kərimədə belə buyurulur:

**"...Onlar: "Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz Ondan başqa heç bir tanrıya ibadət etməyəcəyik. Əks təqdirdə,** (Allahdan başqasına tapınacağıq, - söyləsək, küfr) **danışmaqda həddi aşmış olarıq!" – dedikləri zaman onların ürəklərinə qüvvət** (mətanət) **vermişdik.** (Gənclərdən biri o birilərinə) (dedi:) **"Bizim bu xalqımız Allahdan başqa tanrılar qəbul etdi. Bəs nə üçün onlar buna aid** (bütlərə dair) **bir dəlil gətirmədilər? Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?!"** (əl-Kəhf, 14-15)

Daha sonra canlarına qəsd edən zalım Dakyanusun əlindən qaçaraq bir mağarada gizləndilər və:

رَبَّنَا اٰتِنَا مِنْ لَدُنْكَ رَحْمَةً وَهَيِّئْ لَنَا مِنْ اَمْرِنَا رَشَدًا

**"Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və işimizə fərəc ver** (çıxış yolu göstər)**!"** deyə dua etdilər. (əl-Kəhf, 10)

Allah-Təala onları mağarada uzun müddət yatırtdı.

**Həzrət Mövlana** belə deyir:

*"Qafillərin içində qalıb onlardan mənfi təsir almaqdansa yatmaq daha üstündür. Allah-Təala Əshabi-Kəhfi fasiqlərin arasından ayırıb onların qəlblərini qəflətdən qorumuşdur."*

Əshabi-Kəhf 309 ildən sonra oyandıqda mağarada çox az bir müddət qaldıqlarını zənn etdilər. Şəhərdən ərzaq almalı idilər. Ancaq ən çox qorxduqları şey imanlarını qorumaq və haramdan uzaq olmaq idi. Allah-Təala bu xüsusa belə işarə edir:

**"…Belə dedilər indi içərinizdən birini bu gümüş pulunuzla şəhərə göndərin ki, görsün ən təmiz təam hansıdırsa, ondan sizə ruzi** (yemək alıb) **gətirsin. O, çox ehtiyatlı olsun** (ağıllı hərəkət etsin) **və sizin barənizdə heç kəsə bir xəbər** (nişan) **verməsin! Doğrusu, onlar sizi ələ keçirsələr ya sizi daşqalaq edəcək, ya da öz dinlərinə döndərəcəklər. Belə olacağı təqdirdə, siz** (nə dünyada, nə də axirətdə) **nicat tapa bilməzsiniz!"** (əl-Kəhf, 19-20)

Bu ixlas və səmimiyyətləri nəticəsində onlar Allahın vədinin haqq olduğuna, Onun gücünün

*"Əshabi-Kəhfin köpəyi sadiqlərlə bərabər olduğu üçün böyük bir şərəf qazandı, adı Qurana və tarixə düşdü. Nuh və Lut Peyğəmbərin xanımları isə fasiqlərlə birlikdə olduqları üçün küfrə düçar oldular."*

*(Şeyx Sədi Şirazi)*





hər şeyə çatdığına, qiyamət, ölümdən sonra diriliş və axirətin şübhəyə yer verməz həqiqətlər olduğuna dəlil oldular. (Bax. əl-Kəhf, 21)

## Əshabi-Rəqim

Qurani-Kərimdə zikr olunan "Əshabi-Rəqim" İsrail oğulları zamanında yaşamış üç gənc idi. (Bax. əl-Kəhf, 9)

**Rəsulullah** ﷺ onların bir çox cəhətdən ibrətlərlə dolu qissəsini belə nəql edir:

"Sizdən əvvəlki ümmətlərdən üç nəfər səfərə çıxmışdı. Onlar yolda ikən Yağış yağmağa başladı. Daldalanmaq üçün dağdakı bir mağaraya sığındılar. Bu zaman dağdan bir daş yuvarlanıb mağanın ağzını tamamən kəsdi. Bir-birilərinə:

"- Vallah bizi buradan sədaqətdən başqa heç nə xilas edə bilməz. Ona görə də hər biriniz sədaqətlə işlədiyi bir əməlini vəsilə edərək Allaha dua etsin!" –dedilər.

Aralarından biri belə dua etdi:

"- Allahım! Ata-anam çox yaşlı idilər. Mən ailəmə onlardan əvvəl heç nə yedirib-içirməzdim. Bir gün heyvanları otarmaq üçün uzaqdakı bir meşəyə getmişdim. Evə qayıdanda atamla anam yatmışdılar. Onlardan əvvəl ailəliklə süd içməyi xoş qarşılamadım. Ata-anamı da oyatmaq istəmirdim. Əlimdəki süd çanağıyla oyanmalarını gözlədim. Nəhayət gün çıxarkən atam-anam oyandılar və süddərini içdilər.

***Bolluq və rahatlıq anlarında Allahı unutma ki, sıxıntılı və çətin zamanlarda O da səni unutmasın. Çünki həqiqi səadətin yolu ayeyi-kərimədə belə bildirilir:***

اَلَا بِذِكْرِ اللّٰهِ
تَطْمَئِنُّ الْقُلُوبُ

***"...Qəlblər yalnız Allahın zikriylə aram tapar."***
***(ər-Rad, 28)***

Allahım! Əgər bu işi Sənin rizan üçün etmişəmsə, bizi bu bəladan qurtar!"

Bu zaman daş bir az aralandı, lakin çıxmaq üçün əlverişli deyildi. İkinci adam belə yalvardı:

"- İlahi! Əmimin bir qızı vardı. Bir kişi bir qadını nə qədər çox sevə bilərsə mən də onu o qədər sevirdim. Onunla olmaq istədim. Lakin təklifimi qəbul etmədi. Bir neçə il keçdikdən sonra bir qıtlığa düçar olub yanıma gəldi. Dediyimi edərsə yüz dirhəm verəcəyimi söylədim. Çarəsiz qalıb qəbul etdi. Tam əlimi uzadacağım anda:

"- Allahdan qorx, haqsız olaraq möhürümü pozma!" –dedi.

Əlimdə imkan olduğu halda Allahdan qorxaraq ondan uzaqlaşdım. Verdiyim pulları da ona bağışladım.

Allahım! Əgər bu işi sırf Sənin rizanı qazanmaq üçün etmişəmsdə, bu bəlanı bizdən uzaqlaşdır!"

Mağaranın qapısı bir az da açıldı, amma çıxmaq üçün əlverişli deyildi. Üçüncü yoldaşları da belə dua etdi:

"- Allahım! Muzdla işçi çalışdırdım və pullarını verdim. Lakin içlərindən biri pulunu almadan çıxıb getdi. Ona verəcəyim pulu bir işə yatırdım və gəlir əldə etdim. Bir müddət sonra həmin adam yanıma gəlib pulunu istədi. Mən də:



***"Ey iman gətirənlər! Allahdan qorxun, Ona (Onun rəhmətinə və lütfünə qovuşmaq üçün) vəsilə (yol) axtarın. (Allah) yolunda cihad edin ki, nicat tapasınız!"***

***(əl-Maidə, 35)***

*"…Yol tədarükü görün. Ən yaxşı tədarük (azuqə) isə təqvadır."*

*(əl-Bəqərə, 197)*

*"Necə yaşayarsınızsa, elə ölərsiniz. Öldüyünüz kimi də dirilərsiniz."*
*(Münavi, Feyzul-Qadir, V, 663)*

"- Bu gördüyün dəvə, öküz və qoyun sürüləri sənin pulunla artıb. Hamısını götür, sənin olsun!"

O da:

"- Ey Allahın bəndəsi! Məni məsxərəyə qoyma!" –dedi.

"- Səni məsxərəyə qoymuram, həqiqəti söyləyirəm." –dedim. O da bütün mal-qaranı sürüb apardı.

İlahi! Əgər bunu Sənin rizan üçün etmişəmsə, bu bəlanı dəf et!"

Nəhayət daş mağaranın ağzından çəkildi, onlar da içəridən çıxaraq yollarına davam etdilər." (Bax. Buxari, Ədəb 5, Ənbiya 53, Büyü 98, İcarə 12, Hars 13; Müslim, Zikr, 100; Əhməd, IV, 274)

Biz də bu gənclər kimi o qədər gözəl saleh əməl işləməliyik ki, həyatda qarşımıza çıxan bəla, müsibət və imtahan anlarında onlara sığına bilək! Bu əməlimizlə təvəssül edərək Allahdan yardım istəməyə üzümüz olsun!"



## Həzrət Loğman (əleyhissəlam) və Oğlu

Hikmət sahibi olan Loğman (əleyhissəlam) oğluna nəsihət edərkən ilk növbədə Allaha şirk qoşmamasını, belə ki şirkin böyük bir zülm və xəta olduğunu vurgulayır. Qurani-Kərimdə bu nəsihətlərin xəbər verildiyi ayələrdən sonra Rəbbimiz ata-ana haqqına diqqət çəkərək onların övladları üçün qatlandıqları fədakarlıqdan bəhs edir. Allaha və onlara qarşı böyük bir vəfakarlıq və şükür duyğusuna sahib

olamağımızın lüzumunu bəyan edir.

Daha sonrakı ayeyi-kərimələrdə bildirildiyi kimi Loğman عليه السلام etiqad, ibadət və əxlaqa dair mövzularda oğluna bu qiymətli nəsihətləri edir:



**“Oğlum,** (dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş) **bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın** (daşın) **içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu** (qiyamət günü) **ortaya gətirər** (onun haqq-hesabını çəkər)**. Həqiqətən, Allah lətifdir** (bütün incə, nazik işləri biləndir; lütfkardır), (hər şeydən) **xəbərdardır! Oğlum! Namaz qıl,** (insanlara) **yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə.** (Bu yolda) **sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu** (dediklərim) **vacib əməllərdəndir! Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz! Yerişində müvazinət gözlə** (nə çox yeyin, nə də çox asta get) **və** (danışanda) **səsini qaldırma. Çünki ən çirkin səs uzunqulaq səsidir!”** (Loğman, 16-19)

Müsəlman gənc böyük bir ədəb, nəzakət, zərafət və əxlaqa sahib olmalıdır. Bunların əsası da yuxarıda zikr edilən ayələrdə bəyan edilmişdir.

## Həzrət Yəhya عليه السلام

Həzrət Yəhya ilə Həzrət Məryəm xala uşaqlarıdır. Yəhya عليه السلام uşaqlıq illərindən etibarən ibadətlə ye-

***Rəsuli-Əkrəm ﷺ Loğman Həkimdən xəbər verərək belə buyurdu:***

***“Loğman oğluna “Allah-Təala özünə əmanət edilən şeyi qoruyar! Mən də səni, malını, dinini və əməlinin sonunu Allah-Təalaya əmanət edirəm!” -dedi.”***

***(İbn Hənbəl, II, 87)***

tişmiş bir mömin idi. Ona peyğəmbərlik rüşd (yetişkinlik) çağında verilmişdir. Yəhya عليه السلام hədsiz dərəcədə iffətli həyat yaşamış, zalım bir hökmdarın iffətsizliyinə qarşı çıxdığı üçün şəhid edilmişdir.

Allah-Təala Onun möcüzəvi doğumunu yaşı xeyli keçmiş olan atasına müjdələyərkən saleh bir gəncdə olması vacib olan bu gözəl vəsflərə diqqət çəkmişdir:

- Özündən əvvəlki peyğəmbərləri təsdiq etməsi,
- Alicənab,
- İffətli və
- Saleh olması (bax. Ali-İmran, 39)

Allah-Təala Yəhyaya عليه السلام rüşd çağında ikən nazil etdiyi kitaba möhkəm bağlanmasını əmr etdi:

**“Ey Yəhya! Kitabdan bərk yapış. Biz uşaq ikən ona hikmət verdik.”** (Məryəm, 12)

Gəncliyini Allahın rizası istiqamətində keçirən Yəhya عليه السلام Qurani-Kərimdə bu gözəl vəsfləriylə mədh olunur:

**“Biz həm də ona Öz dərgahımızdan bir mərhəmət** (yaxud insanlara qarşı şəfqət) **və** (günahlardan) **paklıq bəxş etdik. O,** (çox) **müttəqi idi.** (Yəhya) **ata-anasına qarşı da olduqca itaətkar** (nəvazişkar) **idi…”** (Məryəm, 13-14)

***Yəhya عليه السلام üç təhlükəli gündə Alalhın rəhmətinə nail olmuşdur:***

***“Ona doğulduğu gün də, öləcəyi gün də, (qiyamətdə) diriləcəyi (qəbirdən diri olaraq qaldırılacağı) gün də salam olsun!”***

***(Məryəm, 15)***

***Beydavi bu ayəni belə izah edir: “İnsanlara ürcah olan şeytan Ona həyatı boyu zərər verə bilməsin! Qəbir əzabından xilas olsun! Hesab qorxusu və cəhənnəm əzabı görməsin!”***



Yəhya ﷺ şəhid edilərkən təxminən otuz yaşında idi

## Həzrət İsa عليه السلام

İsa عليه السلام İsrail oğullarına göndərilən peyğəmbərlərin sonuncusudur. Peyğəmbrələrin ən ucalarından və **"ülül-əzm"** deyilən beş peyğəmbərdən biridir.

Allah-Təala Həzrət İsanın doğumunu müjdələyərkən Onun dünyada və axirətdə şərəfli və etibarlı, Allaha yaxın və saleh bir qul olacağını xəbər vermişdir. (Bax. Ali-İmran, 45-46)

İsa عليه السلام Allahın izniylə hələ beşikdə ilən danışdıqda bu ülvi vəsflərə diqqət çəkmişdir:

**"Mən, həqiqətən, Allahın quluyam. O mənə kitab verdi, özümü də peyğəmbər etdi. O, harada oluramsa olum, məni mübarək** (həmişə hamıya xeyir verən, dini hökmləri öyrədən) **etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu. O, həmçinin məni anama qarşı olduqca itaətkar** (nəvazişkar) **etdi,** (heç kəsə qarşı) **zülmkar, asi** (dikbaş) **eləmədi!"** (Məryəm, 30-32)

Həzrət İsaya otuz yaşında peyğəmbərlik verildi. O da dərhal vəzifəsini icra etməyə başladı. Bu yolda çox əziyyətlərə qatlandı. Otuz üç yaşına gəldikdə yəhudilər tərəfindən öldürüləcəyi əsnada Allah-Təala Onu səmaya yüksəltdi.

*Həzrət İsa عليه السلام buyurur: "Asilərə düşmən olmaq surətiylə Allaha dost olun! Asilərdən uzaq olmaqla Allaha yaxın olun və onlara nifrət edərək Allahın rizasına nail olun!.." Həqiqi iman layiq olana məhəbbət, haqq edənə də nifrətdir. Necə ki, Məsəd surəsində Həzrət Peyğəmbərin əmisi olmasına baxmayaraq azğın müşrik olan Əbu Ləhəbə nifrət etməmiz təlqin olunur.*



# Həzrət Məryəm

***Rəsulullah ﷺ Həzrət Məryəm haqqında belə buyurmuşdur:***

***"İmran qızı Məryəm öz dövründə dünyada olan qadınların ən xeyirlisidir…"*** ***(Müslim, Fəzailus-Səhabə, 69)***

Həzrət Məryəm çox gənc yaşda özünü ibadətə və xidmətə həsr etməsi, iffəti, səbri və Allaha təslimiyyəti ilə ən gözəl nümunə olmuşdur. O, Allahın rizasına və bir çox ehsanlarına nail olmuş gənc qızdır. Allah-Təalanın tərbiyəsi və Həzrət Zəkəriyyənin himayəsi altında zərif bir çiçək kimi yetişmişdi. Hələ dünyada ikən cənnət nemətlərinə nail olmuş, Cəbrayılı عليه السلام görmüş və möcüzəvi şəkildə böyük bir peyğəmbərin anası olmaq şərəfinə nail olmuşdu.

Qurani-Kərimdə adı zikr olunan yeganə xanım odur. Quranın 34 yerində adı çəkilir.

Anası Həzrət Məryəmi dünyaya gətirdikdə onu və zürriyyətin şeytanın şərindən qoruması üçün Allaha sığındı.[20] Deməli, hər işdə daima Allaha sığınmaq lazımdır.

Allah-Təala belə buyurur:

**"**(Allah mömin qadınlara) **namusunu (ismətini) möhkəm qoruyub saxlamış İmranın qızı Məryəmi də misal çəkdi. Biz ona Öz ruhumuzdan üfürdük. Məryəm Rəbbinin sözlərini və kitablarını təsdiq etdi və** (Allaha) **itaət edənlərdən oldu."** (ət-Təhrim, 12; əl-Ənbiya, 91)



Həzrət Məryəm gecə gündüz ibadət edərdi. İsrail oğulları arasında təq-

20. Bax. Ali-İmran, 36.

vasıyla məşhur idi. Hətta kəramətləri dillərdə dastan olmağa başlamışdı. Quranda ondan “siddiqə” deyərək bəhs olunmuşdur.



Allah-Təala belə buyurur:

“(Ya Peyğəmbər!) **Xatırla ki, bir zamanlar mələklər belə demişdilər: “Ya Məryəm, həqiqətən, Allah səni seçmiş,** (eyiblərdən) **təmizləmiş,** (cəmi) **aləmlərin** (bütün dünyanın) **qadınlarından üstün tutmuşdur. Ya Məryəm, öz Rəbbinə itaət et, səcdəyə qapan və rüku edənlərlə birlikdə rüku et!** (Namaz qılanlarla bir yerdə namaz qıl!)**”** (Ali-İmran, 42-43)

Rəsulullah ﷺ Həzrət Məryəm haqqında belə buyurmuşdur:

*“İmran qızı Məryəm öz dövründə dünyadakı qadınların ən xeyirlisidir. Bu ümmətin qadınlarının ən xeyirlisi də Xədicədir.”* (Müslim, Fəzailus-Səhabə, 69)

Xülasə, Allah-Təala Həzrət İsanı və anası Həzrət Məryəmi yaşadıqları təmiz, iffətli və Allaha itaətlə dolu həyatları səbəbiylə qüdrətinə bir əlamət qılmışdır. (Bax. əl-Muminun, 50)

## Həzrət Asiyə

Fironun xanımı olan **Həzrət Asiyə** əsa möcüzəsini görüb Musaya عليه السلام iman gətirdi. Firon bundan xəbər tutduqda ona şiddətli işgəncələr etdi. Böyük mismarlarla yerə vurub üstünə böyük qaya qoydurdu

***Mömin metalların içindəki qızıl kimidir. Palçığa da düşsə qiymət və saflığına zərər gəlməz. Eynilə Asiyə anamız kimi… O əməlisaleh xanım zalım Fironun zövcəsi olduğu halda qəlbindəki ixlası, sədaqət və təqvasını, imanını qorudu. Canını fəda etsə də imanından dönmədi.***

***Fərasət sahibi olan kamil möminlər imanın qazandırdığı fərasət sayəsində hadisələri axirət pəncərəsindən seyr edərlər. Bu səbəbdən daima mənfi-müsbət, yani fayda-zərər hesabı edərlər. Buna görə də onların iman eşqi qarşısında dünyəvi əza və cəfaların, müvəqqəti çilə və iztirabların sözü ediləcək qədər də qiymati yoxdur…***

və qızmar günəş altında saxladı. Məhz o vaxt Həzrət Asiyə məşhur duasını etdi: Allah-Təala belə buyurur:

**"Allah iman gətirənlərə isə Fironun zövcəsini** (Asiyə bint Məzahimi) **misal çəkdi. O zaman o: "Ey Rəbbim! Mənim üçün Öz dərgahında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən qurtar. Məni zalım qövmdən xilas et!" – demişdi."** (ət-Təhrim, 11)

Bu duanın ardınca dərhal ona cənnətdəki məqamı göstərilib heç acı çəkmədən ruhu alındı.

**Rəsulullah** ﷺ belə buyurmuşdur:

*"Cənnət qadınlarının ən fəzilətliləri Xədiccə binti Xuveylid, Fatimə binti Məhəmməd, Məryəm binti İmran və fironun xanımı Asiyə binti Müzahimdir."* (Əhməd, I, 293)

**Sələbi** *Əraisul-Məcalis* adlı əsərində belə deyir:

Fərasət baxımından qadınların ən üstünü ikidir. İkisi də Həzrət Musa haqqındakı qərarında dəqiq olmuşdur. Biri Fironun xanımı Asiyədir. (O, Musa عليه السلام hələ uşaq ikən saraya gətirildikdə Firona:)



"- Bu uşaq mənim və sənin üçün göz nuru olsun! Onu öldürmə!" –demişdi. Həqiqətən də elə olmuş, Həzrət Musaya iman gətirərək cənnəti qazanmışdı.

Digəri isə Şüeybin عليه السلام qızıdır. O da Musa عليه السلام haqqında:

"(O iki qızın) **biri dedi: "Atacan! Onu**

**muzdla** (çoban) **tut, çünki bu güclü, etibarlı adam** (indiyə qədər) **muzdla tutduqlarının ən yaxşısıdır!”** (əl-Qasas, 26)

Bunu necə bildiyini soruşduqda isə belə dedi:

“- Bura gələrkən arxamca gəlməyi münasib saymadı. Mənə dedi ki:

“- Ey Allahın bəndəsi, arxamca gəl və hansı tərəfə gedəcəyimi de!”

Bu hərəkətindən onun çox əmin bir insan olduğunu anladım.”[21]

***Fərasət Allah-Təalanın sevdiyi bəndələrinin qəlblərinə lütf etdiyi bir nurdur. Qəlbə gələn səmimi hisslər və nail olunan ilhamlar sayəsində hadisələrin iç üzünü, zehnlərdən və qəlblərdən keçənləri təxmin müəyyən etməkdir. Şübhəsiz ki, bu fərasətə nəfsinin təkəbbüründən xilas olub Allahın nuruyla baxanlar nail ola bilərlər.***

21. İkinci qismlə bağlı bax. Darimi, *Müqəddimə* 56/653; Əbu Nuaym, *Hilyə*, III, 234-236.

# Müsəlman Gəncin Həyat Anlayışı

# Müsəlman Gəncin Həyat Anlayışı

*Qafilanə bir həyat uşaqlıqda oyun, gənclikdə şəhvət, yetkinlikdə qəflət, ixtiyarlıqda əldən çıxanlara həsrət və min bir peşmanlıqdan ibarətdir.*

Sağlam ağla və mühakiməyə sahib olan insan heç düşünməzmi ki, bircə çəyirdəyin çatlamasından bahar şənliyinə, mikro aləmlərdən makro aləmlərə qədər kainatdakı hər şey nə qədər də dəqiq nizam və ahəng içində davam edir. Bəs bu ahəngin sənətkarı kimdir? Kainatda insan idrakını aciz qoyan bu mükəmməl nizam təfəkkür əhli üçün hikmət və ibrətlər mənzuməsi deyimli? Bu sualların cavabı ən gözəl şəkildə Qurani-Kərimdə verilir. Allah-Təala buyurur:

**“Biz göyləri, yeri və onların arasında olanları oyun-oyuncaq** (əyləncə) **yaratmadıq!”** (əd-Duxan, 38)

**“Yoxsa sizi əbəs yerə yaratdığımızı və** (qiyamət günü dirilib haqq-hesab üçün) **hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?”** (əl-Muminun, 115)



**“Məgər insan elə güman edir ki, o, başlı-başına buraxılacaq?!”** (əl-Qiyamə, 36)

İnsan bu həqiqətlərin idrakı içində yaşamalıdır. Xüsusilə gənclik dövründə bu şüura sahib olmaq çox mühüm bir məsələdir.



Gənclik iman həyəcanının idrak edilə bildiyi nisbətdə qiymət qazanır. İman, ölüm, axirət kimi həqiqətləri unudaraq həyatını sadəcə bu dünyaya həsr edib əbədi aləmi arxa plana atan bir gənclik həm özünü, həm də cəmiyyəti həlaka sürükləyir.

**Mövlana həzrətləri** bu kimi insanlara belə səslənir:

*"Özünə gəl, ey yolçu! Axşam oldu, ömür günəşi batmaq üzrədir… Güc-qüvvətin varkən bu iki günlük ömründə comərd ol, saleh əməllər işlə!..*

*Əlində qalan ömür toxumunu yaxşı ək ki, bu iki nəfəslik fani dünyadan sonsuz bir cənnət ömrü əldə et… Çox qiymətli olan bu ömür çırağı sönmədən ağlını başına al. Bu çırağın fitilini düzəlt, tez yağını tök, yəni xeyir-həsənat işləyərək son günlərini saleh əməl və ibadətlə keçir, könül çırağını yandır.*

*Ağlını başına al və bu işi sabaha qoyma. Neçə sabahlar gəlib keçdi. Tez tövbə və istiğfarla işə başla ki, əkin mövsümü keçməsin.*

*Nəsihətimə qulaq as! Nəfs güclü bir buxovdur. Yaxşı əməllər işləməyə əngəl olar. Haqq yolunda sənə mane olar. Yenilənmək, özünü təmir etmək istəyirsənsə, köhnəni çıxar at, bədənə aid istəklərdən vaz keç; ruhani zövqləri, mənəvi həyəcanı və ləzzətlərin ardınca düş!"*

Allah-Təala insanı sadəcə özünə qul olmaq üçün yaratmışdır. İmanın kamilliyi insanın yalnız Allaha qul olub fanilərin və mənfəətlərinin köləsi olmamasıdır.

***"Bugünü düşünürəm, dünən keçdi, sabah varmı?***

***Gəncliyə də güvənməm, ölən həp ixtiyarmı?"***

***"Hər kəs öləcək yaşdadır. Məzarlıqlarda hər yaşdan ölülər var!.."***

**Məhəmməd İqbal** nəfsinin və fanilərin bütpərəsti olanları;

***"Mən heç bir köpəyin başqa bir köpəyin önündə əyilib səcdə etdiyini görmədim"*** sözləriylə öz hallarını düşünməyə dəvət edir.

Allah-Təala göydə və yerdə nə varsa hamısını özünə qulluq edəcək insanların xidmətinə vermişdir.[22] Bu qulluğu da eşq, şövq və vəcd içində yaşaya bilmələri üçün onlara təfəkkür, hissiyat, məhəbbət kimi qəlbi keyfiyyətlər lütf etmişdir.

Kor bir insan belə istiliyindən günəşin doğduğunu anlayar. Elə isə ağıl və idrak sahibi olan bir insanın ilahi qüdrət axışları və əzəmət təcəllilərı qarşısında laqeyd və hissiyatsız qalması nə qədər acıdır. Qəlbi diri olanlar üçün zərrədən kürrəyə qədər hər şey ilahi qüdrət və əzəmətin dəqiq şahidi, ilahi sənətin vitrini deyimli?

Nəticə etibarilə həqiqəti anlayıb onunla məşğul olmaq gerçək istiqbal olan axirət tədarükü görmək qulun hədəfi olmalıdır. Fani nemətlərin bər-bəzəyinə aldanmamaq gərək.

***Bir Haqq dostu belə buyurur:***

***"Bu dünya ağıl sahibləri üçün seyri-bədayi, yəni hər biri ilahi sənət xariqəsi olan məxluqatı ibrətlə tamaşa etmək, axmaqlar üçünsə yemək və şəhvətdən ibarətdir."***

**Həzrət Mövlana** gənclik və qocalığı necə də gözəl müqayisə edir:

*"Sən, ey ilk bahar gözəlliyinə qarşı dodağını dişləyib heyran olan kimsə! Bir də payızın saralmış halına və soyuqluğuna bax. Şəfəq vaxtında gözəl Günəşin doğuşunu*



22. Bax. əl-Casiyə, 13.

*Həzrət Mövlana deyir:*

*"Ey yolçu! Aynadakı son naxışa bax! Bir gözəlin ixtiyarlığındakı çirkinliyini və bir binanın xaraba halına gələcəyini düşün, aynadakı yalana aldanma!.."*

*görüncə qürub zamanı onun ölümü demək olan batışını da xatırla. Bu xoş çardaqda -yəni açıq bir səmada-bədirlənmiş ayın lətafətini görürsən; Onun bir də ayın sonlarına doğru uğradığı halını, incələrək zəiflədiyini, bədirlənmiş halına həsrətini düşün!*

*İnsan da eynən bu macəranı yaşayar: kamalı və camalı zavala məhkumdur. Gözəl bir uşaq, baxarsan ki, gözəlliyi ilə hamının sevimlisi olmuşdur. Bir müddət sonra ələ salınan bir ixtiyar halına gələr və xalq içində rəzil olar.*

*Əgər gümüş bədənli gözəllər səni ovladısa, ixtiyarlıqdan sonra bir də pambıq tarlasını xatırladan o bədənə bax. Ey yağlı-ballı yeməklər və dadlı qidalar görüb iştahı qabaran kəs! Həlaya get və onların aqibətini orada gör! Ona de ki: sənin o gözəlliyin, gözəl qoxun və boşqab içərisindəki zövqü-lətafətin hanı? Cavabında deyər ki: o saydığın şeylər qönçə idi, mən də qurulan bir tələ. Sən o tələyə düşüncə qönçə əridi, soldu və pisliyə döndü.*

*Ustaları heyran qoyan elə məharətli əllər vardır ki, sonunda titrək olmuşlar. Parlaq və nərgiz baxışlı qumral bir gözü, sonda suları axan bir halda görərsən! Aslanlar səfində olan aslan kimi igid bir ər, gün gələr siçan kimi aciz birinə məğlub olar.*



*Ağılları başdan alan müşk qoxulu və qıvrım bir zülf ixtiyarlıqda yabanı ulağın quyruğu kimi çirkinləşir.*

***Hər kim ki, nəfsin əsiri olmaqdan və məcazlara (kölgələrə) aldanmaqdan qurtularsa, Allaha o qədər yaxınlaşar.***

*Ey insan, dünyadan bir-birinə zidd olan iki səs gəlir. Əcəba, sənin qəlbin hansını almaqda istedadlıdır?.. O səslərdən biri Allaha yaxınlaşanların halı, digəri isə aldananların halıdır.* ***Bu səslərdən birini qəbul etdinmi, o birini duymazsan artıq. Çünki sevən adam sevdiyinin ziddi olan şeylərə qarşı adətən, kor və kar olur.*** *Ey yolçu! Aynadakı son naxışa bax! Bir gözəlin ixtiyarlığındakı çirkinliyini və bir binanın xaraba halına gələcəyini düşün, aynadakı yalana aldanma!..”*

## DİN, DİL və TARİX ŞÜURU

Müsəlman bir gənc **din, dil** və **tarix** şüuruna sahib olmalıdır. Çünki fərdlər və cəmiyyətlər bunlarla qaim olur, həyatlarını bunlarla davam etdirirlər.

Burada əbədi səadətə nail olmaq istəyən müsəlman bir gəncin həyatını üzərində inşa edəcəyi bu və bu kimi təməl əsaslara qısaca təmas edək:



### a. Din Şüuru

Din kainatın və insanın yaradılış qayəsini qavramağı təmin edir. Qundaqla kəfən arasındakı fani həyatı tənzim edir.

***“Həyatın qayəsi gözəl bir qul olaraq yaşamaq və eyni hal üzrə can verə bilməkdir. Bir ərəb şairi bunu necə də gözəl ifadə edir:***

***Səni anan doğurub atdığı gün dünyaya,***
***Ağlayırdın, bütün aləm gülürdü bir yanda.***
***İndi elə bir ömür sür ki, ölürkən güləsən;***
***Çağlasın göz yaşı halında cahan arxanda…”***



İslam dini insana dünyada vicdan rahatlığı verir, axirətdə isə əbədi səadətə qovuşdurur. Bəndənin böyük eşq və vəcd içində yaşamasını təmin edir. Dolayısıyla bir müsəlman kiçik yaşdan etibarən istiqamətini Quran və Sünnəyə görə müəyyənləşdirməlidir. Unutmamaq lazımdır ki, müvəffəqiyyət və səadəti lütf edəcək olan Allah-Təaladır.

*İlahi nurdan məhrum ağıllar yağsız çıraqlar və ya cərəyansız elektrik lampaları kimidir. Belə bir ağlın insanın yolunu aydınladacaq bir işıq saçması, onu haqqa və xeyrə çatdırması mümkün deyil.*

İnsanın vücudu maddi qidalarla varlığını davam etdirdiyi kimi, ağıl və hisslərinin də din şüuru və iman feyziylə bəslənməsi zəruridir. Əks təqdirdə ağıl və hisslər rəhbər olmaq yerinə sahibini fəlakətə sürükləyər, batil fikir və fəlsəfələrin çıxılmaz dalanlarında insanı pərişan edər.

İlahi nurdan məhrum ağıllar yağsız çıraqlar və ya cərəyansız elektrik lampaları kimidir. Belə bir ağlın insanın yolunu aydınladacaq bir işıq saçması, onu haqqa və xeyrə çatdırması mümkün deyil. Qədim Yunanıstanda ağlın zəifliyini göstərən bir hadisə yaşanmışdır:

Bir gənc hüquq öyrənmək üçün filosofa müraciət edir. Bunun üçün qərarlaşdırdıqları məbləğin yarısı nağd ödənəcək, digər yarısı isə tələbə öhdəsinə götürdüyü ilk məhkəmə işində müvəffəq olacağı təqdirdə ödənəcəkdir. Yəni tələbə ilk işində müvəffəq olarsa deməli tədris mükəmməl olub və müəllim pulun ikinci yarısına haqq qazanmışdır. Lakin təhsil bitdikdən sonra tələbə müəlliminə verdiyi ilk məbləği kifayət sayıb ikinci hissədən vaz keçməsini istəyir. Bu tələbə görə ilk şikayət müəllimlə tələbə arasında gerçəkləşir.

Məhkəmədə tələbə hakimlər heyətinə qarşı:

“- Mən bu məhkəmədə udsam da, uduzsam da sözünü etdiyimiz pulu verməməliyəm.” –deyir.

Hakim  səbəbini soruşduqda isə belə izah edir:

“- Məkhəmədə udsam, qərarınıza əsasən, yox əgər uduzsam ilk məhkəmədə uduzduğuma görə şikayətçi ilə aramızda bağlanan müqaviləyə əsasən heç bir şey verməməliyəm.”



Bunun müqabilində müəllimi olan filosof da eyni şəkildə:

“- Mən bu məhkəmədə udsam da, uduzsam da pulu almalıyam.” –deyir. Yenə hakimin “nə üçün?” sualına cavabən belə deyir:

“- Udsam qərarınıza əsasən, uduzsam şikayətçi ilə aramızdakı müqaviləyə əsasən pulu almalıyam. Çünki mən uduzaramsa o udmuş olacaq və ikinci məbləği almaq üçün lazımi şərt gerçəkləşmiş olacaq və borc verilməlidir.”

Gördüyümüz kimi hər ikisinin də iddiası tamamilə ağla və məntiqə uyğundur. Deməli, vəhy ilə tərbiyə olunmamış bir ağlın və məntiqin bu misalda olduğu kimi zaman-zaman öz hördüyü divarların içində qalması, çıxılmaz dalanlara girməsi mümkündür. Bunun kimi bir çox bəşəri müşkülü belə həll etməkdən aciz qalıb bağlanan bir ağlın sonsuz həqiqətləri bütün cəhətləriylə qavraya bilməsi də imkansızdır. Bu səbəblə ağlın labirintlərdən baş çıxarması onun vəhy ilə tərbiyə edilməsinə və sərhədini aşan həqiqətlərə qarşı ilahi bəyanlara qəlbən təslim olmaq zərurətini qavramasına bağlıdır.

***Ağlın labirintlərdən baş çıxarması onun vəhy ilə tərbiyə edilməsinə və sərhədini aşan həqiqətlərə qarşı ilahi bəyanlara qəlbən təslim olmaq zərurətini qavramasına bağlıdır.***



İnsana ancaq hər şeyi bilən və bütün məxluqatı yaradan Allahın qoyduğu qaydalar xoşbəxtlik və səadət gətirə bilər. İnsan ağlının ortaya qoyduğu sistemlər bəşəriyyətin səadəti üçün heç vaxt müvəffəq olmamışdır. Filosoflar "mənə görə belədir" dedikləri halda peyğəmbərlər "Allahın əmrinə görə belədir" -deyirlər. Peyğəmbərlər ilahi vəhyə istinad etdikləri üçün daima bir-birilərini təsdiq etmişlər. Filosoflar isə həqiqətə çatmaq yolunda yalnız öz ağıllarına güvəndikləri üçün daima bir-birilərinin fikirlərini çürütmüş, eyni zamanda bir-birilərini təkzib edib gözdən salmışlar.

***Filosoflar "mənə görə belədir" dedikləri halda peyğəmbərlər "Allahın əmrinə görə belədir" –deyirlər. Peyğəmbərlər ilahi vəhyə istinad etdikləri üçün daima bir-birilərini təsdiq etmişlər. Filosoflar isə həqiqətə çatmaq yolunda yalnız öz ağıllarına güvəndikləri üçün daima bir-birilərinin fikirlərini çürütmüşlər.***

Bir insanın dünyada və axirətdə səadəti üçün sağlam din şüuruna sahib olması zəruridir. Çünki din fərdləri müqəddəs hisslər, ortaq şüur və vicdan ətrafında birləşdirir. Cəmiyyətləri yüksəldir və inkişaflarına təkan verir. Din eyni zamanda əxlaqi bir müəssisə olaraq insanları Allahın doğru yoluna istiqamətləndirir. Gənclərdə dini şüurun zəifləməsi əxlaqi və hüquqi günahların artmasına və getdikcə anarxiyaya yol açar. Çünki din olmadıqda əxlaqa təşviq edici ünsür qalmaz. Çünki vicdanın heysiyyəti də dinə bağlıdır.

İnsanın daxili aləmi heç vaxt ikinci plana atılmamalıdır. Yalnızlıq, çarəsizlik, qorxular, kədərlər, xəstəliklər və müsibətlər qarşısında ona ümid və təsəlli verən ən möhkəm sığınacaq məhz dindir. Eyni zamanda dini fəaliyyətlər insanı lüzumsuz və zərərli təlaşlardan uzaqlaşdırır və beləcə onu ruhi cəhətdən qoruyur. Həqiqi dindarlarda Allaha itaət, ata-anaya və böyüklərə

hörmət, kiçiklərə sevgi, cəmiyyətdəki insanlara qarşı məsuliyyət, məxluqata şəfqət və mərhəmət kimi əxlaqi duyğular daha canlıdır.

Bu hadisə dinin insanlara necə ülvi duyğular qazandırdığını göstərən gözəl bir misaldır:

"Müsəlmanlar **Mədain** şəhərini fəth etdikləri zaman bütün qənimətləri bir yerə yığdılar. Bu zaman bir nəfər yaxınlaşdı. Əlində bir küp qızıl vardı. Küpü qənimətləri toplayan məmura verdi.

"- Hələ indiyənəcən bu qədər qiymətli bir xəzinə görmədik! Əlimizdəki bütün qənimətlər bu küp qədər qiymətli ola bilməz!.." –dedilər. Qızılları gətirən adamdan soruşdular:

"- Bunlardan özünə bir şey götürdünmü?"

Həmin adam bu möhtəşəm cavabı verdi:

"- Qəlbimdə Allah qorxusu olmasaydı, vallahi bu küpü sizə gətirməz, hamısını özümə götürərdim."

Məmurlar qarşılarındakı adamın əməli-saleh biri olduğunu anladılar və:

"- Sən kimsən?" –deyə soruşdular.

Həmin adam:

"- Vallahi, sizin və başqalarının tərifindən uzaq qalmaq, nəfsimin qürur və riyasından qurtulmaq üçün kim olduğumu sizə



*Nə irfandır verən əxlaqa yüksəklik, nə vicdandır,*
*Fəzilət hissi insanlarda Allah qorxusundandır…*

*(M. A. Ersoy)*



*Mömin daima Rəbbiylə bərabərdir və Ona təslim olmuşdur. Allah-Təala isə həqiqi mənada özünə təslim olub sığınan qulunu başqalarına ram olmaqdan və gərəksiz fani təlaşlardan mühafizə edər.*

deməyəcəyəm. Ancaq bu qədərini deyim ki, mən Allaha həmd edən və Onun mükafatından başqa heç nə istəməyən bir bəndəyəm." –dedi.[23]

Allah qorxusunun meydana gətirdiyi mənəvi güc heç bir maddi güclə müqayisə edilə bilməz. Vicdanlara qoyulmalı olan ən yaxşı gözətçi Allah qorxusudur.

Bu bir həqiqətdir ki, Rəbbinə layiqli qul ola bilən bir mömin qula qul olmaq xəstəliyindən əbədiyyən xilas olur. Bir aslanın qəfəsdə yaşaması fitrətinə zidd olduğu kimi həqiqi bir möminin də nəfsinin əsiri və fanilərin qulu olması yaradılış qayəsinə zidd bir haldır. Mömin zahirən və bədənən ən dərin zindanda bağlı olsa da o, həqiqətdə hürdür. Nə qədər ağır şərtlər altında olursa-olsun daima xoşbəxtdir.

Çünki mömin daima Rəbbiylə bərabərdir və Ona təslim olmuşdur. Allah-Təala isə həqiqi mənada özünə təslim olub sığınan qulunu başqalarına ram olmaqdan və gərəksiz fani təlaşlardan mühafizə edər.

**Ataullah əl-İskəndəri həzrətləri** belə bir təqva halına nail olaraq qəlbi-səlimə qovuşan bir möminin səadətli halını necə də gözəl ifadə edir:

"Ya Rəbb! Səni tapan nəyi itirdi? Səni itirən nəyi tapdı?.."

23. Təbəri, *Tarix,* Beyrut, 1407, II, 465.

*Axirət İnancının Faydaları*

Axirət inancı insanın məsuliyyət şüurunu və əxlaqi tərəfini inkişaf etdirir. Ölümün qorxunc üzünün insan psixologiyası üzərindəki mənfi təsirini aradan qaldırır.

Digər tərəfdən qeyd edək ki, fani və müvəqqəti dünya zövqləri insan ruhuna rahatlıq verə bilməz. Çünki insan fitrətində olan ən köklü arzulardan biri "əbədiyyət arayışı"dır. Məhz axirət inancı da insan oğluna axtardığı bu sonsuzluq üfüqünü qazandırır.




**İsa ﷺ qotur xəstəliyinə yaxalanmış və hər iki gicgahı xəstəlik səbəbindən batmış bir adamla qarşılaşmışdı. Vücudundakı xəstəliklərə əhəmiyyət vermədən:**

**"- Ya Rəbbi! Sənə sonsuz həmd-sənalar olsun! İnsanları bir çoxunu düçar etdiyin dərddən məni xilas etdin!.." –deyirdi.**

**Həzrət İsa o adamın hissiyyat dərinliyini daha yaxşı anlamaq məqsədiylə:**

**"- Allahın sənə vermədiyi hansı dərd var ki?!." –dedi.**

**Xəstə belə cavab verdi:**

**"- Ey Ruhullah! Ən dəhşətli xəstəlik qəlbin Allahdan qafil və məhrum olmasıdır. Şükürlər olsun ki, Allah-Təala məni bundan mühafizə etdi. Mən Allahın qəlbimə verdiyi mərifətullah ləzzəti və sevinci içindəyəm. Ondan başqa dünya nemətlərini görmürən və hiss etmirəm…"**

Mədəniyyət tarixi araşdırıldıqda bəşəriyyətin mənəvi və zehni inkişafında İslamın nə qədər böyük paya sahib olduğunu görmək asandır. Necə ki, Rəsulullah ﷺ qaranlığa batmış cahiliyyət toplumundan fəzilətli bir Əsri-Səadət cəmiyyəti meydana çıxarmışdır.

Din hər zaman üçün cəmiyyətləri məhv olmaqdan qurtarmışdır. İnsan ancaq din sayəsində eqoizmdən və nəfsani arzularına əsir olmaqdan xilas olub insanlığa xidmət imkanı tapa bilmişdir. Çünki haqq din daima məhəbbət, hörmət və nəzakəti təlqin etmişdir.

Din insana mərhəməti, dürüstlüyü, ədaləti,



**Psixiatr Dr. Yusif Qaraçay belə deyir:**

***“Kiçik yaşlarımda anamdan soruşmuşdum:***

***“- Ana, biz öldükdən sonra nə olacağıq?”***

***“- Cənnətə gedəcəyik, oğlum!”***

***“- Bəs ondan sonra nə olacaq? Yəni cənnətdə nə qədər yaşayacağıq?”***

***Anam hər halda yaşımıza azlığı səbəbiylə sonsuzluğu dərk edə bilməyəcəyimi düşünərək böyük rəqəm ifadə edərək məni başa salacağını deşenərək:***

***“- 1000 il yaşayacağıq, oğlum!” –demişdi.***

***O qədər kədərlənmişdim ki, dar düşüncəmlə:***

***“- İstər 10 il, istərsə də 1000 il olsun, sonunda yox olacağıqsa nə mənası var? Mən sonsuzluq istəyirəm, yox olmaq istəmirəm.” –demişdim.***

***(http://www.zaferdergisi.com/article/?makale=182)***

qul haqqına riayəti, insanlara daima yaxşılıq etməyi və pislikdən çəkinməyi əmr edir. Heyvanlara belə şəfqətlə yanaşmağı, dünyanı gözəlləşdirməyi, pisliklərə mane olmağı, lazım gələrsə bu dəyərlər naminə canını da fəda etməyi öyrədir. Bu düsturlara sahib çıxıldıqda dünya səadətlə dolar. Əks təqdirdə dünya qurdlar süfrəsindən fərqlənməz və bütün insanlar bunun zərərini görərlər.

Bir nəfər at almışdı. Heyvan iki yaşında və sağlam olduğu halda iki gündən sonra öldü. Atın yeni sahibi onu satandan şübhələndi. Üç gün ardı-ardına məhkəməyə getsə də qazını yerində tapmadı. Buna görə vaxt itirmədən məsələni araşdırmaq üçün atı baytara apardı. Baytar atın zəhərləndiyini dedi. Bir neçə gündən sonra həmin adam yenidən məhkəməyə yolu düşdükdə qazının yerində olduğunu görüb məsələni ona ərz etdi. Qazı:

“- Nə üçün əvvəlcə mənim yanıma gəlmədin, baytara getdin? İsti-isti gəlsəydin çarəsini tapardıq!” –dedikdə şikayətçi adam:

“- Əfəndim, filan gün gəlmişdim, amma siz yerinizdə yox idiniz!” –cavabını verdi. Bu zaman qazı:

“- Haqlısan, həmin günlərdə burada deyildim. Anam vəfat etdiyi üçün kəndə getmişdim…” –dedi.

Sonra bir az sükut edən Qazı katibə bunları söylədi:

“- Məsələ aydındır. Yaz, katib! İşinin başında olmadığı üçün dəyən zərərin Qazı tərəfindən ödənilməsinə…”

*Allah Rəsulu ﷺ buyurur:*

*“Kim “Rəbb olaraq Allahı, din olaraq İslamı, Peyğəmbər olaraq Məhəmmədi qəbul edib razı oldum” deyərsə ona cənnət vacib olar.”*

*(Əbu Davud, Salət, 36; Tirmizi, Salət, 42)*

Bu gün bəşəriyyətin yeganə xilas yolu İslamdır. Digər dinlər öz hökmünü itirmişdir. Çünki sonra gələn şeylərin özündən əvvəlkilərə nəzərən daha mükəmməl və daha əhatəli olacağı şübhəsizdir. Məhz buna görə də İslam özündən əvvəlki şəriətlərin hökmlərini qaldırmışdır.

Necə ki, gün çıxdıqdan sonra ayın və ulduzun işığına ehtiyac qalmır və günəşin yanında sönük görsənirlər, eləcə də bu gün İslama nisbətlə digər dinlər də belədir. Onlar xüsusi bir qəndil idilər. Günəş çıxana qədər olduqları yeri bir müddət işıqlandırdılar. Həqiqət günəşi olan İslam doğduqdan sonra onlara ehtiyac qalmadı. Günəşi qoyub ulduzların işığı ilə yol tapmağa çalışmaq heç şübhəsiz ki, zəlalətdir. Belə edənlər məqsədlərinə çatmazlar. (Ahmed Hamdi Akseki, İslam Dini, s. 19-20)




## b. Dil Şüuru

Müsəlman gəncin həyat anlayışını təşkil edən əsaslardan biri də “dil şüuru”dur. Çünki dil dinin ortaya qoyduğu haqq və həqiqətin ifadəsi üçün vasitədir. İnsanlar kəlmələrlə düşünür, dil ilə təfəkkür dünyalarını genişləndirirlər. Bu səbəblə müsəlman bir gənc dil və ədəbiyyat sahəsində yetişməli, **“təsirli ifadələr”** işlətməyi öyrənməlidir.

Allah-Təala belə buyurur:

وَعِظْهُمْ وَقُلْ لَهُمْ فِي أَنْفُسِهِمْ قَوْلًا بَلِيغًا

**"…Onlara öyüd ver və onlara özləri haqqında təsirli söz de!"** (ən-Nisa, 63)



Bəzi nadanlar millətimizi mədəniyyətimizin təməlini formalaşdıran İslam meyarlarından uzaqlaşdırmaq üçün dilimizi təhrif etmişlər.

Bu gün təəssüf ki, dilimiz ciddi təfəkkürə imkan verməyəcək qədər məhdudlaşdırılmışdır. Guya türk dilini qorumaq adı ilə dilimizin zənginliyi olan kəlmələr atılaraq talan edilmişdir.

Türk xalqları dillərində "sadələşdirmə" adı altında aparılan bu kimi "budama" fəaliyyətləri mədəniyyətimizə qarşı işlənən xəyanətin açıq bir təzahürüdür.

Məsələn, türk dilində qarşılığının **"savaş"** olduğunu deyib neçə sözün lüğətimizdən çıxarıldığına baxaq:

Hərb, müharibə, cidal, mücadilə, cihad, mücahidə, cəng, müdarəbə, mübarizə, müqatilə…

Halbuki bu kəlmələrin hər biri fərqli məna incəliyinə sahibdir. Onların yerinə sadəcə **"savaş"** sözündən istifadə etdikdə bir çox məna zənginliklərini itirir, hətta onları düşünməz hala gəlirik.

Eynilə; mütəvəffə, mütəvəffiyə, mərhum, mərhumə, meyit, meyyitə, mövta, məslub, məqtul sözləri unutdurulub sadəcə **"ölü"** kəlməsi işlədilir. Bu, canlı bir dili zəiflədib ölümə tərk etmək deyimli? Bu kimi misalları çoxaltmaq mümkündür.

***1890-cı ildə nəşr olunan Redhause Türkce-İngilisce Lügtdə 92 bin türkcə söz vardı. 1945-ci ildə Türk Dil Qurumunun nəşr etdiyi Türkcə Lüğətdə bu say 15 minə qədər azaldıldı. Bu gün sözügedən sayın neçəyə düşdüyünü təxmin etməksə çətin deyil. Bu hal dildəki erroziyaların bəzi nadanların əliylə nə qədər dəhşətli surətdə sürdürüldüyünü göz önünə sərgiləyir.***

*Bu gün Avropa dillərinin hər hansı birindən qrek və latın əsilli sözlər çıxarılsa o dil bəsit bir qəbilə dili səviyyəsinə düşər və anlaşılmaz hala gələr. Bu səbəblə heç bir millət öz dilinə belə bir rəftarı rəva görməmişdir.*

## *Quranın Dilinə Yaxın Kəlmələr Hədəf Alınır*

İşin ən təhlükəli tərəfi də bu facıəni planlayanların qayəsidir. Onların məqsədi yeni nəsillərin islamı təfəkkür qabiliyyətini ortadan qaldırmaqdır. Yəni Quran və ondan doğan təfəkkürü hədəf almaqdadırlar. Xüsusilə Qurana yaxın kəlmələri çıxarıb yerinə mənanı tam ifadə edə bilməyən, başa düşülməsi çətin və daha pisi də əcnəbiləri xatırladan kəlmələri qoymaları bunu göstərir.

Unutmamaq lazımdır ki, kəlmələr bir sıra incə və dərin mənalar ehtiva edir. Hər kəlmənin tarix boyunca daşıdığı xatirələr və mənalar var. məsələn, əcdadımız ərəb dilindən **"süfrə"** sözünü götürmüşdür. Süfrə Allah yolunda hicrət və ya cihad etmək istəyən mücahidin tədarük torbasına verilən addır.[24] Babalarımız bu sözü işlədərək hər tikəni Allah yolunda xidmət üçün güc qazanmaq üçün yediyini ifadə etməkdədir.

Mütəfəkkirlərdən biri belə deyir:

**"Bir milləti dəyişdirmək istəyirsinizsə, əvvəlcə sözləri dəyişdirin!"**

Öz sözləri unutdurulan, əcnəbi təfəkkürə meyil edən və nəhayət Qurandan uzaqlaşdırılan gənclərin nə hala düşəcəyini təxmin etmək heç də çətin deyil. "Bir sözdən nə olar?!" demək düz deyil. Yüz il əvvəl kim deyə bilərdi ki, bütün küçələrimiz, dükanlarımız və demək olar ki, hər şe-



24. Bax. Buxari, Mənaqibul-Ənsar, 45.

yimiz dil vasitəsilə Qərb mədəniyyətinin hakimiyyəti altına girəcək? Amma indi acı bir şəkildə bu vəziyyətə düşmüşük.

Xülasə, danışıq və yazılarımızda Quran mədəniyyətindən gələn sözləri iştədəriksə təfəkkür və hissiyat üfüqümüzdə fərqli bir ruhaniyyətin təcəlli edəcəyi şübhəsizdir.

Bunu da unutmamaq lazımdır ki, din ilə dil arasında çox gülcü bir əlaqə var. Din dil ilə ifadə edilir. Tarix boyunca suhuflar və ilahi kitablar insanlara hər hansı bir dillə çatdırılmışdır. Qurani-Kərimin ən başda gələn möcüzəvi yönü də bəşəri dil üzərində xariqə ifadə tərziylə nazil olmasıdır.

*Peşəsi nə olur-olsun hər müsəlmanın gündəlik danışığında bu zərərli cərəyana qarşı dirənməsi və İslamla yoğrulan kəlmələri işlətməsi bir iman və vətən borcudur. Biz bu dil məsələsinin müsəlmanlar üçün axirət məsuliyyəti olduğunu düşünürük.*

### *Din Dildə Yaşayar*

Bir möminin doğumundan ölümünə qədər həyatının hər anında din və müqəddəs şeylər yer tutur:

Müsəlmanlar qəlblərindəki inanca tərcüməçi olaraq dilləriylə zikr və dua edirlər.

Mömin bir ailədə bir uşaq dünyaya göz açdıqda: **“Allah xeyirli uzun ömür versin, saleh övlad olsun!”** deyilir.



Xəstə ziyarət edildikdə: **“Allah şəfa versin, günahlarınızın bağışlanmasına və dərəcənizin yüksəlməsinə səbəb olsun!”** deyilir.

Ölünün yaxınlarına: **“Allah rəhmət eləsin, məkanı cənnət olsun!”**

deyilir, hamımızın Allaha qovuşacağı xatırladılır.



Yola çıxan: **"Allaha əmanət olun!"** deyir, ötürən **"salamatlıq"** diləyir, yolçu səfər duası oxuyur.

İstirahətə çəkilən dua edər, yatan şükür edər, bir işə başlayan bismillah deyər, ilk alver edildikdə: **"Siftə səndən, bərəkət Allahdan"** deyilir.

Bir möminlə qarşılaşan əvvəlcə salam verir, qarşısındakı da salamı alır… Bu nümunələri istədiyimiz qədər artıra bilərik.

Nəticə:

***Din dildə yaşayar və yaşanan dilə çevrilər. Qurani-Kərim ən zəngin və təmiz dildə nazil olmuşdur. əcdadımız da dilini Quranla zənginləşdirmişdir.***

**"Din dildə yaşayar və yaşanan dilə çevrilər."**

Dindən uzaqlaşdırma siyasətini təqib edənlərin ən mühüm vasitəsi dildir, yəni ondan dini kəlmələri çıxarmaqdır. Zəmanəmizdə təəssüf ki, din dildən uzaqlaşdırılmaqda, yuxarıda misallarını verdiyimiz "zikr və dualar"ın yerini mənasız, əcnəbi mədəniyyətlərə aid və dindən uzaq ifadələr almaqdadır.[25]

### *"Uydurma Dil"ə Qarşı Həssas Olmalıyıq*

Dilimizi bu təxribatdan qurtarmadıqca başımıza gələn min bir bəlanı dəf etməyimiz mümkün deyil. Çünki insanlar kəlmələrlə düşünürlər. Məfhumları və kəlmələri azaldılmış, məhdudlaşdırılmış bir "dil"lə dərin İslami və milli təfəkkürün həycəcan üfüqlərinə açılmaq əsla mümkün deyil. Bu edilmədikcə də hərəkət

25. Prof. Dr. Hayrettin Karaman, Yeni Şafak Gazetesi, 23 Ocak 2005; http://m.hayrettinkaraman.net/yazi/laikduzen/4/0133.htm

və duyğularımızın təməlini təşkil edən təfəkkür cılızlaşır və könül dünyası daralır. Sağlam fikirlər ortaya qoya bilməyən dayaz təfəkkür ilə də milli və mənəvi varlığımıza qəsd edən zərərli cərəyanlara qarşı dirənə bilmərik.



Bunun üçün milli şüurumuza zidd olan və həm məna, həm də tələffüzü pozaraq meydana gətirilmək istənən **"uydurma dil"**ə əsla etibar etməmək lazımdır. Türkcələşdirmə və ya sadələşdirmə adı altında aparılan saxtalaşdırmalar əksəriyyətlə müqəddəs kitabımız Qurani-Kərimin dilimizə ərməğan etdiyi kəlmələrə qarşı aparılmaqdadır.

Mütəfəkkirlərdən biri belə deyir:

**"Bir milləti dəyişdirmək istəyirsinizsə, əvvəlcə sözləri dəyişdirin!"**

### *Yunusların, Füzulilərin Dili*

Unutmamalıyıq ki, biz babalarımızın milli və mənəvi dəyərləriylə bütünləşə bildiyimiz zaman onların qoyduğu müqəddəs əmanətləri şərəflə daşıya bilərik. Ancaq bu şəkildə özümüzə xas milli və mənəvi şəxsiyyətimizi yaşamış olarıq. Bu baxımdan dilimiz maddi və mənəvi dəyərləri bizə ən ləziz şəkildə taddıran Yunusların, Füzulilərin dili olmalıdır. Anadolumuzun həl də istifadə etdiyi "təmiz türk dili" olmalıdır.

Milli və mənəvi dəyərlərimiz talan edilərkən bunu səssizcə seyr etmək əmanətin əldən çıxmasıyla nəticələnə



biləcək bir qəflətdir. Uğrunda neçə-neçə canlar verilərək bugünümüzə gəlib çatan milli və mənəvi dəyərlərimizi mühafizə edək ki, bir daha o ağır imtahanlara məruz qalmayaq.

## c. Tarix Şüuru

**Tarix** bəşəriyyətin yaşadığı hadisələrin səbəb və nəticələrini təhlil edərək millətlərin yoluna işıq tutan məşəldir. Tarix bir millətin hafizəsi və milli təcrübələr tolusudur. Millətlərin qədərindəki eniş və yoxuş təcrübələri onların istiqbalını aydınladacaq ən mühüm işıq mənbəyidir.

Zahirən baxdığımız zaman tarixi hadisələrin səbəbi olaraq son hadisəni görürük. Halbuki ondan əvvəl xırda-xırda baş verən bir çox səbəblər vardır. Kasanı daşdıran son damcıdır, lakin kasanın içindəki bütün damcılar onu yüksəldərək daşmağa hazırlamışdır.

Məsələn, Birinci Dünya Müharibəsinin başlamasına səbəb Avstriya-Macarıstan vəliəhdinin bir serb tərəfindən öldürülməsidir. Halbuki yeganə səbəb bu deyil. Bir çox səbəb əvvəlcədən baş vermiş, vəliəhdin öldürülməsi də son damcı olmuşdur.

Tarix bilgisi səbəb və nəticələri yaxşı təhlil edərək gələcəyə əmin addımlarla irəliləməyi təmin edir. Çünki millətlər müəyyən coğrafi ərazidə ömür sürərək əsl həyatlarını tarixi kökləriylə davam etdirirlər. Bu köklər keçmişdə ortaya qoyulan ehtişamlı əsərlər, zəfərlər və abidə

*Bu gün ölkəmizin çox mühüm problemləri var. Lakin ən az bunlar qədər əhəmiyyətli olan xüsus dilimizdəki qorxunc təxribatdır.*

*Əziz gənc! Hər hansı bir xarici dili öyrənmək üçün zaman və əmək baxımından bir çox fədakarlığa qatlanırsan… Biz az da öz doğma dilini öyrənmək üçün çalışsan olmazmı?..*

şəxsiyyətlər kimi millət ağacını dik tutan mənəvi dinamiklərdir. Belə ki, bütün budaqlar ancaq bu köklərdən bəslənərək yaşayır, çiçək açır və meyvə verir. Bir millətin budaqları da onun sabahını formalaşdıracaq olan yeni nəsli, yəni gəncləridir.

Bir millət əsl tarixini və maddi-mənəvi rəhbərlərini tanıyıb bunları yerli-yerində təqdir etdiyi zaman inkişaf edər. Məhz bu millət böyük millətdir. Yeni nəsillər tarixlərini yaxşı öyrənər və keçmişdən lazımi nəticəni çıxararsa gələcək xüsusunda təlaşa gərək qalmaz. Tarixini pisləyən, özünə yadlaşan, keçmişdəki böyük qəhrəmanlarını xain, xainləri də qəhrəman elan edən bir nəsil yetişərsə, deməli, gələcək qaranlıq və qorxuncdur. Çünki keçmişə istinad etməyənlərin gələcəyi heç vaxt zəmanət altında olmamışdır. Dolayısıyla köklərimiz keçmişə, budaqlarımız gələcəyə uzanmalıdır. Zira **"Üç min illik keçmişinin hesabını apara bilməyən insan günübirlik yaşamağa məcburdur."**

Tarix elmini sadəcə quru bir hadisələr məcmusu olaraq görmək böyük xətadır. Tarix xronoloji hadisələr ardıcıllığı deyil. Əsl tarix **"səbəb və nəticələr"**i diqqətə alaraq hadisələrin təhlilidir. Müxtəlif hadisələr, sürprizlər və macəralarla dolu cəmiyyətlərin həyatlarında haqq və ya batilin, doğru və ya yanlışın zəminini göstərən qiymətli bir elmdir.



**Keçmiş hadisələr gələcəkdə olanlara suyun suya bənzəməsindən daha çox bənzəyər.**

**(İbn Xaldun)**

**"Keçmişini bilməyən gələcəyini də bilməz. Keçmişini yaxşı bil ki, gələcəyə sağlam addım atasan! Haradan gəldiyini unutma ki, hara gedəcəyini yaxşı biləsən!.."**

**(Şeyx Ədəbali)**

> *“Aslanlar nə qədər ki, öz tarixlərini yazmırlar, ovçu hekayələrinə inanmaq məcburiyyətindədirlər.”*

Keçmişi dəyişdirmək heç bir insanın əlində deyil. Lakin gələcəyə istiqamət vermək əlimizdədir. Gələcəyi satın ala bilmək üçün yeganə sərmayəmiz də bugünümüzdür. Bunun üçün əvvəlki xəttalarımızdan dərs alıb daima irəliyə baxmalıyıq. Keçmişdə itirdiklərimizi gələcəkdə əldə edə bilərik. Bu da ancaq ciddi bir tarix şüuruna sahib olmaqla mümkündür. Buna görə hökmdarların və idarəçilərin ən yaxşı məsləhətçisi tarix olmuşdur.

## *İftixar Tablolarımız*



Millətlər yetişməkdə olan gənc nəsillərini daima tarix şüuruyla canlı tutarlar. Məsələn, almanlar təlim-tədrisin başlanğıcında gənclərinə güllə-boran edilən şəhərlərini və yanan meşələrini göstərirlər. Yaponlar da atom bombalarının məhv etdiyi şəhərlərini göstərib keçmişdə yaşadıqları acı fəlakətləri xatırladırlar. Və ya bunun əksinə milli birlik və bərabərlikləri sayəsində qazandıqları zəfərləri və texnologiya sahəsində əldə etdikləri nailiyyətləri göstərib gənc nəsillərinin həyəcanını artırmağa çalışırlar.

Əslində dünyadakı millətlərin çox azı milli iftixar və ibrət tablolarına sahibdir. Onlar da sadəcə bir neçə hadisədir. Biz isə digər millətlərə qismət olmayacaq qədər böyük ölçüdə dastanlarla dolu bir keçmişə sahibik. Millətimiz ruhundan rəhmət saçan Alparslanlardan etibarən fəzilətlər mədəniyyəti inşa edərək əsrlərin qəlbinə öz şanlı tarixinin möhürünü vurmuşdur. Bir

tərəfdə İstanbulun fəthi, bir tərəfdə xaçlılar qarşısında qazandığımız böyük zəfərlər… Bir tərəfdə iyirmi dörd milyon kvadratkilometri aşan fəth bayraqlarımız, bir tərəfdə maddi gücümüz olmadığı zamanda dünya dövlətlərini məğlub etdiyimiz Çanaqqala döyüşləri və İstiqlal Hərbi… Sadəcə bunları layiqincə və doğru oxumaq gələcəyimizi düzgün formalaşdırmağa kifayət edər.

Tarix şüurunu tam və düzgün formalaşdırmaq ən mühüm vəzifələrimizdəndir. Əks təqdirdə böyük bir xəzinənin üstündə zavallı bir dilənçi kimi yaşamağa məhkum olarıq. Necə ki, əcnəbi irs var gücüylə belə bir hissiyatı gənclərimizə aşılamaqdadır. Üstəlik yeni nəslimizin saf beyinlərini yolverilməz bir aşağılıq kompleksi ilə qərəzli istəklərinə qarşı heyran olan ruh əsiri kimi yetişdirməyə çalışmaqdadırlar.

Bunu yaxşı dərk etməliyik ki, atalarımızın müqəddəs əmanəti olan din, dil, tarix və mədəniyyət irsinə layiqincə sahib çıxmaq sadəcə xaraba halına gəlmiş tarixi əsərlərin təmirindən ibarət deyil. Əsas olan o ruh, həyəcan və mədəniyyətin canlandırılması və gələcək nəsillərə ötürülməsidir.

### *Tarix Təkrar Edərmi?*



Dövlətlər də eynilə insanlar kimi doğular, böyüyər və ölər. Bu, dəyişməz bir qədərdir. Xalqı və idarəçisiylə ən gözəl şəkildə İslami tərbiyə alıb o istiqamətdə həyata yön verən dövlətlər ixlas və səmimiyyətlərinin davamı nis-

***Zənn etmə ki, əcdadın əsrlərcə uyurdu,***
***Nərdən bulacaqdın o zaman əldəki yurdu?***
***Üç qitədə yer yer qanayan izləri şahid,***
***Dinlənmədi bir gün o böyük şanlı mücahid!..***
***(M. Akif Ərsoy)***



*“Tarix deyil, xətalar təkrar olunar”*

*(Sultan II Əbdülhəmid Xan)*

bətində uzun yaşayarlar. Bu məziyyətlərini itirməyə başladıqları zaman isə cılızlaşır və tarix səhnəsindən çəkilirlər. Çünki bu fani dünyada sonsuza qədər davam edən heç nə yoxdur. Yüksəlişlər nəhayət tənəzzülllə nəticələnir.

Lakin tənəzzüldə davamlı olmaz. Yenə yüksəliş başlayar. Qədər sirrinə vaqif olanlar və ilahi təcəllilərdəki hikmətə nəzər edənlər bu yüksəliş və tənəzzüllərə nə çox sevinər, nə də kədərlənərlər. Sadəcə onlara düşən vəzifələri ən mükəmməl formada ifa etməyə çalışarlar. Çünki onlar bilirlər ki, tarixdəki saysız-hesabsız hadisələr, eniş-yoxuşlar eynilə ürək kardeqramasına bənzəyən ziqzaqlar, əvvəlkilərdən ibrət alınmadığı üçün təkrar olunur. Şair **Məhməd Akif** bu həqiqəti necə də gözəl ifadə etmişdir:

*Tarixi təkərrür deyə tərif ediyorlar,*
*Heç ibrət alınsaydı təkərrürmü edərdi!?*

Əslində tarixin təkərrür etmə qaydası idrak sahibləri üçün çox böyük bir nemətdir. Kamil insanlar bu qaydanı göz önündə tutaraq tarixin ehtişamlı dövrlərini təkrar etdirməyə çalışarlar. Tənəzzül mərhələlərinə də ibrət nəzəriylə baxaraq gərəkli tədbirləri alarlar. Bu sayədə iman şüuru ilə gələcəyə Allahın rizası çərçivəsində istiqamət verərlər.

***Sən Böyük Millətsən!***

Əziz gənc!

Diqqət edəcəyin ən mühüm xüsus tarixdə yaşananlardan ibrət alaraq nəfsinə qalib gəlmək və onun yalanlarına aldanmamaqdır.

Millətlər **“imanları, dilləri və tarixləri”**ylə yaşayarlar. Torpaqlar da bu əziz varlıqlar üçün “vətən”dir. Sən bu idealda olduğun zaman tarixin gedişatını sən idarə etdin. Dünya sənin üçün bir rinqdi. Avropa ovalıqları cıdır yeri idi. Sən tarix səhifələrindən silinməyəcək qədər saysız-hesabsız medallar aldın. Bu şərəfi düşün; miras olaraq belə bir şərəf sənin üçün kifayətdir!..

Köklü və möhtəşəm keçmişə sahib olan bir övlad kimi bunu da əsla unutma:

Anadolunun qapılarını açarkən bəyaz libasını geyinib “Bu mənim kəfənimdir!” deyərək



***Arnavult əsilli alimlərimizdən Əli Yaqub xoca Osmanlıları çox sevər və daima rəhmətlə anardı. Tez-tez:***

***“Mən Osmanlıları necə sevməyim ki, onlar gəlməsəydi biz küfrün qaranlığı içində qalacaqdıq… Bizim torpaqlarda Osmanlı ilə din məhəbbəti o qədər bir-birinə qarışıb ki, Osmanlı ilə müsəlmanlıq bir-birinin sinonimi olaraq işlənməkədədir. Belə ki, bəzən qeyri-ixtiyari olaraq İslamın şərti yerinə “Türklüyün şərti necədir?” –deyə soruşulmuş, cavabında da İslamın şərtləri sayılmışdır. Mən hər gün xətmi-şərif oxusam, hər nəfəsdə “Ya Rəbb! Bu millətə rəhmət et!” deyə dua etsəm yenə də Osmanlıların haqqını ödəyə bilmərəm!..”***



ordusunun qabaq sıralarında döyüşən **Alparslan**ın varsa,

Ürəklərini bütün məxluqatı şəfqət və mərhəmətlə qucaqlayan bir dərgah halına gətirən könül ərlərin varsa,

Özünü Allaha fəda edib *"Bu zəfərin qurbanı mən olum!"* deyən **I Murad Xan** kimi abidə insanlara sahibsənsə,

***Üç min illik keçmişin hesabını bilməyən insan birgünlük yaşamağa məhkumdur***

**Sən böyük millətsən!..**

*"- Hökmdarım, mənim vəzifəm sənin axirətini qurtarmaqdır!"* deyərək sultanı səhv qərarından döndərən bir elm adamın varsa və ya bunları yetişdirə bilirsənsə sən keçmişdə olduğu kimi, gələcəyin də böyük millətisən!..

Rəiyyətindəki əcnəbiləri onların öz idarəçilərindən daha çox razı sala bilən dəyərli şəxsiyyətlərin varsa və sənin ədalət idealın cəmiyyəti ilmə-ilmə işləyirsə,

İstanbul fəthində qızğın alovların üstünə atılan və *"Bu gün şəhid olmaq növbəsi bizdədir!"* deyərək surlara canı bahasına zəfər bayrağını sancan *Ulubatılı Həsən*lərin varsa,

Özi qalası alındığı zaman xalqın iztirab və kədərini düşünərək qəmə batan və iflic olan *I Əbdülhəmid* kimi örnək şəxsiyyətlərin varsa,

Üfüqlərində Allah Rəsulunun məhəbbətiylə qovrulan hisslərini sulara nəqş edən bir *Füzuli* görsənirsə və ya Füzuli yetişdirmək idealın varsa,

*Sən böyük millətsən!..*

Hadisələr qarşısında əsla ümidsiz və bədbin olma! Mömin daima nikbin olar. Rəbbinə sığınar. Çünki ümidsizlik haramdır.

Bu oxunan azanlardan sənə ruhaniyyət əks edirsə hürr və geniş səmalarda dalğalanan ay-ulduzlu bayrağın sənə güc verirsə, demək ki, sən bu müqəddəs əmanətlərə sahibsən!..



***Alman professor Neumark türk tələbələrinə belə demişdir:***

***"Çox səmimi etiraf edirəm ki, avropalılar türkləri sevmirlər. Kilsənin türk və İslam düşmənçiliyi xristianların hüceyrələrinə qədər hopub. Çünki siz ən az 400 il üstümüzdə at çapdınız. Səlcuqlu və Osmanlı İslam uğrunda hər şeyini fəda etməsəydi İslam dini bu gün bəlkə də yalnız Hicazda varlığını davam etdirirdi. Qərblilər hər yerdə İslamı batil inanclara sürükləməyə çalışdı. Amma Osmanlı Əsri-Səadəti davam etdirdi. Ona görə xristian da olsanız sizə düşmənçiliyimiz davam edəcəkdir. Siz fərqində deyilsiniz, amma onlar bu həqiqətin fərqindədirlər. Tarixdən türk çıxarılsa tarix qalmaz. Osmanlı arxivi tam olaraq ortaya çıxarsa bugünkü tarixlərin yenidən yazılması lazım gələr. Və siz həqiqi kimliyinizə döndüyünüz an Avropanın rifah və mədəniyyəti yıxılar. Bu baxımdan sizi silahla məğlub edə bilməyənlər sizi özlərinə bənzədərək hakim olmaq istəyirlər…"***



# İSLAMI ÖYRƏNMƏK

Bəni-Tucib qəbiləsindən on üç nəfərlik bir heyət Rəsulullahla ﷺ görüşmək üçün Mədineyi-Münəvvərəyə gəlmişdi. Allah Rəsulu ﷺ heyətə:

*"- Xoş gəlmişsiniz!"* –buyurdu və Bilal Həbəşiyə onları ən yaxşı tərzdə qonaq etməsini əmr etdi.

Bəni-Tucib heyəti:

"- Ya Rəsulallah! Allahın mallarımızdakı haqqını, yəni zəkatlarımızı sənə gətirdik." –dedilər. Allah Rəsulu ﷺ:

*"- Onları geri aparın və kasıblarınıza paylayın."* –buyurdu. Heyət:

"- Ya Rəsulallah! Biz kasıblarımıza verəcəyimizi verdik, artıq qalanları sizə gətirdik." –dedilər.

Həzrət Əbu Bəkr رضي الله عنه:

"- Ya Rəsulallah! Sözün düzü, ərəb heyətləri arasında bu heyət kimisi yoxdur!" –dedi.

Rəsuli-Əkrəm ﷺ:

*"- Hidayət Allah-Təalanın əlindədir. Allah xeyir vermək istədiyi insanın qəlbini imana açar!"* -buyurdu.

Tucib heyəti Peyğəmbərimizə Qurandan və Sünnədən bir sıra suallar verdilər. Cavablar yazılar onlara verildi. Bu səylərinə görə Rəsulullahın onlara rəğbəti artdı. Bir neçə gün qaldıqdan sonra heyət getmək istədi. Onlardan nə üçün tələsdikləri soruşulduqda:

***İslam və iman nemətinin bizə gəlib çatması üçün Allah Rəsulu, əshabi-kiram və sələfi-salehin üstün xidmət və səy göstərdiyi kimi, biz də bu müqəddəs əmanəti gələcək nəsillərə eyni ruh və həyəcanla çatdırmağa borcluyuq.***

**“- Arxada qalan qövmümüzün yanına gedib Rəsulullahdan gördüklərimizi və soruşub öyrəndiklərimizi onlara da öyrədəcəyik.”** – dedilər. Rəsulullahın ﷺ yanına gedin vidalaşdılar. Allah Rəsulu ﷺ Bilal Həbəşini yanlarına göndərib hədiyyələrini verməsini və onlara digər heyətlərə veriləndən daha çox ühsan etməyi əmr etdi. (İbn Sad, I, 323; İbn Qayyim, III, 650-651)



Rəsulullah ﷺ yanına gələn heyətlərin bir müddət Mədinədə qalmalarını istəyərdi. Onların Qurani-Kərimi və dini əsasları öyrənmələrinə, özündən nümunə götürərək İslamı qavramalarına şərait yaradardı. Məsələn, **Əbdül-Qeys** heyəti gəldiyi zaman ənsara onları qonaq etmələrini və hədiyyə vermələrini istəmişdi. Bu zaman lazımi dini məlumatları öyrənmələrini, namaz üçün vacib surələri əzbərləmələrini tapşırmışdı.

Səhəri gün gəldikləri zaman hal və xətirlərini, ənsarın onlarla maraqlanıb-maraqlanmadıqlarını soruşdu. Onlar da razı qaldıqlarını ifadə etdilər. Sonra Allah Rəsulu ﷺ heyətdəkiləri dini daha rahat öyrənə bilmələri üçün bir-bir, iki-iki əshabın evlərinə göndrədi. Səhabələrin əməyi və Əbdül-Qeys heyətinin öyrənməyə olan marağından son dərəcə razı qalan Peyğəmbərimiz ﷺ onlarla bir-bir məşğul olaraq əzbərlədikləri Təhiyyatı, Fatihəni, digər surələri və öyrəndikləri sünnələri şəxsən özü yoxladı. (Əhməd, III, 402)

***Həzrət Ömər nəql edir:***

***“Ənsardan olan bir qonşumla birlikdə Mədinənin yuxarı tərəflərində qalan Ümeyyə bin Zeyd oğulları yurdunda məskunlaşmışdıq. Elm öyrənmək üçün növbə ilə Rəsulullahın yanına gedirdik. Bir gün o gedər, bir gün də mən gedərdim. Hansımızın növbəsində vəhy və ya başqa bir şey eşitsəydik onu digər yoldaşımıza çatdırardıq.”***

***(Buxari, Kitabul-Elm, 27)***



*“Sizin ən xeyirliniz Quranı öyrənən və öyrədəndir.”* ***(Buxari, Fəzailul-Quran, 21)***

*“Yalnız bu iki insana qibtə etmək olar:*

*Biri Allahın Quran öyrətdiyi insandır. Hansı ki, o, gecə-gündüz Quranla məşğul olub onunla əməl eadr. Digəri Allahın mal verdiyi kimsədir. O da gecə-gündüz bu maldan sədəqə verər.”*

***(Müslim, Müsafirin, 266, 267)***

Beləliklə gün keçdikcə İslam dini Ərəbistana yayılırdı. Nəsr surəsində ifadə edildiyi kimi insanlar axın-axın İslama girməyə başladılar. Mədinə hər gün yeni gələn qonaqlarla dolub daşırdı. Həzrət Peyğəmbər də onları ən gözəl şəkildə qarşılayır, onlara hədiyyə və bu kimi şeylər verərək hamının halına, tövrünə və adətinə görə söhbətlər edirdi. Yaşadıqları bölgələrin vəziyyəti haqqında məlumat alır, istəklərinə qulaq asıb suallarını cavablayır və problemlərini həll edir, İslamın incəliklərini qəlblərinə naxış-naxış işləyirdi.[26]

Bunlara bənzər bir çox rəvayətdən öyrəndiyimizə görə Rəsulullah ﷺ əshabının və ümmətinin din təlimi sahəsində çalışmasını istəyirdi. Bir adam gəlib yeni müsəlman olduqda şəxsən özü əsas məlumatları öyrədir, sonra da o adamı əshabına təslim edərək:

*“- Qardaşınıza dinini yaxşı öyrədin! Quranı və Sünnələri öyrədin!”* buyurardı.

İslam ordusu bir qövmlə qarşı-qarşıya gəldikdə əvvəlcə onlara İslamı başa salardılar. Qəbul etmədiklərində sülh təklif edilər, buna da qarşı gələrdilərsə, ən sonda döyüşə qərar verilərdi. Qarşı tərəf İslamı qəbul edərdisə dərhal onlara Qurani-Kərim və Sünnə öyrədilərdi.

Bu həyəcanı alan əshabi-kiram da dinlərini öyrənmək uğrunda böyük fədakarlıqlara qatlanar, uzun səfərlər edər, işlərindən, evlərindən və mallarından ayrı qalardılar. Halal-haramı dəqiq bilinmədən bir dini doğru yaşamaq imkansızdır. Eyni şəkildə **insanın öz həyatında yaşamadığı prinsipləri başqalarına öyrə-**

26. Bax. Nəsai, Ümrə, 5.

**dərək xeyirli bir nəticə əldə etməsi də mümkün deyil.** Bu səbəblə dinin zəruri bilgilərini öyrənmək istər gənc, istərsə də yaşlı olsun hər bir müsəlmana fərzdir. Daha sonra isə öyrəndiklərini yaşamaq və yaşanması üçün çalışmaq gəlir.

**Allah Rəsulu** ﷺ Mədineyi-Münəvvərədəki əshabıyla daha yaxından maraqlanardı. Hətta bəzən onların özündən uzaqda qalmasına razı olmaz, yaxınlığında olmalarını arzu edərdi. Gərəkli məlumatları özündən yəqinliklə görüb öyrənə bilmələri üçün arxasında namaza durmalarını istəyərdi. (İbn Macə, Salət, 44)

Bu səbəblə başqa bölgələrdəki müsəlmanları da imkan daxilində Mədineyi-Münəvvərəyə hicrətə təşviq edərdi.



**Malik bin Hüveyris** ﷺ **belə nəql edir:**

**Həmyaşıdım olan beş-on gənclə Rəsulullahın ﷺ yanına gedib iyirmi gün orada qaldıq. Həzrət Peyğəmbər ﷺ çox mərhəmətli və şəfqətli idi. Ailəmiz üçün darıxdığımızı hiss edən kimi arxamızda kimləri qoyub gəldiyimizi soruşdu. Biz də cavab verdik. Belə buyurdu:**

**“- Ailələrinizin yanına qayıdın və onların yanında olun. Onlara lazımi bilikləri öyrədin, söyləməli olduqlarınızı söyləyin.”**

**Yenə bəzi şeylər tapşırdı ki, indinin özündə də bunların bəzisini xatırlayıram. Bəzilərini isə xatırlaya bilmirəm. Sonra belə davam etdi:**

**“- Məndən gördüyünüz kimi namaz qılın! Namaz vaxtı gəldikdə biriniz azan oxusun, ən yaşlınız da imam olsun!” (Buxari, Azan, 18)**

*İnandığınız kimi yaşamırsınızsa, yaşadığınız kimi inanmağa başlayarsınız.*

*(Həzrət Ömər)*

Bu gün müsəlman gənclərin əsas vəzifəsi bütün imkanlardan istifadə edərək ən gözəl formada öyrənmək, yaşamaq və başqalarına anlatmaqdır.

## İSLAMI YAŞAMAQ

Taifdə məskunlaşan Saqif qəbiləsinin heyəti Rəsulullah ﷺ ilə müqavilə bağlamaq üçün Mədinəyə gəlmişdi. Rəsulullah ﷺ onların qəlblərini yumşaltmaq üçün məsciddə qonaq etdi.[27] Təmsilçilər gecə oxunan Qurani-Kərimi əshabın təhəccüd namazında oxuduğu surələri dinləyir və müsəlmanların beş vaxt namazlarında səf halında durmalarını seyr edirdilər.[28]

Bir müddət sonra Saqif heyəti namaz qılmamaq şərtiylə iman gətirib itaət edəcəklərini bildirdi. Həzrət Peyğəmbər ﷺ:

*"- Rükusuz (namazsız) bir dində xeyir yoxdur."* deyərək bu təklifi rədd etdi. (Əbu Davud, Xərac, 25-26/3026)



Saqif təmsilçilərinə İslamın fərzləri və hökmləri öyrədildi. Peyğəmbər ﷺ içində olduqları Ramazan ayından qalan günlərdə oruc tutmalarını da əmr etdi. Bilal Həbəşi onların sahur və iftar yeməklərini yanlarına aparırdı.[29]

27. Əhməd, IV, 218.
28. Vaqidi, III, 965.
29. Vaqidi, III, 968.



Taiflilər Ərəbistan yarımadasında İslama qarşı ən çox dirənən və ən son müsəlman olan insanlardı. Rəsulullah ﷺ onların iman etməsindən dərhal sonra namaz, oruc, zəkat kimi ibadətləri əmr etmiş, bu xüsusda əsla güzəştə getməmişdir.

Çünki ibadətlər bəndənin əzəldə Rəbbinə verdiyi sözə sadiq qaldığını göstərən bir vəfa nişanəsidir. Mömini Allaha yaxınlaşdıran vüslət dəmləridir. Digər tərəfdən ibadətlər insan oğlunu ölümdən sonrakı həyatın qayğı və təlaşından azad edə biləcək ən təsirli şəfa, səadət və təsəlli qaynağıdır. Qəlbin rahatlanması və qulluğun səviyyə qazanması üçün də zəruri bir feyz qaynağıdır.

İbadətlər iman ağacını bəsləyən torpaq kimidir. Bir ağacın həyat qaynağı olan torpağa möhtac olmamasını düşünmək imkansız olduğu kimi iman da ibadətlərdən ayrı düşünülə bilməz. Bu həyati ibadətlərin başında da heç şübhəsiz ki, **"namaz"** gəlir. Bu baxımdan ibadətlər içində ilk fərz qılınanı namazdır.

Namazdan sonra ruhlarımızı bəsləyən digər fərz ibadət də **"oruc"**dur. **Əbu Ümamə** رضي الله عنه Peyğəmbərimizə:

"Mənə elə bir əməl tövsiyə et ki, Allah-Təala məni onunla mükafatlandırsın!" –demişdi.

Rəsulullah ﷺ:

*"- Sənə orucu tövsiyə edirəm, çünki heç bir şey ona bənzəməz!"* –buyurdu. (Nəsai, Siyam, 43)

***Həzrət Öməri bir məcusi mizraqla yaralamışdı. Durmadan qan itirirdi. Bir müddət sonra özündən getdi. Bu, ölümündən xəbər verirdi. Lakin namaz vaxtları girdikdə qulağına əyilib:***

***"Namaz, ya Ömər, namaz!" deyildikdə heyrət verici iradəylə ayılır, o halıyla namazını qılır və:***

***"Namazı olmayanın İslamda yeri yoxdur" –deyib yenə özündən gedirdi.***

*Osmanlı sultanlarından Mehmed Reşad saraydakı xanədan uşaqlarını yetişdirmək üçün "Müəllimeyi-Səlatin - Sultanların müəlliməsi" təyin etdiyi Safiyyə xaıma birinci növbədə bunu əmr etmişdi:*

*"Namaz qılmayanlara, oruc tutmayanlara yedirdiyim duz-çörəyi haram edirəm. Bu sözüm müəllimə tərəfindən tələbə şahzadələrə və xanım sultanlara çatdırılsın!"*

*(Safiye Ünüvar, Saray Xatirələrim, İstanbul 1964, s. 21.)*

Oruc bizə nemətlərin qədrini bilməyi öyrədir. Oruc səbir, iradə və nəfsani arzulara müqavimət kimi halların güclənməsiylə əxlaqı kamilləşdirməyə səbəb olan böyük bir ibadətdir.

İslamın ictimai nizamında varlı ilə kasıb arasında məhəbbət təsis edib həsəd və düşmənçiliyi aradan qaldırmaq üçün əmr edilən digər bir fərz ibadət də **"zəkat və infaq"**dır. Bu ibadət varlı insanlarda mala olan ehtiras nəticəsində meydana gələ bilməsi ehtimal olunan azğınlıqlara sədd çəkir. Möhtaclarda da varlılara qarşı pis duyğuların baş qaldırmasına əngəl olur. Bununla da ictimai həyatda tarazlıq qorunmuş olur.

Unutmamaq lazımdır ki, İslamda mülk Allahındır, qul ancaq əmanətçidir.

Bu ibadətlərlə yanaşı həm malı, həm də bədəni bir ibadət də vardır ki, o da **"həcc"**dir. Həcc könüllərdəki imanı kamala çatdırar. Məhşərin bir bənzərini hələ bu dünyada ikən yaşadaraq, insanı **"Ölmədən əvvəl ölünüz!"** sirrindən agah edər.



Zəkat və həcc kimi ibadətlərdə laqeydlik edən kəslər maddi və mənəvi cəhətdən bir çox zərərə uğrayarlar. **İbn Abbas** رضي الله عنه:

"Kimin həccə gedəcək və ya zəkat düşəcək qədər malı olduğu halda bunları yerinə yetirməzsə, ölüm əsnasında çox peşman olar və dünyaya qayıtmaq istər." buyurmuş və ardından bu ayələri oxumuşdur:

**“ Ey iman gətirənlər! Nə mal-dövlətiniz, nə də oğul-uşağınız sizi Allahın zikrindən yayındırmasın! Hər kəs bunu etsə** (Allahı yada salmasa)**, belələri əsl ziyana uğrayanlardır. Birinizin ölümü çatıb: “Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım! – deməmişdən əvvəl sizə verdiyim ruzidən** (Allah yolunda) **xərcləyin. Və** (bilin ki) **Allah əcəli çatan heç kəsə möhlət verməz. Allah sizin nə etdiklərinizdən xəbərdardır!”** (əl-Munafiqun, 9-11) (Tirmizi, Təfsir, 63/3316)




İbadətlər xüsusunda son dərəcə həssas davranmalıyıq. Edilən hər ibadəti sanki cənnətə girmək üçün viza kimi görməli və bu ülvi həyəcan içində ifa edilməlidir.

### *Gənc Səhabələr İbadətə Təşnə İdilər*

Peyğəmbərin ﷺ tərbiyəsində böyüyən gənc səhabələr ibadətə təşnə insanlar idilər. Məsələn, 30 yaşlarında Mədinəyə hicrət edən **Abdullah bin Məhrəmə** رضي الله عنه 41 yaşında Yəmamə döyüşündə iştirak edərkən oruclu idi. Döyüş meydanında can verərkən Abdullah bin Ömərdən iftar vaxtının girib-girmədiyini soruşmuş və orucunu açmaq üçün su istəmişdi. İbn Ömər رضي الله عنه su gətirənə qədər də şəhadət şərbətini içmişdi.[30]

***Kim yemək, içmək və minik məsrəflərinə malik olub, Beytullaha getməsi mümkün olduğu halda həcc etməzsə onun yəhudi və ya xristian olaraq ölməsinə heç bir əngəl yoxdur!***

***(Tirmizi, Həcc, 3)***

30. Kəmal Sandıqçı, Diyanət İslam Ensklopediyası, I, 114.



12 yaşında Beyətur-Ridvanda iştirak edən **Abdullah bin Yezid** ﵁ çox ibadət etməklə tanınmış bir səhabə idi.[31]

Azyaşlı **Abdullah bin Ömər** ﵁ Həzrət Peyğəmbərin ﷺ həyatını özünə nümunə halına gətirmişdi. Ondan gördüyü və eşitdiyi hər şeyi eynilə yerinə yetirməyə çalışardı.[32]

**Əbu Səid əl-Xudri** Uhud döyüşündə iştirak etmək istəyərkən hələ 13 yaşı vardı. O zaman dinin hökmlərini həssas şəkildə həyat tətbiq edən bir gənc idi.[33]

***Müsəlmanlar hətta döyüş əsnasında belə ibadətlərini yerinə yetirmək xüsusunda səhlənkarlıq etməmişlər və bu sayədə Allahın köməyinə məzhər olmuşlar. Venedikli Travijani İldırım Bəyazidin qəhrəman ordusunu belə təsvir etmişdir:***

***"Osmanlı ordusunda bizdə olduğu kimi şərab, qumar və bu kimi şeylər yoxdur. Onlar qətiyyən axsatmadıqları əsgəri təlimləri ilə yanaşı Allahın böyük və uca adını davamlı zikr edirlər, gecə və gündüz ibadətlə məşğul olurlar. Buna görə də həmişə qalib gəlirlər."***

### *Müamilələr*

Unutmamaq lazımdır ki, insanın dini yalnız ibadətlərlə kamala çatmaz. Dinin müamilələr qismini, yəni ictimai həyata dair qaydalarını da yaşamaq lazımdır. Yəni **bir müsəlman, atdığı hər addımı, hətta aldığı hər nəfəsi və ürəyindən keçirdiyi hər şeyi İslama görə tənzimləməlidir.**

Bütün ibadət və müamilələriylə qulluq həyatımızda diqqət yetirməli olduğumuz ən mühüm xüsus isə, **qəlbi-səlim** və **ixlas** sahibi ola bilməkdir. Əgər qulluğumuzun Haqq qatında məqbul olmasını arzu ediriksə, əməllərimizi ixlas və səmimiyyətlə etməliyik. Yalnız bu zaman əməllərimiz "saleh" xüsusiyyəti qazanar və əbədi aləmdəki səadət azuqəmiz ola bilər.

---

31. İsmail Çakan, *DİA*, I, 143.
32. Yaşar Kandəmir, *DİA*, I, 127.
33. Raşit Küçük, *DİA*, I, 127.

# ALLAHA MƏHƏBBƏT

Məhəbbət insan fitrətindəki ən güclü təmayüllərdən biridir. Bu səbəblə insan mütləq hansısa bir varlığı sevər. Məhəbbət yüksəkliklərdən qaynayan bir şəlalə kimi mütləq özünə bir məcra tapıb axar. Ancaq burada mühüm olan onun ən münasib və ən faydalı yerə axmasıdır. Lazımsız yerlərə axdıqda saflığını itirib bulanar və bir bataqlığa tökülərək hədər olub gedər. Həmçinin lazımsız istiqamətdə axan məhəbbət sahibinin başına böyük dərdlər açar.



Bu səbəbdən insan ürəyi fitri olan sevmək hissini yalnız Allah-Təalaya yönəltdiyi təqdirdə məhəbbətdə kamala çata bilər. Çünki həqiqi məhəbbətə layiq olan yeganə var-

*Məhəmməd Parisa həzrətləri həccə gedərkən yolu Bağdaddan düşür. Bazardan keçərkən qızıl satan, üzü nurlu bir gənc görür. Gəncin işlərinin çoxluğundan, başının qarışıq olduğunu da görür. Məhəmməd Parisa həzrətləri onun dünya ilə bu qədər çox məşğul olmasına kədərlənir və öz-özünə:*

*“- Tam ibadət edəcək bir yaşda özünü dünya işlərinə verib!” deyir. Bir anlıq müraqibə etdikdə isə qızıl ticarəti ilə məşğul olan bu gəncin qəlbinin Allahla bərabər olduğunu heyrətlə müşahidə edir. Bu səfər:*

*“- Maşallah! Əl karda, könül Yarda!.ş” deyərək gənci təqdir edir.*

*Deməк ki, dünya işləriylə məşğul olarkən belə ibadətləri və Allahla qəlbi birliyi yaddan çıxarmamaq lazımdır.*



lıq bütün sevgilərin qaynağı olan Allah-Təaladır. Çünki:

- Hər şeyə varlığını bəxş edən, canlılara ruzilərini lütf edən, onları qoruyub himayəsinə alan yalnız Odur.

- O, qullarını çox sevir. Bəşəriyyətin atası olan Həzrət Adəmi cənnətdə ən gözəl surətdə və böyük bir incəliklə yaratmışdır. Qullarının yenidən cənnətə girməsini istəyir. Sevginin qarşılığı isə ancaq sevgidir. (Bax. əl-Maidə, 54)

- Dünya və axirətin yeganə sahibi Odur.

- İnsan ən sonda Allah-Təalanın hüzuruna çıxacaq və Ondan başqa bir sığınacaq və köməkçi tapa bilməyəcək. Aləmlərin Rəbbi olan Allah nə gözəl Mövla və nə gözəl köməkçidir.

- Bu qədər varlıq içində bizi insan olaraq yaratmış, ən çox sevdiyi Peyğəmbərinə ümmət etmiş və ən kamil kitabı olan Qurani-Kərimi lütf etmişdir. Bu nemətlərin böyüklüyünü düşündüyümüzdə Allaha olan şükür borcumuzun sonsuzluğunu daha yaxşı dərk edərik.

Gördüyümüz kimi insanın həm dünyada, həm də axirətdə səadət və əmin-amanlığı üçün Allah-Təalaya böyük iman məhəbbətiylə yönəlməsi lazımdır.

Rəsulullah ﷺ Həzrət Davudun bu duasını dilindən düşürməzdi:

*"Allahım! Səndən məhəbbətini, Səni sevənlərin məhəbbətini və Sənin sevginə çatdıracaq saleh əməllər işləməyi istəyirəm. Allahım! Sənin məhəbbətini mənə*

***Madam ki, hər şeyin canının canı Allahdır, o halda canının canından ayrı düşməkdən qorx! Onun əmrlərinə tabe ol!***
***(Həzrət Mövlana)***

*nəfsimdən, ailəmdən, malımdan və soyuq sudan daha sevimli et!"* (Tirmizi, Dəavat, 72/3490)

Peyğəmbərin ﷺ təbliğ və dəvəti insanları əvvəlcə Allahı sevməyə səsləməkdədir. Çünki imanın kamil mənada reallaşa bilməsi üçün sevgi şərtdir. Ayeyi-kərimədə belə buyurulur:

قُلْ لَٓا اَسْـَٔلُكُمْ عَلَيْهِ اَجْرًا اِلَّا الْمَوَدَّةَ فِى الْقُرْبٰى

**Həsən Bəsri** və **Qatadə həzrətləri** bu ayəni belə izah etmişlər:

**"De ki: Mən sizdən heç bir qarşılıq istəmirəm. Ancaq Allahı sevməyinizi və əmrlərinə itaat edərək Ona yaxınlaşmağınızı istəyirəm."** (əş-Şura, 23) (Qurtubi, Təfsir, XVI, 22)



Bu izahın doğruluğunu aşağıdakı hədisi-şərif də dəstəkləyir:

*"Mən peyğəmbər olaraq gətirmiş olduğum açıq-aşkar dəlillər və hidayət qarşılığında sizdən heç nə istəmirəm. Ancaq Allah-Təalanı sevmənizi və əmrlərinə itaət edərək Ona yaxınlaşmağa çalışmanızı istəyirəm."* (Əhməd, I, 268)

Unutmamaq lazımdır ki, hər bir iddia doğruluğunu isbat edəcək dəlilə möhtacdır. İsbat edilə bilməyən iddialar quru sözlərdən ibarətdir. Allahı sevməyin dəlil və əlaməti də Onun fərz buyurduğu qulluq vəzifələrini böyük bir xüşu içində ifa etməkdir. Daha sonra, səmimi-qəlbdən gələn eşq və məhəbbət səbəbiylə nafilə ibadətləri və saleh əməlləri artırmağa çalışmaqdır.

***Məhəbbət mənəvi tərəqqinin başlanğıcıdır. Bu nöqtə əslində hər şeyin başladığı yerdir. Qəlb ancaq həqiqi məhəbbəti daddıqdan sonra mənən inkişaf etməyə və gözəlliklərini sərgiləməyə başlayar.***



*“Kim vəli bəndəmə düşmənlik edərsə, Mən ona qarşı hərb elan edərəm. Qulum ona əmr etdiyim fərzlərdən daha sevimli heç bir şeylə Mənə yaxınlaşa bilməz. Qulum Mənə (fərzlərdən əlavə) nafilə ibadətlərlə də durmadan yaxınlaşarsa Mən onu sevərəm. Qulumu sevdiyim zaman da onun danışan dili, dərk edən qəlbi, eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən nə istəsə mütləq verərəm. Yardım istədiyi zaman yardım edərəm, Mənə sığınarsa onu qoruyaram...” (Buxari, Riqaq, 38)*

Allahı sevən insanlar artıq Onu əsla yaddan çıxarmazlar. Çünki sevənlər, sevdiklərini heç vaxt unutmaz, dillərindən düşürməzlər. Allah Rəsulu ﷺ belə buyurur:

*“Allahı sevməyin əlaməti Onu zikr etməyi sevməkdir.”* (Süyuti, II, 52)

Əslində bir bəndə üçün Uca Rəbbini zikr etmək, ən mühüm işdir. Heç bir şey onu Rəbbini zikr etməkdən yayındırmamalıdır. Ayeyi-kərimədə belə buyurulur:

**“Ey iman gətirənlər! Nə mal-dövlətiniz, nə də oğul-uşağınız sizi Allahın zikrindən yayındırmasın! Hər kəs bunu etsə** (Allahı yada salmasa)**, beləlləri əsl ziyana uğrayanlardır.”** (əl-Munafiqun, 9)

Sevən kəs sevdiyi uğrunda hər şeyini fəda edər. **Molla Cami həzrətlərinin** izah etdiyi bu hadisə çox ibrətlidir:

Ustadımız **Mövlana Sadəddin Kaşğarinin** söhbət halqasında bir gənc vardı. Bu gənc riyazət, xəlvət və eşqdə çox irəlidə idi. Bir fani gözələ vurulmuşdu. Beləliklə də könlündəki bütün gözəllikləri bir anda o istiqamətə yönəltmişdi.

Qızıl və brilyantlarla bəzənmiş çox qiymətli bir hədiyyə alıb, o gözəlin keçəcəyi yola qoymuş və başqası götürməsin deyə də yaxınlıqda gizlənmişdi. Fikrincə sevgilisi ora-

dan keçəcək və hədiyyəni götürəcəkdi. Lakin kimdən və necə gəldiyini bilməyəcəkdi. Mən vəziyyəti öyrənincə ona dedim ki:



"- Nə qəribə bir iş görürsən! Müxtəlif zəhmətlərlə əldə etdiyin şeyi onun yolunun üstünə qoyursan! Görüb götürmüş olsa da kimdən və nə üçün gəldiyini bilməyəcək. Heç olmasa elə bir şey et ki, səndən gəldiyini bilsin!"

Gənc, gözyaşları ilə sarsılaraq cavab verdi:

"- Sən nə deyirsən? Etdiyim işin qəribəliyini bilmədiyimi düşünürsən? Mən bu işi edərkən heç bir qarşılıq gözləmirəm! Çünki hədiyyələrimdən ötrü onun mənə qarşı minnət altına girməsini istəmirəm!"

Bu cavab qarşısında bütün hüceyrələrimin titrədiyini hiss etdim. Bir faniyə olan məcazi məhəbbət bu cür bir incəlik, zəriflik və könül gözəlliyi sərgilyirsə, kim bilir Allaha bəslənən həqiqi bir məhəbbət necə möhtəşəm bir ülvilik ifadə edir.

Ancaq insanın Allahın məhəbbətinə nail olması asan deyil. Bunun yolu Allahın sevdiklərini sevib, sevmədiklərinə nifrət etməkdən keçir. Yəni layiqinə məhəbbət, haqq edənə nifrət…

Allahın sevmədiklərinə nifrət edərək onlardan uzaqlaşmaq məhəbbətullaha yüksəlişdə birinci pillədir. İkinci pillə din qardaşını sevmək, üçüncüsü Allah

***"O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi (dəhşətdən ürəklərin duymaqdan, gözlərin görməkdən qalacağı) bir gündən (qiyamət günündən) qorxarlar."***

*(ən-Nur, 37)*



dostlarını sevmək, dördüncüsü isə Həzrət Peyğəmbəri sevməkdir.

İnsan təsəvvüf təlimiylə, yəni mənəvi tərbiyə və təkamül nəticəsində bu mərhələləri qət etdikdən sonra gerçək mənada ilahi məhəbbət dəryasına dala bilər.

*Bəndəni Allaha məhəbbət dəryasına çatdıracaq olan yeganə rəhmət və məhəbbət qaynağı Həzrət Peyğəmbərdir.*

## PEYĞƏMBƏRƏ MƏHƏBBƏT

Allah-Təala öz məhəbbət və məğfirətini **Həbibi-Əkrəm**inə itaət şərtinə bağlamışdır.[34]

Peyğəmbərimizə layiqincə itaət edə bilmək üçün də Onu hər şeydən çox sevmək lazımdır. Çünki insan sevdiyini nümunə götürər və təqlid edər. Bununla yanaşı, Allah Rəsulunu sevmək üçün bir çox səbəb var:

- Allah Rəsulu ﷺ insanlar və cinlərə imanı və İslamı öyrədərək onların axirətdəki sonsuz əzabdan xilas olmalarına vəsilədir.

- O, ümmətinə doğru yolu göstərmək üçün, heç bir insanın qarşılaşmadığı əzab-əziyyətlərə dözmüşdür.

- O, biz möminlərə qarşı dərin bir şəfqət və mərhəmətlə doludur. Ümmətinə təşnədir və onların hər hansı bir çətinliyə düçar olması Ona çox ağır gəlir.[35]

- Qulluqda nümunə və ideal bir şəxsiyyətdir.

34. Bax. Ali İmran, 31.
35. Bax. Tövbə, 128.

- Bütün bəşəriyyətə, hətta kainatdakı bütün yaradılmışlara rəhmət və hidayət mənbəyi olmuşdur. Allah-Təala belə buyurur:

**“Səni də** (Ya Rəsulum!) **aləmlərə** (bütün insanlara və cinlərə) **ancaq bir rəhmət olaraq göndərdik.”** (əl-Ənbiya, 107)

**Mövlana həzrətləri** ömrü boyu ağlagəlməz əziyyətlərdən keçən, maddi və mənəvi bütləri yerlə-yeksan edən Rəsulullaha ﷺ nə qədər minnətdar olmamızı belə ifadə edir:

*“Ey bu gün müsəlman olan kəs! Əgər Həzrət Əhmədin ﷺ cəhd və səyləri, bütləri qırdırmaq xüsusundakı himməti olmasaydı, sən də əcdadın kimi bütlərə sitayiş edərdin.”*

Əsrlərə işıq saçan bu hidayət rəhbərinin gənc ardıcıllarından biri də **Cəfəri Təyyar həzrətləridir**. Bu səhabə 17 yaşında Həbəşistan Nəcaşisinin hüzurundakı çıxışında Rəsulullahın insanlığa hədiyyə etdiyi əbədi gözəllikləri belə ifadə etmişdir:

“- Ey hökmdar! Biz cahil insanlar idik. Daşdan və ağacdan düzəldilmiş bütlərə ilah kimi sitayiş edərdik. Ölü heyvanların ətlərini yeyər, hər cür pisliyə bulaşardıq. Qohumluq haqlarına riayət etməz, aramızdakı əlaqələri kəsərdik. Qonşularımızın haqlarını bilməz, onla-



***(Ya Rəsulum!) De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir!”***

***(Ali-İmran, 31)***

*Şübhəsiz ki, mömin Rəsulullah ﷺ qarşısında mənəvi hissiyyatlarını və bədii duyğularını vəcd halında yaşadığı, ruhunu nəfsaniyyətə aid hər şeydən təmizlədiyi zaman Onunla, yəni Kainatın Fəxri ilə eyniləşmə, Onun hal və məhəbbətindən pay ala bilməkdədir.*

ra hər cür pisliyi rəva görərdik. Güclü olanlarımız zəifləri əzərdi.

Biz bu cür yaşayarkən Allah-Təala bizə içimizdən soykökünü bildiyimiz, son dərəcə sadiq, əmin və iffətli bir adamı peyğəmbər olaraq göndərdi. O, bizi Allahın birliyinə iman etməyə çağırdı. Yalnız Ona ibadət etməyə, bizim və atalarımızın daha əvvəl sitayiş etdiyi daşları və bütləri tərk etməyə dəvət etdi. Bizə düz danışmağı, əmanətə riayət etməyi, qohumlarımızla əlaqələrimizi gücləndirib haqlarına riayət etməyi, qonşularımızla yaxşı dolanmağı, haramlardan və qan tökməkdən uzaqlaşmağı əmr etdi. Bizə pis və yalan sözü, yetim malı yeməyi və günahsız qadınlara böhtan atmağı qadağan etdi. Yalnız Allaha ibadət edib Ona heç bir şeyi ortaq qoşmamağı əmr etdi.



Biz də Onu təsdiq etdik, Ona inandıq, bizə gətirdiyi xüsuslarda Ona tabe olduq. Yalnız Allaha ibadət etdik, Ona heç nəyi şərik qoşmadıq, bizə haram etdiyi hər şeyi haram saydıq, halal etdiklərini də halal bildik.

Bu zaman qövmümüz bizə düşmənçilik etdi. Allaha ibadətdən uzaqlaşıb, bütlərə ibadət etməmiz və əvvəllər işlədiyimiz, insanlıq heysiyyətini zədələyən pis əməllərə yenidən bulaşmamız üçün bizə işgəncə verdilər, dinimiz xüsusunda bizi fitnəyə salmağa çalışdılar. Bizə qalib gəlib zülmlərini artırdılar. Etdiklərinə dözə bilmədiyimiz üçün,

xüsusilə də **dinimizi gərəyincə yaşaya bilmədiyimizdən sənin diyarına gəldik.** Hökmdarlar içində səni seçdik. Sənin yanında olmağı uyğun hesab etdik. Sənin yanında zülmə uğramayacağımızı ümid etdik, ey Hökmdar!..” (Əhməd, I, 202-203, V, 290-291; Heysəmi, VI, 25-27; İbn Hişam, I, 358-359)



**Abdullah bin Hişamın** ﷺ nəql etdiyi bu hadisə **Peyğəmbərimizə** ﷺ bəslədiyimiz məhəbbətin hansı səviyyədə olmasının gərəyini necə də gözəl ifadə edir:

“Bir dəfə Rəsulullah ﷺ ilə birlikdə idik. Rəsuli-Əkrəm ﷺ **Həzrət Ömərin** əlini ovcunun içinə alıb oturmuşdu. Bu zaman Ömər ؓ:

“- Ya Rəsulallah! Sən mənə canım istisna olmaqla hər şeydən daha sevimlisən!” -deyərək Rəsulullaha olan məhəbbətini dilə gətirdi. Onun bu sözünün cavabında Rəsulullah ﷺ:

*“- Əsla! Nəfsimi qüdrət əlində tutan Allaha and olsun ki, mən sənə canından da sevimli olmadıqca həqiqi iman etmiş sayılmazsan!”* -buyurdu.

Ömər ؓ dərhal:

“- Elə isə vallah indi Sən mənə canımdan da çox sevimlisən, ya Rəsulallah!” -dedi. Bu zaman Allah Rəsulu ﷺ:

*“- Bax indi oldu, ey Ömər!”* buyurdu. (Buxari, Eyman, 3)

Bir gənc daim könlündə Həzrət Peyğəmbərin sevgisini daşısa, ümid edilir ki, Allah onu bir çox dünyəvi pisliklərdən qoruyar. Axirətdə də Rəsuluna məhəbbətlə

***İnsanlar ən böyük əvəzi məhəbbətləri uğrunda verərlər. Çünki hər kəs sevdiyi üçün sevgisi nisbətində fədakarlığa qatlanar. Eşq kamala çatdıqda bunun nəticəsi olan cəfa da zirvəyə çıxar. O zaman artıq cəfa da səfaya çevrilər. Bu baxımdan əshabi-kiram ömürləri boyunca Rəsulullahın bircə arzusuna belə: “Anam-atam, malım və canım Sənə fəda olsun, ya Rəsulallah!” –deyərək cavab vermişlər.***

***Allah Rəsulunun gənc səhabələrindən Xalid bin Səid ﷺ bir gecə yuxusunda böyük bir atəş çuxurunun kənarında dayandığını və atasının onu atəşin içinə itələyib salmağa çalışdığını görür. Tam çuxura düşəcəyi an Rəsulullah belindən tutaraq onu xilas edir. Təlaş içində oyanan Xalid ﷺ öz-özünə deyir:***

***"- Allaha and olsun ki, bu gerçək bir yuxudur!" Daha sonra Həzrət Əbu Bəkrin vasitəsiylə Peyğəmbərimizin yanına gələrək müsəlman olur.***

***Atası Xalidin müsəlman olduğunu xəbər tutduqda ona əzab-əziyyət verdi. Xalid ﷺ isə Həbəşistana hicrət edənə qədər Allah Rəsulunun yanından ayrılmadı. (Hakim, III, 277-280)***



dolu olan qəlbi cəhənnəm əzabından azad edər. Ayeyi-kərimədə belə buyurulur:

**"Sən onların arasında ola-ola Allah** (sənə hörmət əlaməti olaraq) **onlara əzab verən deyildir.** (Tövbə edib) **bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!"** (əl-Ənfal, 33)

### *Əshabi-Kiramın Məhəbbəti*

Əshabi-kiram Həzrət Peyğəmbəri canlarından çox sevərdilər. Ona xitab edərkən həmişə; ***"Anam-atam, canım Sənə fəda olsun, ya Rəsulallah!"*** deyərdilər. Onun ayağına bir tikan batmasındansa canlarını fəda etməyi tərcih edərdilər.

Müşriklərə əsir düşən *Zeyd bin Dəsinə ilə Hübeyb* ﷺ işgəncəylə şəhid edilirdilər. Ruhlarını təslim etmədən əvvəl hər birinə belə sual verildi:

"- Canını qurtarmağa müqabil sənin yerində Peyğəmbərinin olmasını istəyərdinmi?" İkisi də bu sualı verən bədbəxt müşrikin halına acıyaraq belə dedi:

"- Mənim uşaqlarımın arasında olub

Peyğəmbərimin burada olmasını istəmək bir tərəfə, bu an Mədineyi-Münəvvərədə Onun ayağına tikan batmasına belə əsla könlüm razı olmaz." cavabını verdi. Bu misilsiz məhəbbət qarşısında heyrətindən donub qalan Əbu Süfyan:



Uhud - Mədineyi Münəvvərə

**"- Düzü, çox heyrət edirəm! Mən dünyada Məhəmmədin səhabələrinin onu sevdiyi qədər öndərlərini sevən başqa bir qrup əsla görmədim."** -dedi. (Vaqidi, I, 360-362; İbn Sad, II, 56)

**Əbu Talha** ﷺ yayını çox sərt çəkən və nişan aldığını vuran mahir bir oxçu idi. Uhud günü əlində üç yay qırılmışdı. Allah Rəsulu ﷺ yanından ox torbası ilə keçən hər kəsə:

*"- Ox torbanı Əbu Talhanın yanına boşalt!"* -buyururdu.

Allah Rəsulu ﷺ müşriklərə baxmaq üçün hər dəfə başını qaldırdıqda Əbu Talha:

"- Ya Rəsulallah! Anam-atam Sənə fəda olsun! Başınızı qaldırmayın! Birdən müşriklərin atdığı oxlardan hansısa sizə dəyər. Mənim sinəm sizin sinənizə sipər olsun. Sizə dəyəcək nə varsa qoy mənə dəysin!" deyirdi. (Buxari, Məğazi, 18)

Rəsulullah ﷺ Uhud döyüşü qurtardıqdan sonra səhabələrindən **Sad bin Rəbin** ﷺ nə vəziyyətdə olduğunu öyrənmək istəyirdi. Bunun üçün səhabələrdən birini göndərdi.

***Rəsulullah ﷺ buyurur:***

***"Cinlərin və insanların asiləri xaric, yerlə göy arasındakı hər şey mənim Allahın Rəsulu olduğumu bilir." (Əhməd, III, 310)***

***Onu Uhud tanıdı, xurma kötüyü tanıdı və həsrətlə inildədi. Heyvanlar da Ona sığınıb dərdlərinə şərik etdilər... Lakin Əbu Cəhl kimilər dünən də, bu gün də Onu tanıya bilmədi...***

Səhabə Həzrət Sadı nə qədər axtarsa da tapa bilmədi, nə qədər səslənsə də ondan cavab ala bilmədi. Nəhayət son bir ümidlə:

"- Ey Sad! Məni Rəsulullah ﷺ göndərdi. Sənin dirilər, yoxsa şəhidlər arasında olduğunu öyrənməyimi əmr etdi!" deyə yaralıların və şəhidlərin olduğu istiqamətə səsləndi.

O əsnada son anlarını yaşayan və cavab verməyə macalı olmayan Sad رضي الله عنه Allah Rəsulunun onunla maraqlandığını eşidib bütün gücünü toplayaraq bir inilti halında:

"- Mən artıq ölülər arasındayam!" deyə bildi. Səhabə Həzrət Sadın yanına qaçdı. Bədəni qılınc zərbələriylə dəlik-deşik olmuşdu. Yavaş səslə Rəsulullaha duyduğu məhəbbəti dilə gətirən bu sözləri söylədi:

***"- Allaha and olsun ki, gözləriniz açılıb-yumulduğu müddətcə Peyğəmbərimizi düşmənlərdən qorumaz, başına bir müsibət gəlməsinə izin versəniz, sizin üçün Allah qatında söyləyəcəyiniz heç bir bəhanə yoxdur!"*** (Muvatta, Cihad, 41; Hakim, III, 221/4906; İbn Hişam, III, 47)

Həzrət Peyğəmbərin sevdiyini sevmək səhabələr üçün ən böyük zövq idi. Çünki sevginin ən bariz əlaməti sevdiyiylə eyniləşərək onun sevdiyini sevməkdir.



*Sənsən könüllər sultanı*
*Gətirən uca Quranı*
*Uğrunda təndəki canı*
*Verəlim ya Rəsulallah…*

*(Yunus Əmrə)*



**Həzrət Ənəs** (r.a.) nəql edir:

“Bir dərzi Rəsulullahı (s.ə.s.) yeməyə dəvət etdi. Mən də onunla idim. (Ev sahibi süfrəyə) arpa çörəyi, içində balqabaq olan bir şorba və qadid (qurudulmuş ət) gətirdi. Mən Həzrət Peyğəmbərin yeməyin içindəki balqabaqları seçib yediyini gördüm. O gündən bəri balqabağı sevirəm.” (Buxari, Ətimə 33, Büyü 30; Müslim, Əşribə, 144; Muvatta, Nikah, 51)

Rəsulullah (s.ə.s.) vəfat etdiyi zaman səhabələr sanki hüznündən yanıb əriyən şamlara dönmüşdülər. O gün Allah Rəsulunun ayrılığı ilə könüllər bir anda həsrət yanğınıyla qovrulmuş, əshabi-kiram çox pərişan olmuşdu. Həzrət Ömər (r.a.) bir anda özünü itirmiş, Həzrət Əbu Bəkr (r.a.) insanlara təskinlik verənə qədər min bir çətinlik çəkmişdi. Çünki Onun ayrılığına bir gün belə dözə bilməyən aşiq könüllər artıq bu fani dünyada Onu bir daha görə bilməyəcəkdi. Məhz bu hicrana dözə bilməyən **Abdullah bin Zeyd** (r.a.) qəmli bir könüllə əllərini ilahi dərgaha açaraq:

***“Ya Rəbb! Artıq gözlərimi kor et! Mən hər şeydən çox sevdiyim Peyğəmbərimdən sonra dünyada başqa bir şey görmək istəmirəm!..”*** deyərək səmimi gözyaşları içində dua etdi və oradaca gözləri kor oldu. (Qurtubi, əl-Cami, V, 271)

Onlar Allah Rəsulu ilə yenidən birlikdə olacaqları və Aləmlərin Sərvərini yenidən görə biləcəkləri günlərin həsrət və xəyalı içində həyatlarını yaşadılar. Yuxularında həmişə Onunla birlikdə idilər. Gənc xidmətçisi **Ənəs bin Malik** (r.a.) Peyğəmbərimiz (s.ə.s.) vəfat etdikdə on

***“Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərlə şəfqətli, mərhəmətlidir!”***

***(ət-Tövbə, 128)***

Hüdeybiyyə anlaşmasında məkkəlilərin elçisi olaraq gələn Urvə bin Məsud gözünün ucuyla əshabi-kirama baxırdı. Məkkəlilərin yanına qayıdanda gördüklərini belə xəbər verdi:

"- Ey qövmüm, yaxşı dinləyin! And olsun ki, mən bir çox kralın hüzuruna elçi getmişəm. Kisranın, Qeysərin, Nəcaşinin yanınd olmuşam. Amma müsəlmanların Məhəmmədə qarşı olan yüksək bağlılıq və hörmətini heç bir millətdə görməmişəm… Bir şey əmr etsə, o işi görmək üçün hamısı birdən hərəkətə keçirlər. Dəstəmaz alsa, dəstəmaz suyundan əldə etmək üçün bir-birləriylə yarışırlar. Bir şey danışsa, dərhal səslərini kəsirlər. Ona olan təzimlərindən üzünə diqqətlə baxmırlar, başlarını önlərinə əyirlər. Başından bir tel düşsə dərhal onu götürüb saxlayırlar. Bu adam sizə məqbul bir təklif edir, onu qəbul edin!" (Bax. Buxari, Şurut, 15; Əhməd, IV, 323-324)

Eyni həqiqəti bir çox qeyri-müsəlman elm xadimi də etiraf etmək məcburiyyətində qalmışdır. Bunlardan biri olan Qərb yazıçısı Tomas Karlayl belə deyir:

**"Başında tac olan heç bir imperator, öz əliylə yamadığı əbasını geyən Həzrət Məhəmməd qədər hörmət görməmişdir."**



doqquz-iyirmi yaşlarında idi. Peyğəmbərimizin duasıyla malının, övladının və ömrünün bərəkətini gördü. Yüz ilə yaxın yaşadı. Bu mübarək səhabə:

**“Yuxumda Sevimli Peyğəmbərimi görmədiyim heç bir gecə yoxdur.”** deyib ağlayardı. (İbn Sad, VII, 20)

### *Sonrakı Nəsillərin Məhəbbəti*

Rəsul-Əkrəmə ﷺ başlanan bu coşqun məhəbbət heç azalmadan günümüzə qədər gəlib çatmışdır. Rəsulullah ﷺ buna işarə edərək belə buyurmuşdur:

*“Ümmətim içində məni ən çox sevənlərin bir qismi məndən sonra gələnlər arasından çıxacaq. Onlar məni görə bilmək üçün mallarını və ailələrini fəda etməyə can atarlar.”* (Müslim, Cənnət, 12; Hakim, IV, 95)

İstanbul-Hicaz dəmiryolunun inşaatı Mədinəyə yaxınlaşdıqda **II. Əbdülhəmid Xan** belə əmr etmişdi:

“Mümkün olan bütün alətlərin üzərinə keçə sarıyın ki, çox səs-küy olmasın, Əhli-Beytin və burada yatanların ruhlarını narahat etməməyə çalışın!”

Bu əmrə görə Mədinəyə bir neçə kilometr qalmış qatar relslərinə keçə döşənmişdir. Rövzeyi-Mütəhhərənin ehtişamına xələl gətirməmək üçün qatarlar sürəti azaldaraq şəhərə çox sakit girmişdi.

***Rəsulullah ﷺ belə buyurmuşdur:***

***“Həyatım sizin üçün xeyirlidir. Mənimlə söhbət edirsiniz və sizə (ilahi vəhy və hökmlər) bildirilir. Vəfatım da sizin üçün xeyirlidir. Əməlləriniz mənə ərz olunar. Gözəl əməlinizi gördükdə Allaha həmd edərəm, pis bir şey gördükdə də sizin üçün istiğfar edərəm.”***

***(Heysəmi, IX, 24)***



Osmanlı Qatar Stansiyası, Mədineyi-Münəvvərə

*Dünyada yaşayan müsəlmanların Hərameynə asanlıqla gedib-gəlmələrini təmin etmək üçün Hicaz Dəmiryol Xəttini saldıran II Əbdülhəmid Xan bu xəttin süneyi-sənniyyəyə uyğun olması üçün Həzrət Peyğəmbərin səfərlərində istirahət etdiyi yerlərə stansiyalar tikilməsini əmr etmiş, beləliklə dəmiryollarını da məhəbbət axışı içində Mədinəyə çatdırmışdır.*

# ALLAH və RƏSULUNUN ƏMRLƏRİNƏ İTAƏT

Allah və Rəsulunun məhəbbətini həyatının mərkəzinə yerləşdirən bir gənc üçün yeganə yol həyatı Allah və Rəsulunun əmrləri istiqamətində yaşamaqdır.

Bu həqiqəti heç unutmamaq lazımdır ki, insanı yaradan Allah-Təaladır. Bu səbəblə qulunun xoşbəxt həyat yaşamasını təmin edəcək ən gözəl yolu da ancaq O göstərə bilər. Bir cihazın xarab olmadan məhsuldar bir şəkildə işləyə bilməsi onu düzəldən adamın verdiyi təlimata uyğun işlətməyə bağlı olduğu kimi, insan üçün də vəziyyət eynidir. Əgər rahat və dinc bir həyat yaşamaq istəyirsə, Allahın qoyduğu qaydalara riayət etməlidir.

Allah və Rəsuluna itaət üzrə yaşayan bir insan həm dünyanın, həm də axirətin ən məsud insanı olar. Dünyəvi və uxrəvi çox böyük qazanclar əldə edər.

Əshabi-kiramdan **Səvban** ﷺ bir gün Allah Rəsulunun yanına gələrək:

"- Ey Allahın Rəsulu, Siz mənə özümdən, ailəmdən və uşaqlarımdan daha sevimlisiniz. Mən evdəykən Sizi xatırladıqda dözə bilmirəm, dərhal gəlib mübarək üzünüzə baxıram. Mənim və Sizin bir gün öləcəyimizi xatırladıqda isə tərifi imkansız bir hüznə qərq oluram. Bilirəm ki, Siz cənnətə girdiyinizdə digər peyğəmbərlərlə

Çanaqqala hərbinin ən ağır günləri idi. Düşmən əsgərləri əllərindəki ən müasir silah və texnika ilə hücuma keçmişdi. Osmanlı dövləti o zaman Almaniya ilə müttəfiq idi. Alman zabitlərindən Liman von Sanders o günlərə aid bir xatirəsini belə izah edir:

Düşmən hücumunun ən dəhşətli anında, olduğumuz yerdən təxminən on beş metr uzaqlığından qorxunc bir səs gəldi. Səslə birlikdə bir türk əsgəri sipərdən atıldı, düşmənə doğru qaçmağa başladı. Həm qaçır, həm də qollarını sağa sola yelləyərək fəryad edirdi. Yanımdakı tərcüməçidən soruşdum:

"- Bu qaçan əsgər nə deyir?"

"- Yetiş, ya Məhəmməd, Kitabın əldən gedir! -deyə fəryad edir" dedi.

Belə bir mənzərəni tarix görməmişdi. Onu görən digər əsgərlər də sipərlərindən atıldılar və o anda çox ağır bir döyüş başladı. Qısa bir müddət sonra, quruya çıxan ingilis əsgərlərindən sadəcə yerdə yatan cəsədlər qalmışdı.[1]

---

1. Tahsin Yıldırım - Mehmet Kuzu, Osmanlının Peygamber Aşkı, İstanbul 2007, s. 126.

birlikdə yüksək mərtəbədə olacaqsınız. Mən isə cənnətə girsəm belə, Sizi orada görə bilməyəcəyəm. Bu da məni çox qorxudur.” -dedi.

Allah Rəsulu ﷺ ona hər hansı bir cavab vermədi. Bir müddət sonra Cəbrayıl عليه السلام gəlib:

**“Allaha və Peyğəmbərə itaət edənlər Allahın nemətlər verdiyi nəbilər, siddiqlər, şəhidlər və salehlərlə bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!”** (ən-Nisa, 69) ayeyi-kəriməsini vəhy etdi. (Vahidi, s. 170)

Bundan daha böyük bir mükafat düşünülə bilərmi?!

**Rəsulullah** ﷺ belə xəbər verir:

*“Rəbbiniz buyurur ki: «Əgər qullarım Mənə layiqincə itaət etsələr, Mən onlara yağışı (da) gecə yağdıraram, gündüz də üzərlərinə Günəşi doğduraram. Həmçinin onlara göy gurultusunun səsini də eşitdirmərəm!»...”* (Əhməd, II, 359; Hakim, IV, 285/7657)

Yəni insan ciddi bir din şüuru ilə Rəbbinə yönələr, ixlas və səmimiyyətlə qulluq edərsə, hər işdə ilahi yardıma məzhər olar. Allah-Təala bütün varlıqları onun əmrinə verər.



Allah və Rəsuluna itaətin ən gözəl nümunələrini əshabi-kiram sərgiləmişdir. **Abdullah bin Rəvahanın** xanımı belə nəql edir:

“Rəsulullah ﷺ xütbəyə çıxmışdı. Bu əsnada məscidə tərəf gəlməkdə olan Abdullah رضي الله عنه uzaqdan

***Müjdəçim, Qurtarıcım, Əfəndim, Peyğəmbərim;***
***Sənə uymayan ölçü həyat olsa tapərəm!..***

***Nəcib Fazil***



Allah Rəsulunun; “Oturun!” buyurduğunu eşitdi. Hələ məscidə çatmamış olmasına baxmayaraq, dərhal olduğu yerə oturdu. Bunu səhabələr daha sonra Peyğəmbərimizə bildirdikdə Abdullaha:

*“- Allah-Təala sənin Allaha və Rəsuluna itaət eşqini artırsın!”* buyurdu.” (Əli əl-Müttəqi, Kənzul-Ummal, XIII, 450/37171; Heysəmi, IX, 316)

**Həzrət Aişə** anamızın bildirdiyinə görə xanımlara təsəttürü əmr edən ayələr[36] nazil olduqda xanım səhabələr evlərinə getməyi belə gözləmədən dərhal oradaca paltarlarının artıq qalan hissələrini kəsərək başlarını və yaxalarını əmrə uyğun şəkildə örtmüşdülər. (Buxari, Təfsir, 24/12; Əbu Davud, Libas, 31-33/4102)

Peyğəmbərimizə itaət barəsində tənbəllik etmək insanı böyük zərərlərə uğradar. Bir dəfə Rəsulullah ﷺ bəzi səhabələrini sübh tezdən səfərə göndərmişdi. İçlərindən biri gecikdi və ailəsinə:

“- Allah Rəsulu ilə birlikdə günorta namazını qılım, sonra ona salam verib vidalaşmaq üçün gecikirəm. Qoy mənə dua etsin və o dua mənim üçün qiyamət günündə şəfaətçi olsun!” -dedi.

Həmin səhabə Nəbiyyi-Əkrəmlə birlikdə namaz qıldıqdan sonra ona salam verdi. Rəsulullah ﷺ:

*“- Yoldaşlarının səni nə qədər keçdiyini bilirsənmi?”* dedi. Səhabə:

***Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri diriltdəcək bir şeyə (imana, haqqa) dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin. Bilin ki, Allah insanla onun qəlbi arasına girər (insanın bütün varlığına hakim olar; Allah ürəklərdən keçən hər şeyi bilir, bütün ürəklərin ixtiyarı da Onun əlindədir) və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz!***

***(əl-Ənfal, 24)***

36. ən-Nur, 30-31.

"- Bəli, sübh tezdən getdikləri məsafə qədər məni keçdilər." -dedi. Bunun üzərinə Rəsulullah ﷺ:

*"- Nəfsimi əlində tutana and içirəm ki, onlar fəzilətdə səni şərq və qərb arasındakı ən uzaq məsafə qədər keçdilər."* -buyurdu. (Əhməd, III, 438)

Başqa bir rəvayətə görə Peyğəmbərimiz həmin adama bunları da söyləmişdir:

*"- Yer üzündəkilərin hamısını sədəqə də versən, onların erkən çıxışlarındakı fəziləti əldə edə bilməzsən."* -buyurdu. (Tirmizi, Cümə, 28/527; Əhməd, I, 256; Beyhəqi, III, 187)

Rəsulullaha xidmət edən gənc səhabə **Əbu Rafi** رضي الله عنه belə nəql edir:

Xəndək döyüşünün olduğu günlərdə Rəsulullah ﷺ üçün bir qoyun qızardıb gətirmişdilər. Allah Rəsulu ﷺ qoyunun kürək hissəsini sevərdi. Bu səbəblə mənə:

*"- Əbu Rafi, kürək hissəsindən ver!"* -buyurdu. Mən də verdim.



***Safiyyə binti Şeybədən rəvayət edildiyinə görə təsəttürlə əlaqəli ayeyi-kərimələr nazil olduqda, kişilər evlərinə dönüb xanımlarına, qızlarına, bacılarına və bütün qohumlarına bu ayələri oxudular. Bunun üzərinə bütün qadınlar ən qiymətli paltarlarını belə fəda edərək bunlardan örtük düzəltdilər və başdan-ayağa örtündülər. Beləcə, Allah-Təalanın endirmiş olduğu hökmləri dərhal təsdiq etdiklərini və onlara könüldən inandıqlarını göstərdilər. Səhər namazında, Allah Rəsulunun arxasında təpədən-dırnağa qədər örtünmüş olaraq səfə durdular.*** ***(İbn Kəsir, Təfsir, [Nur, 31])***

*"- Əbu Rafi, kürək hissəsindən ver!"* -deyə yenə istədi. Bu səfər qoyunun ikinci kürəyini verdim. Rəsulullah bu ətləri səhabələrinə verirdi. Üçüncü dəfə:

*"- Əbu Rafi, kürək hissəsindən ver!"* buyurduqda mən:

"- Ya Rəsulallah! Bir qoyunun iki kürəyi olmurmu?" -dedim. Bunun üzərinə Rəsulullah ﷺ:

*"- Səsini çıxarmasaydın, mən kürək sümüyü istədikcə qazandan çıxarıb verməyə davam edərdin!"* -buyurdu. (Bax. Əhməd, VI, 8; Darimi, Müqəddimə, 7/45; Heysəmi, VIII, 311)




Buradan aydın olduğuna görə Allah və Rəsulunun əmrlərini hər zaman tam bir təslimiyyətlə eynilə yerinə yetirmək lazımdır. Bu xü-

***Gül açmaz, çağlayan axmaz, ilahi nurun olmazsa;***
***Sönər aləm, nəfəs qalmaz, fələk mənzurun olmazsa;***
***Firaq ağlar, vüsal ağlar, əzəl məsrurun olmazsa;***
***Camalınla fərahnak et ki, yandım ya Rəsulallah!***

**...**

***Nə dövlətdir yumub eşqinlə göz rahında can vermək,***
***Nəsib olmazmı sultanım Həramgahında can vermək,***
***Sönərkən gözlərim asan olur ahında can vermək,***
***Camalınla fərahnak et ki, yandım ya Rəsulallah!***

***Yaman Dədə***

susdakı əsas prinsipi **Nəcib Fazil** qısaca olaraq belə ifadə edir:

*Gözüm, ağlım, fikirim var demə, hamısını öldür!*
*Sənə çöl kimi gələn, o göl deyirsə göldür!*

Ən qiymətli sərmayə olan vaxtlarını Haqqa itaət və ibadətdən uzaq keçirən insanların axirətdə böyük bir peşmanlıq keçirəcəyi şübhəsizdir. **Həzrət Ömər** ﷺ Peyğəmbərimizin vəfatından sonra gözyaşları içində söylədiyi mərsiyəsində bunu belə ifadə edir:

"…Anam-atam Sənə fəda olsun, ya Rəsulallah! Allah qatında o qədər ülvi bir mövqeyə sahibsən ki, cəhənnəmliklər alov içində əzab görərkən, dünya həyatındaykən Sənə itaət etmiş olmağı o qədər çox arzu edəcəklər ki, dəhşətli bir fəryad ilə:

**"Kaş ki, Allaha itaət etsəydik, Peyğəmbərə də itaət etsəydik! -deyəcəklər."** (əl-Əhzab, 66)" (Qəzali, Əhya, I, 410-411)

## AXİRƏTİ DÜNYADAN ÜSTÜN TUTMAQ

Heç şübhəsiz ki insan, axirət səfərinə çıxmış fani bir yolçudur. Bunu inkar etmək gözlərini yumub "Günəş yoxdu!" demək qədər ağla və məntiqə ziddir. Elə isə həyatı bu həqiqət istiqamətində tənzimləmək, məntiqli və vicdanlı bir zərurətdir.



***"Ey iman gətirənlər! (Sözləriniz, iş və hərəkətlərinizdə) Allahdan və Peyğəmbərindən önə keçməyin. Allahdan qorxun. Həqiqətən, Allah (hər şeyi) eşidəndir, (hər şeyi) biləndir!"***

***(əl-Hucurat, 1)***

***Ağlı Həzrət Mustafanın hüzurunda qurban et!***

***(Həzrət Mövlana)***

Müsəlman dünya həyatı üçün lazımlı işləri görməklə yanaşı, əbədi olan axirət həyatına tədarük görməyin lazım olduğunu da heç vaxt unutmamalıdır. Çünki dünya həyatı sırf fani ləzzətləri dadmaq və eqoist arzuları təmin üçün lütf edilməmişdir. Əksinə axirət azuqəsi yığmaq, saleh əməllər və xeyirli işlərlə sədəqeyi-cariyələr əldə etmək üçün bəxş edilmiş bir möhlətdir. Necə ki, Haqq dostları:

**“Əbədi bir səadət üçün nə qədər zəhmət çəkirsənsə çək, sonunda zəhmət gedər səadət qalar. Əgər fani ləzzətlər üçün günah işləyərsənsə, nəhayət ləzzət gedər və sənə peşmanlıq, cəza və iztirab qalar.”** demişlər.

Axirəti seçmək dünya işlərinə laqeyd qalmaq demək deyil. Bu, daha çox ürəkdəki niyyə-



**İbn Mina nəql edir:**

**Əynimə nazik bir paltar geyib qəbiristanlığa getmişdim. Hava qəflətən soyudu, dərhal bir qəbrin küncünə sığındım. Orada iki rükət namaz qılıb qəbrin üstündə böyrü üstə yatdım. Allaha and olsun ki, oyaq olduğum halda qəbirdən belə bir səs eşitdim:**

**“- Qəbrimin üstündən qalx! Siz əməl işləyə bilirsiniz, lakin qəbirlərin əhvalını bilmirsiniz. Biz dünya həyatını bitirib qəbir həyatına başladıq, hər şeyin həqiqətini görüb anladıq. Dünyada saleh əməllər işləməyin nə qədər qiymətli bir şey olduğunu çox yaxşı dərk etdik. Ancaq artıq saleh əməl işləmək imkanımız qalmadı. Vallah sənin qıldığın bu iki rükət namazı qıla bilsəm, mənim üçün dünya və içindəkilərdən daha sevimli və qiymətli olardı.” (Beyhəli, Dəlail, VII, 40-41)**

*Həzrət Mövlana -quddisə sirruh- buyurur:*

*“Kim bir işin başında ikən sonunu görsə daha məsud və bəxtiyar olar. Belə kəslər işə daha ciddi sarılar, daha çox əkin əkər və nəticədə daha çox bar toplayarlar. Çünki bilərlər ki, bu əkin dünyası məhşərə hazırlanmaq, axirət isə dünyada əkdiyini yığmaq üçün yaradılmışdır.”*

ti və könüldəki məqsədi düzəltmək deməkdir. Necə ki, bir insan həyatını Allahın razı olacağı şəkildə tənzimləyib halal ruzi qazanma və saleh əməllər işləmək niyyətiylə çalışdıqda, atdığı hər addım, etdiyi hər iş, ibadət yerinə keçər.

**Həzrət Ömər** ﷺ belə nəql edir:

“Bir gün Peyğəmbərimizin hüzuruna çıxmışdım. Gördüm ki, bir həsirin üstündə yatıb. Bədəninə həsirin izləri düşmüşdü. Altına sərəcəyi bir döşəyi də yox idi. Xurma lifiylə doldurulmuş dəridən yastığı vardı…

Rəsulullahın təbəssüm etdiyini görüb dərhal yanında oturdum və otağına göz gəzdirdim. And olsun ki, içəridə aşılanacaq üç dəridən başqa qiymətli heç bir əşya yox idi. Dözə bilməyib:

“- Ya Rəsulallah! Allaha dua edin, ümmətinizə bolluq versin! Çünki Allaha ibadət etmədikləri halda farslara və romalılara bolluq verilib, onlara bir çox dünya malı lütf edilmişdir.” -dedim.

Rəsulullah ﷺ söykəndiyi yerdən doğruldu və:

*“- Sən (axirətlə əlaqədar ilahi vədlər xüsusunda) şübhə edirsən, ey Xəttab oğlu?! Onlar nəsibləri dünya həyatında verilən insanlardır.”* -buyurdu.



Bunun üzərinə mən də:

"- Ya Rəsulallah, mənim üçün istiğfar et." -dedim." (Buxari, Məzalim, 25)

Yenə bir gün Allah Rəsulu ﷺ bu barədə belə buyurmuşdur:

*"Dünya mənim nəyimə gərək! Mənimlə dünyanın halı, bir yaz günü səfər edib, bir ağacın altında kölgələnən, sonra da qalxıb yoluna davam edən kimsəyə bənzəyir."* (Tirmizi, Zöhd, 44/2377; İbn Macə, Zöhd, 3; Əhməd, I, 301)



***"Onu (qiyaməti) gördükləri gün (dünyada və ya qəbir evində) yalnız bir axşam, yaxud bir səhər qaldıqlarını sanacaqlar!"***

***(ən-Naziat, 46)***

Bir çox insan dünyadakı mövqeyinə və etibarına həddindən artıq hərislik edər və bunları qorumaq üçün axirətini fövtə verər. Halbuki bir müsəlman axirəti üçün dünyanın hər cür çətinliyinə dözməli, ancaq dünyası üçün axirətdə çətinlik çəkməyi heç bir zaman gözə almamalıdır.

**Rəsulullah** ﷺ vəfatından əvvəl möminlərə etdiyi son vəsiyyətlərində bu xüsusa belə diqqət çəkmişdir:

*"Ey insanlar! Kimin üzərində bir haqq varsa, onu dərhal ödəsin, dünyada rəzil və rüsvay olmaqdan qorxmasın! Yaxşı bilin ki, dünya rəzilliyi, axirət rəzilliyinin yanında çox yüngül qalar."* (Bax. İbn Sad, II, 255; Təbəri, Tarix, III, 191)

Allah Rəsulunun bu sözünü eşidən insanlardan bəziləri əvvəldən etmiş olduqları bir sıra haqsızlıq və səhvləri etiraf edərək Peyğəmbərdən dua və istiğfar istəməyə başladılar. Bir adam ayağa qalxıb:

**Abdullah bin Məsud ﷺ dostlarına belə deyərdi:**

**“- Siz səhabələrdən daha çox namaz qılır və daha çox səy göstərirsiniz. Lakin onlar sizdən daha fəzilətli idilər.”**

**“- Nə ilə bizdən daha fəzilətli oldular?” deyə soruşanlara:**

**“- Onlar dünyaya qarşı sizdən daha zahid, axirətə qarşı da sizdən daha rəğbətli idilər.” deyə cavab verərdi. (İbnul-Cövzi, Sifətus-Safvə, I, 420)**

“- Allaha and olsun ki, ya Rəsulallah, mən çox yalançıyam, həm də münafiqəm. Mənim işləmədiyim heç bir pislik yoxdur.” dedi. Həzrət Ömər ﷺ ona:

“- Özünü rüsvay etdin!” -dedi. Rəsulullah ﷺ:

*“- Ey Ömər! Dünya rüsvaylığı axirət rüsvaylığından çox yüngüldür!”* -buyurdu. Daha sonra da həmin adam üçün:

*“Ey Allahım! Ona dürüstlük və iman kamilliyi nəsib et! Onun pis əməllərini xeyrə döndər!”* deyə dua etdi. (Təbəri, Tarix, III, 190)

Dünya malına və sahib olduğu mövqeyinə aldanaraq axirəti arxa plana atmağın nə qədər böyük bir təhlükə olduğunu göstərən bu misal da çox ibrətlidir:

Əməvilər dövründə İslam ordusu İstanbulun fəthiylə bağlı Nəbəvi müjdə və iltifata nail olmaq ümidiylə yola çıxmışdı. Orduda **Əbu Əyyub əl-Ənsari** ﷺ da vardı. Rumlar şəhərin surlarını arxalarına alıb döyüşərkən, ənsardan bir nəfər atını Bizans ordusunun ortasına qədər sürdü. Bunu görən möminlər: **“Öz əllərinizlə özünüzü təhlükəyə atmayın!”** ayəsinə əsaslanaraq heyrətlə:



“- Lə iləhə illəllah! Buna baxın! Göz görəgörə özünü təhlükəyə atır!” deyə o səhabəni

tənqid etdilər. Bu mənzərə qarşısında Əbu Əyyub əl-Ənsari ﷺ belə dedi:

"- Ey möminlər! (Səhv başa düşməyin!) Bu ayə biz ənsar haqqında nazil oldu. Allah Peyğəmbərinə yardım edib dinini qalib etdiyi zaman biz "Artıq mallarımızın başında dayanıb onların artımı ilə məşğul olaq." demişdik. Bunun üzərinə Allah-Təala Rəsuluna:

"(Malınızı) **Allah yolunda xərcləyin. Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq** (ehsan) **edənləri sevir."**[37] Ayəsini vəhy etdi. Bu ayədəki "öz əliylə özünü təhlükəyə atmaq"dan məqsəd bağ-bağça kimi dünya malıyla məşğuliyyətə dalıb Allah yolunda çalışmaqdan uzaqlaşmağımız idi." (Bax. Əbu Davud, Cihad, 22/2512; Tirmizi, Təfsir, 2/2972)

*"Əgər dünyanın Allah qatında ağcaqanadın qanadı qədər qiymətli olsaydı,Allah heç bir kafirə dünyadan bir udum su verməzdi."*

*(Tirmizi, Zöhd, 13)*



Osmanlı tarixinin talehsiz şahzadələrindən **Cem Sultan** apardığı taxt mübarizəsi nəticəsində Rodos cəngavərlərinə əsir düşmüş, onlar da şahzadəni papaya satmışdılar. Papa VIII İnnokent xristian olarsa, Osmanlı taxtına sahib ola bilməsi üçün ona kömək edəcəklərini vəd etdi. Bu təklif Cem Sultana çox ağır gəldi. Kədərli tövrlə:

***"-Osmanlı səltənəti bir tərəfə dursun, bütün dünyanı versəniz dinimi dəyişdirmərəm!.."*** dedi.

*"Bütün zövqləri kökündən yox edən ölümü tez-tez xatırlayın."*

*(Tirmizi, Qiyamət, 26)*

37. Bəqərə, 195.



*Rəsulullah ﷺ belə buyurmuşdur:*

*"Kimin arzusu axirət olarsa, Allah onun ürəyinə zənginliyini qoyar və işlərini asanlaşdırar, artıq dünya ona boyun əyərək arxasınca gələr. Kimin də hədəfi dünya olarsa, Allah iki gözünün arasına kasıblığını qoyar, işlərini də pərən-pərən edər. Nəticədə dünyadan da əlinə, özünə təqdir edilmiş olandan artıq heç nə keçməz."*

*(Tirmizi, Qiyamət, 30/2465)*

Xaçlılar tərəfindən müsəlmanların əleyhinə istifadə edilmək istəndiyini anladıqda isə Rəbbinə belə yalvardı:

*"Ya Rəbb! Əgər kafirlər müsəlmanlığa zərər vermək üçün məni alət etmək istəyirlərsə, artıq bu qulunu yaşatma! Ruhumu bir an əvvəl dərgahı izzətinə al!.."*

## Müsəlman Gəncin Abi-Həyatı:

## NAMAZ

Kainatdakı bütün varlıqlar - günəş, ay, ulduzlar, çəmənliklər, ağaclar və s. daima Allahı zikr halındadır. Səmada qatar-qatar uçan quşlar, dağlar, daşlar, keyfiyyəti bizə məlum olmayan bir təsbihat ilə Haqqa qulluq edirlər. Bitkilərin ibadəti qiyam halında; heyvanların ibadəti rüku halında; cansız varlıqlarınkı isə yerə bağlı vəziyyətdə, yəni səcdə halındadır. Səma əhlinin ibadəəti də belədir. Mələklərin bir qismi qıyamda, bir qismi rükuda, bir qismi səcdədə, bir qismi də təsbeh və təhlil halındadır.

Allah-Təalanın möminlərə bir merac olaraq ikram etdiyi namaz isə bütün bu ibadətləri ehtiva etməkdədir. Bu səbəbdən namaz qılan bir mömin göylərdə və yerdə olan bütün varlıqların etdiyi ibadətlərin hamısını ifa edərək hesabsız bir mükafata və dəruni təcəllilərə nail olar.

## Könüllərə Sultan Olmaq

Bir gün Telemsan padşahı Sultan Yəhya saray əyanları ilə birlikdə şəhəri gəzməyə çıxmışdı. Onun və ətrafındakıların dəbdəbə və ehtişamı qarşısında gözləri qamaşan xalq Sultana hörmət üçün qorxuyla ayağa qalxıb: “Padşahım, çox yaşa!” deyərək alqışlamağa başladı. Ancaq sultanın gözünə bu izdihamdan daha çox bir az aralıda tək dayanmış, sultanın ehtişamına qarşı laqeyd, dünyadan azadə, nuru ilə ətrafını aydınladan bir adam dəydi. Yanındakılardan o nurani adamın kim olduğunu soruşdu:

“- Sultanım o, məşhur Tunisli Şeyxdir. Bir mağarada inziva halında yaşayır.” -dedilər.

Sultan atını Tunisli Şeyxin yanına sürdü və bu sualı verdi:

“- Əynimdəki bu ipəkli paltarla namaz qılmaq caizdirmi?”

Tunisli Şeyx bu suala cavab verməK istəməyib, onu sarayındakı üləmadan soruşmasını tövsiyə etsə də sultanın israrı ilə belə dedi:

“- Təsəvvür edin ki, bir köpək hər hansı bir heyvan leşi tapmış və ondan doyunca yeyib içi də, çölü də murdar olduğu halda, bövl edərkən üstü bulaşmasın deyə ayağını yuxarı qaldırmağa çalışır!..”

Sultan qəzəbləndi:

"- Nə demək istəyirsiniz?!" dedi. Şeyx:

"- Bunu demək istəyirəm ki, sizin mədəniz və vücudunuz ən ağır haram yükləri, zülm və qul haqları ilə doludur. Belə olduğu halda siz ipək paltarla namaz qılmağın caiz olub-olmadığını soruşursunuz?!" -dedi.

Bu hikmətli sözlər Sultana çox təsir etdi. Bu təsirin bərəkətiylə dərhal əynindəki bahalı paltarları çıxartdı. Sonra belindəki qılıncı bir kənara atdı və çaşqın halda özünü seyr edənlərə:

"- Ey müsəlmanlar! Haqlarınızı halal edin və özünüzə başqa bir padşah tapın!" -deyərək Tunisli Şeyxin arxasınca getdi və onun sadiq tələbəsi oldu.

Sultan Yəhya Şeyx həzrətlərinin mənəvi tərbiyəsində o dərəcə böyük bir mövqe əldə etdi ki, insanlar Tunisli Şeyxdən dua istədikdə belə deməyə başladı:

"- Duanı Yəhyadan istəyin; çünki onun yerində mən olsaydım, onun etdiyini edə bilməzdim... Əgər sultanlar onun sahib olduğu səadət xəzinəsinin nə olduğunu bilsəydilər, onlar da Yəhya kimi hər şeylərini fəda edərdilər."

Dünya səltənətini tərk edərək məna sultanlığına qovuşan İbrahim bin Ədhəm həzrətləri də belə demişdir:

"İlahi məhəbbətdəki vəcd və istiğrakımız (qərq olmağımız) gözlə görülən bir şey olsaydı; krallar onu ala bilmək üçün bütün xəzinələrini də, krallıqlarını da fəda edərdilər."

Allah-Təala varlıqlar aləmində insan bədənini səcdəyə ən uyğun şəkildə yaratmışdır. Bu səbəbdən namaz ilə insan arasında çox qüvvətli yaxınlıq vardır. Namaz Allaha vüslət dəmidir, Onunla müsahibə halıdır və ümmətə kiçik bir merac olaraq ikram edilmişdir. Qurani-Kərimdə; **"Səcdə et və yaxınlaş!"**[38] buyurulduğuna görə Rəbbimizin hüzuruna çıxa bilmək neməti də namazla əldə edilir.

**Rəsulullah** ﷺ:

*"Namaz gözümün nurudur."* buyurmuşdur. (Nəsai, İşrətun-Nisə, 10; Əhməd, III, 128, 199)

Namaz dinin dirəyi, müsəlmanlığın əlamətidir. Əcr baxımından heç bir ibadətlə müqayisə edilə bilməz.

Bəni-Uzrə qəbiləsindən üç nəfər Peyğəmbərimizin yanına gəlib müsəlman olmuşdular. **Allah Rəsulu** ﷺ:

*"- Bunları kim qonaq edər?"* -deyə soruşdu. **Talha** رضي الله عنه:

"- Mən, ya Rəsulallah!" dedi.

Onlar Həzrət Talhanın yanında qalarkən Rəsulullah ﷺ əsgəri bir bölük göndərdi. O üç adamdan biri bu səfərə çıxdı və şəhid oldu. Peyğəmbərimiz ﷺ bir müddət sonra yenə bir əsgəri bölük göndərdi. Üç nəfərin ikincisi də bu bölüyə qatıldı və o da şəhid oldu. Üçüncü şəxs isə bir müddət sonra yatağında vəfat etdi. Talha رضي الله عنه deyir ki:



***(Ya Rəsulum!) Quranda sənə vəhy olunanı oxu və (vaxtı-vaxtında) namaz qıl. Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək (Allahın calalını və əzəmətini həmişə, hər yerdə yada salmaq), şübhəsiz ki, (savab etibarilə bütün başqa ibadətlərdən) daha böyükdür. Allah nə etdiklərinizi (bütün yaxşı və pis əməllərinizi) bilir!***

***(əl-Ənkəbut, 45)***

38. Ələq, 19.



"- Yanımda qalan bu üç nəfəri yuxuda gördüm. Üçü də cənnətdə idi. Yatağında ölən ən öndə idi, ikinci sırada şəhid olan, ilk dəfə şəhid olan isə ən sonda idi. Çaş-baş qaldım. Yatağında ölən adamın şəhidlərdən irəlidə olmasını heç cür qəbul edə bulmirdim. Dərhal Peyğəmbərimizin yanına gedərək gördüklərimi danışdım. Allah Rəsulu ﷺ belə buyurdu:

*"- Burada təəccüblü nə var ki?! Heç kim Allah qatında təsbeh,*[39] *təkbir və təhlili dilindən düşürmədən İslam üzrə ömür sürən mömindən daha fəzilətli ola bilməz."* (Əhməd, I, 163)

Peyğəmbərimiz ﷺ müsəlman olaraq həyat sürməyin qiymətini əshabına göstərmək üçün bir misal da verdi:

*"- Yatağında ölən o adam, şəhid olan qardaşından sonra Ramazan orucunu tutmadı mı, bir il ərzində altı min filan rükət namaz qılmadımı? (Elə isə təbii ki, ikisi arasında bu qədər fərq olacaq.)"* (Əhməd, II, 333)

Bu rəvayət onu göstərir ki, namaz sadəcə möminlə kafir arasında deyil, möminlə mömin arasında da mənəvi cəhətdən böyük bir fərqə səbəbdir.

***"Dünyada namazın mərtəbəsi axirətdə Allahı görmək kimidir. Çünki dünyada qulların Allaha ən yaxın olduğu an səcdə anıdır. Ən ülvi ləzzətlər və mənəvi təcəllilər namazdadır."***

### *Namazdan Məhrum Qalanlar*

Namazdan uzaq olan kəslərin dünya həyatı bərəkətsiz olar. Simalarında ilahi gözəlliyin nuru qalmaz. Bu kəslər saleh şəxslərin sevgisindən də məhrum

39. Təsbeh, "sübhanallah"; təkbir, "Allahu əkbər"; təhlil də "lə iləhə illəllah" deyərək Allahı zikr etməkdir.



qalarlar. "Necə yaşasanız, o cür ölərsiniz!" hədisi-şərifinə görə son nəfəsləri çox böyük bir təhlükə qarşısındadır və əziyyətlə can verərlər. Qəbirləri onları sıxar və cəhənnəm çuxurlarından bir çuxur olar. Qiyamətdə də Allahın özlərinə qəzəbləndiyini görərlər. Hesabları çox çətin olarlar və nəhayət cəhənnəmə atılarlar.

Necə ki, bir səhər **Rəsulullah** ﷺ səhabələrinə belə buyurdu:

*"Bu gecə yuxuda iki nəfər (Cəbrayıl və Mikayıl) gələrək məni oyatdılar və; «Haydı gedirik» dedilər. Mən də onlarla birlikdə getdim. Böyrü üstə yatmış bir adamın yanından keçdik. Bir nəfər də əlində böyük bir qaya ilə onun başının üstündə dayanmışdı. Qayanı yatan adamın başına vurub əzir, daş bir tərəfə diyirləndikdə də arxasınca gedir və daşı götürüb gətirirdi. O gələnə qədər yaralının başı da sağalaraq əvvəlki halına gəlirdi. Əlində daş tutan adam əvvəlcə etdiyini eynilə təkrarlayaraq yerdə yatanın başını hər dəfə əzirdi... Mələklərdən:*

*«-Sübhanallah, bunların halı nədir?» deyə soruşdum...*

*Belə izah etdilər: «-Bu adam, Quranı öyrəndiyi halda onu tərk edən və yataraq fərz namazın (xüsusilə səhər namazının) vaxtını keçirən kimsədir...»"* (Buxari, Təbir 48, Cənaiz 93)

Mömin bir gənc şeytanın bu yoldakı tələlərindən özünü həssaslıqla qorumalı və hər hansı bir səbəblə qıla bilmədiyi namazları qəza etməyə tələsməlidir. Çünki hədisi-şərifdə:

***"Qiyamət günü qulun hesaba çəkiləcəyi ilk əməl namazdır. Əgər namazı düzgün olarsa, işi yolunda gedər və qazanclı çıxar. Namazı düzgün olmazsa zərər edər…"***

***(Tirmizi, Salət, 188/413)***



*“Kim bir namazı unutsa, onu xatırladığı zaman dərhal qılsın; namazın bundan başqa kəffarəsi yoxdur.”* buyurulur. (Müslim, Məsacid, 314)

Peyğəmbərimizin bu tövsiyəsinə riayət edilmədiyi təqdirdə dağ kimi yığılan namaz borcları nəticədə bəndəni axirətdə zərərə sürükləyər.

## *Beş Vaxt Namaz*

Beş vaxt namazın hər birinin özünəməxsus qiyməti və əhəmiyyəti var. Günün müəyyən vaxtlarına səpələnməsi də insan üçün həm ruhi, həm də bədəni cəhətdən minlərlə fayda və hikmət ehtiva edir. Bu baxımdan hər bir namaz xüsusi qayğı və etina ilə candildən əda edilməlidir.

**Allah Rəsulu** ﷺ beş vaxt namaz barəsində ümmətinə belə buyurur:

*“Allah-Təala buyurdu ki:* ***«Sənin ümmətinə beş vaxt namazı fərz etdim. Öz qatımda verilmiş bir söz var: Kim o namazları tam vaxtında qılarsa, onu mütləq cənnətə qoyacağam. Kim də o namazları qorumazsa, qatımda ona verilmiş heç bir söz yoxdur.»”*** (İbn Macə, İqamətus-Saləh, 194)

*“Bir müsəlman fərz namazın vaxtı gəldikdə gözəlcə dəstəmaz alar, xüşu içində rüku və səcdələrinə diqqət edərək haqqıyla namazını qılarsa, böyük günah işləmədikcə, bu namaz əvvəlki günahlarına kəffarə olar. Bu, hər zaman belədir.”* (Müslim, Təharət, 7)

***Hədisi-şərifdə buyurulur:***

***“Allah qardaşım Abdullah bin Rəvahaya rəhmət etsin! Namaz vaxtı harda girsə tez miniyini saxlayıb orada namazını qılır.”***

***(Heysəmi, IX, 316)***

### *Cümə Namazı*



Cümə namazı kişilərə fərz qılınmışdır. Allah-Təala belə buyurur:

**“Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!”** (əl-Cumuə, 9)

Bu ayeyi-kərimədən aydın olduğuna görə cümə namazı vaxtında ticarət kimi namazdan xaric sayılan işlərlə məşğul olmaq haramdır.

**Rəsulullah** ﷺ cümə namazı haqqında belə buyurur:

*“Bir adam gözəlcə dəstəmaz alar, cümə namazına gedər və sakitcə xütbəyə qulaq asarsa, bununla digər cümə arasındakı günahları bağışlanar və buna üç gün də əlavə edilər. Kim xütbə oxunarkən çınqıl daşlarla oynasa, əbəs işlə məşğul olmuş və cümənin fəzilətini qaçırmış olar.”* (Müslim, Cümə, 27)

*“Bəzi insanlar ya cümə namazlarını tərk etməkdən imtina edərlər, ya da Allah-Təala onların qəlblərini möhürləyər də qafillərdən olarlar.”* (Müslim, Cümə, 40)

### *Namazda Xüşu*

Bütün ibadətlər ülvi bir ruh həyəcanı içində əda edilməlidir. Xüsusilə namaz xüşu ilə qılınmalıdır. Ayeyi-kərimədə belə buyurulur:

**Abdullah bin Məsud belə demişdir:**

**“Vallahi mən nifaqı bilinən bir münafiqdən başqa namazdan geri qalanımız olduğunu görmədim. Allaha and olsun ki, xəstə bir adam iki nəfərin qoluna girərək ayaq üstə sallanmış halda ikən namaza gətirilər və onların yardımıyla səfdə durardı.”**

**(Müslim, Məsacid, 256-257)**

***Bir döyüşdə Həzrət Əlinin ayağına ox girmişdi. Ağrının şiddətindən çıxartmaq mümkün olmadı. Namaza başladı. Salam verdikdən sonra "Nə etdiniz?" –deyə soruşdu. "Çıxardıq, ya Əli!" dedilər.***

***Həzrət Əlinin bədəni namazın mənəvi həzzi ilə sanki dünyadan təcrid olunmuşdu.***

**"Vay halına o namaz qılanların ki, Onlar öz namazlarından qafildirlər** (səhlənkarlıqları üzündən namazlarını vaxtlı-vaxtında qılmazlar)**"** (əl-Maun, 4-5)

Həzrət Peyğəmbər ﷺ də belə buyurmuşdur:

*"Kim rüku və səcdəsini tam yerinə yetirərək namazı gözəl bir şəkildə əda edərsə, namaz o adama:*

*«- Məni mühafizə etdiyin kimi Allah da səni mühafizə etsin!» deyər. Namaz yüksəldilər (və qəbul edilər). Hər kim rüku və səcdəsini tam yerinə yetirməyərək namazını gözəl əda etməzsə namaz ona:*

*«-Məni məhv etdiyin kimi Allah da səni məhv etsin!» deyər. Qıldığı namaz bir əski kimi yumurlanıb o adamın üzünə çırpılar."* (Beyhəqi, Şuab, III, 143; Süyuti, Cami, I, 58/364)

Namazdakı xüşu halı o qədər mühümdür ki, bəndənin qurtuluşa gedən yolu bu qapıdan keçir. Çünki ayədə buyurulur:




**"Möminlər həqiqətən də, nicat tapmışlar; o kəslər ki, namazlarında mütidirlər** (xüşu içindədirlər)**."** (əl-Miminun, 1-2)

Peyğəmbərimiz də namazın xüşu ilə qılındığı təqdirdə qəbul ediləcəyini belə xəbər verir:

*"Bir insan namazını bitirdikdə ona ancaq namazının onda biri, doqquzda biri, səkkizdə biri, yeddidə biri, altıda biri, beşdə bi-*

*ri, dörddə biri, üçdə biri və ya yarısı yazılar."* (Əbu Davud, Salət, 123-124/796; Əhməd, IV, 321)

*"Namaz qılan insana namazından ancaq qəlbinin hazır olduğu qismi yazılar."* (Süheyli, Ravdul-Unf, II, 208)

Yəni bəndə ancaq xüşu və aramla namaz qıldığı zaman savab ala bilər.

Namaz qılarkən bütün rüknlərin haqqını vermək lazımdır. Bir dəfə **Rəsulullah** ﷺ:

*"- Ən pis oğurluq edən insan namazından oğurlayan kimsədir."* buyurmuşdu. Səhabeyi-kiram:

"- Ya Rəsulallah, adam namazından necə oğurlayar ki?" -dedilər.

*"- O, rükusunu və səcdəsini tam olaraq etməz. Rüku və səcdədən qalxdıqda belini tam doğrultmaz."* -buyurdu. (Əhməd, V, 310; Darimi, Salət, 78)

Bir başqa hədisdə də belə buyurdu:

*"Rüku və səcdələri arasında belini düz tutmayan adamın namazına Allah-Təala baxmaz (qəbul etməz)."* (Əhməd, II, 525)

Namazlarımızı istənilən səviyyədə qılmağa nə qədər diqqət etsək də buna tam olaraq nail olmaya bilərik. İnsan olduğumuz üçün zaman-zaman qüsur və xətalarımız ola bilər. Ona görə də bu kimi nöqsanlarımızı tamamlamaq üçün istiğfarla Rəbbimizə yönəlməli və nafilə namazlara da əhəmiyyət

**Rəsulullah ﷺ namazda saqqalı ilə oynayan bir adam görmüş və:**

**"- Baxın, bu adamın qəlbində xüşu olsaydı, üzvləri də xüşu içində olardı." buyurmuşdu.**

**(Əli əl-Müttəqi, VIII, 197/22530; Əbdurrəzzaq, Müsənnəf, II, 266-267)**



**Peyğəmbərimiz** ﷺ bir səfər əsnasında qonaqlamışdı. Səhabələrindən:

*"-Bu gecə keşiyimizi kim çəkəcək?"* deyə soruşdu.

Mühacirlərdən **Ammar bin Yasir** və ənsardan **Abbad bin Bişr** رضي الله عنه dərhal:

"-Biz keşik çəkərik, ya Rəsulallah!" dedilər. Peyğəmbərimiz ﷺ:

*"-Vadinin ağzında gözləyin!"* buyurdu.

Abbad رضي الله عنه Həzrət Ammardan:

"-Sən gecənin hansı bölümündə - əvvəlində, yoxsa sonunda keşik çəkmək istəyirsən?" deyə soruşdu. Ammar رضي الله عنه:

"-Son bölümündə keşik çəkmək istəyirəm!" dedi və yatdı. Abbad da namaz qılmağa başladı. Kəhf surəsini oxuyurdu. Bu zaman bir müşrik gəldi. Ayaq üstə dayanan bir qaraltı görüb gözətçi olduğunu anladı və dərhal bir ox atdı. Ox Abbada dəydi. Mübarək səhabə oxu çıxartdı və namazına davam etdi. Düşmən ikinci və üçüncü dəfə ox atıb onu vurdu. Hər dəfə də Abbad رضي الله عنه oxları çıxarır və namazına davam edirdi. Rüku və səcdəyə getdi. Salam verdikdən sonra yoldaşını oyadaraq:

"- Qalx! Mən yaralanmışam!" dedi.

Ammar رضي الله عنه sıçrayıb qalxdı. Bunu görən müşrik tutulmaqdan qorxub qaçdı. Ammar رضي الله عنه yoldaşının al qan içində olduğunu görüb:

"-Sübhanallah! Sənə ilk ox atıldığı zaman niyə məni oyatmadın?!" dedi. Abbad رضي الله عنه bu möhtəşəm cavabı verdi:

"-Elə bir surə oxuyurdum ki, onu bitirmədən namazımı pozmaq istəmədim. Ancaq oxlar arxa arxaya gəlincə, oxumağı kəsib rükuya getdim. Allah Rəsulunun qorunmasını əmr etdiyi bu mövqeyi itirməkdən qorxmasaydım and olsun ki, surəni yarımçıq qoyub namazı kəsməkdənsə ölməyi seçərdim."[1]

---

1. Bax. Əbu Davud, Təharət, 78/198; Əhməd, III, 344; Beyhəqi, *Dəlail*, III, 459; İbn Hişam, III, 219; Vaqidi, I, 397.

vermәliyik. Allah Rәsulu ﷺ belә xәbәr vermişdir:

*"Qiyamәt günündә qulun hesaba çәkilәcәyi ilk әmәl namazdır. Әgәr namazı düz olarsa, hәr işi yolunda gedәr vә qazanclı çıxar. Namazı düz deyilsә, zәrәrә uğrayar. Әgәr fәrzlәrindә nә isә nöqsan olarsa, Әziz vә Cәlil olan Rәbbi:*



***«Baxın görәk qulumun nafilә namazları varmı?»*** *buyurar. Fәrzlәrin әskiyi nafilәlәrlә tamamlanar. Sonra digәr әmәllәrindәn dә bu şәkildә hesaba çәkilәr."* (Tirmizi, Salәt, 188/413)

## *Namazı İlk Vaxtında Qılmaq*

Namazları ilk vaxtında qılmaq diqqәt edilәcәk mövzulardan biridir. Namazı son vaxtına qәdәr gecikdirmәk vә könülsüz şәkildә başdansovdu, tәlәm-tәlәsik qılmaq -Allah qorusun- insanı münafiqliyә düçar edәr.

**Rәsulullah** ﷺ namazı gecikdirmәyin tәhlükәli olduğuna diqqәt çәkәrәk belә buyurmuşdur:

*"Namazın ilk vaxtında Allahın razılığı, son vaxtında isә әfvi vardır."* (Tirmizi, Salәt, 13/172)

Yәni namazın ilk vaxtında qılınması qulun ilahi әmrlәrә itaәtdә nә qәdәr hәssas vә әzmli olduğunu göstәrdiyi üçün Haqqın razılığına vәsilә olar. Bunun әksinә namazı laqeydlik edib son vaxtında qılmaqsa ilahi әmrlәrә itaәtdәki hәssas-

***Hәzrәt Mövlana buyurur:***

***Ağlını başına yığ. Namazdan yalnız zahirәn deyil, mәnәn dә istifadә etmәyә bax. Yem dәnlәyәn quş kimi Allahın böyüklüyündәn xәbәrsiz halda sadәcә başını yerә qoyub-qaldırma!..***

***Hәzrәt Peyğәmbәrimizin "Әn pis oğru namazından oğurlayandır" hәdisinә diqqәt et!***



lıq nöqsanlığını göstərdiyindən qula hər hansı bir əcr yazılmaz, yalnız fərz borcu ödənmiş olar.

**Alə bin Əbdürrəhman həzrətləri** bu hadisəni nəql edir:

Bir gün günortadan sonra **Ənəs bin Malikin** yanına getmişdik. Biz çatan kimi Ənəs ﷺ dərhal qalxaraq ikindi namazını qıldı. Ona namazı erkən qıldığını dedik. O da nə üçün belə etdiyini izah mahiyyətində belə dedi:

"Peyğəmbərimiz ﷺ üç dəfə: *«O münafiqlərin namazıdır!»* buyurduqdan sonra belə buyurmuşdu:

*«Onlardan biri oturar, oturar, tam günəş saralıb batmağa üz tutanda və şeytanın iki buynuzu arasına girdikdə qalxıb quşun yem dənləməsi kimi sürətlə dörd dəfə əyilib-qalxar, namazda da Allahı çox az zikr edər.»"* (Muvatta, Qurani-Kərim, 46; Müslim, Məsacid, 195)

**Əbu Zər** ﷺ belə nəql edir:

"Rəsulullah ﷺ:

*«– Namazı gecikdirən və ya onu ruhu çıxmış ölü cəsəd halına gətirən kəslər sənə idarəçi olduqda halın necə olacaq?»* buyurdu.

Mən:

«–Belə bir vəziyyətlə qarşılaşdıqda mən nə etməliyəm? Əmriniz nədir?» -deyə soruşdum. Allah Rəsulu ﷺ:

***"Münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki əslində (Allah) onları aldadır. Onlar namaza durduqları zaman (yerlərindən) tənbəlliklə (könülsüz) qalxar, özlərini (yalandan) xalqa göstərər və Allahı olduqca az yad edərlər."***

*(ən-Nisa, 142)*

*«–Namazını vaxtında qıl! Onları namaz qılarkən görsən təkrar qıl! Bu sənin üçün nafilə olar.»* -buyurdu.” (Müslim, Məsacid, 238-240; Darimi, Salət, 25)

Həmçinin Peyğəmbərimizdən:

“- Əməllərin hansı daha fəzilətlidir?” -deyə soruşmuşdular.

*“- İlk vaxtında qılınan namazdır.”* buyurmuşdu. (Tirmizi, Salət, 13/170; Əbu Davud, Salət, 9/426)

Allah Rəsulu ﷺ ümmətinə tövsiyə etdiyi bu fəzilətli əməli hər kəsdən əvvəl özü işləyərdi. Çünki O, həyatı boyunca harada və necə olur-olsun, vaxtı girdiyi an dərhal namazını qılmaqdan məmnun olardı. Həmçinin **Həzrət Aişə** (r.anhə) belə deyir:

***“Rəsulullah ﷺ namazı son vaxtına qədər iki dəfə də olsun təxir etmədən Allah-Təala Onu öz qatına aldı.”*** (Tirmizi, Salət, 13/174; Əhməd, VI, 92)

## Namazları Camaatla Qılmaq

Namaz mövzusunda ən mühüm xüsuslardan biri də fərz namazların camaatla qılınmasıdır. Namazı camaatla qılmaq vacib hökmündə müəkkəd sünnədir. **Həzrət Peyğəmbər** ﷺ ömrünün son günləri xaricində camaatla namazı heç vaxt tərk etməmişdir.



***“Onlar cənnətlərdədirlər; bir-birindən soruşacaqlar; Günahkarlar barəsində (və sonra həmin günahkarlara müraciət edib belə deyəcəklər): “Sizi Saqərə (Cəhənnəmə) salan nədir?” Onlar deyəcəklər: “Biz namaz qılanlardan deyildik; Yoxsulu da yedirtməzdik; Batilə dalanlarla birlikdə biz də dalardıq; Haqq-hesab gününü yalan sayardıq.”***

***(əl-Muddəssir, 40-46)***

*Hədisi-Şərifdə buyurulur:*

*"Yatsı namazını camaatla qılan gecənin yarısını, sübh namazını camaatla qılan bütün gecəni ibadətlə keçirmiş sayılır."*

*(Müslim, Məsacid, 260)*

*Allah-Təala çox səcdə etməsi üçün insan vücudunu səcdəyə ən uyğun formada yaratmışdır.*

Namazları camaatla qılmağın dönə-dönə əmr edilməsi dinimizin ictimai tərbiyəyə verdiyi əhəmiyyəti göstərər. Çünki birlik və birlik duyğusunu gücləndirən ən mühüm saleh əməl namazları camaatla qılmaqdır. Harada camaatla namaz qılınırsa, bu o deməkdir ki, orada İslamın ruhi və ictimai cəhəti dərk edilməyə başlanmışdır.

Namazın hər rükətində oxuduğumuz; **"Yalnız Sənə ibadət edər və yalnız Səndən kömək istəyərik!"** (əl-Fatihə, 5) ayəsində Rəbbimiz bizə gündə ən az qırx dəfə cəm halında olmamızı təlqin etməkdədir.

Bu xüsusdakı hədisi-şəriflərin bir neçəsi belədir:

*"Camaatla qılınan namaz, təkbaşına qılınan namazdan 27 dərəcə daha üstündür."* (Buxari, Azan, 30)

*"...Camaat halında olmanızı və ayrılığa düşüb dağılmaqdan şiddətlə uzaqlaşmanızı istəyirəm. Çünki şeytan təkbaşına yaşayan kəslərlə bərabərdir. İki nəfər də olsa birlikdə yaşayanlardansa uzaqdır. Cənnətin ortasında olmaq istəyən camaata davam etsin..."* (Tirmizi, Fitən, 7/2165)

Bir gün **Rəsulullah** ﷺ təkbaşına namaz qılan bir adam görmüşdü:



*"–Bu adama, onunla birlikdə namaz qılaraq sədəqə verəcək (yaxşılıq edəcək) kimsə varmı?"* buyurdu. (Əbu Davud, Salət, 55/574; Tirmizi, Salət, 164; Darimi, Salət, 98)

Digər rəvayətlərdən aydın olduğuna görə bu şəxs günorta namazı qılırdı. Rəsulullah ﷺ bir adamın ona camaat olaraq daha çox savab qazandırmasını arzu etdi.

Allah Rəsulu ﷺ camaat məsələsində heç bir güzəştə getməmişdir. Bir gün kor səhabə **Abdullah bin Ümmü Məktum** رضي الله عنه:

"- Ya Rəsulallah! Mədinənin zəhərli həşəratları və yırtıcı heyvanları çoxdur. (Bu heyvanların mənə zərər verməsindən qorxuram. Camaata gəlməyib evdə namaz qıla bilərəmmi?)" demişdi. Rəsulullah ﷺ:

*"- حَيَّ عَلَى الصَّلَاة (hayyə aləs-saləh) və حَيَّ عَلَى الْفَلَاح (hayyə aləl-fəlah)" dəvətini eşidirsənmi? Eşidirsənsə məscidə gəl."* buyurdu. (Əbu Davud, Salət, 46/553)

**Yezid bin Amir** رضي الله عنه nəql edir:

"Allah Rəsulu namaz qılarkən yanına getmişdim. Oturdum və camaatla namaza qoşulmadım. Peyğəmbərimiz namazdan sonra bizə tərəf çevrildikdə, kənarda oturduğumu gördü:

*«- Ey Yezid, sən müsəlman olmadınmı?»* -buyurdu.

«- Oldum, ya Rəsulallah!» dedim.

*«- Elə isə camaatla namazda iştirak etməyinə mane olan nədir?»* buyurdu.

«- Sizin namazı qıldığınızı zənn edərək evimdə qılmışdım.» dedim. Bunun üzərinə Peyğəmbərimiz ﷺ:

*«- Əgər namaza gəlib insanları namaz qılarkən görsən, onlarla birlikdə sən də qıl! Əgər daha əvvəldən namazını qılmısansa, bu sənin üçün nafilə olar. Evdə qıldığın da fərz yerinə keçər.»* buyurdu." (Əbu Davud, Salət, 56/577)



***Rəsulullah ﷺ belə buyurur:***

***"Bir nəfərin başqa bir adamla qıldığı namaz, təkbaşına qıldığı namazdan daha bərəkətli və savabı daha çoxdur. İki adamla qıldığı namaz da bir adamla qıldığı namazdan daha bərəkətli və üstündür. Birlikdə qılanların sayı nə qədər çox olarsa, Allah-Təalanın o qədər çox xoşuna gələr."***

***(Əbu Davud, Salaə, 47/554; Nəsai, İmamə, 45/841)***

***Rəvayətə görə, qiyamət günü Allah-Təala:***

***"- Mənim qonşularım haradadırlar?" deyə soruşacaq.***

***Mələklər:***

***"- Sənə kim qonşu ola bilər ki, ya Rəbb?!" deyəcəklər.***

***Allah-Təala da:***

***"- Məscidlərimi abad edənlər (yəni camaatla namaza davam edənlər)." buyuracaq.***

***(Əli əl-Müttəqi, VII, 578/20339)***

Allah Rəsulu ﷺ camaatla namaza davam etməyənlər üçün müxtəlif xəbərdarlıqlar etmişdir. **Übey bin Kəb** رضي الله عنه belə nəql edir:

"Rəsulullah ﷺ bir gün bizə sübh namazını qıldırdı və:

*«- Filankəs namaza gəldimi?»* deyə soruşdu.

«- Gəlmədi.» dedilər.

*«- Filankəs gəldimi?»* deyə soruşdu. Yenə:

«- Gəlmədi.» dedilər. Bunun üzərinə:

*«- Bu iki namaz (gecə və sübh) münafiqlərə ən ağır gələn namazdır. Bunlarda nə qədər çox əcr və savab olduğunu bilsəydiniz, diz üstə iməkləyərək də olsa camaatla namaza gələrdiniz. Birinci səf, mələklərin səfi kimidir. Fəzilətini bilsəydiniz onun üstündə yarışardınız ...»* buyurdu." (Əbu Davud, Salət, 47/554; Nəsai, İmamət, 45)

Dinimizdə camaatla namaza göstərilən əhəmiyyət səbəbiylə böyük Osmanlıüləmasından **Molla Fənari** camaata davam etməməsi səbəbiylə İldırım Bəyazidin məhkəmədə şahidliyini qəbul etməmişdir. Bunun səbəbini heyrətlə soruşan Sultana da açıq bir şəkildə:



***"- Sultanım! Sizi camaatla namazda görə bilmirəm. Halbuki siz bu millətin rəhbərləri olaraq ilk səfdə olmalısınız. Yəni sizin əməlisaleh olmanız lazımdır... Əgər camaatla namaza iştirak etməsəniz, xalqa pis nümunə olarsınız ki, bu da şahidliyinizin***

***qəbuluna manedir..."*** cavabını vermişdi.

Bu hadisədən sonra, başqa bir rəvayətə görə isə Niğbolu zəfərinə şükür olaraq İldırım Bəyazid Bursadakı məşhur **Ulu Cameni** inşa etdirmiş və beş vaxt namazı camaatla qılmağa davam etmişdir.

### *Son Nəfəsə Qədər Namaz*

Namazı tərk etməyin və ona laqeyd qalmağın heç bir bəhanəsi ola bilməz. Döyüşdə də müsəlman əsgərlər növbə ilə namazlarını camaatla qılmalıdırlar.[40]

Bu səbəblə son nəfəsimizi verənə qədər namaz xüsusunda daim qəlbimizi ayıq tutmalıyıq. Necə ki, Allah Rəsulunun ömrünün son anlarını danışan **Həzrət Ənəs** ﵁ belə deyir:

"- Vəfat edərkən Rəsulullahın yanındaydıq. Bizə üç dəfə:

*«- Namaz barəsində Allahdan qorxun!»* buyurdu və vəsiyyətinə belə davam etdi:

*"- Əmriniz altındakı insanlar haqqında Allahdan qorxun. İki zəif haqqında Allahdan qorxun: onlar dul qadın və yetimdir. Namaz barəsində Allahdan qorxun!..»*

Rəsulullah ﷺ daha sonra *"Namaz, namaz..."* deyə təkrar etməyə başladı. Pak ruhu Ən Uca Dostun dərgahına yüksələnə qədər bunu təkrar etdi. (Beyhəqi, Şuab, VII, 477)

40. ən-Nisa, 102.



***Övliya Çələbi belə deyir:***

***Bəyazid Camesinin inşaatı bitdikdəbir cümə günü böyük mərasimlə ibadətə açıldı. (Padşah) Bəyazid Vəli buyurdu ki,***

***"Kim ömründə ikindi və yatsı namazlarının ilk sünnəsini heç tərk etməyibsə, bu mübarək vaxtda o imam olsun."***

***O qədər adamın içindən bircə nəfər də olsa çıxmayanda padşah məcbur qalaraq:***

***"Şükürlər olsun, biz döyüşdə də, rahatlıq zamanında da bu sünnələri tərk etmədik" dedi və imam olub namazı qıldırdı.***



# DİN QARDAŞLIĞI

Allah-Təala Qurani-Kərimdə möminlərin qardaş olduğunu bəyan edir. Peyğəmbərimiz də bir möminin din qardaşlarıyla arasında güclü məhəbbət əlaqəsi qurmadan kamil mənada imana çata bilməyəcəyini bildirir.

**Rəsulullah** ﷺ din qardaşlığının əhəmiyyətini belə ifadə edir:

*"Mömin qardaşıyla birlikdə çoxdur."* (Acluni, Kəşful-Xafa, №: 2800)

*"Heç kim qardaşına ehtiyacsız deyil. Eynilə iki əl kimi bunların biri digərinə ehtiyac hiss etmədən əsla yaşaya bilməz."* (Deyləmi, Firdovs, III, 409/5251)

*"Möminlər bir-birləriylə qarşılaşdıqlarında, bir-birini yuyan iki əl kimidirlər."* (Süyuti, Camiul-Əhadis, №: 21028; Deyləmi, Firdovs, IV, 132/6411)

Yəni mömin qardaşlar bir-birlərinə köməkçi olar, əskiklərini aradan qaldırar, səhvlərini düzəldər, yumşaq bir üslubla gözəl nəsihətlər edərlər.

Din qardaşını Allah üçün sevməyin fəziləti də belə bəyan edilir:

*"Qiyamət günü Allah-Təala belə buyurar: Cəlalım haqqı üçün, mənə itaət məqsədiylə bir-birlərini sevənlər haradadır? Heç bir kölgənin olmadığı bu gün onları (ərşimin) altında kölgələndirəcək və mühafizə edəcəyəm."* (Müslim, Birr, 37)

***Bizdən istənən şey maddi və mənəvi ehtiyaclarımızın Allaha ərz edildiyi bir namazdır… "Səcdə et və yaxınlaş!"** (əl-Ələq, 19)**–buyuran, quluyla birlikdə olmaq istəyən Allahla məxluqat arasındakı bir namaz… Bədənin qibləsi Kəbə ikən, qəlbin qibləsi də Haqq-Təala olan bir namaz…***

## Namazla Gələn Zəfər

Çanaqqala hərbinin davam etdiyi günlərdə bir Ramazan bayramı ərəfəsi idi. Cəbhə komandiri Vehib Paşa 9-cu diviziyanın gənc imamını çağıraraq kədərli səslə belə dedi:

“- Hafiz! Sabah Ramazan bayramıdır. Əsgərlər cəm halında bayram namazı qılmaq istəyir. Nə desəm fikirlərindən yayındıra bilmədim. Cəm halında namaz qılansa, düşmənin əlinə bizi öldürmək fürsəti keçəcək. Münasib bir dillə bunu onlara sən də izah et bəlkə fikirlərindən dönərlər!..”

İmam Paşanın yanından yenicə ayrılmışdı ki, qarşısına nurani bir adam çıxdı və:

“- Oğlum! Əsla əsgərlərə heç nə demə! Sabah olar, xeyir olar; Allah necə diləyərsə, elə olar.” dedi.

Ertəsi səhər hər kəsi heyrətə salan ilahi bir təcəlli yaşandı. Göydən topa-topa buludlar endi və qəlbi Allaha qulluq eşqiylə dolu olan mömin əsgərlərin üzərini örtdü. Onları durbinlə müşahidə edən düşmən qüvvələri artıq dümağ buludlardan başqa bir şey görə bilmirdi. O səhər tam fərqli bir mənəvi həyəcan içində qılınan bayram namazında alınan gur təkbirlər, dalğa-dalğa səmaya yüksəlirdi.

Elə bu zaman ingilis ordusunda böyük bir qarışıqlıq və üsyan müşahidə edildi. Çünki müxtəlif ingilis müstəmləkələrindən aldadılaraq gətirilən müsəlman əsgərlər eşitdikləri bu təkbir və tövhid səslərindən müsəlman orduya qarşı döyüşdüklərini anlamışdılar. Nə edəcəyini bilməyən zalım ingilislər onların bəzisini güllələdi, digərlərini də tezliklə cəbhədən uzaqlaşdırmaq məcburiyyətində qaldı.

Ayeyi-kərimədə belə buyurulur:

**“Ey iman edənlər! Səbir və namazla Allahdan kömək istəyin!..”** (əl-Bəqərə, 153)

**Ənəs bin Malik ﷺ belə deyir:**

**“Rəsulullah ﷺ din qardaşlarından birini üç gün görə bilməzsə, onu soruşardı. Uzaqdadırsa onun üçün dua edər, evindədirsə ziyarət edər, xəstə isə şəfa diləməyə gedərdi.”**

**(Heysəmi, II, 295)**

Bir gün Rəsulullah ﷺ:

*“Allahın qullarından bəzi insanlar vardır ki, nəbi və şəhid deyillər. Lakin qiyamət günündə Allah qatındakı mövqelərindən ötrü nəbilər və şəhidlər onlara qibtə ilə baxacaqlar.”* buyurmuşdu.

Əshabi-kiram:

“- Bunlar kimlərdir və nə kimi xeyirli əməllər işləyiblər? Bizə bildir ki, biz də onlara sevgi və yaxınlıq göstərək, ya Rəsulallah!” dedilər.

Allah Rəsulu:

*“-Bunlar elə insanlardır ki, aralarında nə qohumluq, nə də ticarət və iş münasibəti vardır. Sırf Allah rizası üçün bir-birlərini sevərlər. Vallah üzləri bir nurdur və özləri də nurdan bir minbər üzərindədirlər. İnsanlar qorxduğu zaman onlar qorxmazlar. İnsanlar qəmli olduğu zaman onlar kədərlənməzlər.”* buyurdu və bu ayəni oxudu:

**“Bilin ki, Allahın dostlarına qorxu yoxdur; onlar kədərlənməyəcəklər də.”** (Yunus, 62) (Əbu Davud, Büyü, 76/3527; Hakim, IV, 170. Bax. Tirmizi, Zöhd, 53/2390)



Din qardaşlığının ən gözəl nümunələri Peyğəmbərimizin Məkkədən Mədinəyə hicrətiylə yaşanmışdır. Mədinəyə təşrifinin ilk günlərində Allah Rəsulu ﷺ bütün müsəlmanları bir-biriylə qardaş elan etmişdir. Bütün malını, mülkünü, yoldaşını və dostunu Məkkədə qoyub gələn mühacirləri ənsarın himayəsinə verən Peyğəmbərimiz beləcə dini, ictimai və si-

yasi baxımdan birlik və bərabərliyi təsis etmişdir.



Din qardaşlığı ənsar və mühacirlərin könüllərində qısa müddətdə cücərib kök salmışdı. Nəbi ﷺ **Bəhreyn** ərazisini bölmək üçün əvvəl ənsarı dəvət etdikdə onlar fədakarlıq edərək:

"– Ya Rəsulallah! Mühacir qardaşlarımıza bunun bir mislini artıqlamasıyla vermədikcə biz heç nə istəmirik!" dedilər. (Buxari, Mənaqibul-Ənsar, 8)

**Cabir** رضي الله عنه nəql edir:

"Ənsar xurmalarını yığdıqda bunları ikiyə ayırardılar, bir tərəfə çox, digər tərəfə də az xurma qoyardılar. Daha sonra az olan xurmaların altına budaq və yarpaqlar qoyaraq o tərəfi çox göstərib mühacirlərə:

«- Hansını istəyirsinizsə onu götürün.» deyərdilər. Onlar da (çox görünən xurmalar ənsar qardaşlarımızın olsun deyə digərini götürərdilər) və beləcə xurmanın çoxu yenə onlara düşərdi. Ənsar da bu yolla az olan qisimi özlərinə saxlamış olardılar. Xeybərin fəthinə qədər ənsarın bu alicənablığı davam etdi." (Heysəmi, X, 40)

### *Küsülü Qalmamaq*

İslam qardaşlığı istər sevincli, istərsə də hüznlü günlərdə qardaşların hər vaxt bir-birlərinə dəstək olmasını tələb edir. Din qardaşlarının bir-birindən küsməsi isə heç vaxt tövsiyə edilmir. Bu vəziyyət, qardaşlığa zəhər verər. **Peyğəmbər** ﷺ buyurmuşdur:

**Rəsulullah ﷺ belə buyurmuşdur:**

**"Hər hansı bir insan bir möminlə tanış olub qardaş olduqda ondan adını, atasının adını və kimlərdən olduğunu soruşsun! Çünki belə etmək aradakı məhəbbətin artması üçün daha əlverişlidir."** **(Tirmizi, Zöhd, 54/2392)**

*“Bir möminin din qardaşını üç gündən çox tərk edib ona küsülü qalması halal deyil. Üç gün keçibsə, onunla qarşılaşıb salam versin. Əgər salamını alsa, hər ikisi savabda ortaq olarlar. Əks halda salamı almayan günaha girmiş olar. Salam verən isə küsülü qalmaqdan çıxmış olar.”* (Əbu Davud, Ədəb, 47/4912)



*“Kim, din qardaşını bir il tərk edib küsülü qalarsa, onun qanını tökmüş kimi günaha batar.”* (Əbu Davud, Ədəb, 47/4915)

***Nəbiyyi-Əkrəm bu hadisəni nəql edir:***

***“Bir kimsə başqa bir kənddəki din qardaşını ziyarət etmək üçün yola çıxdı. Allah-Təala onu qorumaq üçün yolunun üzərində bir mələyi vəzifələndirdi. Adam yanına gəldikdə mələk:***

***«- Hara gedirsən?» dedi. O şəxs:***

***«- Bu kənddə bir din qardaşım var, onu görməyə gedirəm.» cavabını verdi.***

***Mələk soruşdu:***

***«- O qardaşından əldə etmək istədiyin bir mənfəətinmi var?»***

***Adam:***

***«- Yox, mən onu sırf Allah rizası üçün sevirəm, məhz buna görə ziyarətinə gedirəm.» dedi.***

***Bunun üzərinə mələk:***

***«-Sən onu necə sevirsənsə Allah da səni eləcə sevir. Mən bu müjdəni vermək üçün Allahın sənə göndərdiyi elçiyəm.» dedi.”***

***(Müslim, Birr, 38; Əhməd, II, 292)***

Peyğəmbərizin bəyanına görə bazar ertəsi və cümə axşamı günü qulların etdiyi işlər Allah-Təalaya ərz olunar. Din qardaşı ilə arasında inciklik olan adamdan başqa, Allaha şirk qoşmayan hər qulun günahları bağışlanar. Mələklərə: *"Bu iki adamın əfv olunmasını bir-biriylə barışana qədər təxirə salın!"* deyə tapşırıq verilər. (Müslim, Birr, 35-36; Əbu Davud, Ədəb, 47)

Din qardaşlarının arasını düzəldib barışdırmaq da ən xeyirli əməllərdən biridir. **Rəsulullah ﷺ bir gün Əbu Əyyub əl-Ənsari həzrətləri**nə xitab edərək:

*"- Əbu Əyyub, Allah və Rəsulunun sevib razı olduğu bir yaxşılığı sənə xəbər verim mi?"* buyurmuşdu.

Əbu Əyyub رضي الله عنه:

"- Bəli, bildirin, ya Rəsulallah!" dedi.

Peyğəmbərimiz ﷺ:

*"- İnsanlar bir-birindən küsdükdə aralarını düzəldər; bir-birindən uzaqlaşdıqda da onları bir-birlərinə yaxınlaşdırarsan."* buyurdu. (Beyhəqi, Şuab, VII, 490; Heysəmi, VIII, 80)

***"Həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, rəhm olunasınız!"***

***(əl-Hucurat, 10)***

***"Əgər (həqiqi) möminsinizsə, Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin, Allaha və Onun Peyğəmbərinə itaət edin!"* (əl-Ənfal, 1)**

### Qardaşının Dərdinə Əlac Olmaq

Əshabi-kiramdan birinə bir qoyun başı hədiyyə edilmişdi. O da:

"- Filan qardaşım və ailəsi buna bizdən daha çox möhtacdır." deyərək hədiyyəni o din qardaşına göndərdi. O da eyni düşüncəylə hədiyyəni bir başqasına göndərdi. Beləliklə hədiyyə tam yeddi ev gəzdikdən sonra yenidən ilk səhabəyə qayıtdı. Bunun üzərinə aşağıdakı ayə nazil oldu:



*Din qardaşlığı “mən haqlıyam, sən haqsızsan” kimi mübahisələrin üstünə pərdə çəkərək keçmiş düşmənlikləri unutmağı və lazım gəldikdə nəfsindən fədakarlıq edərək mömin qardaşını bağışlamağın fəzilətinə nail olmağı tələb edir. Çünki küsülü qalmaq Allahın Əmrinə itaətsizlikdir.*

**“Özləri möhtac olsalar belə, başqasını daha çox düşünərlər.”** (əl-Həşr, 9) (Hakim, Müstədrək, II, 526)

**Abdullah bin Abbas** (r.anhumə) bir gün Rəsulullahın məscidində etikafda ikən bir nəfər yanına gələrək salam verdi və oturdu. İbn Abbas (r.anhumə):

“- Qardaşım, səni kədərli və qəmli görürəm.” dedi və söhbətləri belə davam etdi:

“- Bəli, ey Rəsulullahın əmisi oğlu, kədərliyəm! Filankəsin üzərimdə haqqı var, lakin bu qəbrin sahibi (Allah Rəsulu) haqqı üçün söyləyirəm ki, o borcumu ödəyə bilmirəm.”

“-Sənin üçün onunla görüşümmü?”

“-Sən bilərsən.”

İbn Abbas ayaqqabılarını geyinib məsciddən çıxdı. Adam ona:

“-Etikafta olduğunu unutdunmu, nə üçün məsciddən çıxdın?” deyə səsləndi. İbn Abbas (r.anhumə):

“-Xeyr! Mən, bu qəbirdə yatan və hələ aramızdan yeni ayrılmış olan Möhtərəm insandan eşitdim ki, (bunları söyləyərkən gözlərindən yaşlar axırdı):



*“-Hər kim, din qardaşının bir ehtiyacını qarşılamaq üçün cəhd göstərər və o işi görərsə, bu onun üçün on il etikafda qalmaqdan daha xeyirlidir. Halbuki bir kimsə Allah rizası üçün bir gün etikafa girsə, Allah-Təala o kimsə ilə cəhənnəm arasında üç xəndək yaradar ki, hər bir xəndəyin arası, şərq ilə qərb arası qədər*

*uzaqdır."* (Beyhəqi, Şuab, III, 424-425. Ayrıca bax. Heysəmi, VIII, 192)



### *Din Qardaşına Dəstək Olmaq*

**Fateh Sultan Mehmet Xan** İstanbulun fəthindən sonra Bizans zamanında zindana atılan bəzi insaflı keşişlərin Osmanlı Dövləti haqqındakı fikirlərini soruşmuşdu. Onlar da ancaq bir müddət araşdırdıqdan sonra öz qənaətlərini bildirəcəklərini söylədilər.

Keşişlər özlərinə verilən fərmanla hər yerə girib çıxırdılar. Səhərin erkən saatında bir baqqala gedərək nə isə alacaqdılar. Baqqal:

***"- Əfəndim, mən siftə etdim. Siz siftə etməyən bu qonşumdan alın!"*** dedi.

Keşişlər bu İslam qardaşlığı mənzərəsinə heyran qaldılar… Həqiqətən mənfəətpərəstlikdən təmizlənmiş, müsəlman qardaşını düşünən bu yetkin şəxsiyyətə qibtə etməmək mümkün deyildi.

Sözün qısası, Allah üçün olan həqiqi dostluq fərqli bədənlərin eyni ürəklə yaşaması kimidir. Din qardaşlığının məsuliyyətini həssas və fədakarcasına bir xidmətlə ifa səyində olanların ömrü fani həyatlarından sonra da davam edər. Onlar hər zaman rəhmətlə

***Rəsulullah ﷺ belə buyurmuşdur:***

***"İnsanlardan biri ilə dostluq edəcək olsaydım, Əbu Bəkri özümə dost seçərdim. Lakin İslam qardaşlığı daha üstündür."***

***(Buxari, Salət, 80)***

**Əbu Hüreyrə ﷺ belə deyir:**

**“Mömin qardaşının güzgüsüdür. Onda bir ayıb gördükdə düzəldər.”** **(Buxari, əl-Ədəbul-Müfrəd, № 238)**

**Yəni mömin qardaşında gördüyü hər şeyi səmimiyyətlə ona söyləyər. Gözəllik gördükdə təqdir edərək onu daha yaxşıya təşviq edər, pislik gördükdə də xəbərdarlıq edərək düzəltməyə çalışar.**



yad edilərlər. Eynilə mühacirlər, ənsar və könül dünyalarını bir vəqf halına gətirə bilən möminlər kimi…

## QUL HAQQI

Allah-Təala insanları mükərrəm olaraq və ən gözəl şəkildə yaratdığını ifadə buyurmuşdur.[41] Onlara saysız-hesabsız nemətlər və bir sıra haqlar lütf etmişdir. Bu haqların mühafizəsi üçün də həyatın axışını tənzimləyən bəzi qanun və qaydalar qoymuşdur.

Müsəlman bir gənc Allaha aid bir haqqı tapdamağın böyük günah olduğunu əsla unutmamalıdır. Lakin burada əsas unudulmaması lazım gələn xüsus budur: Uca Rəbbimiz özünə qarşı işlənən səhv və günahları bağışladığı halda, qul haqqını bunun xaricində tutmuşdur. Onu bağışlamağı haqsızlığa uğrayan adamın iradəsinə buraxmışdır. Bu səbəbdən hər hansı bir qul haqqı səbəbiylə tövbə edəcək olan adamın əvvəlcə haqqını yediyi kimsədən halallıq alması şərtdir.

Bir gün **Rəsulullah** ﷺ:

*“- Yalan and ilə bir müsəlmanın haqqını alan kimsəyə Allah-Təala cənnəti haram edər və cəhənnəmi fərz qılar.”* buyurmuşdu.

41. Bax. əl-İsra, 70; ət-Tin, 4.

"- Kiçik də olsa, ya Rəsulallah?" deyə soruşdular. Allah Rəsulu ﷺ:

*"- Misvak ağacından bir budaq da olsa!"* buyurdu və bu sözünü üç dəfə təkrarladı. (Müslim, İman, 218; Muvatta, Əqdiyyə, 11)

Yenə bir gün Allah Rəsulu əshabından:

*"- Müflisin kim olduğunu bilirsinizmi?"* deyə soruşmuşdu. Onlar:

"- Bizə görə müflisləşən adam pulunu və malını itirəndir." dedilər. Rəsulullah ﷺ belə buyurdu:

*"- Ümmətimin əsl müflisi bu adamdır: O, qiyamət günü namaz, oruc və zəkat savabıyla gələr. Lakin buna söydüyü, buna böhtan atdığı, bunun malını yediyi, bunun qanını tökdüyü və bunu döydüyü üçün yaxşılıqlarının savabı başqalarına verilər. Üstündəki qul haqları bitmədən savabları bitsə, haqq sahiblərinin günahları ona yüklənər və nəticədə cəhənnəmə atılar."* (Müslim, Birr, 59; Tirmizi, Qiyamət, 2; Əhməd, II, 303, 324, 372)

Qul haqqı yeməyin ən dəhşətlisi **faiz** verməkdir. Allah-Təala bu cür haqsızlıq edənlərə acı bir əzab hazırlamışdır.[42] Faiz yeyənə, yedirənə, bunlar arasındaki müqaviləni yazana və şahidlik edənə Allah-Təala lənət edər.[43]

***Allah Rəsulu ﷺ vəfatına yaxın ümmətinə qul haqqı xüsusunda xəbərdarlıq etmək üçün özündən misal verərək belə buyurdu:***

***"Kimin kürəyinə vurmuşamsa, budur kürəyim, gəlib vursun. Kimin malından səhvən istifadə etmişəmsə, budur malım. O da gəlib alsın!"* (Əhməd, III, 400)**



42. Bax. ən-Nisa, 161.
43. Bax. Əbu Davud, Büyü, 4/3333; Tirmizi, Büyü, 2; Əhməd, I, 393.



Həmçinin birinin malını oğurlamaq və ya icazəsiz olaraq götürmək, namus və şərəfini ləkələmək, insanları zarafatla da olsa incitmək və ya qorxutmaq, aldatmaq, əmanətə xəyanət etmək, rüşvət alıb-vermək, borcunu gecikdirmək və ya ödəməmək kimi xüsusların hər biri qul haqqına girmək sayılır.

**Rəsulu Əkrəm** ﷺ vəfatından əvvəl səhabələrinə etdiyi son nəsihətlərində qul haqlarına dair belə buyurmuşdur:

*"Nəhayət mən də bir insanam! Aranızdan bəzilərinin haqları mənə keçmiş ola bilər! Kimin malından bilməyərək bir şey almışamsa, budur malım, gəlib götürsün!*

*Yaxşı bilin ki; mənim gözümdə sizin ən sevimli olanınız, boynumda haqqı varsa onu məndən alan və ya halal edən adamdır. Çünki beləliklə halallaşmış olaraq, könül xoşluğu ilə Rəbbimə qovuşacağam!*

*Heç kim «Rəsulullahın kin və düşmənçilik bəsləməsindən qorxuram!» deyə bilməz! Bilmiş olun ki, kin və düşmənçilik bəsləmək, əsla mənim xasiyyətim deyil!"*

Peyğəmbərimiz ﷺ günorta namazını qıldıqdan sonra minbərə çıxdı və bu sözlərini təkrar etdi. Bunun üzərinə bir adam ayağa qalxıb:

***Hədisi-şərifdə buyurulur:***

***"Ey insanlar, kimin üstündə qul haqqı varsa, onu dərhal ödəsin, dünyadan rəzil olacağını düşünməsin! Yaxşı bilin ki, dünya rüsvayçılığı axirətdəkinə nisbətən çox yüngüldür."***

***(İbn Əsir, əl-Kamil, II, 319)***

"- Bir nəfər Sizdən nə isə verməniz istəmişdi, siz də ona üç dirhəm verməmi əmr etmiş, mən də vermişdim." dedi.

Allah Rəsulu ﷺ dərhal onun haqqını ödədi. (İbn Sad, II, 255; Təbəri, Tarix, III, 190)

Daha sonra belə dua etdi:

*"Allahım! Mən hansı möminə ağır bir söz söyləmişəmsə, o sözümü qiyamət günündə onun üçün Sənə yaxınlıq vəsiləsi et!"* (Buxari, Dəavat, 34)

**Qanuni Sultan Süleyman Xan** qul haqqından çox qorxardı. Süleymaniyyə Camesi və külliyyəsinin inşası tamamlandıqda, memarından işçisinə qədər hər kəsi toplayıb dedi:

"- Ey din qardaşlarım, bu məscidi-şərif Allahın izniylə tamamlandı. Səhvən əmək haqqını ala bilməyən varsa, gəlib alsın! Ola bilər ki, həmin



***Ömər bin Xəttab ؓ belə nəql edir:***

***"Xeybər Qəzvəsi günü idi. Peyğəmbərimizin səhabələrindən bir qrup gəlib:***

***«- Filankəs şəhid olub, filankəs də şəhiddir!» dedi. Sonra bir adamın yanından keçərkən:***

***«- Filankəs də şəhid olub!» dedilər. Rəsulullah ﷺ:***

***«- Xeyr! Mən onu qənimət mallarından haqsız yerə götürdüyü bir paltarla cəhənnəmdə gördüm.» buyurdu." (Müslim, İman, 182)***

***Buna görə, ən yüksək məqamlardan sayılan şəhidlik belə, adamın bir çox günahına kəffarə olduğu halda, insanların malına xəyanəti və qul haqqının günahını ortadan qaldırmamaqdadır.***

adam burada deyil. Burdakılardan xahişim odur ki, onlara xəbər versinlər! Onlar da gəlib bizdən haqlarını alsınlar!"

Yazılı mənblərin tədqiqindən aydın olduğuna görə, inşaatın ən çətin zamanlarında hətta heyvanlar üçün bir proqram qoyulmuş; istifadə olunan at, eşşək və qatırların istirahət etmə və otlaqda otlama saatlarına diqqət yetirilmiş, heç bir



***Səhabədən Cərir bin Abdullah ﷺ bir at almaq istəyirdi. Bəyəndiyi bir at üçün satıcı beş yüz dirhəm təklif etdi. Cərir ﷺ bu ata altı yüz dirhəm verə biləcəyini, hətta səkkiz yüz dirhəmə qədər qiyməti qaldıra biləcəyini ifadə etdi. Çünki atın dəyəri yüksək idi, satıcı isə bundan xəbərsizdi. Ondan:***

***"- Atı beş yüz dirhəmə ala biləcəyin halda nə üçün səkkiz yüz dirhəm verdin?" deyə soruşduqda bu möhtəşəm cavabı verdi:***

***"- Biz alverdə hiylə etməyəcəyimizə dair Allahın Rəsuluna söz verdik."***

***Budur İslam əxlaqının ticarət həyatına əks edən "qul haqqı" həssaslığı… Haqq-hüquq düşünmədən; "Müştəridən nə qopara bilsəm kardır." -düşüncəsi müsəlmana yaraşmaz.***

1. İbn Hazm, əl-Muhallə, Misir 1389, IX, s. 454 vd.

məxluqatın haqqına təcavüz edilməməsinə səy göstərilmişdir. Qanuninin bu diqqəti bəlkə də Süleymaniyyə Camesinin sirli və bənzərsiz ruhaniyyətinin təməl səbəblərindən biridir.

Xülasə, müsəlman bir gənc hesab gününü düşünərək qul haqqına riayət etməlidir.

**Rəsulullah** ﷺ necə də gözəl buyurmuşdur:

*"Həqiqi müsəlman dilindən və əlindən müsəlmanların zərər görmədiyi kimsədir..."* (Buxari, İman, 4-5)

Qiyamət günü buynuzsuz qoyun belə, özünə zərər verən buynuzlu qoyundan haqqını alacaq və heç kimin heç kimdə haqqı qalmayacaq.[44] Elə isə insan bilərək və ya bilməyərək bir qul haqqına girmişsə vaxt itirmədən və nəyin bahasına olursa olsun aldığını geri qaytarıb halalaşmalıdır. Sonra da tövbəyə sarılmalıdır.

## Ata-Ana Haqqı

Qul haqları içində ən mühüm olanı ata-ana haqqıdır. Allah və Rəsuluna itaətdən sonra ata-anaya itaət gəlir. Çünki ata-anamız dünyaya gəlməmizin səbəbkarı və vəlinemətimizdir. Maddi və mənəvi həyatımızı inşa edən müstəsna şəxsiyyət memar-

44. Müslim, Birr, 60; Tirmizi, Qiyamət, 2; Əhməd, II, 235, 323, 372, 411.



***Ən gözəl model olsun deyə son dinin,***
***Budur öz şəkli xəyal etdiyi memarının...***
***...***
***Daşımız xərcini qaziləri, sərdarıyla,***
***Daşı yenmiş neçə min işçi, memarıyla....***
***Hür və əngin vətənin həm gecə, həm gündüzünə,***
***Uxrəvi bir qapı açmış buradan gökyüzünə...***
***Ta ki, keçsin əzəli rəhmətə ruh orduları...***
***Bir nəfərdir bu zəfər məbədinin memarı...***

***(Yəhya Kamal Bəyatlı)***

**Əbdürrəhman Cami -quddisə sirruh- deyir ki:**

**"Mən anamı necə sevməyim ki, o məni bir müddət cismində, uzun bir zaman qucağında, ölənə qədər də ürəyinin şəfqət guşəsində daşımışdır. Ona hörmətsizlik etməkdən daha pis bir şey ola bilərmi?!.."**

larımızdır. Bu səbəbdən onların üzərimizdəki haqları saymaqla qurtarmayacaq qədər çoxdur.

**Abdullah bin Məsud** ﷺ belə demişdir:

"**Rəsulullahdan** ﷺ soruşdum:

«- Allahın ən çox bəyəndiyi əməl hansıdır?»

*«- Vaxtında qılınan namazdır.»* -buyurdu.

«- Sonra hansı ibadət gəlir?» -dedim.

*«- Ana və ataya yaxşılıq və itaət etmək.»* -buyurdu.

«- Daha sonra hansı gəlir?» -deyə soruşdum.

*«- Allah yolunda cihad etmək.»* -buyurdu." (Buxari, Məvaqit 5, Cihad 1; Müslim, İman 137-139)

Allah-Təala öz razılığını ata-ananın razılığına bağlamışdır. Bu həqiqəti Rəsulullah ﷺ belə xəbər verir:

*"Allah-Təalanın razılığı ana və atanı razı salaraq əldə edilər. Allah-Təalanın qəzəbi də ana və atanı qəzəbləndirmək surətiylə cəlb edilir."* (Tirmizi, Birr, 3/1899)



Rəsulullahın bu duası bir mömin üçün necə də böyük bir bərəkət vəsiləsidir:

*"Ana-atasına yaxşılıq edən nə xoşbəxtdir! Allah-Təala onun ömrünü uzun etsin!"* (Heysəmi, VIII, 137)

Həyatın fırtınalarında bizə bir toz qonmasın deyə bütün varlığını səfərbər etmiş olan ana və atamızın haqqını ödəyə bilməmiz mümkündürmü? Hə-

disi-şərifdə bu həqiqətə belə bir təşbehlə diqqət çəkilməkdədir:



*"Heç bir övlad atasının haqqını ödəyə bilməz. Əgər onu kölə olaraq tapar və satın alıb azad edərsə, atalıq haqqını (ancaq o zaman) ödəyə bilmiş olar."* (Müslim, İtq, 25; Əbu Davud, Ədəb, 119-120; Tirmizi, Birr, 8/1906)

**Mövlana həzrətləri** də bu xüsusda belə buyurur:

*"Ana haqqına diqqət yetir! Onu başında tac et! Çünki analar doğum sancısı çəkməsəydilər, uşaqlar dünyaya gəlməyə yol tapa bilməzdilər."*

Bu səbəblə müsəlman bir gənc Allah və Rəsuluna itaətdən sonra ata-anasına qarşı hörmət, itaət və gərəkli xidmətlərlə mükəlləfdir. Əgər uzaq bir yerdə yaşayırsa, ata-anasını ziyarət edib könüllərini almalı, dualarını istəməlidir. Onlara xidmət etmək, gözəl söz söyləyib qulluq etmək övladların ən böyük vəfa borcudur. Xüsusilə yaşlılıq dövrlərində buna çox diqqət etmək lazımdır. Uca Rəbbimiz onlara qarşı ən kiçik bir narazılıq göstərməyə belə icazə verməmişdir.

Ata-anaya xidmət göstərmək çox fəzilətli bir əməldir. Bu fürsəti qiymətləndirə bilməyən kəslər böyük bir itki içindədirlər. Necə ki, **Allah Rəsulu** ﷺ mühüm bir xəbərdarlıq mahiyyətində belə buyurmuşdur:

*"Ana və atasına və ya onlardan yalnız birinə yaşlılıq günlərində yetişib cənnətə girə bilməyən kimsə*

***Allah dostu Bəhaəddin Nəqşbənd həzrətləri:***

***"Mənim qəbrimi ziyarət etmək istəyən əvvəlcə anamın qəbrini ziyarət etsin" demiş və bununla aldığı mənəvi tərbiyənin ilk memarına işarə etmişdir.***

*pərişan olsun, pərişan olsun, pərişan olsun!"* (Müslim, Birr, 9, 10)

Ata-ana qeyri-müslman da olsa, Allah-Təala onlarla yaxşı dolanmağı, istəklərini yerinə yetirib könüllərini xoş etməyi əmr edir. Ancaq Allaha üsyan sayılacaq xüsuslar bundan müstəsnadır.[45]

Həzrət Əbu Bəkrin qızı **Əsma** (r.anhə) belə nəql edir:

"İslamı qəbul etməmiş olan anam, ziyarətimə gəlmişdi. Peyğəmbərimizin fikrini öyrənmək üçün:

«- Anam mənimçün darıxıb yanıma gəlib. Onunla yaxşı rəftar edimmi?» -deyə soruşdum. **Rəsulullah** ﷺ:

*«- Bəli, ananla yaxşı rəftar et!» buyurdu."* (Buxari, Hədiyyə 29, Ədəb 7-8; Müslim, Zəkat, 50)

Bunu unutmamaq lazımdır ki, adam ata-anasıyla necə rəftar etsə, övladlarından da eyni rəftarı görər. **Peyğəmbərimiz** ﷺ:

*"...Atalarınıza yaxşılıq edin ki, uşaqlarınız da sizə yaxşılıq etsinlər..."* buyurmuşdur. (Hakim, IV, 170/7258)

Ata-anasına qarşı pislik edən və onları incidəcək şəkildə davranan gənclərin yaşlandıqda öz övladları tərəfindən eyni rəftara məruz qaldığı, ən çox rast gəlinən bir ibrət mənzərəsidir.

Xülasə, cənnətin yolu ata-ananın razılığından keçir. Allah-Təala cənnəti əməlisaleh anaların ayaqları altına sərmiş, atanı da cənnətin əsas qapısı etmişdir. Artıq istəyən onları razı salsın, istəyən də incidib könüllərinə dəysin!..

***"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: "Uf!" belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!"***

***(əl-İsra, 23)***



45. Bax. Loğman, 15.

## Ailə Haqqı



Atanın, ananın və uşaqların bir-birləri üzərində haqları vardır. **Ata** xanımını və uşaqlarını ən gözəl şəkildə tərbiyə edib ehtiyaclarını halalından təmin edərək onları axirətə hazırlamalıdır.

**Ana** ərinə qarşı vəzifələrində həssas davranmalı, evinə və uşaqlarına sahib çıxmalıdır. **"Yuvanı quran dişi quşdur."** zərbi-məsəlinin gərəyincə qənaətkar olmalı, israfdan qaçınmalı və hər xüsusda fərasətlə hərəkət etməlidir.

**Ata-ana** uşaqlarına qarşı ədalətli davranmalı, ayrı-seçkilik etməməlidir. Onların ən mühüm vəzifəsi ailə fərdlərinə İslami tərbiyə vermək və onların əbədi səadəti qazanmaları üçün çalışmaqdır. Bunun üçün də ilk növbədə zəruri olan dini bilikləri öyrətməlidirlər. Daha sonra seçəcəkləri münasib bir peşəylə əlaqəli bilik və təcrübə əldə etmələrinə kömək etməlidirlər.

**Rəsulullahdan** ﷺ:

"-Ey Allahın Rəsulu! Bizim uşaqlar üzərində haqqımız olduğu kimi onların da bizim üzərimizdə haqları varmı?" deyə soruşulduqda belə buyurmuşdur:

"-Uşağın, atası üzərindəki haqqı; atasının ona yazı yazmağı, üzməyi, atıcılığı öyrətməsi və ona halaldan başqa ruzi yedirməməsidir." (Beyhəqi, Şuab, VI, 401; Əli əl-Müttəqi, XVI, 443)

**Həzrət Aişə belə nəql edir:**

**"Rəsulullahın yanına bir nəfər gəlmişdi. Yanında da yaşlı bir adam vardı. Allah Rəsulu ﷺ:**

**«- Ey filankəs! Yanındakı kimdir?» deyə soruşdu. O adam:**

**«- Atamdır.» cavabını verdi. Bunun üzərinə Aləmlərin Fəxri bu xəbərdarlığı etdi:**

**«- Ondan qabaqda getmə, ondan əvvəl oturma, onu adıyla çağırma və ona söydürmə!»**

**(Heysəmi, VIII, 137)**

*"Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar..."*

*(ət-Təhrim, 6)*

Bu mövzuda başqa hədislər də var:

*"Uşağın ata üzərindəki haqqı ona gözəl bir ad qoyması, zamanı gəldikdə evləndirməsi və ona yazı yazmağı öyrətməsidir."* (Əli əl-Müttəqi, XVI, 417)

*"...Həyatda hörmətə layiq bir yer qazandırması və ona gözəl tərbiyə verməsidir."* (Beyhəqi, Şuab, VI, 401-402)

Dini və uxrəvi haqlardan sonra dünyəvi ehtiyaclar gəlir.

**Müaviyə bin Haydə** ﷺ belə nəql edir:

"-Ya Rəsulallah! Qadınlarımızın bizim üzərimizdəki haqqı nədir?" deyə soruşdum. Allah Rəsulu belə buyurdu:



*"-Yediyiniz kimi yedirmək, geydiyiniz səviyyədə geydirmək, üzlərinə vurmamaq, etdikləri işin və özlərinin (sima və ədəb baxımından) çirkin olduğunu söyləməmək, onlara bəddua və təhqir etməmək..."* (Əbu Davud, Nikah, 40-41/2142; İbn Macə, Nikah, 3)

Yenə **Allah Rəsulu** ﷺ ailənin ruzisini təmin üçün görülən işin ibadət və infaq yerinə keçəcəyini bəyan etmişdir.[46]

Ailə fərdləri fitrətlərinə və vəziyyətlərinə görə vəzifə bölgüsündə iştirak etməlidirlər. Rəsulullah ﷺ ailə içində işləri bölərkən qızı **Həzrət Fatimə**yə ev işlərini,

46. Bax. Buxari, İman, 41; Müslim, Zəkat, 39.

kürəkəni **Həzrət Əli**yə də çöldə görüləcək işləri tövsiyə etmişdir.[47]

Evin böyüyü xanımından xəbərsiz uzaq səfərlərə çıxmamalıdır. Həmçinin xəbərsiz və kim olduğunu bilmədiyi yad adamları evə qonaq gətirməməlidir. Xanımından İslamın qoyduğu ölçülərin xaricində naməhrəmlərin qarşısına çıxmasını və onlara xidmət etməsini istəməməlidir. Ailəsini mümkün mərtəbə qadın-kişi qarışıq olan yerlərdən uzaq tutmalıdır.

Atanın başda gələn vəzifələrindən biri də ailə fərdlərinə qarşı gözəl əxlaq sahibi olması və xoş rəftar etməsidir.

**Allah Rəsulu** ﷺ qadının vəzifələri haqda belə buyurur:

*“Əməlisaleh qadın əri üzünə baxdığı zaman onu sevindirər, ərinin məşru istəklərini yerinə yetirər və onun olmadığı yerdə həm malını, həm də namusunu mühafizə edər.”* (İbn Macə, Nikah, 5)

*“Əri özündən məmnun olduğu halda ölən qadın, cənnətə girər.”* (Tirmizi, Rada, 10/1161; İbn Macə, Nikah, 4)

Ailə fərdləri nəfsin, şeytanın və ətrafdakı pis niyyətli kəslərin hiylə və tələlərinə qarşı oyanıq olmalı və daim Allaha sığınmalıdırlar. Çünki bunlar ən müqəddəs bir

***“Hamınız çobansınız və hamınız güddüklərinizdən məsulsunuz… Kişi ailəsinin çobanıdır və sürüsündən məsuldur. Qadın ərinin evinin çobanıdır və sürüsündən məsuldur.”***

***(Buxari, Vəsayə, 9; Müslim, İmarə, 20)***



47. Bax. Kasani, Bədaius-Sənai fi Tərtibiş-Şərai, Beyrut 1982, IV, 24.

müəssisə olan ailə yuvasını yıxmaq üçün əllərindən gələni edərlər. Ailəni yıxdıqda ümumi əxlaqı və dini yıxa biləcəklərini çox yaxşı bilərlər.

**Rəsulullah** ﷺ bu mühüm xüsusa belə diqqət çəkir:

*"İblis taxtını dənizin üstündə qurar, oranı özünə mərkəz edər. Sonra əsgərlərini dünyanın hər tərəfinə göndərər.* ***Ona ən yaxın və ən sevimli əsgər ən böyük fitnəni salandır.*** *Əsgərlərindən biri gəlib:*

*«-Bu gün mən belə-belə etdim!» deyər. İblis:*

*«-Heç bir şey etməmisən!» qarşılığını verər. Bir başqası gələr:*



**Havlə binti Hakim (r.anhə) gözəl geyinən qadın idi. Bir gün üst-başı dağınıq halda Həzrət Aişənin yanına gəldi. Aişə anamız:**

**"–Bu nə haldır?" deyə soruşdu. O da:**

**"-Ərim gecələri namaz qılır, gündüzləri də oruclu keçirir, mənimlə heç maraqlanmır." dedi.**

**Bu zaman Rəsulullah ﷺ içəri girdi. Həzrət Aişə (r.anhə) vəziyyəti Ona xəbər verdi. Bunun üzərinə Rəsulullah ﷺ Havlə əri Osmanla görüşərək:**

**"-Osman, bizə ruhbanlıq əmr edilmədi. Mən sənin üçün ən gözəl bir nümunə deyiləmmi? Vallah sizin Allahdan ən çox qorxanınız və Onun əmrlərinə ən çox riayət edəniniz mənəm." buyurdu.**

**(Əhməd, VI, 226; İbn Həcər, əl-İsabə, IV, 291)**

*«-Mən birinin yaxasından yapışdım və xanımıyla arasını vurana qədər əl çəkmədim.» deyər. Bunun üzərinə İblis onu özünə yaxınlaşdırar, qucaqlayıb boyuna sarılar və:*

*«-Sən nə yaxşısan, nə gözəlsən!» deyər."* (Müslim, Münafiqin, 67)

Xülasə, ailə içində hər kəs vəzifələrinə diqqət etməli və bir-birinin haqqını qorumalıdır.

## Sileyi-Rəhm (Qohum Haqqı)

İnsanın qohum və yaxınlarıyla əlaqəsini davam etdirməsi, onları qoruyub mühafizə etməsi, yəni sileyi-rəhmə riayət etməsi dinimizin çox əhəmiyyət verdiyi əsaslardan biridir. Hətta birbaşa imanla əlaqəli bir hadisədir. Necə ki, **Rəsulullah** ﷺ:

*"...Allaha və axirət gününə iman edən kimsə, qohumuna yaxşılıq etsin!.."* buyurmuşdur. (Buxari, Ədəb, 85; Müslim, İman, 74, 75)

Allah-Təala qohumları bir-birlərinə varis etmiş, bəzi haqq və vəzifələrlə aralarındakı bağları qüvvətləndirmişdir.

Qohumluq münasibətləri Allahın **Rəhman** sifətinin bir təcəllisi olaraq mərhəmət və şəfqət təməlləri üzərində bina edilməlidir. Aşağıdakı hədisi-şərif bu barədə



***Hədisi-şərifdə buyurulur:***

***"Evlənin, boşanmayın!.. Çünki boşanma səbəbiylə Ərş titrəyər…"***

***(Əli əl-Müttəqi, IX, 116/27874)***

mühüm bir ölçünü dilə gətirməkdədir:

*"Qohumunun etdiyi yaxşılığa eynisiylə cavab verən onları qoruyub himayə etmiş sayılmaz. Qohumu himayə edib haqqına riayət edən adam özüylə əlaqəni kəsdikləri zaman belə, onlara yaxşılıq etməyə davam edəndir."* (Buxari, Ədəb, 15; Əbu Davud, Zəkat, 45; Tirmizi, Birr, 10)



***Allah-Təala "rəhim" adlandırılan qohumluq bağına Rəhman ismindən törəyən bir ad vermiş və:***

***"… Ona riayət edənə Mən də yaxşılıq və ehsan edərəm. Onu kəsəni də lütf və mərhəömətimdən məhrum edərəm." –buyurmuşdur.***

***(Əbu Davud, Zəkat 45/1694)***

Bir səhabə fəzilətli əməllərin nə olduğunu soruşduqda Rəsulullah ﷺ özüylə əlaqəni kisən qohumlarıyla görüşməyə davam etməyin çox qiymətli davranışlardan biri olduğunu bəyan etmişdir.[48]

Allah-Təala sileyi-rəhmə riayət edən qullarını belə mədh etməkdədir:

**"O kəslər ki, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri birləşdirir** (qohumluq əlaqələrini qoruyub saxlayır, möminlərə hörmət edir)**, Rəbbindən və** (qiyamət günü çəkiləcək) **pis haqq-hesabdan qorxurlar."** (ər-Rad, 21)

Peyğəmbərimiz ﷺ yaxşılıq etmək xüsusunda riayət ediləcək sıranı belə bəyan etmişdir:

*"Xərcləməyə özündən başla! Artıq qalanı uşaqlarına xərclə. Ailəndən bir şey artıq qalsa, bunu da yaxınlarına xərclə. Bunlardan artıq qalanı da sağın-*

48. Bax. Əhməd, IV, 148, 158.

*dakı və solundakı qonşularına ver!"* (Bax. Nəsai, Zəkat 60, Büyü 84; Müslim, Zəkat 41)

Qohuma edilən infaq üçün həm sədəqə, həm də qohumu himayə etmə savabı vardır. (Tirmizi, Zəkat, 26)

Sileyi-rəhmin bəzi çətinlikləri də ola bilər. Lakin ona vəd edilən mükafatlar, daha çox və daha böyükdür. Fəxri-Kainat bu mükafatların ikisini belə xəbər vermişdir:

*"Ruzisinin çoxalmasını və ömrünün uzanmasını istəyən kəs qohumunu himayə etsin!"* (Buxari, Ədəb 12, Büyü 13; Müslim, Birr 20, 21)

Bunun əksinə, qohumlarıyla əlaqəni kəsərək onlarla maraqlanmayan kəslərə də belə xəbərdarlıq edilmişdir:

**"Allahla əhd bağladıqdan sonra onu pozanlar, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri** (qohumluq əlaqələrini) **qıranlar, yer üzündə fitnə-fəsad törədənlər isə lənətə düçar olacaqlar. Onları pis yurd** (Cəhənnəm, o biri dünyanın pislikləri) **gözləyir."** (ər-Rad, 25)

Yenə bu mövzuda Rəsulullah ﷺ belə buyurmuşdur:

*"Axirətdə cəzasını verməklə yanaşı, dünyada Allah-Təalanın tez cəzalandırmasını ən çox haqq edən günahlar: zülm və qohuma laqeyd yanaşmaqdır."* (Əbu Davud, Ədəb, 43; Tirmizi, Qiyamə, 57; İbn Macə, Zöhd, 23)

*"Qohumuyla əlaqəsini kəsən kimsə cənnətə girə bilməz."* (Buxari, Ədəb, 11; Müslim, Birr, 18, 19)



***Qüdsi bir hədisdə Allah-Təala belə buyurur:***

***"...Qohumları və dostlarıyla əlaqəsini kəsməyənlər və Mənim üçün bir-birini ziyarət edənlər Mənim məhəbbətimə də layiqdirlər."***

***(Əhməd, V, 229)***

*“Yer üzündə bir müsəlman Allahdan bir şey istəyərsə günah bir şey olmadığı və ya qohumları ilə əlaqəsini kəsməyi arzu etmədikcə Allah onun diləyini mütləq yerinə yetirər və ya ona verəcəyi şey qədər bir pisliyi ondan uzaqlaşdırar.”*

*(Tirmizi, Dəavat, 115/3573; Əhməd III, 18)*

Bu ayə və hədislər sileyi-rəhmin əhəmiyyətini açıq şəkildə ortaya qoymaqdadır.

Xülasə, insanın qohumlarına əhəmiyyət verməsi, onlarla maraqlanıb yardım etməsi Allahın və Peyğəmbərin üzərində çox dayandığı bir xüsusdur. Onlara edilə biləcək ən mühüm kömək isə daim haqqı və xeyri tövsiyə edərək mənəvi dünyalarını abad etməkdir. Daha sonra da maddi-mənəvi hər cür ehtiyaclarını ödəyərək, sevincli və kədərli anlarında yanlarında olmaq və zaman-zaman da ziyarətlərinə getməkdir.

Allah-Təalanın sileyi-rəhmi israrla əmr etməsində insanların bildiyi və bilmədiyi bir çox hikmətlər gizlidir. Bizim borcumuz Rəbbimizin əmrinə can-dildən itaət edərək qohumluq bağlarımızı qüvvətləndirmək və mükafatını da Ondan gözləməkdir.

## İSLAMI TƏBLİĞ

İnsanları imana, haqqa və saleh əməllərə dəvət etmək, pisliklərdən uzaqlaşmalarına vasitəçi olmaq ən xeyirli vəzifələrdəndir. Çünki bu, onları əbədi qurtuluşa çağırmaq deməkdir. Allah-Təala bu ülvi vəzifənin dəyərini belə xəbər verir:



“(Xalqı) **Allaha tərəf çağıran, yaxşı iş görən və: “Mən müsəlmanlardanam!”** –

Məkkədə şiddətli qıtlıq və aclıq hökm sürürdü. Allah Rəsulunun əmisi Əbu Talibin maddi vəziyyəti zəif, ailə üzvləri isə xeyli çox idi. Buna görə çətinlik çəkirdi. Rəsulullah ﷺ digər əmisi Abbasın yanına gedib:

"-Əmi! Bilirsən ki, qardaşın Əbu Talibin ailə üzvləri çoxdur. Hamı qıtlıq və aclığa məruz qalıb. Gəl Əbu Talibin yanına gedək və onunla danışaq. Oğullarından birini mən yanımda saxlayım, birini də sən götür! Belə etsək, onun yükünü bir az yüngülləşdirmiş olarıq!" dedi.

Peyğəmbərimiz uşaqlıq illərində özünə qol-qanad gərən əmisinə köməkçi olaraq eyni zamanda bir vəfakarlıq da sərgiləmiş oldu.

Abbas رضي الله عنه bu alicənab təklifi qəbul etdi və birlikdə Əbu Talibin yanına getdilər:

"-İnsanlar içinə düşdükləri bu qıtlıqdan xilas olana qədər, övladlarından ikisni yanımızda saxlayaraq baxmaq surətiylə yükünü yüngülləşdirməyi arzu edirik." dedilər. Əbu Talib:

"–Aqili yanımda saxlayım, digərlərindən hansını istəyirsiniz götürün!" dedi.

Peyğəmbərimiz ﷺ Həzrət Əlini, əmisi Abbas da Həzrət Cəfəri götürdü. Rəsulullaha peyğəmbərlik lütf edilənə qədər Həzrət Əli Onun yanında yetişdi. Cəfər də رضي الله عنه müsəlman olana və baxıma ehtiyac duymayıncaya qədər Həzrət Abbasın yanında qaldı. (İbn Hişam, I, 264)

**deyən kəsdən daha gözəl danışan kim ola bilər?!"** (əl-Fussilət, 33)

Allah Rəsulu ﷺ də belə buyurmuşdur:

*"Doğru yola dəvət edən kimsə, ona tabe olanların savabları qədər savab qazanar. Bu, tabe olanların savabından heç nəyi azaltmaz! Pis bir yola dəvət edən kimsə də, ona tabe olanların günahları qədər günah qazanar. Bu da, tabe olanların günahlarından heç bir şey azaltmaz!.."* (Müslim, Elm, 16; Əbu Davud, Sünnə, 6; Tirmizi, Elm, 15)

İslamı təbliğ və dini xidmətlər həm xidmət edən, həm də xidmət edilən kəslər üçün eqoist təmayüllərə qarşı sanki "qoruyucu həkimlik" kimidir. İki tərəfi də xətalardan mühafizə edər.

Rəsuli-Əkrəm ﷺ əbədi qurtuluş dəvətini insanlığa çatdıra bilmək üçün çox böyük mübarizə aparmışdır. Onun ümməti olma şərəf və bəxtiyarlığına nail olmağın bir şükrü olaraq biz də eyni şəkildə səy göstərməliyik. Çünki Rəsulullah ﷺ bu vəzifəsinin ümməti tərəfindən davam etdirilməsini istəməkdədir. Necə ki, hədisi-şəriflərində belə buyurmuşdur:

*"Məndən bir ayə də olsa insanlara çatdırın."* (Buxari, Ənbiya, 50)

*"Bizdən bir şey eşidib, onu eynilə eşitdiyi kimi başqalarına çatdıran kimsənin üzünü Allah ağartsın! (Çünki) özünə məlumat*

**Allah Rəsulu ﷺ belə buyurur:**

**"Bir kimsənin sənin vasitənlə hidayətə çatması, sənin üçün (ən qiymətli dünya neməti olan) qırmızı dəvələrə sahib olmağından daha xeyirlidir."**

**(Buxari, Cihad, 143)**



*çatdırılan nə qədər insan vardır ki, o məlumatı, şəxsən eşidəndən daha yaxşı anlayar və tətbiq edər."* (Tirmizi, Elm, 7)



Haqq-Təala nurunu tamamlayacağını, yəni İslamın qalib gələcəyini vəd etmişdir. Biz cəhd etsək də, etməsək də Allah vədini yerinə yetirəcək. Ağıllı bir müsəlman İslamı təbliğ üçün cəhd göstərərək bu qəti zəfərdən hissə götürməyə çalışar.

Bir zaman və ya məkanda dini həyatın zəiflədiyi, insanların səhv yollara düşdüyü görülsə, orada təbliğ fəaliyyəti imandan və fərzlərdən sonra ilk və ən əhəmiyyətli bir vəzifə olar. O zaman haqq və xeyir təbliğ edilmədən bir çox məşru işin belə kənara qoyulması lazımdır. Məsələn, bir ananın körpəsini əmizdirməsi nə qədər əziz və mübarək bir fəaliyyətdir. Lakin evinin yanmaqda olduğunu görən bir ana, uşağını əmizdirməyə davam etsə, bu etdiyi böyük bir xəta olar. Çünki yanğının qarşısının alınması, o anda uşağı əmizdirməkdən daha əhəmiyyətli və təcilidir.

Təbliğ vəzifəsini layiqincə yerinə yetirən kimsənin qazancı dünyanın ən qiymətli xəzinələrindən daha üstündür. **Ənəs** رضي الله عنه belə nəql edir:

**Rəsulullah** ﷺ bir gün belə buyurdu:

*"-Sizə bəzi insanlardan xəbər verimmi? Onlar nə peyğəmbər, nə də şəhiddirlər. Ancaq qiyamət günündə peyğəmbərlər və şəhidlər onların Al-*

***İnsanların həm bu dünyalarını, həm də əbədi aləmlərini gözəlləşdirən təbliğ xidməti iman nemətindən ötrü Haqqa şükür vəzifəmizin də ən gözəl bir təzahür şəklidir. Bir mömin üçün Allahın bu tərifinə nail olmaqdan daha böyük bir lütf düşünmək mümkün deyil:***

***"(Xalqı) Allaha tərəf çağıran, yaxşı iş görən və: "Mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl danışan kim ola bilər?!"***

***(əl-Fussilət, 33)***



*lah qatındakı mövqelərinə qibtə edərlər.*[49] *Nurdan minbərlər üzərində oturmuşlar və hər kəs onları tanıyar.”*

Əshabi-kiram:

“- Onlar kimlərdir, ya Rəsulallah?” deyə soruşdu.

Allah Rəsulu:

*“-Onlar qullarını Allaha, Allahı da qullarına sevdirən kəslərdir. Yer üzündə nəsihət verərək və İslamı təbliğ edərək gəzərlər.”* buyurdu.

Mən:

“-Ey Allahın Rəsulu! Allahı qullarına sevdirməyi anladıq. Yaxşı, qullarını Allaha sevdirmək necə olur?” deyə soruşdum. Buyurdu ki:

*“-İnsanlara Allahın sevdiyi şeyləri əmr edərlər, sevmədiyi şeylərdən də çəkindirərlər. İnsanlar da buna itaət edincə, Allah onları sevər.”* (Əli əl-Müttəqi, III, 685-686; Beyhəqi, Şuab, I, 367)

**Süfyan Sevri** -quddisə sirruh- belə buyurur:

“Xorasana gedib İslamı öyrətməyin sənin üçün Məkkədə mücavir olmaqdan (orada yaşamaqdan) daha faydalıdır.”

Təbliğ vəzifəsinin laqeydliyi isə bütün bir cəmiyyəti həlaka sürüyəcək qədər dəhşətli nəticələr doğurar. Bunun üçündür ki, Allah Rəsulunun bu xəbərdarlığına ciddi yanaşmaq lazımdır:

***Diqqətə layiqdir ki, Vida Həccində 120000 səhabə iştirak edirdi. Bu qədər səhabədən ancaq 20000-i Məkkeyi-Mükərrəmə və Mədineyi-Münəvvərədə dəfn olunmuşdur. Digərləri isə İslamı təbliğ etmək və Allah kəlməsini ucaltmaq üçün bütün dünyaya yayılmışlar. Gedə bildikləri ən son nöqtə qəbirləri olmuşdur.***

49. Bu ifadədən məqsəd təbliğlə məşğul olanların qiymətini bildirməkdir. Onların peyğəmbər və şəhidlərdən üstün olduqları demək deyil. Çünki peyğəmbər və şəhidlər də həyatlarını təbliğ uğrunda fəda etmiş kəslərdir.

Bir gün Rəsulullah ﷺ minbərə çıxaraq xütbə söylədi. Müsəlmanlardan bəzilərini xeyirlə andıqdan sonra bunları söylədi:

*“-Bəzilərinə nə olur ki, qonşularına məsələləri izah etmir, bilmədiklərini öyrətmir, onları anlayışlı hala gətirmirlər. Onlara mərufu (doğru və gözəl şeyləri) əmr etmir, onları münkərdən (dinin xoş görmədiklərindən) çəkindirmirlər?*

*Bəzi kəslərə də nə olur ki, bilmədiklərini qonşularından soruşub öyrənmir, anlayışlı olmağı istəmirlər?*

*Allaha and içərəm ki, elm sahibi olanlar ya qonşularına öyrədər, onları anlayışlı hala gətirər, mərufu əmr edər, münkərdən çəkindirərlər; digər tərəfdən bilməyənlər də qonşularından soruşub öyrənər, dini məsələləri idrak etməyə çalışarlar; ya da onları mütləq dünyada cəzalandıraram.”*

Rəsulullah ﷺ bu nitqindən sonra minbərdən enib evinə getdi. Bəziləri:

“-Elə sanırıq ki (yəmənli) əşariləri nəzərdə tutdu, çünki onlar fiqhi bilirlər, qonşuları isə kobud, sərt xarakterli, su başlarında köçəri həyat yaşayan kəslərdir.” dedilər.

Əşarilər vəziyyətdən xəbərdar olunca, Allah Rəsulunun yanına gəldilər və:

“-Ya Rəsulallah! Siz bir qövmü xeyirlə, bizi isə şərlə yad etmisiniz. Bizim hansı halımızı bəyənmədiniz?” deyə soruşdular.

Aləmlərin Fəxri heç nə söyləmədi, yalnız əvvəlki sözlərini təkrarladı. Əşarilər nəzərdə tutulanın özləri olub-olmadığını anlaya bilmədilər. Dəqiq öyrənmək üçün bunu bir neçə dəfə daha soruşdular. Rəsulullah ﷺ isə hər dəfə eyni sözlərini təkrarlayırdı. Bunun üzərinə əşarilər:

“-Elə isə bizə bir il möhlət verin!” dedilər. Rəsulullah ﷺ də qonşularını öyrədib onlara dini məsələləri öyrətmələri üçün onlara bir il möhlət verdi və sonra bu ayələri oxudu:

**“İsrail oğullarından kafir olanlara həm Davudun, həm də Məryəm oğlu İsanın dili ilə lənət oxundu. Bu onların üsyan etmələrinə və həddi aşmalarına görə idi. Onlar etdikləri pis əməldən əl çəkmirdilər** (və ya onlar bir-birini etdikləri pis əməldən çəkindirmirdilər)**. Onların gördükləri iş necə də pis idi!”** (əl-Maidə, 78-79) (Heysəmi, I, 164; Əli əl-Müttəqi, III, 684/8457)

*"Mənə həyat bəxş edən Allaha and içərəm ki, siz ya yaxşılığı əmr edər pislikdən çəkindirərsiniz, ya da Allah öz qatından üzərinizə bir əzab göndərər və o zaman dua edərsiniz, lakin duanız qəbul edilməz."* (Tirmizi, Fitən, 9)

İnsanları haqqa və xeyrə dəvət edib pisliklərdən çəkindirməyin nə qədər mühüm bir qulluq vəzifəsi olduğunu, bu hadisə çox dəqiq bir surətdə ortaya qoymaqdadır:

Qırmızı dənizin sahilində Eylə Qəsəbəsində İsrail oğullarından bir qövm yaşayırdı. Şənbə günü bütün işlərini buraxıb ibadət etməli olduqları halda, ilahi əmri qulaqardına vurub balıq tuturdular. Bu səbəblə onlara **Əshabi-Səbt** (Şənbə əhli) adı verilmişdi.

Burada xalq iki qrupa ayrılmışdı:

1. Qadağanlara riayət etməyən günahkar kəslər.

2. Dindar və xeyriyyəçi insanlar.

Dinə bağlı insanlar, doğru və yanlışı izah edir, lakin üsyankarlara söz keçirə bilmirdilər. Nəhayət yaxşılar da öz aralarında iki qrupa ayrıldılar:

1. Qadağanlara riayət etməyənlərə nəsihət verən, lakin bir müddət sonra bezərək ümidsizliyə qapılan insanlar. Bunlar bir müddət sonra təbliğ vəzifəsini tərk etdilər.

2. Ümidsizliyə qapılmadan, bütün çətinliklərə və zəhmətlərə



***Bir səhabə edam edilmək üzrəykən özünə üç dəqiqə zaman tanıyan zalıma təşəkkür etmiş və:***

***"–Demək ki, sənə haqqı təbliğ edə bilmək üçün üç dəqiqəlik vaxtım var. Ümid edirəm, hidayətə gələrsən." demişdir.***

dözərək, insanlara nəsihət və xəbərdarlığa davam edən möminlər.

*“Sizdən təkcə zalımlara toxunmayacaq (pis əməllərin müqabilində hamıya üz verə biləcək) bəladan qorxun. Bilin ki, Allah (Onun əmrlərini pozanlara) şiddətli əzab verəndir!” (əl-Ənfal, 25)*

Ayeyi-kərimədə onlardan belə bəhs olunur:

**“Onlardan bir dəstə: “Allahın məhv edəcəyi və ya şiddətli əzab verəcəyi bir tayfaya nə üçün öyüd–nəsihət verirsiniz?” – dediyi zaman,** (nəsihət verənlər) **onlara cavab olaraq: “**(İnsanları yaxşı işlərə sövq etmək, pis işlərdən çəkindirmək bizə vacib olduğundan) **bu, Rəbbiniz qarşısında üzrxahlıq etmək üçündür. Bəlkə, onlar** (bu öyüd-nəsihətdən nəticə çıxarıb) **pis əməllərdən çəkinsinlər!” – dedilər.”** (əl-Əraf, 164)

Bir müddət sonra ilahi əmrlərə uyğun gəlməyən kəslər meymuna çevrilərək cəzalandırıldılar. Bəzi təfsirçilərə görə təbliğ vəzifəsinə laqeydlik edənlər də əzaba uğradı.

Meymuna çevrilən bədbəxtlər əzabdan xilas olan qohumlarının yanında bir müddət qəmli- qəmli gəzdilər. Qohumları:



“-Biz sizə xəbərdarlıq edərək günahlardan çəkindirmədikmi?” dediklərində, yaşlı gözlərlə başlarını yelləyirdilər. Üç gün sonra meymun şəklinə girmiş olan bu üsyankarların hamısı öldü.

**Allah Rəsulu** belə buyurur:

*“Allah-Təala toplumun işlədiyi günahlar səbəbiylə günahsızları cəzalandırmaz. Lakin aralarında günahın*

*işləndiyini görər və buna əngəl olmağa gücləri çatdığı halda mane olmazlarsa müstəsna."* (Əhməd, V, 192)

Təbliğ və haqqı tövsiyə vəzifəsində mühüm olan Allahın razılığına nail olmaq ümidiylə bu yolda əldən gəldiyincə səy göstərməkdir. Lazım olan səbəblərə baş vurulduğu halda nəticə alınmaya bilər. Belə olduqda da kədərlənib özünü əldən salmaq doğru deyil. Çünki hidayəti verəcək olan Allahdır. Qulun borcu qorxmadan, ümidsizliyə və tənbəlliyə qapılmadan təbliğə davam etmək, nəticəni Allaha buraxıb təvəkkül etməkdir.

## Təbliğdə Diqqət Yetiriləcək Xüsuslar

Hər işin bir üsul və qaydası olduğu kimi təbliğdə də diqqət yetirilməsi lazım olan çox mühüm əsaslar vardır. Təbliği üsuluna uyğun etmək ən azından təbliğ qədər mühümdür. Çünki səhv bir üslubla edilən



**Əbu Hüreyrə ﷺ belə nqəl edir:**

**(Əshabi-kiram arasında bu həqiqəti) eşidərdik: Qiyamət günündə bir adamın yaxasından heç tanımadığı bir nəfər yapışar. Adam çaşar və:**

**"-Məndən nə istəyirsən? Mən səni heç tanımıram ki!" deyər. Yaxasına yapışan adam da:**

**"-Dünyada ikən məni səhv və çirkin işlərlə məşğul ikən görərdin, amma xəbərdarlıq etməz, məni o pisliklərdən çəkindirməzdin." deyərək ondan şikayətçi olar.**

**(Münziri, ət-Tərğib vət-Tərhib, III, 164/3506; Rudani, Cəmul-Fəvaid, V, 384)**

*"(Ya Rəsulum! Məkkə müşrikləri) iman gətirməyəcəklər deyə, bəlkə, özünü həlak edəsən?! (Özünü həlakmı edəcəksən?)"* (əş-Şuara, 3)

*"Ey Əli! Allahın sənin əlinlə bir adamı hidayətə çatdırması sənin üçün üstünə günəşin doğduğu hər şeydən daha xeyirlidir."* (Hakim, Müstədrək, III, 690)

təbliğdən fayda gözləmək mümkün deyil. Bu, eyni zamanda ağır bir günahı da cəlb edər. Çünki burada qaş düzəldərkən göz çıxarmaq təhlükəsi var.

**Təbliğdə diqqət yetirilməsi lazım olan müəyyən xüsuslar belə sadalana bilər:**

- Haqqı təbliğ və xeyrə təşviq üçün əvvəla **haqqı** və **xeyri** doğru bir şəkildə bilib yaşamaq lazımdır. Çünki cahilin etdiyi təbliğ həm üslub, həm də məzmun baxımından səhvlərlə dolu olar.

- Məqbul bir təbliğ üçün həssas bir könlə və İslamın gülər üzünü əks etdirən təbəssümlü bir çöhrəyə sahib olmaq lazımdır. Nümunə bir həyat yaşamaq, rəhmət saçan bir könül diliylə danışmaq, nəzakət və zərifliyi heç bir zaman pozmamaq lazımdır. Çünki insanlar sərtlik və kobudluqdan xoşlanmazlar.

**Həzrət Mövlana** buyurur:



*"Bir qəbahətinə görə səni danladığı zaman atan belə, gözündə canavar kimi vəhşi görünər..."*

*"Bu hal, onun danlaq və cəfasından qaynaqlanan dərdin bir təsiridir. Yəni atanın xəbərdarlığı, sənin yaxşılığın üçün olduğu halda, səni danlaması, onun könlündəki mərhəmət və halına acımağı sənə canavar kimi göstərməkdədir..."*

- İnsan hansı günahı və cinayəti işləmiş olursa olsun, təbliğ və dəvətdən məhrum buraxılmamalıdır. Bir qaya-

nın, hətta divarın içindən belə nə qədər çiçəklərin və ağacların çıxa bildiyini düşünərək, heç kimdən ümid kəsməmək lazımdır. Çünki Allahın rəhməti sonsuzdur.



Bu barədə ən gözəl nümunəmiz Allah Rəsuludur ﷺ. Çünki O;

Sevimli qızı Həzrət Zeynəbi dəvədən salaraq vəfatına səbəb olan Həbbar bin Əsvədə,

Məkkə fəthinə qədər müsəlmanlara hər cür düşmənçiliyi edən İkrimə bin Əbu Cəhlə,

Əmisi Həzrət Həmzəni şəhid edən Vəhşiyə,

Hətta əmisinin ciyərini ehtirasla dişləyən Əbu Süfyanın xanımı Hində belə təbliğ qapısını bağlamamıştır.

Necə ki, Allah-Təala Musayı عليه السلام yox etmək üçün minlərlə günahsız körpənin qatili olan və tanrılıq iddiasına düşən Firona qarşı belə, yumşaq bir dillə təbliği əmr etmişdir.

– Nəsihət verən kimsə sanki sənətkar bir təmirçi kimi olmalıdır. Təmirçiyə əşyanın xarabı gətirilər. Əşya xarab olmasa və ya təmirə gətirilməsə, o təmirçi, peşəsini icra edə bilməz. Buna görə pozulan əşyalar təmirçinin nəzərində bir nemət kimidir. O halda günahkarları xor görmək və ya qapıdan qovmaq çox yanlışdır. Gerçək bir təbliğ əri günahkar kəsləri sanki yaralı bir quş kimi görüb onları şəfqət dolu ürəyiylə, qaçırmadan könül sarayına almalı və müalicəyə çalışmalıdır.

***“(Ya Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlanmaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən Allah (Ona) təvəkkül edənləri sevər!”***

***(Ali-İmran, 159)***

Peyğəmbərimizin gənc bir yəhudi qonşusu vardı. Bu gənc pis əxlaqlı biri deyildi. Bir gün xəstələndi. **Rəsulullah** ﷺ səhabələriylə birlikdə onu ziyarətə getdi:

*"–Allahdan başqa ilah olmadığına və mənim Allahın Rəsulu olduğuma şahidlik edərsənmi?"* deyə soruşdu.

Gənc atasına baxdı. Atası sükut etdi, gənc də sükut etdi. Peyğəmbərimiz sualını ikinci, sonra üçüncü dəfə təkrar etdi. Üçüncüsündə atası:

"–Sənə təklif etdiyi sözü söylə!" dedi. Gənc şəhadət etdi. Bir müddət sonra da vəfat etdi. Yəhudilər ona sahib çıxmaq istəyincə Rəsulullah ﷺ:

"–Biz ona sizdən daha yaxınıq." buyurdu. Daha sonra Nəbi ﷺ onu yudu, kəfənlədi, ətirlədi və namazını qıldırdı. (Əbdürrəzzaq, Müsənnəf, VI, 34-35)

Heç bir ləyaqətli həkim, xəstəsinə: "Niyə xəstə oldun?" deyə hirslənməz. Onun çəkdiyi iztırab və əzabı göz önündə tutaraq, vaxt keçirmədən böyük bir şəfqət və mərhəmətlə müalicəsinə çalışar. Bu müaliconi özünə borc bilər. Məhz imanlı bir gənc də, cəmiyyət içində xəstəxana otaqlarını gəzən bir həkimin hissiyyatıyla yaşamalıdır. Bu hissiyyat, davranışlara hakim olduqda, yoldan çıxmışlar üçün xilasedici kəmər kimi olar.



- Təbliğçi həmsöhbətinin ruhuna nüfuz edə bilmək üçün bir damar axtarıb tapmaq məcburiyyətindədir. Çünki hər insanın xarakteri fərqlidir, hər kəs eyni şeylərdən təsirlənməyə bilər.

Bu barədə deyiləcək ən konkret söz isə Allah Rəsulunun bu hədisi-şərifidir:

*"Asanlaşdırın, çətinləşdirməyin! Müjdələyin, nifrət etdirməyin!.."* (Buxari, Elm, 11)

Təbii ki, dinə zərər verməmək və istiqamətdən ayrılmamaq şərtiylə...

## HALAL-HARAM HƏSSASLIĞI

İnsan oğlunun sahib olduğu bütün nemətlər Allahın ona olan bir lütfüdür. Bunlar günün birində hesabı veriləcək olan əmanətlərdir. Çünki

***İnsanlara yaxşılığı tövsiyə edib onları pisliklərdən uzaqlaşdırmaq surətiylə Haqqa və həqiqətə dəvət etmək onlara edilə biləcək ən gözəl və ən həyatı xidmətdir. Kitab və Sünnəni həyatımıza tətbiq edə bilməyimiz üçün əvvəlcə haqqı təbliğ və xalqa xidmət vəzifəsinin könlümüzdə bir sevda halına gəlməsi zəruridir…***

insan oğlu **“boşuna yaradılmamışdır.”** Bir gün **“Allahın hüzurunda hesab verəcək.”**

Bu səbəbdən, sahib olduğumuz maddi və mənəvi nemətlərdən istifadə edərkən tamamilə sərbəst olmadığımızı düşünməliyik. Bunları Allahın rizasına müvafiq bir şəkildə işlətmək məcburiyyətindəyik. Uca Rəbbimiz bizə bu məsuliyyətimizi belə xatırladır:

**“Sonra da həmin gün** (Allahın dünyada sizə əta etdiyi) **nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız!”** (ət-Təkasur, 8)

Yəni Allah-Təala lütf etdiyi nemətləri qazanarkən də, onlardan istifadə edərkən də riayət edilməsi lazım olan bəzi qaydalar qoymuşdur. Bunları da, “halallar və haramlar” olmaq üzrə bəyan etmişdir.

Vaxtilə Avstriyada işləyən bir qardaşımız, bir xatirəsini belə nəql etmişdir:

“Mən bir zamanlar içki və qumar düşkünü idim. Hər günüm öncəki günümdən daha pis olduğu halda, günümü keçirdiyimi sanırdım. Daha sonra Avstriyaya işləməyə getdim. Lakin orada da bu pis vərdişlərimi tərgitmədim. Mən bu haldaykən eynilə Türkiyədəki kimi ətrafımda olan və məni bu halımdan qurtarmağa çalışan, məscid camaatından, yaxşı niyyətli və təmiz könüllü bir çox insan vardı. Lakin onlar mənə hər dəfə nəsihət etdikdə mən onlara qulaq asmaz və nalayiq sözlərlə cavab verərdim.

Bir gün yolda gedərkən birdən gözlərim qaraldı və nə olduğunu anlaya bilmədən özümü yerdə hiss etdim. Sonra

gözlərimi xəstəxanada açdım. Mədə qanaması keçirmişdim. Qonşularım məni xəstəxanaya aparmışdı. Xəstəxanaya verəcək bircə qəpik pulum olmadığı kimi, içki və qumar üzündən bir xeyli də borcum vardı. Bir müddət sonra ziyarətçilərimin gəldiyini eşidib çaşdım. “Görəsən mənim kimi yolunu azmış birinin yanına kim gələ bilər ki?” deyə düşünərkən otağıma girənlər çaş-başlığımın bir az da artmasına səbəb oldular. Çünki məni ziyarətə gələnlər içinə düşdüyüm çirkli aləmdən olan yoldaşlarım deyil, yaşadığım məhəllədəki məscid camaatının insanları idi. Mənə şəfa arzulayıb, əvvəl bir buket çiçək və ardından da ehtiyacım olacağını düşünərək gətirdikləri zərfi təqdim etdilər. Mən onların bu alicənablığı qarşısında xəcalətdən nə deyəcəyimi bilmirdim. Bu əsnada ailəmi də düşündüklərini və mən yaxşılaşana qədər ailəmin ehtiyaclarını da qarşılayacaqlarını söylədilər. Mənim onların bu yaxşılıqlarına, xoş rəftarlarına qarşı edə bildiyim yeganə şey yalnız bir təşəkkür etmək olmuşdu.

Xəstəxanadan çıxan kimi birbaşa məscid camaatının yanına yollandım. Çünki onlar mənə çətin günümdə köməkçi olmuşdular. Məscidə girdim, susuzluqdan yanan bir insanın doya-doya su içməsi kimi, mən də Rəbbimin hüzurunda tövbə edib şükür səcdələrinə qapandım. Nəfsimi islah edib gözəl bir mömin ola bilmək üçün dua etdim. «Bu insanlara bu üstünlüyü qazandıran dinimiz nə gözəlmiş.» deyərək dinimi öyrənməyə və yaşamağa başladım.”

*Ömər bin Əbdüləziz –rəhmətullahi əleyh- deyir ki:*

***“Haramlar bir atəşdir. Ona ancaq (qəlbi) ölülər uzanar. Əgər əl uzadanlar diri olsaydılar, o atəşin acısını duyardılar.”***

Allah-Təala belə buyurur:

**“Ey insanlar! Yer üzündəki qidaların təmiz, halal olanlarını yeyin, Şeytanın izi ilə getməyin! Həqiqətən, o** (Şeytan) **sizinlə açıq-açığına düşməndir.”** (əl-Bəqərə, 168)

Haramın əzabı, halalın da hesabı vardır. Halal yoldan qazanılmayan mallar qədər, Allahın razı olduğu şəkildə istifadə edilməyən halal nemətlər də axirətdə sahibi üçün ağır bir günah olacaq.

Halal və harama qarşı diqqətli olmaq insan həyatının axışına təsir edən ən mühüm səbəblərdən biridir. Çünki halal halala səbəb olarkən, haram da digər bir harama gətirib çıxarar.

**Əbu Bəkr Vərraq** hazrətləri bir söhbətində:

“-Səhərlər qalxdıqda insanlara baxaram; kimin halal, kimin haram yediyini bilərəm!” buyurmuşdu. Tələbələri maraqla soruşdular:



“-Bunu hardan bilirsiniz?”

Belə izah etti:

“-Hər kim səhər oyanan kimi dilini boş söz, qeybət və söyüşlə məşğul edərsə, bilirəm ki, bu hal, yediyi haram qidadan qaynaqlanır. Hər kim də səhər oyandıqda dilini Allahın zikri, kəlmeyi-tövhid və istiğfarla məşğul edərsə, onun aldığı qida halal

Ənsardan biri belə nəql edir:

“…**Rəsulullah** ﷺ bir cənazə dəfn edib qayıdarkən, bir qadının xidmətçisi gəlib onu evlərinə dəvət etdi. Peyğəmbərimiz də səhabələriylə birlikdə getməyə razılıq verdi. Yemək gətirildi, Allah Rəsulu ﷺ əlini yeməyə uzatdı, süfrədəkilər də yeməyə başladılar.

Bir də gördülər ki, Rəsulullah ﷺ loğmanı ağızında o tərəf-bu tərəfə çevirir və udmur. Daha sonra:

*«–Bu, sahibinin izni olmadan alınmış bir qoyun ətidir.»* buyurdu.

Bunun üzərinə qadına xəbər göndərildi. Qadın gəlib məsələni belə izah etdi:

«–Ya Rəsulullah! Bir qoyun almaq üçün Baqiyə adam göndərdim, amma tapmadım. Qonşum qoyun almışdı, ona xəbər göndərib qoyunun pulu qarşılığında mənə verməsini istədim. Amma qonşumu da evdə tapmadıq. Məcbur qalıb xanımına xəbər göndərdim, o da qoyunu mənə verdi. »

Hadisəni dinləyən Rəsulullah ﷺ:

*«–Onu əsirlərə yedir!»* buyurdu.” (Əbu Davud, Büyü, 3/3332; Əhməd, V, 293)

---

1. Bəzi nüsxələrdə Naqi şəklindədir. “Naqi” Mədinə yaxınlığında qoyun satılan bir yerin adıdır. Hattabi bunun doğru olduğunu deyir. Mişkatda da bu cür yazılıb.



yoldandır... Çünki halal da, haram da sahib olduqları xüsusiyyətlərə görə insanların hərəkətlərinə təsir edər...”

Yeyilən qidanın maddi təsiri ilə yanaşı bir də mənəvi təsiri vardır. Loğmanın halal, haram və ya şübhəli yollardan gəlmiş olması ruhumuzu təsiri altına alar.

**Mövlana** belə buyurur:

*“Loğmalar toxum kimidir. Meyvəsi fikir, düşüncə və niyyətlərdir. Səndə ibadətə arzu, istək və iştah oyandırıb feyz verən loğmalar halaldır. İbadətə qarşı tənbəllik oyandıran və ürəyə qatılıq verən loğmalarsa haramdır. Sən həyatında halal loğmaları çoxalt! Şübhəli və haram loğmalardan da uzaq dur ki, ibadət və itaətin ləzzətini dadaraq xüşu halı əldə edə biləsən!”*

Halal-haram mövzusunda göstəriləcək həssaslıq ibadətlərin qəbul edilib-edilməməsini də təyin edən bir keyfiyyətdir. Allah Rəsulu ﷺ haram pulla həccə gedənə səmadan bir carçının belə səsləndiyini xəbər vermişdir:

*“Sənə nə lebbeyk, nə də sadeyk. Çünki sənin qazancın haram, azuqən haram, miniyin haramdır. Heç bir savab qazanmadan günahkar olaraq geri qayıt! Xoşlanmayacağın şeylə qarşılaşacağından ötrü kədərlən!”* (Heysəmi, III, 209-210)

***“Bir səhər məndən ilham kəsildi. Bildim ki, vücuduma şübhəli bir neçə loğma girib. Bilik də, hikmət də, eşq də, mərhəmət də halal loğmadan doğar. Əgər bir loğmadan qəflət meydana gəlirsə, bil ki, o loğma şübhəli və ya haramdır.”***
***(Həzrət Mövlana)***

## Təsəttür Həssaslığı



Yalnız yemək, içmə və ticari münasibətlərdə deyil, qılıq-qiyafət kimi indiki vaxtda son dərəcə sadə görülən xüsuslarda da halal-haram hüdudlarına diqqət yetirilməlidir.

İnsan oğlu Allah-Təalanın lütf etdiyi insanlıq heysiyyət, həya və ciddiliyini qoruya bilmək üçün örtünməyə məcburdur. Əks halda bu insani xüsusiyyətlər məhv edilmiş olar. Dinin qoymuş olduğu geyimlə əlaqədar şərtlərə diqqət yetirmədiyi təqdirdə insan şərəf və heysiyyət baxımından özündən qat-qat aşağı olan varlıqların səviyyəsinə düşə bilər. Çünki örtünmə **həya** ilə birbaşa əlaqəlidir. İnsana xas olan bir keyfiyyət olan həya isə imandan bir şöbədir.[50]

Həzrət Adəmlə عليه السلام Həvva anamız cənnətdə qadağan olunmuş ağaca yaxınlaşınca, paltarları əyinlərindən düşmüşdü. Onlar yanlarında heç kim olmadığı halda həya etdilər. Təlaş içində orada olan yarpaqlarla örtünməyə çalışdılar. Bu da göstərir ki, maddi olan örtünmə ilə onun mənəvi əlaqəsi olan ədəb və həya insan oğlunun fitrətində olan ən dərin

***Süfyan Sevri həzrətləri:***

***"İnsanın dindarlığı çörəyinin halallığı nisbətindədir." –buyurmuşdur.***

***Bir gün ona:***

***"Namazı birinci səfdə qılmağın fəzilətindən bəhs edərdinizmi?" dedilər, o da halal qidaya diqqət çəkərək:***

***"Qardaşım, sən çörəyini haradan qazandığına bax. Qazancın halal olduqdan sonra hansı səfdə istəyirsən orda namazını qıl. Bu xüsusda sənə məcburiyyət yoxdur."***

50. Bax. Buxari, İman, 3.

Bir gecə vaxtı idi. **Həzrət Ömər** adəti üzrə Mədinə küçələrini gəzməkdə idi. Birdən dayandı. Qarşısından keçməkdə olduğu evin xanımı:

“-Qızım, sabah satacağımız südə bir az su qarışdır!” deyirdi. Qızı isə:

“-Anacığım, xəlifə südə su qarışdırılmasını qadağan etmədimi?” dedi. Ana qızının sözlərinə sərt cavab verərək:

“-Qızım, gecənin bu saatında xəlifə südə su qatdığımızı hardan görəcək?!.” dedi.

Ancaq qəlbi Allah sevgisi və qorxusu ilə dolu olan qız anasının südə su qatma hiyləsini yenə qəbul etmədi:

“-Anacığım! Deyək ki, xəlifə görmür, bəs Allah da görmür? Bu hiyləni insanlardan gizləmək asan, amma hər şeyi görüb bilən Kainatın Xaliqi Allahdan gizləmək mümkündürmü?..” dedi.

Rəbbani həqiqətlərlə dolu diri bir ürəyə sahib olan bu qızın, dəruni bir Allah qorxusu içində anasına verdiyi cavab Həzrət Öməri son dərəcə duyğulandırdı. Möminlərin əmiri onu sıravi bir südçü qadının qızı deyil, qəlbindəki təqvası ilə müstəsna bir qismət bildi və oğluna aldı. Raşid xəlifələrdən sayılan məşhur Ömər bin Əbdüləziz məhz bu əməlisaleh xanımın nəvəsidir. (Bax. İbnul-Cövzi, *Sifətus-Safvə*, II, 203-204)

xüsusiyyətlərdəndir və təqva əlamətidir.

Bu səbəblə mömin bir gənc qılıq-qiyafət bəhsini əsla gözardı etməməlidir. Bu xüsusdakı ilahi əmrlərə tabe olmalı, təsəttürə riayət etməlidir. Bunu edərkən də lüks və israfdan çəkinməli, bir müsəlmana yaraşacaq şəkildə gözəl geyinməlidir.



Qadınlar; əl, üz və ayaqları xaric bütün bədənlərini, kişilər də diz qapağı ilə göbək arasını örtməlidirlər. Övrət yerlərini göstərəcək qədər incə, bədən xətlərini müəyyən edəcək qədər dar paltar geyinmək doğru deyil. Bunun xaricində hər kəs təsəttürə riayət etmək şərtiylə şəxsi və məhəlli zövqünə, mədəniyyətinə görə istədiyi şəkildə geyinə bilər.

Rəsulullah ﷺ Həzrət Aişənin bacısı Əsmanın incə bir paltar geydiyini görüb başını çevirmiş və:

*"-Əsma! Yetkinliyə çatdıqdan sonra qadınların,* -üzünə və əlinə işarə edərək- *bu və bundan başqa bir yerinin görülməsi doğru olmaz!"* buyurmuşdur. (Əbu Davud, Libas, 31/4104)

Allah Rəsulu ﷺ geyim-keçim xüsusunda qadınlarla kişilərin bir-birlərinə bənzəməsini qadağan etmişdir. Qadın kimi geyinən kişilər ilə kişi kimi geyinən qadınların ilahi rəhmətdən uzaq qalacağını bildirmişdir.[51]

***Qurani-Kərimdə qadınların evdən çölə çıxarkən üstlərinə örtük (cilbab) örtmələri, kişi və qadınların gözlərini haramdan çəkindirmələri, iffətlərini qorumaları əmr edilmişdir. Yenə qadınların, zinət yerlərini göstərməkdən çəkinmələri, baş örtüklərini sinələrinin üstünə salaraq bağlamaları istənmişdir.***
***(Bax. əl-Əhzab, 59; ən -Nur, 30-31, 60)***

51. Bax. Buxari, Libas, 61; Əbu Davud, Libas, 28.

## Zina

İslam dininin həyata keçirmək istədiyi xüsuslardan biri də nəsli qorumaq və sağlam bir cəmiyyət qurmaqdır. Zəmanəmizin ən böyük məsələlərindən biri də əxlaqi təxribatdır. Nəsli və ailə həyatını məhv edən fahişəlik, insanın əxlaqını və mənəviyyatını korlayar. Eyni zamanda bir çox maddi xəstəliklərə də səbəb olar.



Bu səbəblə Adəmdən عليه السلام bəri bütün peyğəmbərlər nəslin qorunması üçün nikah barəsində böyük bir ciddilik göstərmişlər. Çünki nəslin mühafizəsi, ailə müəssisəsinin möhkəmliyi ilə mümkündür. Ailə içində tərbiyə edilməyən, nikahdan kənar meydana çıxan nəsillər cəmiyyət həyatının ahəngini pozar, icti-

***Rəsulullah ﷺ belə buyurur:***

***“Cəhənnəmliklərdən hələ görmədiyim (daha sonra ortaya çıxacaq) iki qrup vardır: Bunlardan biri mal quyruqları kimi qırmanclarla insanları döyən bir birlikdir. Digəri geyinmiş olduqları halda çılpaq görünən, başqalarını da özləri kimi geyinməyə məcbur edən və başları dəvə hürgücünə bənzəyən qadınlardır. Məhz bu qadınlar cənnətə girə bilməzlər. Hətta onun çox uzaq məsafədən hiss edilən qoxusunu da ala bilməzlər.”*** ***(Müslim, Cənnət, 52)***

***Buradakı “geyinmiş çılpaqlar” ifadəsiylə, yalnız bəzənmək üçün geyinən, çölə çıxarkən cazibədar və diqqət çəkici paltarlar geyinən və bədən xətləri müəyyən olacaq şəkildə dar və nazik paltarlar geyən kəslər nəzərdə tutulmuşdur.***

mai nizamı təməlindən sarsıdar.



Merac Gecəsi **Rəsulullah** ﷺ ilə **Cəbrayıl** عليه السلام əzab içindəki bəzi insanlara rast gəlmişdilər. Onların qarşısında yaxşı bişmiş ləziz ət yeməkləri ilə çiy və iylənmiş leşlər vardı. Onlar o gözəl kababı qoyub murdar və iylənmiş leşi yeyirdilər. Allah Rəsulu ﷺ heyrətlə bunların kim olduğunu soruşdu. Cəbrayıl عليه السلام bu cavabı verdi:

"-Onlar ümmətindən halal xanımını qoyub, haram olan qadın yanına gedən kişilərlə, ərini qoyub haram kişilərin yanına gedən qadınlardır." (Heysəmi, I, 67-68)

Zina təhlükəsindən qorunmaq üçün Allahın:

**"Zinaya yaxınlaşmayın!.."** (əl-İsra, 32) əmrinə diqqətlə riayət etmək lazımdır. Bu ayədə zina bir tərəfə, ona yaxınlaşdıracaq davranışlar belə qadağan edilmişdir. Məsələn, harama baxmaq bunlardan biridir.

**Cərir** رضي الله عنه belə deyir:

**Peyğəmbərimizdən** baxılması haram olan şeyi qəflətən görməyin hökmünü soruşdum:

*"-Dərhal gözünü başqa tərəfə çevir!"* buyurdu. (Müslim, Ədəb, 45. Ayrıca bax. Əbu Davud, Nikah, 43; Tirmizi, Ədəb, 28)

Çünki harama baxan insan, **"göz zinası"** işləmiş olar. Eyni şəkildə qulaqların zinası dinləmək, dilin zinası danışmaq, əlin zinası

***"Nikahın səadətini pozğunluğun murdarlığına dəyişmək qədər axmaqlıq və cəhalət ola bilməz!.."***

***Böyük mütəfəkkir Məhəmməd İqbal deyir ki:***

***"Ey örtüsü namusumuzun pərdəsi olan müsəlman qadın! Sənin üzündəki nur iman qəndilimizin sərmayəsidir. Yaradılışındakı saflıq Haqdan bizə rəhmətdir… Övladımız süddən kəsilər-kəsilməz ona kəlmeyi-tövhidi ilk öyrədən sənsən… Ümmətin əmanətini qoruyan mühafiz sənsən. Həzrət Fatimə sənin üçün nümunədir. Gözünü və könlünü ondan ayırma. Ta ki, sənin də budağın bir Hüseyn meyvəsi versin…"***



*Qiyamət insanların görəcəyi ən qorxunc gündür. Çünki o gün kainat partlayacaq. Bu dəhşət verici günün şiddətindən mühafizə ediləcək yeddi sinif insandan biri də gözəl və mövqe sahibi bir qadının zina təklifini; “Mən Allahdan qorxuram!” deyə rədd edən igiddir.*

*(Bax. Buxari, Azan 36, Zəkat 16, Riqaq 24; Müslim, Zəkat 91)*

toxunmaq, ayaqların zinası getmək, ürəyin və nəfsin zinası da düşünmək və arzu etmək surətiylə harama yönəlməkdir.[52]

Rəsulullah ﷺ bu barədə belə buyurmuşdur:

*“Harama baxmaq, İblisin zəhərli oxlarından bir oxdur. Hər kim Allah qorxusu səbəbiylə harama baxmağı tərk etsə, Allah ona ürəyində ləzzətini hiss edəcəyi bir iman bəxş edər.”* (Hakim, IV, 349/7875)

Təəssüf ki, indiki zəmanədə mətbuat-nəşr vasitələriylə, xüsusilə də televiziyanın mənfi proqramları və internetin zərərli saytları kanalıyla zina günahı insanların evlərinə qədər asanca girə bilməkdədir. Gənc nəsillərimizə qəsd etmək istəyənlər bu vasitələrdən istifadə etməkdədirlər.

Ən çirkin haramların bu qədər yayıldığı və həyati təhlükə daşıyan günahların bu qədər asanlaşdığı bir dövrdə özümüzü qoruya bilməyin bircə yolu var: **Rəbbimizi heç bir zaman unutmamaq…**

Çünki insanın haramlara bulaşaraq günaha düşdüyü anlar Allahı unutduğu zamanlardır. Fərqində olaraq və ya olmayaraq işlənən günahlar mənəvi həssaslıq mərkəzi olan ürəyin

52. Bax. Buxari, İstizan 12, Qədər 9; Müslim, Qədər 20-21.

çirklənib paslanmasına səbəb olar. Nəticədə ürək korlaşar; yaxşı və gözəl şeylərdən həzz ala bilmədiyi kimi pis və çirkin şeylərdən də narahatlıq duymaz hala gələr, səfalətini səadət zənn edər.



## Bütün Pisliklərin Anası: İçki

İslam qoyduğu əmr və qadağanlarda bu beş şeyi qorumağı hədəfləyir:

Din, ağıl, can, nəsil və mal.

Bir insanın həyatında ən mühüm yerə sahib olan bu beş əsasa zərər verəcək hər davranış, Allah tərəfindən haram elan edilmişdir.

Spirtli içkilər də insanın dininə, ağılına, canına və malına zərər verər. Həm fərdi, həm də ictimai bir çox çətinliyə səbəb olar. Bu səbəblə şiddətlə qadağan edilmişdir. Ayeyi-kərimələrdə belə buyurulur:

**“Ey iman gətirənlər! Şərab da** (içki də), **qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?”** (əl-Maidə, 90-91)

Bu ayələr nazil olduqda **Rəsulullahın** əmriylə bir səhabə Mədinə küçələrində gəzərək:

**Allah Rəsulu ﷺ belə buyurmuşdur:**

**“Hər göz (harama baxmaqla) zina edər. Qadın ətirlənib (kişilərin olduğu) bir məclisdən keçdiyi zaman, o da zina etmiş sayılar.”**

**(Tirmizi, Ədəb, 35/2786; Əbu Davud, Tərəccül, 7/4173; Nəsai, Zinət, 35)**



“–Xəbəriniz olsun ki, içki haram qılınmışdır!” deyə səsləndi.

Tuluqları deşilib boşaldılan, küpləri qırılıb tökülən içkilər Mədinə küçələrində sel kimi axdı! Əlində şərab olan müsəlmanlar bunların hamısını yerə tökdülər. Bir daha da içmədilər.

Daha sonra Peyğəmbərimiz belə buyurdu:

*“Şübhəsiz ki, Allah; içkiyə, onu hazırladana, hazırlandığı yerə, içənə, içdirənə, daşıyana, satana, alana, əvəzini və qazancını yeyənə lənət etmişdir!”* (Bax. Əhməd, I, 53; II, 351; Nəsaii, Əşribə, 1-2; Hakim, II, 305/3101)

Bu hadisə Allah-Təalanın qadağanları qarşısında əshabi-kiramın göstərdiyi həssaslığın nə gözəl bir misalıdır. Heç bir etiraz və bəhanə göstərmədən, dərhal ilahi əmrə könüldən itaət etmiş, Allahın rizasına can atmışlar.

Allah Rəsulu ﷺ belə buyurur:

**“Sərxoşluq verən hər şey haramdır. Çoxu sərxoşluq verən şeyin azı da haramdır.”** (İbn Macə, Əşribə, 10; Nəsai, Əşribə, 24, 48)

*“İçki hər pisliyin başıdır.”* (Əhməd, V, 238)

*“Allaha və axirət gününə iman edən kəs içki olan süfrədə oturmasın!”* (Tirmizi, Ədəb, 43/ 2801)

*“Ümmətimdən bəzi kəslər, içkiyə başqa adlar verərək onu içəcəklər!”* (Əhməd, IV, 237)

**Abdullah bin Məsud** رضي الله عنه **belə demişdir:**

**“Mömin günahını altında oturduğu və sanki üzərinə hər an düşmə təhlükəsi olan bir dağ kimi görər. Bu böyük dağın üstünə düşəcəyindən qorxar. Günahkar isə günahını burnunun qabağndan keçən bir ağcaqanad kimi görər.” (Buxari, Dəavat, 4; Müslim, Tövbə, 3)**

Bu nəbəvi xəbərdarlıqları bilən müsəlman bir gəncin vəzifəsi əshabın göstərmiş olduğu həssaslığa sahib çıxmaqdır. Xüsusilə Peyğəmbərimizin; *"İçkiyə başqa adlar verərək onu içəcəklər…"* bəyanına diqqət yetirərək, fərqli adlarla satışa çıxarılan haram içkilərdən uzaq durmaqdır.

Spirt və narkotik maddə aludəçisi olan insan sağlam düşünmə və doğru qərar vermə qabiliyyətini itirər. Nəticədə ailə səadətini və ictimai həyatdakı etibarını itirərək potensial bir günahkar halına gələr.

## Qumar

İnsanın heç bir əziyyət çəkmədən, asan yolla çox qazanma ehtirasının bir nəticəsi olan qumar ən təhlükəli haramlardan biridir.

Bunu əsla unutmamaq lazımdır ki, cilovlanmayan ehtiras sahibini daim fəlakətə sürükləyər.

Qumar elə bir bataqlıqdır ki, bu oyunda qazanan yoxdur. Çünki haramdan heç bir zaman xeyir gəlməz. Qazanmış görünən insanlar belə pulunu aldıqları insanların və ailələrin pərişanlığına səbəb olduqları üçün böyük bir günaha batarlar.



***Allah Rəsulu ﷺ belə buyurur:***

***"Sərxoşluq verən hər şey haramdır. Çoxu sərxoşluq verən şeyin azı da haramdır." (İbn Macə, Əşribə, 10; Nəsai, Əşribə, 24, 48)***

***İslam şərə aparan bütün yolları bağlayır, pisliyə səbəb olacaq ən kiçik hərəkəti belə qadağan edir. Qumarı haram qıldığı kimi, qumar alətləri düzəltməyi də qadağan edir.***

İçkinin mənəvi olduğu qədər maddi zərərləri də xeyli çoxdur. Dünya Sağlamlıq Təşkilatının otuz ölkədə apardığı araşdırma hesabatına görə:

- Cinayətlərin 85 %-i (60-70 %-i ailədaxili),

- Təcavüzlərin 50 %-i,

- Zorakılıq hallarının 50 %-i,

- Yoldaşını döyənlərin 70 %-i,

- İşə getməyənlərin 60 %-i və

- Ruhi xəstəliklərin  40-50 %-i spirtdən qaynaqlanmaqdadır.

Spirtli içki qəbul edənlərin dünyaya gətirdiyi uşaqlarda ruhi xəstəliklər yüzdə doxsandır.. İçki aludəçisi bir qadının şikəst uşağa sahib olma riski 35 %-dən yüksək bir səviyyədədir. Çünki spirt ana rəhmindəki böyüməyə və doğum sonrası inkişafa mane olur; uşaqda zəka azlığına, boy qısalığına və davranış pozuntusuna səbəb olur.

İçki aludəçisi olan insanların uşaqları davamlı mübahisə və şiddət dolu bir ailə mühitində yaşadıqları üçün onlarda ruh düşkünlüyü və davranış pozuntularının müşahidə riski çox yüksəkdir. Bu səbəbdən belə uşaqların çoxu məktəbdə və həyatda müvəffəqiyyətsiz olarlar.[1]

---

1. Musa Tosun, "İçki" mad., Diyanet İslam Ansiklopedisi, XXI, 463.

Allahın bəxş etdiyi maddi imkanlar ilə xeyir işləyəcəyi yerdə qumar oynayan insan həm Allaha üsyan etmiş olar, həm də özüylə birlikdə bir çox ailəni pərişan edər.



Bu gün cəmiyyətimizdə qumar az qala qanuniləşdirilmiş və ağla durğunluq verəcək qədər yayılmışdır. Bəzi qumar növləri sanki bir əyləncə və əylənmə surətində, hətta bəzən qumar olduğu belə bilinmədən icra edilməyə başlanmış, bu xəbis xəstəliyin mənəvi ağırlığı hiss edilməz olmuşdur. Halbuki **Rəsulullah** ﷺ qumardan danışmağı belə çox ağır bir cinayət olaraq görmüş və buna mane olmaq üçün belə buyurmuşdur:

*"...Kim yoldaşına; «Gəl, səninlə qumar oynayaq.» desə, bu sözünə kəffarə olmaq üçün (oynayacağı qumar pulunu) kasıblara sədəqə versin!"* (Buxari, Ədəb, 74)

Qumar indiki vaxtda o qədər asanlaşdırılmış və nəzarətdən çıxmışdır ki, hətta uşaqlara da bulaşmışdır. Bu vəziyyət gələcək adına çox böyük bir təhlükə ifadə etməkdədir. Çünki qumar sayəsində asan yolla qazanmağa həvəslənən uşaqlar, böyüdüklərində girəcəkləri hər işdə zəhmətsiz qazanmağın çarələrini axtararlar. Buna şərtlənən bir gənc həyata atıldıqda ticarətlə məşğuldursa dərhal zəngin olmağın, siyasətə atılmışsa sürətlə məsafə qət etməyin, universitetə girmişsə ən qısa yoldan bütün nailiyyətləri əldə etməyin çarələrinə baxar. Ən pisi də bu çarələrin qanuni olub-olma-

***İngiltərə hökumətinin rəsmi raportuna görə spirtli içki səbəbiylə meydana gələn münaqişə, yaralanma, xəstəxana məsrəfləri və s. kimi halların İngiltərə iqtisadiyyatına vurduğu ziyan illik 20 milyard sterlinqə (30 milyard dollar) yaxındır.***[1]

1. Sean COUGHAN, The Guardian, Saturday March 27 2004, "Sobering thoughts about a claim".

dığı yolundakı həssaslığını da itirərək müxtəlif haqsızlıq və günahlara sürüklənər. Hədəfinə çata bilmədikdə isə narahatlıq və bədbinliyə düşər.

Nəhayət, bu gün cəmiyyətimizin iman və əxlaq sahəsində yaşadığı erroziyanın ən acı/ən ağrılı nəticələrinin başında “qumar xəstəliyi” gəlməkdədir. O dərəcədə ki, qumar sanki qanuniləşdirilmək istənməkdədir. Bu da, əməl pozuntusu ilə yanaşı, imana da zərər verməkdədir.

*Bunu unutmamaq lazımdır ki, İslam hər bir qadağanın İslami zəmində alternativini, yəni daha yaxşı və təmiz olanını göstərmişdir. Bu səbəblə bir sıra aldadıcı həvəslər ardınca düşərək son dərəcə geniş olan halal dairəsindən çıxmağa və haramlara bulaşmağa heç gərək yoxdur.*

## ZAMAN ŞÜURU

Həyat Allahın hər insana bir dəfə istifadə etmək üzrə bəxş etdiyi, son dərəcə qiymətli və məhdud bir nemətdir. Buna baxmayaraq insan oğlunun ən çox aldanıb zay etdiyi nemət də **“zaman”**dır.



Zamanı ən qiymətli işlərdə istifadə etmək şərtdir. Çünki həyatda hər an edilə biləcək birdən çox iş vardır. Lakin bunların o an üçün ən əhəmiyyətlisini önə almaq lazımdır. Digərlərini də dərəcələrinə görə sıraya qoymaq şərtdir. Bu, zamanı ən gözəl şəkildə qiymətləndirə bilmək üçün diqqət yetirilməsi lazım olan mühüm bir düsturdur.

Allah-Təala Əsr surəsində belə buyurur:

**“And olsun zamana ki, İnsan** (ömrünü bihudə işlərə sərf etməklə, dünyanı axirətdən üstün tutmaqla) **ziyan içindədir. Yalnız iman gətirib**

**yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa!“** (əl-Əsr, 1-3)



Zamana and ilə başlayan bu surədə iman, saleh əməl, haqqı və səbri tövsiyə ilə qiymətləndirilməyən zamanların israf edildiyi və xüsrana səbəb olduğu bildirilməkdədir. Bununla birlikdə, zaman barəsində aldanan insanların əksəriyyətdə olduğuna da işarə edilməkdədir.

**Rəsulullah** ﷺ zamanın qiymətini nə gözəl ifadə edir:

*“Bir adam doğulduğu gündən qocalıb vəfat etdiyi günə qədər Allahın rizasını qazanmaq uğrunda üzü üstə yerlərdə sürünsə (yəni hər cür məşəqqətə dözərək özünü ibadət və xidmətlərə verərsə), qiyamət günü bu etdiyini çox az görər (daha çox etmiş olmağı istər).”* (Əhməd, IV, 185; Beyhəqi, Şuab, I, 479; Heysəmi, I, 51; X, 225, 358)

Bir mömin çox uzun bir ömrü müxtəlif ibadət, xeyir və xidmətlərlə qiymətləndirsə və bu uğurda bir çox məşəqqətlərə dözsə, böyük bir axirət sərmayəsi yığmış olar. Ancaq axirətdə həqiqəti bütün açıqlığıyla idrak edib, fərz və nafilə ibadətlərə verilən savabı və Allahın bunlara bəxş etdiyi nemətləri görüncə, ölümlə oyanar, bu ibadət və saleh əməllərini çox az görər. Daha çox edə bilmədiyi üçün heyfslənər. **Məhəmməd bin Əbu Umeyrə**nin rəvayətinə görə:

***“Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!”***

***(əl-Maidə, 90)***

*Hədsiz dərəcədə qiymətli sərmayə olan zamanı boş və əbəs işlərlə israf etmək axirət həyatını təhlükəyə atmaqdır. Bu səbəblə qəflət pərdələrini üstündən ata bilənlər üçün zaman heç nə ilə müqayisə edilməyəcək dərəcədə qiymətli bir nemətdir.*

*"...Əcr və savabını artırmaq üçün dünyaya təkrar qayıtmaq istər."* (Əhməd, IV, 185; Heysəmi, I, 51; X, 225)

Allah Rəsulu ﷺ qiyamət günündəki bu peşmanlıqdan belə xəbər verir:

*"Cənnət xalqı başqa bir şeyə deyil, yalnız dünyada Allahı zikr etmədən keçirdikləri anlara, həsrət və peşmançılıq duyacaqlar!"* (Heysəmi, X, 73-74)

İslamda boş zaman və ya boşa keçiriləcək bir tətil anlayışı yoxdur. İşləyərkən yorulan bir insanın istirahət edərkən də bir işlə məşğul olması, çalışaraq istirahət etməsi lazımdır. Allah belə tövsiyə edir:

**"Bir işi bitirdikdə, dərhal başqa bir işə giriş, onunla məşğul ol! Həmişə Rəbbinə yönəl və Ona yaxınlaş!"** (əl-İnşirah, 7-8)

Yəni ibadət və xeyirli işlərin biri bitdikdə dərhal digərinə keçmək lazımdır. Çünki dünya həyatı bizə axirəti qazanmaq və ilahi rizaya nail olmaq üçün verilən qısa bir möhlətdən ibarətdir. Şair bu həqiqəti nə gözəl xülasə edir:

*Saatı-vahidədir ömrü-cahan,*
*Saatı taətə sərf eylə həman!*



Şüurlu bir gənc **"İbnul-Vaxt"** olmalı, yəni yaşadığı anın qiymətini bilərək, onunla ən gözəl şəkildə axirətinə hazırlıq görməlidir. Belə edilmədiyi təqdirdə zaman boşa xərclənmiş olar. Zamanın boşa xərclənməsi isə ən böyük peşmançılıq səbəblərindəndir.

**Rəsulullah** ﷺ belə buyurur:

“Beş şey gəlmədən əvvəl beş şeyi qənimət bil:

*1. Qocalığından əvvəl gəncliyini,*

*2. Xəstələnmədən əvvəl səhhətini,*

*3. Kasıblığından əvvəl zənginliyini,*

*4. Məşğul zamanlarından əvvəl boş vaxtlarını və*

*5. Ölümündən əvvəl həyatını!”* (Hakim, Müstədrək, IV, 341; Buxari, Riqaq, 3; Tirmizi, Zöhd, 25)

Tarix boyunca alimlərimiz vaxtlarını çox yaxşı qiymətləndirmişlər. Zamanlarını Quran oxumaq, zikr, namaz, tələbə oxutmaq və elmlərini artırmaqla keçirmiş; bu sayədə çox qiymətli və həcmli əsərlər ortaya qoymuşlar.

***Zamanı o qədər gözəl dəyərləndir ki, “Sabah öləcəksən!” deyilsə belə proqramında hər hansı bir dəyişiklik etmə ehtiyacı hiss etməyəsən!..***

Zamanı şüursuzca israf edərək ömrünü ziyan edənlərin axirətdəki kədərli halını izah edən bu ayeyi-kərimə nə qədər ibrətlidir:



**“Onlar orada fəryad edib deyəcəklər: “Ey Rəbbimiz! Bizi buradan çıxart ki, saleh əməllər edək. O əməlləri yox ki** (dünyada) **edirik!”** (Onlara belə deyəcəyik:) **“Məgər orada sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət qəbul edə biləcəyi** (düşünəcək kimsənin düşünəcəyi) **qədər ömür vermədikmi?! Hələ sizə** (siz kafirləri Allahın əzabı ilə) **qorxudan peyğəmbər də gəlmişdi. Dadın** (cəhənnəm

əzabını)! **Zalımların imdadına çatan olmaz!"** (əl-Fatir, 37)

Haqq dostu **Rəbi bin Heysəm**in bu halı zamanı ən faydalı işlərlə qiymətləndirmə xüsusundakı nəfs mühasibəmizin nə qədər diqqətəlayiq bir misalıdır:

*Hər səhər ömür təqvimindən bizə yeni bir səhifə açılır. Bu ömür səhifəsini necə dolduracağıq? Kiramən-Katibin mələklər bugünkü qiyamət dosyemizə nələr yazacaq? Mömin bu həqiqətləri rəqiq bir qəlblə götür-qoy edərək zamanını ən xeyirli əməllərə sərf etməlidir.*

Rəbi bin Heysəm həzrətləri bağçasında bir məzar qazmışdı. Ürəyinin qatılaşdığını hiss etdiyi zamanlarda bu qəbrə girər, bir müddət orada qalardı. Gün gəlib dünyaya vida edəcəyini və məzarda istiğfar və sədəqəyə möhtac vəziyyətdə qalacağını təfəkkür edər, axirətdəki hesabını düşünərək bir mühasibə iqliminə girərdi. Daha sonra:

**"Nəhayət,** (müşriklərdən) **birinin ölümü gəlib çatdığı zaman o belə deyər: "Ey Rəbbim! Məni geri** (dünyaya) **qaytar! Bəlkə,** (indiyə qədər) **zay etdiyim ömrüm müqabilində yaxşı bir iş görüm! deyər…"** (əl-Muminun, 99-100) ayələrini oxuyardı. Məzardan çıxdıqda da öz-özünə:

"- Ey Rəbi! Bax, bu gün geri qaytarıldın. Bu istəyinin qəbul edilməyəcəyi, dünyaya geri göndərilməyəcəyin bir vaxt da gələcəkdir. İndidən tədbirini al və saleh əməllərini, Allah yolundakı səylərini və axirət hazırlıqlarını artıq." -deyərdi.



**Rəsulullah** ﷺ bir gün:

*"–Ölüb peşmançılıq duymayacaq heç kim yoxdur."* -buyurmuşdur. Əshabi-kiram:

“-Onun peşmanlığı nədir, ya Rəsulallah?” deyə soruşdular.

Peyğəmbərimiz ﷺ:

*“-Gözəl bir müsəlman isə, bu halını daha çox artırmamış olduğuna; pis bir adam isə, o pislikdən imtina etmədiyinə peşman olacaq.”* buyurdu. (Tirmizi, Zöhd, 59)

Bütün nemətlərdə olduğu kimi zaman nemətindəki israfın da əsas səbəbi ölümü lazımınca idrak edə bilməməkdir. Çünki eqoizmin mayasında faniliyə üs-



**İmam Qəzali həzrətləri belə buyurur:**

**“Oğul! Fərz et ki, bu gün öldün. Həyatında keçirdiyin qəflət anlarına nə qədər kədərlənəcəksən. “Ah, kaş ki!” deyəcəksən. Lakin əfsus!”**

**“Hər mömin, səhər namazını qıldıqdan sonra özünə bunu xatırlatmalıdır:**

**«-Mənim sərmayəm ömrümdür. Ömrüm bitdikdə sərmayəm də bitər və artıq qazanma imkanım qalmaz. Bu başlayan gün, yeni bir gündür. Allah-Təala bu gün də mənə icazə verərək ikram etdi. Əgər canımı alsaydı, əlbəttə bir günlük də olsa dünyaya geri göndərilib çox saleh əməl işləməyi istəyəcəkdim. İndi fərz et ki, öldün və bir günlük dünyaya qayıtmağına icazə verildi. O halda bu gün günahlara qətiyyən yaxınlaşma! Əsla bu günün bir anını belə boşa keçirmə. Çünki hər nəfəs çox qiymətli bir nemətdir.”**

*Bir insan bütün fani nemətlərə sahib olsa və o, səadət içində yüz il yaşasa, nə fayda!.. Nəhayət girəcəyi yer üstündə gəzdiyimiz qara torpağın altı deyilmi? İnsan ibrət almazmı ki, hər fani varlığın təravət və təzəliyi zaman dəyirmanında durmadan üyüdülməkdədir.*

yan vardır. Bu səbəblə insan daim özünü ölümdən uzaq görər.

Zaman Allahın qoyduğu qanunlar gərəyincə axıb gedər. Dünya həyatında hər şeyi satın almaq və ya geri gətirmək az-çox mümkündür, lakin keçən zamanı əsla... Keçən zaman geri gətirilə bilməz, satın alına bilməz, borc verilə bilməz, borc alına bilməz…

Hər anı yaxşı qiymətləndirmək lazımdır. Çünki zaman heç kəs üçün dayanıb gözləməz. Keçmiş zaman bir daha geri gəlməyəcək. Gələcək zaman isə sirr və məchullarla doludur. Yalnız yaşamaqda olduğu an insana verilən ən qiymətli hədiyyədir. Fürsət əldə ikən və imkan varkən onu Allahın razı olacağı şəkildə qiymətləndirmək ən ağıllı davranışdır.

Bu gün kiçik bir qızıl parçasının belə zibilə atılmasına heç kim laqeyd qala bilməz. Lakin nə həzindir ki, milyonlarla qızıl verərək satın alına bilməyəcək zamanın israfına əksəriyyətlə laqeyd qalınmaqdadır.

**Həsən Bəsri** həzrətləri belə deyir:

“Elə insanlar gördüm ki, sizin dirhəm və dinarlara qarşı olan ehtirasınızdan daha çox vaxtlarını qiymətləndirməyə ehtiraslı idilər.”



“Ey Adəm oğlu! Sən günlərdən, yəni zamandan ibarətsən. Bir gün keçdikdə sənin də bir parçan getmiş deməkdir.”[53]

**İmam Şafei həzrətləri** də belə demişdir:

53. Əbu Quddə, *Zamanın Qiyməti,* İstanbul 2006, s. 26-27.

İslama görə yetkinlik çağına çatan bir gənc dinin hökmlərindən məsul tutulmuşdur. 17-18 yaşlarına çatan bir gənc ailə qurub, ticari əqdlərdə iştirak edə bilər. O, artıq həyatın bütün yükünü daşıya biləcək yaşa gəlmişdir.

Bunun mümkün ola bilməsi üçün də İslam uşaqlıq dövrünə çox böyük əhəmiyyət verir. Uşağın təhsilinə çox erkən yaşda başlayır. Əvvəlcə ən zəruri biliklərin verilməsini əsas götürür. İnsanları boş və faydasız məlumatlardan çəkindirir.

İslam alimlərinin həyatları araşdırıldıqda qarşımıza çıxan tablo çox heyrətləndiricidir:

**İmam Malik** 17 yaşında təhsilini tamamlayıb dərs verməyə başlamışdır.

**İmam Şafei** 5 yaşında Muvatta adlı hədis kitabını əzbərləmiş, 15 yaşında fətva verməyə başlamışdır.

**İmam Evzaiyə** fətva soruşulduqda yaşı 13 idi.

**Süfyan bin Üyeynə** 4 yaşında hafiz olmuşdur.

**İmam Buxari** sibyan məktəbində ikən 15 min hədisi-şərifi əzbərləmişdir.

**İbn Sina** 10 yaşına gəldikdə bütün Quran və ədəbiyyat elmlərini ən mükəmməl şəkildə öyrənmişdir.[1]

---

1. Bu məlumatların qaynağı üçün bax. Prof. Dr. İbrahim Canan, İslamda Zaman Tanzimi, İzmir 2008, 72-73.



**Allah Rəsulu ﷺ Həzrət İbrahimə nazil olan on suhufdan bunları nəql edir:**

**“Ağıl sahibinin müəyyən saatları olmalı:**

**- Vaxtının bir hissəsini Rəbbinə dua və yalvarışa,**

**- Bir qisimini Uca Allahın sənət və qüdrətini təfəkkürə,**

**- Bir qisimini keçmişdə işlədiklərini götür-qoy etməyə və gələcəkdə işləyəcəklərini planlaşdırmağa,**

**- Bir qisimini də halalından məişətini qazanmağa ayırmalıdır.” (Əbu Nuaym, Hilyə, I, 167; İbn Əsir, əl-Kamil, I, 124)**

“Sufilərlə yoldaşlıq etdim və onlardan iki mühüm prinsip öyrəndim:

***- Vaxt qılınc kimidir, sən onu kəsməzsənsə o səni kəsər.***

***- Nəfsini Haqqa yönəltsən nə gözəl, yoxsa o səni batilə yönəldər.”***

Ayə və hədislərdə bəzi zamanların digərlərinə nisbətən daha fəzilətli olduğu xəbər verilmişdir. Beləcə, insanların ömür sərmayələrini ən məhsuldar şəkildə istifadə edə bilmələri üçün diqqətli və oyanıq olmaları istənmişdir.

Bəzi aylar, bəzi günlər, hətta bəzi saatlar digərlərinə nəzərən daha fərqlidir. Az zamanda çox qazanc əldə edib daha qazanclı bir həyat yaşaya bilmək üçün bu qiymətli vaxtların fürsət bilinməsi lazımdır. Üç aylar və xüsusilə Ramazani-Şərif digər aylarla müqayisədə daha qiymətlidir. Şəvval ayının ilk altı günü Zilhiccənin ilk on günü, Məhərrəm ayı və Aşura günü qəməri ayların 13-14-15-ci günləri, bazar ertəsi və cümə axşamı günləri, xüsusilə cümə günü və səhər vaxtları kimi…

Allah-Təala zaman barəsində daima oyanıq olaq deyə, çox qiymətli olan bəzi zamanları da gizli saxlamışdır. Min aydan daha xeyirli

olan Qədr Gecəsi, cümə günündə və hər gecədə gizli olan duaların məqbul olduğu saat bu qiymətli zaman dilimlərindəndir.

### *İslamın Öyrətdiyi Zaman Həssaslığı*

Almaniyaya dil təhsili üçün gedən bir nəfər bunları qeyd edir:

Alman dili müəllimimiz vaxt xüsusunda çox intizamlı bir insan idi. Vaxtın boşa getməsinə heç cür razı olmurdu. Kimin neçə dəqiqə gec gəldiyini qeyd edər, dərsdən sonra onları gecikdikləri müddət qədər çalışdırardı. Təbii onun bu rəftarı bizim heç xoşumuza gəlməzdi.

Bir gün 18 dəqiqə sinifdə qalıb dərsə hazırlaşma cəzası alan bir yoldaşımız hirslənərək müəllimə qarşı çıxdı. Müəllim bu tələbəyə belə dedi:



***İmam Həsən bin Ruşeyk belə deyir:***

***"Təfəkkür dəryasının kilidlərini açmaq üçün səhər vaxtı yuxudan qalxıb çalışmaqdan daha yaxşı bir açar yoxdur. Çünki insan o vaxt xarici əlaqələrdən, dünya qayğılarından və ehtiraslardan uzaqdır. Rəbbiylə birlik zamanına girmişdir. Bədəni dincəlmiş, özünə gəlmiş, təzələnmiş və gümrahlaşmışdır. Nəhayət, havanın ən gözəl olduğu vaxt və gecə ilə gündüz arasındakı ən uyğun zaman səhər vaxtıdır. Çünki səhərdə işıq qaranlığın üzərini örtməkdədir. Axşamda isə vəziyyət bunun əksidir; qaranlıq işıqlığın üzərinə çökməkdədir."***

*(Bax. Əbu Quddə, Zamanın Qiyməti, s. 86)*




“–Zamandan yaxşı istifadə etmirsiniz. Hətta bu mövzuda mənim həssas davranmağıma hirslənirsiniz. Amma mən doğru olanı etdiyimə və haqlı olduğuma inanıram.”

Çantasından bir qatar cədvəli çıxardı.

“–Rica edirəm, bura baxın!” dedi.

***İlin hər vaxtını böyük bir oyanıqlıq içində keçirmək lazımdır. Necə ki, bu həqiqəti bəyan edən “Hər gördüyünü Xızır, hər gecəni Qədir bil” zərbi-məsəli saleh möminlər üçün həyat düsturuna çevrilmişdir.***

Qatarların çıxış və çatma saatları 7:17, 11:43, 15:19, 19:33 kimi rəqəmlərlə yazılmışdı. Bu qarışıq rəqəmlərin mənasız olduğunu söyləyincə, müəllim belə dedi:

“–Bu qatar cədvəli hazırlanarkən İslamın zaman anlayışından istifadə edilmişdir. Çünki biz zamandan istifadə etməyi və onu qiymətləndirməyi müsəlmanlardan öyrəndik. Sizin ibadətləriniz üçün yer mühüm deyil. Təmiz olduqdan sonra dünyanın hər yerində ibadət edə bilərsiniz. Lakin zaman çox mühümdür. Çünki hər ibadətin özünə aid bir vaxtı vardır. Hətta vaxt ibadətin şərtidir. Yəni vaxtsız ibadət etsəniz bu ibadətiniz qəbul olmaz. İbadətlərin vaxtları da bizim qatar cədvəli kimidir: 18, 17, 13, 10, 9. Üstəlik bu saatlar da davamlı dəyişir. Bu gün səhər namazını 6:21-ə qədər qıla bilərsiniz. Amma sabah 6:22-yə qədər də qıla bilərsiniz. 23 dəqiqə işləmiş olmaz. Yalnız namaz belə deyil. Orucun başlama və bitmə saatları da belədir.

Yaxşı, bu niyə belədir? Bunun nə faydası var? Bu sayədə müsəlmanlar hər gün dəyişməkdə olan zamana qarşı oyanıq olarlar… Zamanın qiymətini anlar və onu yaxşı qiymətləndirmək üzrə hazırlanarlar. İbadətlərini nizamlı olaraq ifa edən bir müsəlman hər gün dəyişən dəqiqələrə uyğunlaşaraq yaşamaq məcburiyyətindədir. Məhz bizim zamana baxışımızın ilham qaynağı İslamın bu həssaslığıdır.”

*İnsan bütün varlığını fidyə olaraq versə, əcəl sənədinin vədəsini nə bir saniyə gecikdirə, nə də tezləşdirə bilər.*

Xülasə, zamanı maksimum dərəcədə məhsuldar edə bilmək üçün əvvəlcə **“iradə”** gücündən ən yaxşı şəkildə istifadə etmək lazımdır. Çünki insandakı iradə yaradılışdan gələn bütün güclərdən daha üstündür. İradə gücünün hərəkətə keçə bilməsi üçün də bildiklərini tətbiq edə biləcək qüvvət və canlılığa sahib **“iman”**a ehtiyac vardır.

Bununla yanaşı zamanın haqqıyla qiymətləndirilməsi, könüllərə yerləşdiriləcək olan güclü bir **mərifətullah** və **məsuliyyət şüuruna** bağlıdır.

## MƏSULİYYƏT ŞÜURU

İnsan yaradılmışların ən şərəflisi və dünyanın ən qiymətli zinətidir. Allah-Təala insan oğluna digər məxluqatına vermədiyi saysız nemət və qabiliyyətlər lütf etmişdir. Buna müqabil Allah-Təala kainatı və içindəkiləri insana əmanət etmiş və bunların



qənaəti xüsusunda onu məsul tutmuşdur.



İnsan sərvət, övlad, səhhət, mövqe, məqam kimi özünə əmanət edilən nemətlərin fərqində olmalı və şükrünü əda etməyə çalışmalıdır. Bu da onların Allahın rizası istiqamətində istifadə edilməsiylə mümkündür.

*Zaman Allahın qoyduğu qanunlar gərəyi axıb gedər. Dünya həyatında hər şeyi pulla almaq və ya geri qaytarmaq olar, amma keçən zamanı əsla… Keçən zaman geri qaytarıla bilməz, pulla alınmaz, borc verilməz, borc götürülməz…*

Allah dünya imtahanının bir gərəyi olaraq hər quluna ayrı-ayrı həyat şərtləri təqdir etmişdir. Bütün insanlara eyni qabiliyyət, eyni maddi və mənəvi xüsusiyyətlər verilmiş olsaydı, balanslı bir həyat nizamından söz gedə bilməzdi. Bunun üçündür ki, insanlar bir-birini yuyan iki əl kimi bir-birinə möhtac qılınmışdır.

Bu vəziyyət möminlər üçün imani və vicdani bəzi haqq və məsuliyyətlər ortaya qoymuşdur. Allah-Təala insanlar içindəki zəif və məhrum qullarından çəkdikləri çətinliklərə səbir edib bunun əcrinə nail olmalarını istəmişdir. Güclü, varlı və qabiliyyətli qullarına da, azğınlaşmayıb şükür etmələrini və möhtac qardaşlarına köməkçi olmalarını əmr etmişdir.

Bir gəncin zaman-zaman özünə bu sualı verməsi lazım deyilmi?

“-Mən sağ-salamatam, lakin filankəs niyə şikəst və ya xəstədir? Mən imkanlıyam, lakin filankəs niyə kasıb və məhrumdur?”

Bu problemin cavabı isə məlumdur:

***"-Allah-Təala onu sənə əmanət etdi və səni ondan məsul tutdu. O halda əlindəki imkanları, bunlardan məhrum olanlarla paylaşmağa məcbursan!.."***

Necə ki, **Peyğəmbərimiz** ﷺ:

*"Mömin qardaşının dərdiylə dərdlənməyən bizdən deyil."* buyurmuşdur. (Hakim, IV, 352; Heysəmi, I, 87)

Həmçinin Peyğəmbərimiz ﷺ möminlərin bir-birlərinə qarşı böyük məsuliyyətlərinin olduğunu bildirmişdir. Buna görə, möminlərin bir divarın kərpicləri kimi bir-birinə hörülmüş olmaları lazımdır. Yaxud da bir bədənin üzvləri kimi birinin hiss etdiyi ağrını hamısının hiss etməsi lazımdır. Qonşusu aç ikən tox yatmaq İslam əxlaqına ziddir. Bir sözlə desək, bütün möminlər bir-birinə əmanətdir.

Allah-Təala bir quluna nə qədər güc və imkan vermişdirsə, onu bir o qədər məsul tutumuşdur. Ayeyi-kərimədə belə buyurulur:

**"Allah heç kimi gücünün çatmadığından məsul tutmaz..."** (əl-Bəqərə, 286)

Bu ayənin məfhumu-müxalifi əsasında, bir qul gücünün çatdıqlarını ifa etməz isə, bundan da məsul olar. Yəni gücümüzün çatdığı halda etmədiyimiz yaxşılıqlardan da məsuluq deməkdir.

Bu xüsusda biz möminlər üçün çox mühüm bir məsələ ortaya çıxmaqdadır. Belə ki, malımızın zəkatını verəcəyimiz zaman bunun hesabı müəyyəndir. Lakin üzərimizdəki digər nemətlərdə



***Misirdə şiddətli qıtlığın hökm sürdüyü günlərdə Yusifdən*** عليه السلام ***soruşdular:***

***"-Sən dövlətin xəzinələrinə hökm edən bir idarəçisən. Niyə özünü ac qoyursan?" O isə bu cavabı verdi:***

***"-Qarnım tox olsa acların halını anlaya bilmərəm deyə qorxuram!"***

Bir ticarət karvanı gələrək Mədineyi-Münəvvərənin yaxınlığında düşərgə salmışdı. **Xəlifə Həzrət Ömər** رضي الله عنه bu yad insanların hər hansı bir zərərə uğramasından narahatlıq keçirirdi. **Əbdürrəhman bin Əvf** həzrətlərinə:

“-Vaxtın varsa, gəl bu gecə bu karvanı oğrulardan qoruyaq!” dedi. İkisi karvanın ətrafında gecə boyunca gözətçilik etdilər. Bir tərəfdən də boş dayanmır, nafilə namaz qılırdılar.

Bir ara Həzrət Ömər رضي الله عنه bir uşağın ağlama səsini eşitdi. Səsin gəldiyi tərəfə getdi və uşağın anasına:

“-Allahdan qorx, uşağınla yaxşı rəftar et!” dedi. Sonra yerinə qayıtdı. Bu vəziyyət bir neçə dəfə təkrar oldu. Nəhayət Həzrət Ömər qəzəblənərək:

“-Təəssüflər olsun sənə, necə anasan! Axşamdan bəri uşağı niyə ağladırsan?!” dedi. Onu tanımayan ana bu cavabı verdi:

“-Ey Allahın qulu! Bu gecə mənə əziyyət verdin! Mən uşağımı süddən ayırmağa çalışıram, o da əmmək üçün müqavimət göstərir.” dedi. Ömər رضي الله عنه:

“-Nə üçün süddən ayırmaq istəyirsən?” deyə soruşdu. Qadın:

“-Çünki Xəlifə Ömər ancaq süddən kəsilən uşaqlara məvacib ayırır.” dedi. Bu cavab qarşısında sanki qanı donan Həzrət Ömər رضي الله عنه uşağın neçə aylıq olduğunu soruşub öyrəndikdən sonra:

“-Allah sənə kömək olsun, onu süddən ayırmaq üçün tələsmə!” dedi.

Səhər namazının vaxtı gəlmişdi. Həzrət Ömər mehraba keçmiş, bir tərəfdən namaz qıldırır, bir tərəfdən də ağlayırdı. Ağladığı üçün insanlar nə oxuduğunu tam olaraq anlaya bilmirdi. Salam verdikdən sonra:

“- Yazıqlar olsun Ömərə! Kim bilir nə qədər müsəlman övladına əziyyət etdi!” dedi. Sonra bir carçıya əmr etdi və; “Uşaqlarınızı süddən kəsmək üçün tələsməyin! Çünki İslam üzrə doğan hər uşağa məvacib ayrılacaq.” deyə elan etdirdi. Daha sonra da bu təlimatı yazdıraraq bütün İslam diyarlarına göndərdi. (İbn Sad, III, 301; İbnul-Cövzi, Mənaqib, s. 77)

bu hesab açıqca ifadə edilməmişdir. Məsul olduğumuz vəzifələri tam olaraq edib-edə bilmədiyimizi bilmədiyimiz üçün namaz, niyaz və xeyir-həsənatımıza əsla güvənə bilmərik. Çünki məsuliyyətimizin sərhədləri bəlkə o qədər genişdir ki, etdiyimiz saleh əməllər o sərhədlərin içərisində itib-batır.

Səhabədən **Abdullah bin Ümmü Məktum** ﷺ kor oldu-



**İmam Əzəm həzrətlərinin qonşularından biri əyyaş bir gənc idi. Bu gənc, səhərdən axşama qədər içər, gecələri də yerində dura bilməz, qışqırıb söyüş söyərək insanları narahat edərdi.**

**Bir gecə gəncin səsi gəlmədi. İmam gəncin başına bir iş gəlib-gəlmədiyi ilə maraqlandı. Yoldaşları içki üzündən dava salıb həbsə atıldığını söylədilər. Əbu Hənifə həzrətləri bu vəziyyətə çox kədərləndi. Həbsxanaya gedərək səlahiyyət sahiblərindən onu sərbəst buraxmalarını xahiş etdi. Məmurlar ancaq zəmanətlə sərbəst buraxa biləcəklərini söylədilər. İmam Əzəm həzrətləri zamin oldu və gənci həbsdən qurtardı.**

**Vəziyyəti öyrənən gənc dərhal imamın yanına qaçıb peşmanlıq göz yaşları tökdü. Artıq içkiyə tövbə etdiyini söylədi. Bundan sonra ona layiq bir qonşu və tələbə olacağına söz verdi. Böyük imam gəncə şəfqətlə baxdı və kədərli bir səslə:**

**“–Ey gənc, əslində səni biz zay etdik! Səninlə əlaqə saxlaya bilmədik. Sən bizə haqqını halal et!” dedi.**

ğu üçün səfərdən azad tutulmuşdu. Buna baxmayaraq; “Mən də bayrağı daşıyaram.” deyərək Qadisiyyə səfərinə qatıldı.



Çünki o mübarək nəsil çox yaxşı bilirdi ki, bir xeyri işlərkən edilən fədakarlıqlar, onun əcrini qat-qat artırmaqdadır. O halda, bəzi məhrumiyyətlər içində olsaq belə; “Nə edim, imkanım yoxdur!” deyə bir kənara çəkilməməliyik. Bu yoldakı maneələri aşaraq məsuliyyətlərimizi yerinə yetirməliyik.

Uşaq evlərindəki kimsəsizlərdən, küçələrin insafına tərk edilmiş avara uşaqlara və narkotik aludəçisi gənclərə qədər bütün insanlar bizim qardaşımızdır. Hələ bir çoxu yetkinlik yaşına çatmamış yeni bahar budağı kimi olan gənclər göz görə-görə cəmiyyətin zibilliklərinə atılmaqdadırlar. Tənəffüs etdikləri zəhərlə ciyərlərini yandırmaqda, beyinlərini və qəlbi funksiyalarını məhv etməkdədirlər. Cəmiyyətə düşmən kəsilərək pis qruplaşmaların zəruri üzvləri halına gəlməkdədirlər. Onlara din, əxlaq və vətənpərvərlik duyğularını verə bilmədiyimiz üçün özümüzü vicdani olaraq nə qədər məsul hiss edə bilirik?

***Hədisi-şərifdə buyurulur:***

***“Qonşusu ackən tox yatan mömin deyil”*** ***(Hakim, II, 15; Heysəmi, VIII, 167; Buxari, əl-Ədəbul-Müfrəd, № 112)***

***Həzrət Əli Misir valisinə göndərdiyi əmrnaməsində deyir:***

***“İnsanlara canavarın sürüyə baxdığı kimi baxma. Qəlbində onlara qarşı sevgi, mərhəmət və yaxşılıq duyğuları bəslə. Çünki heç bir istisnasız bütün insanlar ya dində qardaşın, ya da yaradılışda tayındır.”***

# FƏRASƏTLİ OLMAQ

İnsanlar içində ağıl, zəka və fərasət başda olmaq üzrə hər baxımdan ən üst dərəcədə Peyğəmbərlər gəlir. Onlar güclü yaddaş, yüksək idrak, güclü məntiq və razı salma qabiliyyətinə sahibdirlər. Bu qabiliyyət **"fətanət"** adlanır.

Bir müsəlmanın da, peyğəmbərlərdəki fətanət sifətindən pay götürüb ağıllı, ayıq və fərasət sahibi olması lazım gəlir.

**Həzrət Peyğəmbər** ﷺ:

*"Möminin fərasətindən çəkinin! Çünki o, Allahın nuruyla baxar."* buyurmuşdur. (Tirmizi, Təfsir, 15/3127)

Peyğəmbərlərin sifətlərindən bir cüz olan fərasət, incə bir zəka ilə həmsöhbətin ağıl səviyyəsinə görə davranmaqdır. Çünki bir adamı sevindirən bir davranış başqa birini kədərləndirə bilər.

Fərasətli bir müsəlman kimə, nəyi, nə vaxt, necə söyləyəcəyini və nə şəkildə davranacağını yaxşı bilir.

**Həzrət Süleyman** عليه السلام uşaqlığından etibarən yüksək bir anlayışa sahib, çox ağıllı biriydi. **Rəsulullah** ﷺ onunla əlaqədar belə bir hadisə nəql edir:

***Həzrət Mövlana buyurur:***

***"Şəms mənə bir şey öyrətdi:***

***"Dünyada bir mömin üşüyürsə, isinməyə haqqın yoxdur."***

***Mən də bilirəm ki, yer üzündə üşüyən möminlər var, mən artıq isinə bilmirəm!.."***





***Bir qrup müsəlmn Cəfəri-Təyyarın rəhbərliyində Həbəşistana hicrət etmişdi. Xristian olan Həbəş Nəcaşisi Qurani-Kərimlə maraqlanaraq, Cəfəri-Təyyardan bir neçə ayə oxumasını istədi. Cəfər ﵁ gözəl bir fərasət nümunəsi sərgiləyərək, inkarçılara meydan oxuyan ayələrdən deyil, içində Həzrət İsa və anasından təriflə bəhs edilən Məryəm Surəsini oxudu. Qurani-Kərimi xüşu içində dinləyən Nəcaşi yaşlı gözlərlə:***

***“-Şübhəsiz, bu dinlədiklərim ilə Həzrət İsanın gətirdiyi həqiqətlər, eyni nur qaynağından fışqırır!” dedi və bir müddət sonra da İslam ilə şərəfləndi.***

***(İbn Hişam, I, 358-360)***

*“…Vaxtilə iki qadın və yanlarında uşaqları vardı. Yolda gedrkən bir qurd gəlib qadınlardan böyük olanın uşağını yedi. O dərhal kiçik qadına:*

*«-Qurd sənin uşağını apardı.» dedi.*

*Digər qadın:*

*«-Xeyr, sənin uşağını apardı!» dedi.*

*Nəhayət bu iki qadın, aralarında hökm etməsi üçün Davud Peyğəmbərə müraciət etdilər. Həzrət Davud uşağın böyük qadına aid olduğuna hökm etdi. Qadınlar oradan çıxıb, Davudun* ﵇ *oğlu Həzrət Süleymanın yanına getdilər. Atasının verdiyi hökmü söylədilər. Süleyman* ﵇ *da:*

*«-Mənə bir bıçaq gətirin! Uşağı bu iki qadın arasında bölüşdürüm!» dedi. Kiçik qadın dərhal atılıb:*

*«-Aman, elə etmə! Allah sənə rəhmət etsin! Uşaq bu qadınındır!» dedi.*

*Bunun üzərinə Süleyman* ﵇ *uşağın kiçik qadına aid olduğuna hökm etdi.”* (Buxari, Ənbiya, 40)

Fərasət xüsusunda gözəl bir misal da belədir:

İldırım Bəyazidi Ankarada məğlub edən Teymur Osmanlıya xərac qoymuşdu. Bir neçə il sonra Elxanilər Teymurun varisi olduqlarını iddia edərək eyni xəracı tələb etdilər. II Murad zamanında tamamilə topar-

lanıb güclənmiş olan Osmanlı Dövlətinin paşaları Sultana:

“-Padşahım! Bunlara hələ nə deyə xərac veririk? Artıq bunları başımızdan rədd edək!..” dedilər.

Sultan II Murad Xan hissiyyata qapılaraq irəli sürülən bu təklifə aşağıdakı ibrətli cavabı verdi:

*“-Onlar bizim yüksəlişimizin və bu ankı qüdrətimizin fərqində deyillər. Əgər indi biz istədikləri pulu verməzsək, az da olsa bir ordu yığıb üstümüzə gələrlər. Hərçənd məğlub olarlar, amma müsəlman qanı tökülər... Bu səbəbdən siz onlara istədikləri pulu hələ ki, verməyə davam edin! Çünki pul üçün müsəlman qanı tökmək istəmirəm!*

*Ancaq Elxanlıların elçilərinə ordumuzun ehtişamını göstərin ki, sahib olduğumuz güc və qüdrətin fərqinə varsınlar. Bir daha özlərindən üstün olan bu Dövləti Aliyyədən xərac istəmək cürətini göstərə bilməsinlər!..”*

Həqiqətən də nəticə Sultan II Muradın bəyan etdiyi şəkildə təsdiqləndi.

Xülasə, fərasət və bəsirət mömin üçün lazımlı olan xüsusiyyətlərdəndir.



**Şah əl-Kirmani belə deyir:**

**“Kim gözünü haramlardan qoruyar, nəfsini şəhvətlərdən uzaq tutar, Sünneyi-Səniyyəyə tabe olar və halal loğmayla bəslənərsə, onun fərasəti heç vaxt yanılmaz!”**

**(Quşeyri, Risalə, Əbu Osman əl-Cəbri bölümü)**

## TƏFƏKKÜRDƏ DƏRİNLƏŞMƏK

Təfəkkürdə dərinləşmək üçün atılacaq ilk addım ətrafa ibrət nəzəriylə baxmaqdır. Çünki Qurani-Kərimdə Allahın nemətləri sayıldıqdan sonra insan-

*Həzrət Əbu Bəkr ﵁ buyurur:*

*"Nə dediyini, nə zaman dediyini və kimə dediyini yaxşı düşün."*

lara dəfələrlə **"Ey idrak sahibləri"**[54] deyə xitab edilmiş, kainata ibrət nəzəriylə baxmaları istənmişdir.

Bir çox ayələrdə də **"Heç düşünməzsinizmi? Ağıllarını işlətməzlərmi? İdrak etməzlərmi?"**[55] buyurularaq insan oğlunun kainata boş bir nəzərlə deyil; bəsirətlə baxması istənmişdir.

İnsan, şəfəq vaxtı başını qaldırıb, doğan günəşə baxıb üfüqdə çəkilən rəngarəng, çeşidli mənzərələri görməlidir. Usta bir rəssamın əsəri qarşısında heyran qalarıq. O halda, kainatın ilahi sənətkarının hər an çəkdiyi şah əsər qarşısında necə maraqsız qala bilərik?

Bir laləyə, bir bənövşəyə baxın! Bu rəngləri görəsən quru torpağın harasından aldılar? Bəs qırmızı qərənfil? Günəşin işığında sayrışan çiçəklərin mavisi, çəhrayısı və onların könül açan təbəssümləri... Və saymaqla bitməyəcək digər gözəlliklər... Duyğu dərinliyinə sahib bir ürək üçün hər yer möcüzələr sərgisi... Bir çiçəyin təbəssümünə, arı və kəpənəyin rəqsinə, pərvanənin yanmasına, bülbülün fəryadına, bir də dönüb özümüzə baxaq! Bütün bu gözəlliklər, gözəlliyin mütləq mənbəyi olan Yaradıcımızın camalından məxluqatına əks edən bir gözəllikdən ibarətdir.



54. Bax. Ali-İmran, 13; ən-Nur, 44; əl-Həşr, 2
55. Bax. əl-Ənam, 50; əl-Bəqərə, 219, 266; Muhamməd, 24; ən-Nisa, 82; Yasin, 68

Şəfəq sökülərkən ilk işıqlarıyla əşyanı işıqlandıran günəş başlayan yeni günün salamını gətirərək, sanki bizə:



"-Oyan!" deməkdə və bizi nəfsi mühasibəyə çağırmaqdadır:

"- Bax, sənə bu səhər də həyat dəftərindən yeni bir səhifə hədiyyə edildi. Qiyamətdə önünə qoyulacaq bu səhifəni necə dolduracaqsan? **«Oxu kitabını, bu gün səni hesaba çəkmək üçün nəfsin kifayətdir!»**[56] deyiləcəyi o dəhşətli gün üçün bu gün nə hazırlamağı düşünürsən?"

Axşam olub, səma əvvəlcə qırmızıya, sonra da dalğa-dalğa qaraya boyandıqda gecə hal diliylə insana deyər ki:

"- Bir günün də beləcə keçib-getdi. Ölümə bir addım da yaxınlaşdın. Artıq bihudə ah-nalə etməyə ehtiyac yoxdur. Nə qədər cəhd göstərsən göstər, keçən günü geri qaytara bilməzsən. İndi sən də ölümün qardaşı olan yuxunun qollarına özünü təslim edəcəksən. Nə etməli idin, sən nə etdin? Etdiklərini və etmədiklərini önünə qoy və düşün!.. Bəlkə bir daha səhərin işıqlarını görə bilməyəcəksən!.."

Kainata belə bir təfəkkürlə yönələ bilən ruhlar, dünyanın müvəqqəti bir imtahan məkanı olduğunu, qərar tutulacaq bir diyar olmadığını və vəfasızlığını anlayar, nəticədə həqiqi və yeganə dost olaraq Allahı taparlar.

**Allah Rəsulu ﷺ buyurur:**

**"Rəbbim mənə susma halımın təfəkkür olmasını əmr etdi, (mən də sizə tövsiyə edirəm.)"**[1]

1. İbrahim Canan, Hadis Ansiklopedisi, XVI, 252, hadis no: 5838.

56. əl-İsra, 14.

İlahi hikmət və ibrətlər sərgisi olan bu aləmdə təfəkkürdən uzaq bir ürəyin vay halına! Güllərin, ağacların, qurdun-quşun hal dilindən qafil qalmaq; dənizlərdə, dağlarda, göylərdə sərgilənən nə qədər qüdrət naxışlarının bəyanından heç nə anlamamaq qəlb gözünün korluğundandır.

**Həzrət Mövlana** belə buyurur:

*"Madam ki, dəyirman daşının hərəkətini görürsən, daha diqqətli bax və onu hərəkətə gətirən dərənin suyunu da gör! Torpağı, tozu havada gördün. Onları havaya qaldıran küləyə də bax! Fikir qazanının qaynadığını görürsən. Onu qaynadan atəşə də bəsirətlə nəzər et! Bu köşkləri, sarayları və neçə-neçə evləri bina edənin olması məqbuldur, yoxsa olmaması? Bu gördüyün yazını yazan bir katibin olması məqbuldur, yoxsa divarları bəzəyən və səhifələri sətir- sətir dolduran yazılar katibsizdir? Ey insan! Bu aləmdə öz-özünə meydana gələn bir şey göstərə bilərsənmi? Öz-özünə cücərib boy atdığını zənn etdiyin bitkini torpağından ayır, sonra bax gör necə böyüyür?!"*



***Allah-Təala bütün canlılara elə xüsusiyyətlər vermişdir ki, bir-birinə bənzər qidalarla bəslənsələr də fərqli məhsullar meydana gətirərlər. Məsələn, yaşıl bir tut yarpağını mal və ya qoyun yesə, ondan ət, süd və yun hasil olar. İpəkqurdu yesə ipək meydana gələr. Heyvan otu ət və süd edərkən, ən son texnoloji cihazlarla təchiz edilmiş bir kimya laboratoriyasında tonlarla otdan bir qram ət və ya süd istehsal etməyə insan oğlu qadir deyildir. Arıların çiçək tozlarından hazırladığı balı emal etmək də yenə insanın gücü xaricindədir. Sadə bir ot kimi görünən müxtəlif çiçəklərin torpaqdan aldığı rənglər, qoxular və naxışlar, heç bir insanın edə bilməyəcəyi möcüzələrdir.***

Rəsulullah ﷺ peyğəmbərlikdən əvvəl Nur dağındaki Hira mağarasında tez-tez tənhalığa çəkilərdi. Peyğəmbər olduqdan sonra da Ramazan ayının son on günündə etikafa girərdi. Bundan da anlayırıq ki, bir müsəlman bəzən tənha qalaraq nəfsini hesaba çəkib kainatı təfəkkürlə seyr etməlidir. Bunu etmədən tam mənasıyla kamilləşə bilməz. Xüsusilə insanlara rəhbər olacaq kəslər bu təfəkkür və götür-qoya daha çox möhtacdırlar.

Nəhayət, görən gözlər idrak edər ki, ilahi səltənət qarşısında bu dünya fəzada üzən milyardlarla, trilyonlarla tozdan yalnız bir dənəsidir. Dağlar, düzənliklər, okeanlar və insan da bu tozun içərisindədir. Məhz bu acizliyiylə insan qulluğu xaricində yalnız bir "heç"dən ibarətdir!..

*Düşünmək lazımdır ki, həyat nemətinin məna və hikməti nədir? Dünya nə üçün insan oğlunun əmrinə verilmişdir? İki qapılı bir karvansara olan bu dünyaya haradan gəldik, yolçuluq harayadır? İlahi bir partlayış olan qiyamətdə sığınacaq yer haradır?*

## BİRLİK və BƏRABƏRLİK

İslam dini möminləri şəxsiyyət baxımından yetkinləşdirib tərəqqi etdirməklə birlikdə, cəmiyyətin də dinclik və rifahını təmin edəcək ülvi prinsiplər qoymuşdur. Fərdlərin bir-biriylə din qardaşlığı prinsipi ətrafında məhəbbətlə birləşməsini əmr etmişdir. Hər kəsi fədakarlığa təşviq edərək cəmiyyətin bir vücud olmasını hədəfləmişdir. Bu halı yaşaya bilən cəmiyyətlər birlik və bərabərlik ruhuyla ucalaraq nümunəvi bir "fəzilətlər mədəniyyəti" formalaşdırarlar.



Cəmiyyət üçün ən böyük təhlükə ixtilaflar, təfriqələr və itaətsizlik nəticəsində meydana gələn anarxiyadır. Müsəlmanların fitnədən və ixtilaf-



*Bu aləmdə hər zərrə diri könlə sahib insanla danışır. Bütün varlıqlar hal diliylə bəyan etməkdədir. Kainatda Xaliqini tanıtmayan heç bir zərrə yoxdur. Bütün məxluqat özünü yoxdan var edən Allahın qüdrət möhürünü daşımaqdadır. İnsanın borcu ilahi qüdrət və əzəmət nəqşlərinin təfəkküründə dərinləşərək bu ilahi möhürləri ibrət nəzəriylə görə bilməkdir.*

dan xilas olmaları üçün qardaşlıq duyğularına sahib olmaları lazımdır. Bu da Qurani-Kərimə və Rəsulullahım Sünnəsinə sıx sarılmaqla mümkündür.

Allah-Təala belə buyurur:

**"Həqiqətən, möminlər** (dində) **qardaşdırlar. Buna görə də** (aralarında bir mübahisə düşsə) **iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, rəhm olunasınız!"** (əl-Hucurat, 10)

**"...Əgər** (həqiqi) **möminsinizsə, Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin, Allaha və Onun Peyğəmbərinə itaət edin!"** (əl-Ənfal, 1)

**"Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və** (firqələrə bölünüb bir-birinizdən) **ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən. O sizin qəlblərinizi** (islam ilə) **birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi..."** (Ali-İmran, 103)

**"Allah və Onun Peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir!"** (əl-Ənfal, 46)

Uca Rəbbimiz möminlərin tək bir ürək kimi birlik və bərabərlik halında olmalarını əmr

etməkdədir. Bu xüsusdakı əmrlərini əvvəlki peyğəmbərlərə də vəhy etmişdir.[57]

Nəfs və şeytan insanların ehtiras, həsəd və mənfəətpərəstlik kimi pis duyğularını qabardaraq aralarını vurmağa çalışır. Bu iki əzəli düşmənin əlindəki ayrılıq silahı həm çox güclü, həm də zərərvericidir. Bu səbəbdən müsəlmanların qardaşlıq duyğularını zədələməməsi, inciklik və ayrılıqlara heç bir zaman fürsət verməməsi lazımdır.

Necə ki, **Rəsulullah** ﷺ:

*"Mömінin möminə qarşı vəziyyəti, bir hissəsi digər hissəsini sıx birləşdirib tutan binalar kimidir."* buyurmuş və bunu izah etmək üçün, iki əlinin barmaqlarını bir-biri arasına keçirərək birləşdirmişdir. (Buxari, Salət, 88, Məzalim 5; Müslim, Birr, 65)

Digər hədisi-şəriflərdə də belə buyurulur:

*"Sizə birlikdə olmağı, ayrılıqdan çəkinməyi tövsiyə edirəm. Çünki şeytan tək olanla birlikdə, iki adamdan isə daha uzaqdır. Cənnətin tam ortasında olmaq istəyən kimsə İslam camaatından ayrılmasın!"* (Tirmizi, Fitən, 7/2165; Əhməd, I, 26, V, 370-371)

*"Möminlər bir-birlərini sevməkdə, bir-birinin halına acımaqda və qorumaqda bir bədənə bənzəyərlər. Bədənin bir üzvü xəstə olduğu zaman digər üzvlər də bu səbəblə yuxusuzluğa və qızdırmalı xəstəliyə tutularlar."* (Buxari, Ədəb, 27; Müslim, Birr, 66)

***Mövlana -quddisə sirruh- belə buyurur:***

***"İnsanlarla dost ol. Çünki karvan nə qədər izdihamlı olsa, yol kəsənlərin beli o qədər qırılar."***



57. Bax. əş-Şura, 13.



Rəsulullah ﷺ birlik və bərabərliyə xələl gəlməməsi üçün, cəmiyyətdəki münafiqlərin kimliyindən xəbərdar olduğu halda adlarını ifşa etməmişdir. Onları ömür boyu gözəlliklə idarə etmiş və bütün çətinliklərinə dözmüşdür.

Digər tərəfdən, müsəlmanları gündə beş dəfə bir yerə toplayan namaz ilə cəmiyyət həyatımız arasında möhkəm bir əlaqə olduğu şübhəsizdir. Haqq-Təala namaz, həcc, zəkat, qurban kimi ibadətlərlə eyni zamanda müsəlmanlar arasında qəlbi birlik təsis etməkdədir. Necə ki, ayeyi-kərimədə belə buyurulur:

**"Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin!"** (əl-Bəqərə, 43)

Digər bir ayədə də belə buyurulur:

**"Şübhəsiz ki, Allah Öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər!"** (əs-Səff, 4)

**Sultan I Murad Xan** Rumelində cihad edərkən **Qaramanoğlu Ələddin bəy** Osmanlı torpaqlarına hücum etmişdi. Bunu öyrənən **Murad Xudavəndigar** son dərəcə kədərlənir və belə deyir:

"-Bu zalımların etdiyinə baxın! Biz bir aylıq məsafədə kafirlərlə gecə-gündüz cenk edirik, o da gəlib müsəlmanların mülkünü yağmalayır! Ey qazilər! İndi mən cihadı qoyub müsəlman qardaşlarıma necə qılınc çəkim?!."

***Allah-Təala belə buyurur:***

***" (Allah tərəfindən) açıq-aydın dəlillər gəldikdən sonra, bir-birindən ayrılan və ixtilaf törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar** (Ali-İmran, 105)*

Birlik və bərabərlik şüuruna dair ən möhtəşəm misallardan birini də, Şərqi Anadoluda bir tayfa rəisi olan **İdris Bitlisi həzrətləri** sərgiləmişdir. O, **Yavuz Sultan Səlimin** İslam birliyi hücumuna candildən dəstək olaraq torpaqlarını böyük bir sevgi seli halında Osmanlıya qatmışdır.

Yavuz Sultan Səlim Xan bu şəxsə son dərəcə hörmət göstərmişdir. Belə ki, ona münasib hesab etdiyi kəslərə bəylik verə bilməsi üçün boş xətti-humayunlar lütf etmişdir. Ancaq o, birlik və bərabərlik xüsusunda bir fəzilət nümunəsi də sərgiləyərək bu xətti-humayunu da padşahın icazəsi olmadan doldurmamışdır. Beləcə, ümmətin birliyini təmin edici böyük fəaliyyətlərin memarı olmuşdur.

Eyni şəkildə **Barbaros Xeyrəddin Paşa** da sahib olduğu Şimali-Afrikanı, "İslam birliyi" düşüncəsiylə Osmanlı dövlətinə hədiyyə etmişdir. Buna müqabil Qanuni də, ona dövlətin Dərya Kapitanlığını (Osmanlı dəniz donanması komandirliyini) vermişdir. Bundan sonra Aralıq dənizi qısa zamanda bir Osmanlı gölü halına gəlmiş, Hind Okeanına belə donanma göndərilərək, oradakı müsəlmanlara kömək edilmişdir.

Barbaros Xeyrəddin Paşa Cəzairdə sultanlıq edə biləcəyi halda bu

***Avropalı bir elçi Macarıstan düzənliklərində cümə fasiləsi verən Osmanlı ordusunun xüşu ilə namaz kılmasını seyr edib, heyrətlər içində qalmış və belə demişdir:***

***"Müntəzəm səflər halında düzülən 50 min adam imamın bir səsi ilə əl bağlayır və bir bir vücud halına gəlirlər. Sonra yenə tək bir səslə 50 min adam birdən Allahın hüzurunda səcdəyə qapanır. Belə böyük bir kütlə qarşısında, pərişan xristian orduları necə dayana bilər?"***[1]

1. Ahmet Ersöz, Eğitimde Depremli Yıllar, İstanbul 1993, s. 70.



*Allah Rəsulu buyurur:*

*“Şeytan insanın qurdudur. Eynilə sürüdən ayrılan qoyunu qapan qurd kimidir. Əsla firqələrə bölünməyin. Camaatdan, toplumdan və məscidlərdən ayrılmayın.”*

*(Əhməd, II, 400; V, 335; Hakim, 1, 73/59)*

haqqından imtina edərək torpaqlarını Osmanlıya qatması ümmətin birlik və bərabərliyinin təmini adına nə möhtəşəm bir iman şüuru və fəzilət tablosudur.

## Məşvərət

Məşvərət bir işə başlamadan əvvəl elminə, təcrübəsinə və əxlaqına güvənilən kəslərlə fikir mübadiləsi etməkdir.

Allah-Təala belə buyurur:

**“...İşdə onlarla məsləhətləş...”** (Ali-İmran, 159)

**“…İşlərini öz aralarında məsləhət-məşvərətlə görərlər...”** (əş-Şura, 38)

Deməli ki, məşvərət müsəlmanların mühüm xüsusiyyətlərindən biridir. Necə ki, **Peyğəmbərimizin** həyatına baxdığımızda Onun hər işində məşvərət etdiyini görürük.

Əbu Hüreyrə ﵁ belə deyir:

*“Rəsulullahdan ﷺ daha çox məşvərət edən bir adam görmədim.”* (Tirmizi, Cihad, 35/1714)



Bir çox ağlın, bir ağıldan daha doğru qərar verəcəyi aşkardır. Rəsulullah ﷺ bu gerçəyi belə bəyan buyurmuşdur:

*“İstixarə edən ziyana düşməz, məşvərət edən peşman olmaz, qənaətcil olan kasıblaşmaz.”* (Heysəmi, II, 280)

Nə qədər ağıllı da olsa, bir insanın hər şeyi bilməsi qeyri-mümkündür. O halda müsəlman bir gənc qarşı-

laşdığı məsələlərdə işin mütəxəssisi ilə məsləhətləşmədən qərar verməməlidir.

Çünki insan ağlı **"ağlı-naqis"** olaraq yad edilir. Bunun mənası: ağlın təkbaşına haqqa və xeyrə çatmağa kifayət etmədiyidir. Ağıllı insanların işlədiyi cinayətlər göz önünə gətirildikdə ağlın təkbaşına insanı səhv hərəkət etməkdən qoruya bilmədiyi aydın olar.

Bu əskikliyi səbəbiylə ağıl digər səlim ağıllarla dəstəklənməlidir. Çünki *"Ağıl ağıldan üstündür."*

Xüsusilə gənclərin dünya görmüş və təcrübəli kəslərlə məşvərət etmələri zəruridir. Çünki **Həzrət Mövlana**nın dediyi kimi:

*"Gənclərin güzgüdə gördüklərindən daha çoxunu qocalar bir kərpic parçasında görərlər."*

Səmimi bir könüllə edilən məşvərət fikirlərinə müraciət edilən insanlara dəyər verməyi də ifadə edir. Beləcə, qarşılıqlı məhəbbət bağlarının qüvvətlənməsinə də vəsilə olar.

Digər tərəfdən, məşvərət edərkən vəziyyət olduğu kimi ortaya qoyulmalıdır. Belə edilmədiyi təqdirdə məşvərətdən səhv nəticələr çıxa bilər.



Lakin məşvərətdə mühüm bir xüsus da vardır: Əhliylə məşvərət etmək… Məşvərət etdiyimiz adam sağlam bir ağla və doğru fikirlərə sahib, eyni zamanda işinin mütəxəssisi olmalıdır.

**Rəsulullah** ﷺ belə buyurmuşdur:

**Həsən Bəsri həzrətləri məşvərət etməyin faydası haqqında:**

**"Vallah, məşvərət edən kəslər şübhəsiz önlərindəki seçimlərin ən yaxşısına istiqamətləndirilərlər." demişdir.**

**(Buxari, əl-Ədəbul-Müfrəd, № 258)**

*"Məşvərət edilən adam etibarlı biri olmalıdır, (doğru olanı gizləyərək yoldaşına xəyanət etməməlidir.)"* (Tirmizi, Ədəb, 57/2822)

Əshabi-kiram:



"-Ya Rəsulallah! Quranda və Sünnədə həllini tapmadığımız bir məsələylə qarşılaşdığımız zaman nə edək?" deyə soruşduqda Allah Rəsulu ﷺ belə cavab vermişdir:

"-Onu fəqihlərdən və salehlərdən sorşun və onlarla məşvərətdən istifadə edin. O mövzuda şəxsi fikirlərinizlə əməl etməyin!" (Heysəmi, I, 178)

***Mövlana həzrətləri belə buyurur:***

***"Hər şeyi anlayan, idrak edən ağıl belə, dostlarından ayrıldığında yayı qırılmış oxçu kimi çaş-baş qalar."***

Fironun məşvərət məclisi mənfəət və fəsad arxasınca qaçan kəslərdən ibarət olduğu üçün şura nəticəsində Həzrət Musa ilə mübarizə qərarı çıxmışdı.[58] Bu talehsiz qərar isə Fironun əbədi həlakına səbəb oldu.

**Həzrət Əli** ؓ Misir valisi **Malik bin Haris əl-Əştərə** göndərdiyi "Əmrnamə"də buyurur ki:

"…Əsla səni çətinlik və kasıblığa düşmə ehtimalıyla qorxudub yaxşılıqdan imtina etdirmək istəyən xəsisi, böyük işlərə qarşı əzmini qıracaq qorxağı və zülmə yönələrək sənə ehtirası gözəl göstərəcək həris birini məşvərət məclisinə daxil etmə! Çünki xəsislik, qorxaqlıq və ehtiras elə pis xasiyyətlərdir ki, bunları ancaq Allah haqqında bəslənən sui-zənn birləşdirər…"

58. Bax. əş-Şüəra, 35-37.

Bu səbəbdən, məşvərət edilən kəslər də, son dərəcə diqqətli davranmalıdırlar. Allah Rəsulu ﷺ belə buyurur:

*"Kiminlə müsəlman qardaşı bir məsələdə məsləhətləşər, onunla müşavirə edər, o da qardaşına səhv yol göstərərsə, ona xəyanət etmiş olar."* (Buxari, əl-Ədəbul-Müfrəd, №: 259)

Xülasə, məşvərət mühüm bir İslami əsas və gözəl bir sünnədir. Elə isə həm dini, həm də dünyəvi işlərdə dünya görüşlü insalnlarla məşvərət edərək hərəkət etmək ən doğru yoldur.

***Hədisi-şərifdə buyurulur:***

***"İstixarə edən ziyana düşməz, məşvərət edən peşman olmaz, qənaətcil olan kasıblaşmaz." (Heysəmi, II, 280)***

## Həzrət Ömərin Məşvərəti

**Həzrət Ömər** رضي الله عنه cəmiyyətlə bağlı məsələlərdə qərar verəcəyi zaman müsəlmanlarla məşvərət edərdi. Gənc-yaşlı bütün alimlər Həzrət Ömərin məşvərət məclisində olardı. (Buxari, Təfsir 7/5, 110/4, Etisam 2)



O, əvvəl məsələni müsəlmanlardan tapa bildiyi insanlarla görüşər, ardınca da qüreyşlilərin fikirini soruşardı. Sonda da səhabələrin fikirlərini alar, beləcə, ən məqsədəuyğun qərarı verərdi.

Həzrət Ömər çətin bir məsələylə qarşılaşdıqda uşaqlarla və gənclərlə də məşvərət edərdi. Beləcə, onların ağıllarından istifadə edərdi. (Beyhəqi, əs-Sünənul-Kübra, X, 113)

Ömər bin Əbdüləziz xəlifə seçildiyində, ilk növbə-



də özünə daim haqqı və xeyri tövsiyə edəcək bir məşvərət heyəti qurmuşdu. Onlar da xəlifəyə xəbərdarlıq və nəsihətləriylə yardım edərdilər. (Bax. Beyhəqi, Kübra, X, 110)

*“Gənclərin güzgüdə gördüklərindən daha çoxunu qocalar bir kərpic parçasında görərlər.”*

*(Həzrət Mövlana)*

## ƏDƏB

Ədəb İslam nəzərində o qədər əhəmiyyətlidir ki, onu qısaca təsvir etmək üçün “İslam ədəbdən ibarətdir.” deyilə bilər. Çünki İslami əmrlərin hamısı eyni zamanda ədəbin tələbləridir. Qadağan edilənlər isə ədəbə müxalif olan şeylərdir.

Möminin ədəb və əxlaqının gözəl olması imanının da son dərəcə qüvvətli olduğunun bir göstəricisidir.[59] Yəni ədəb eyni zamanda kamil imanın güzgüsüdür.

Ədəb gözəl əxlaqın zirvəsidir. Allahın bir kimsəyə verdiyi ən xeyirli və ən qiymətli nemət gözəl əxlaqdır.[60] Qiyamət günü mizanda ən ağır gələcək savab yenə gözəl əxlaqdır.[61] Allah və Rəsulunun ən çox sevdiyi və cənnətdə Peygəmbərimizə ən yaxın olacak kimsələr, əxlaqı gözəl olan ədəbli kimsələrdir.[62] Elə isə gözəl əxlaq əbədi səadətə çatmaları üçün insanlara bəxş edilən bir növ cənnət vizasıdır.[63]

Ədəb heyvani xüsusiyyətlərdən xilas olub insani üstünlüklərlə zinətlənməkdir. Ədəb hər işin üsuludur.

---

59, Bax. Əbu Davud. Sünnə, 15/4682.
60. Bax. İbn Macə, Tibb, 1.
61. Bax. Əbu Davud, Ədəb, 7/4799.
62. Bax. Tirmizi, Birr, 71/2018.
63. Bax. Tirmizi, Birr, 62/2004.

Ədəb nöqsanlığı ilə gerçək insanlıq səviyyəsinə çatmaq, mümkün deyil. Çünki insan bədəniylə deyil, yüksək ruhi xüsusiyyətləriylə insandır. Buna görə **Həzrət Əli**:

***"İnsanın ədəbi, zəhəbindən (qızılından) daha xeyirlidir."***[64] buyurmuşdur.

Ədəb şeytanın düşmənidir. Bu səbəblə övladına ədəb öyrətməyən ata-ana şeytana bir dost qazandırmış olar. Ədəbli insan maddi və mənəvi hər cür bəladan və şeytanın şərindən mühafizə olar. Şair nə gözəl söyləyir:

*Ədəb bir tac imiş nuri Xudadan,*
*Gey o tacı, əmin ol hər bəladan…*

Bunun üçündür ki, əsrlər uzunu təkyə və dərgahların divarlarını bəzəyən xəbərdarlıq lövhələrindən biri də "أَدَبْ يَا هُو: Ədəb ya Hu!.." olmuşdur.

**Süfyan Sevri** buyurur:

"Gözəl ədəb Allah-Təalanın qəzəbini söndürər."

Əxlaqın ən mükəmməli və ədəbin ən üstünü, dində ədəb, yəni Allah-Təalaya qarşı göstərilən ədəbdir ki, təsəvvüfün ən mühüm məqsədi də budur.



Allaha qarşı ədəbdən sonra Onun Rəsuluna göstəriləcək ədəb gəlir. Bu ədəblənmə ustada, ata-anaya, möminlərə və silsilə halında bütün məxluqata uzanar.

**İbn Abbas ﵁ belə buyurur:**

**"Bütün ədəblərin başı həm rahatlıqda, həm də darlıqda Allahın əmrlərinə riayət etmək və qadağanlarından uzaq durmaqdır."**

64. Doç. Dr. Abdülaziz Hatip, *Hz. Ali'den Hikmet Parıltıları*, İstanbul 2006, s. 22.



Əcdadımız sərgilədiyi ədəb, iffət və namus ilə bütün dünyanın heyranlığını qazanmışdır. Necə ki, son dərəcə fanatik bir protestant keşişi olan **Salomon Schweigger**, əcdadımızın ədəb halına dair bir müşahidəsini *Səyahətnaməsində* belə ifadə etmişdir:

“Bunlar hamamda da bir örtü ilə örtünürlər. Nə qədər ədəbli insanlardır. Ədəb və namusu bu barbarlardan öyrənməliyik.” (İlber Ortaylı, *Osmanlını Yenidən Kəşf Etmək,* s. 88)

Müsəlman bir gənc danışmasında, hərəkətlərində, hər cür insani münasibətlərində Peyğəmbərimizin ədəbiylə ədəblənməlidir. **Ənəs bin Malik** ﷺ **Allah Rəsulunun** ədəb və əxlaqını belə izah edir:

“Nəbiyyi-Əkrəm ﷺ əsla təhqir etməz, mübarək ağzından kobud bir söz çıxmaz və lənət etməzdi. Birimizi danlayacaq olduğunda yalnız:

*«-Allah yaxşılığını versin, ona nə olur ki!..»* deyərdi.” (Buxari, Ədəb, 38, 44)

**Həzrət Əli** ﷺ belə buyurur:

“Alçaqca deyilən bir sözə cavab verim demə! Çünki o sözün sahibində onun kimi daha çox nalayiq sözlər var. Sənə yenə onlarla cavab verər.”

***Allah dostları demişlər ki:***

***“İbadət insanı cənnətə aparar, ibadətdə ədəb və təzim isə Allaha aparar, Haqqa yaxınlaşdırar.”***

Mömin bir gənc Quran diliylə danışmalıdır. Kobud və sərt ifadələrdən qaçınmalıdır. Çünki sərt və kobud ifadələr, həmsöhbəti özünə yaxınlaşdırmaqdansa uzaqlaşdırar, fayda verəcək yerdə qarşı cəbhələr açar. Quran diliylə danışmağa dair bir neçə misal belədir:

قَوْلًا لَيِّنًا Zalıma qarşı yumşaq söz,

قَوْلًا مَيْسُورًا Yoxsula qarşı asanlaşdırıcı, sevindirici söz,

قَوْلًا كَرِيمًا Ana-ataya qarşı yaxşılıq dolu və gözəl söz,

قَوْلًا سَدِيدًا Bütün insanlara qarşı doğru və dürüst söz,

قَوْلًا مَعْرُوفًا Yetimlərə və möhtaclara qarşı könül alıcı söz,

قَوْلًا بَلِيغًا İnsanlara doğru və səhvləri izah edərkən açıq, axıcı və hikmətli söz söyləmək...

Allah-Təala belə buyurur:

**“İnsanlara gözəl söz söyləyin!”** (əl-Bəqərə, 83)

**“Qullarıma söylə, sözün ən gözəlini söyləsinlər!”** (əl-İsra, 53)

*Ağlım qəlbimdən "İman nədir?" deyə soruşdu. Qəlbim ağlımın qulağına əyilərək "İman ədəbdən ibarətdir."*

*(Həzrət Mövlama)*

Ədəbi tərk etmək insanı heyvandan da alçaq səviyyəyə salan və nəhayət həlaka sürükləyən böyük bir qəflətdir. Çünki ədəbsizlik dibsiz bir quyu kimidir ki, sonuna çatmaq olmaz. İnsan getdikcə daha dərinlərə doğru batar. Nəfsinin bir istəyini təmin etdikdə, daha irəli və daha pis bir istək ortaya çıxar. Bu minval üzrə insan nəfsinin arxasınca qaçarkən həlak olub gedər. Çünki **Rəsulullah**ın bildirdiyinə görə:

*"Allah-Təala, çirkin hərəkətlər edən, çirkin sözlər söyləyən kimsəyə nifrət edər."* (Tirmizi, Birr, 62/2002)

**Yusif Xas Hacib** belə deyir:

"İnsanlara kobud söz demə! Kobud söz yanan bir atəşdir. Onu ağzından çıxardığında, əvvəlcə özün yanarsan."

Sözün özü, qızıl və gümüşün zənginliyi gedər, lakin ədəbin zənginliyi daim baqi qalar. Bu səbəbdən müsəlman bir gənc hər şeydən əvvəl ədəb qaydalarını öyrənməli, bunlara əhəmiyyət verməli və başqalarına da şəxsən yaşayaraq nümunə olmalıdır.



## GƏNCLİK ENERJİSİNDƏN DOĞRU YERDƏ İSTİFADƏ ETMƏK

Rəbbimizin qullarına lütf etdiyi bütün imkan və nemətlər Onun rəhmət, mərhəmət və sevgisinin aşkar bir nişanəsidir. Bu ilahi ikramlar heç bir əvəz ödəmədən və ya çalışıb

layiq olmadan qullara lütf edilmişdir. Lakin bu vəziyyət nemətlərin heç bir şərtə tabe tutulmadan, istənildiyi kimi istifadə edilə biləcəyi mənasını verməz. Onları Allahın qoyduğu qanunlar daxilində qiymətləndirməliyik.



İnsan oğluna saylı günlər halında lütf edilən ən qiymətli nemət isə gənclikdir. Ağıllı bir insan bu qiymətli və məhdud imkanı ən gözəl şəkildə və dolu keçirməyin yollarını axtarar.

Gəncliyin qiyməti qocalıqda bilinər. Təcrübə sahibi bütün qocaların ittifaqla söylədiyi həqiqət budur:

"Əsla gəncliyinizə aldanmayın! Çünki çox tez keçər."

**İmam Rəbbani həzrətləri** nə gözəl söyləyir:

"Vaxtların ən şərəflisi olan gənclik çağını, ən fəzilətli əməllər üçün xərcləmək lazımdır."

**Mövlana Xalid Bağdadi** tələbələrindən birinə yazdığı məktubunda deyir ki:

"Hər kəs əlindən gəldiyi qədər Rəbbinə yönəlsin!.. Sevdiklərimiz haqqında tələbimiz sabah Haqqın divanında üzlərini ağ edəcək saleh əməllərlə məşğul olmalıdır. Üzləri saraldan o dəhşətli gündən Allah qorusun! Bilin ki, saleh əməl də, pis əməl də onları edənin özünədir."

Axirət gününə iman edən bir müsəlman əməl dəftərini xeyirlərlə doldura bilmək üçün həyat sərmayəsini ən məhsuldar şəkildə istifadə etməlidir. Qarşısına çıxan hər cür xeyir imkanını Allahın lütf etdiyi tapılmaz bir fürsət bilməlidir. İnsanların dinə və xeyirli işlərə iltifatına baxaraq aldanmamalıdır. Bununla

***Mövlana həzrətləri belə buyururr:***

***"İblisin ilahi qapıdan qovulması Haqqın qarşısında ədəbsizcə danışmasındakı cürətindəndir."***

***"Əgər şeytanın başını əzmək istəyirsənsə, gözünü aç və gör; şeytanı qəhr edən, ədəbdir. İnsan oğlunda ədəb olmazsa, o həqiqətdə insan deyil. Çünki insan ilə heyvan arasındakı fərq ədəbdir."***

*Həzrət Ömər ﷺ buyurur:*

*"Dörd şey əsla geri gəlməz:*

*1. Deyilən söz.*

*2. Atılan ox.*

*3. Keçən həyat.*

*4. Əldən verilən fürsət".*

*"Gəncliyini əylənməklə keçirən, qocalığını ağlamaqla keçirər."*

*(A. Fuad Başgil)*



birlikdə qürur və təkəbbürdən də şiddətlə çəkinməlidir. Çünki nəfs və iblis daim; "Sən nə çox xeyir işlədin, kaş ki, hər kəs sənin kimi olaydı!" deyə pıçıldayar.

Haqq-Təala belə buyurur:

**"Bir işi bitirincə dərhal** (başqa) **bir işə başla və yalnız Rəbbinə yönəl!"** (əl-İnşirah, 7-8)

Bir kimsə bəhanəsiz olaraq xeyir işlərdən uzaq qalmağa davam etsə, cənnətə girsə belə çox az xeyrə sahib olacağından, aşağı mərtəbələrdə iştirak edər.[65] Halbuki insan oğlu qiyamət günü ən kiçik bir xeyrə belə möhtac olacaq.

**Rəsulullah** belə buyurmuşdur:

*"Qiyamət günü insanlar səf-səf durarlar. Bu zaman cəhənnəm əhlindən bir adam cənnət əhlindən birinə rast gələr və:*

*«-Ey filankəs! Xatırladınmı sən su istəmişdin, mən sənə bir içimlik su vermişdim?» deyər. Mömin də o kimsəyə şəfaət edər.*

*(Cəhənnəmlik olan bir başqa) kimsə, cənnətlik olan birinin yanına gedər və ona:*

*«-Xatırlayırsanmı, sənə bir gün dəstəmaz suyu vermişdim?» deyə (şəfaət istər. O da xatırlayar) və ona şəfaət edər.*

*Yenə cəhənnəmlik olanlardan biri cənnətlik birinə:*

65. Bax. Əbu Davud, Salət, 232/1108. Qarşılaşdır: Müslim, Salət, 130; Əbu Davud, Salət, 97/680.

*«-Ey filankəs! Məni filan-filan işə göndərdiyin günü xatırlayırsanmı? Mən də o gün sənin üçün getmişdim.» deyər. Cənnətlik olan kimsə də ona şəfaət edər."* (İbn Macə, Ədəb, 8)



Təbii ki, Allah-Təala iradə buyurar və icazə verərsə, möminlərin şəfaəti fayda verər.

Axirət həyatında hansı əməlimizin qurtuluşumuza vəsilə olacağını bilmərik. Bu səbəblə böyük-kiçik demədən hər gözəl əməldən yapışmalı, zamanı yaxşı qiymətləndirməli və dünyadaykən bir az yorulmalıyıq. Necə ki **E. M. Gray** müvəffəqiyyətli insanların ortaq xüsusiyyətlərini araşdırmış və yazdığı məqalədə belə demişdir:

"Müvəffəqiyyətli kəslər müvəffəqiyyətsiz olanların etməyi sevmədiyi şeyləri vərdiş halına gətirmişlər. ***Həyatda müvəffəqiyyətli olmaq böyük ölçüdə vaxtın yaxşı planlanmasına və istifadə edilməsinə bağlıdır.***" (Özcan Xıdır, *Vaxt Dissiplini*, s. 78)

Unutmamaq lazımdır ki, böyük nailiyyətlər həmişə nəfsə ağır gələn səylərin ardında gizlidir. Necə ki, səhabeyi-kiramdan **Əbdürrəhman bin Əvf** ﷺ deyir ki:

"İslam nəfsə xoş gəlməyən çətin əmrlər gətirmişdir. Biz xeyirlərin ən xeyirlisini, nəfslərin xoşlanmadığı bu çətin əmrlərdə tapdıq. Məsələn, Rəsulullah ilə Məkkədən çıxıb hicrət etmişdik. Nəfsimizə çətin gələn bu hicrətimizlə bizə üstünlük və zəfər bəxş olundu. Yenə Allah-Təalanın Qurani-Kərimdə:

**Həzrət Əbu Bəkr buyurmuşdur:**

**"Dünya möminlərin bazarı, gecə ilə gündüz sərmayələri, gözəl əməllər ticarət mallarıdır. Qazancları cənnət, zərərləri isə cəhənnəmdir."**



**«Rəbbin səni bu minvalla haqq-ədalət uğrunda** (Bədrə getmək üçün) **evindən çıxartdı. Halbuki** (bu,) **möminlərdən bir dəstənin xoşuna gəlmirdi. Haqq bəlli olduqdan sonra belə onun barəsində səninlə mübahisə edirdilər, sanki gözləri baxa-baxa ölümə sürüklənirdilər. »** (əl-Ənfal, 5-6) buyuraraq təsvir etdiyi hal üzrə, Allah Rəsuluyla birlikdə Bədrə çıxmışdıq. Allah-Təala burada da bizlər üçün üstünlük və zəfər lütf etmişdi.

Nəhayət biz ən böyük xeyirlərə həmişə nəfsimizə çətin gələn əmrlər sayəsində nail olmuşuq.” (Heysəmi, VII, 26-27)

Mərhum atam **Musa Topbaş** -rəhmətullahi əleyh- belə buyurardı:

*“Bəndəniz, gəncliyimdə saleh insanlarla birlikdə olmağı çox sevərdim. Hər gün mütləq gedib bir az hüzurlarında olardım. Onlar da mənim səmimiyyətimi bildikləri üçün xoş qarşılayardılar. Ən çox **Almalılı Həmdi Əfəndi**nin yanına getdim. O zamanlar 13-15 yaşlarında idim. Ona zamanın əlləməsi deyirdilər. Buna baxmayaraq son dərəcə təvazökar idi. Çox ziyarətçisi olardı…*

*23-25 yaşlarımda ikən iki ilə yaxın **Mustafa Asım Yörük Əfəndi**nin söhbətlərinə davam etdim. Bu şəxs də təvazökarlıqda öndə gedənlərdən idi. Hafizi Quran olduğunu vəfatından bir neçə gün əvvəl öyrəndim.*

***Alim və şair Abbas bin Həsən belə demişdir:***

***“Bilmiş ol ki, zehnin hər şeylə məşğul ola bilməz. Elə isə mühüm olanları ayır! Ayrıca hər kəslə maraqlana bilməzsən, maraq və yönəlişini həqiqət əhli insanlara yönəlt! Həmçinin comərdliyin də hər kəsə kifayət etməz. Onu da fəzilət sahibi insanlara saxla! Davamlı cəhd göstərsən də, gecə ilə gündüz sənin ehtiyaclarını qarşılamağa çatmaz. Bu səbəblə edəcəyin və tərk etməli olduğun işləri bir-birindən yaxşı ayır!..”***

***(Əbu Quddə, Zamanın Qiymәti, s. 88-89)***

*1945-1955-ci illər arasında özünə böyük bir hörmət bəslədiyim Muhaddis **Bəkir Haqqı Yenər Əfəndi**ni tez-tez ziyarət edər, onun sözlərindən böyük bir feyz və həzz alardım. O illərdə Şahzadəbaşı Məscidində vəz edərdi. Elə buna görə də məscid ağzına kimi dolardı.*

*İyirminci əsrin işıq saçan mərkəzlərindən biri də heç şübhə yox ki, Məsnəvi şarihi **Tahirul-Mövləvi Əfəndi** idi… Fürsət düşdükcə o yüksək səviyyəli, əxlaq sahibi şəxsi ziyarət edər, əxlaqi, tarixi və ədəbi söhbətlərindən nəsibimi alardım.*

***Əli Yekta Əfəndi, Ömər Nəsuhi Əfəndi və Əli Fuad Başgil** kimi çox qiymətli alim, fazil və kamil kəslərin də fürsət tapdıqca ziyarətlərinə gedərdim. Hər halda bu şəxslərdən də istifadə etdim."*[66]

Əgər nəsillər sahib olduqları gənclik enerjisini nəfsani arzu və istəklərini təmin yolunda israf etsələr, Allah-Təalanın lütf və rəhmətindən məhrum qalarlar. Belə bir bədbəxtliyə düşən nəsillərin hər baxımdan geri qalacağında heç şübhə yoxdur.

***"Gəncliyin əyləncə zamanı olduğunu zənn edənlər ziyana uğrayanlardır. Gənclik çağı insana əbədi olaraq lazım olacaq möhkəm etiqad və gözəl vərdişlərin qazanılacağı ən məhsuldar vaxtdır."***

### *Dünyanın Bir Günü Axirətin Min İlindən Daha Xeyirlidir*

Dünya qazanma yeri, axirət isə əvəzini alma yeridir. Axirətdə qazanmaq və ya itirmək yoxdur. Bu səbəblə dünyadakı zamanın dəyəri çox böyükdür.



66. Bax. *Allah Dostunun Dünyasından* (Erkam Yayınları) s. 13-14, 36-37, 195-196, 60; Altınoluk, sayı: 162, s. 12, Ağustos-1999; Sadık Dana, İslam Kahramanları, III, 170; *Altınoluk Sohbetleri,* V, 136-140.



**Cüneyd Bağdadi həzrətləri** belə buyurur:

*"Dünyanın bir günü axirətin min ilindən daha xeyirlidir. Çünki qazanc və itirmə bu dünyaya aiddir. Axirətdə artıq qurtuluşa qovuşduracaq bir şey etmə imkanı yoxdur."*

Rəvayət olunur ki, **İlyas** عليه السلام ölüm mələyini görüncə dəhşətlə ürpərmişdi. Əzrail عليه السلام bunun səbəbini maraqlanaraq:

"–Ey Allahın Peyğəmbəri! Ölümdənmi qorxdun?" deyə soruşdu.

İlyas عليه السلام cavab olaraq belə dedi:

"–Xeyr! Ölümdən qorxduğum üçün deyil, dünya həyatına vida edəcəyim üçün bu haldayam… Dünyada Rəbbimə qulluq etməyə, yaxşılıqları əmr edib pisliklərdən uzaqlaşmağa çağırmağa cəhd göstərir, vaxtımı ibadət və saleh əməllərlə keçirirdim. Gözəl əxlaq üzrə yaşamağa çalışırdım. Bu hal mənim fərəh qaynağım olur, könlüm mənəvi feyzlərlə dolurdu. Öldüyümdə bu qazanc və ləzzətlərdən məhrum qalacağım və qiyamətə qədər məzarda girov olacağım üçün kədərlənirəm!"

***"Ata-ananın övladlarını cəhənnəm odundan qoruması dünya atəşindən qorumasından daha mühümdür. Cəhənnəmdən qorumaq da imanı, fərzləri, haramları öyrətməklə, ibadətə alışdırmaqla və dinsiz, əxlaqsız yoldaşlardan qorumaqla mümkündür. Bütün pisliklərin başı pis yoldaşdır."***

***(Musa Əfəndi –quddisə sirruh-)***

## *Xeyirdə Tələsmək*

Xeyir işlərdə tələsmək kamil bir mömin olmağın əlamətidir. **Mövlana həzrətləri** nə gözəl buyurur:

*"İbadətlərin qəbul ediliş əlamətləri, o ibadətlərdən sonra dərhal başqa ibadətlərə girişmək, bir-birinin ardınca xeyrlərə tələsməkdir."*

Bir xeyrin şərəfi gecikdirilmədən edilməsindədir. Bu barədə verəcəyimiz misal nə qədər ibrətlidir:

**Rəsulullah** ﷺ Bədirdə səhabələrini cihada təşviq etmiş və onlara cənnəti vəd etmişdi. Düşmən yaxınlaşdıqda da:

*"-Haydı, genişliyi səmavat və ərz qədər olan cənnət üçün qalxın!"* buyurmuşdu. Bunun üzərinə **Ümeyr bin Hümam** ؓ atılaraq:

"-Ey Allahın Rəsulu! «Genişliyi səmavat və ərz qədər olan cənnət» mi buyurdunuz?" dedi. Rəsulullah:

*"-Bəli!"* buyurunca da:

"-Nə yaxşı, nə əla!" dedi. Peyğəmbəimiz ﷺ soruşdu:

*"-Nə üçün elə söylədin?"*

Ümeyr ؓ:

"-Vallah ya Rəsulallah, başqa bir şey üçün deyil, yalnız cənnət əhlindən olmaq üçün belə söylədim." dedi.

Bunun üzərinə Allah Rəsulu  ona:

*"-Sən cənnət əhlindənsən!"* müjdəsini verdi.

Ümeyr cihada güc əldə edərək girmək üçün torbasından bir neçə xurma çıxarıb yeməyə başladı. Ancaq gecikməyə daha çox səbir edə bilməyərək:

"-Bu xurmaları yeyənə qədər yaşayacaq olsam, bu, həqiqətən uzun bir həyat olacaq. Xurma-

***Rəsulullah ﷺ buyurur:***

***"Axirətin aynında dünyanın vəziyyəti sizdən birinin barmağını dənizə salıb çıxarması kimidir. Barmağı (dənizdən) nə çıxara bilərsə (axirətin yanında) dünya odur."***

***(Hakim, Müstədrək, 4/319)***



lar bitənə qədər burada otursam, dünyaya qarşı çox ehtiras göstərmiş olaram!” dedi və əlindəki xurmaları ataraq qılıncını çəkib düşmənlə döyüşdü. Nəhayət şəhidlik mərtəbəsinə nail oldu. (Bax. Buxari, Məğazi, 17; Müslim, İmarət, 145; Muvatta, Cihad 42)

Əməl dəftərini xeyirli əməllərlə doldurub cənnətdə yüksək bir mövqeyə nail olmaq istəyən mömin tələsməli və vaxtını yaxşı qiymətləndirməlidir. İmkanı nisbətində gücünün çatdığı hər xeyri işləməyə cəhd göstərməlidir. Ancaq xeyirdə yarışarkən saleh əməlləri tələsiyə salıb onları qüsurlu və



***Bir dərviş Həsən Bəsri həzrətlərindən bir şey istəmişdi. O da dərhal ayağa qalxıb köynəyini çıxardıb dərvişə verdi.***
***“-Əfəndim evə gedib oradan nə isə versəydiniz olmazdımı?!” dedilər.***
***Həzrət bu cavabı verdi:***
***“-Bir dəfə ehtiyac sahibi biri məscidə gəlib; «Qarnım acdır!» demişdi. Biz qəflət edib dərhal yemək gətirmədik. Səhər namazına gəldiyimizdə bir də baxdıq ki, zavallı ölüb. Kəfənləyib dəfn etdik. Ertəsi gün həmin adamı sarıdığımız kəfən mehrabda gözümüzün önünəgəldi və üzərində; «Kəfəninizi alın, Allah qəbul etmədi!» yazıldığını gördük. Məhz həmin gün:***
***«Bundan sonra bir ehtiyac sahibini gördüyümdə onu gözlətməyəcəyəm, dərhal ehtiyacını ödəyəcəyəm.» deyə and içdim.”[1]***

1. Bax. Darır Mustafa Efendi, *Yüz Hadis Yüz Hikaye,* İstanbul 2001, s. 157.



nöqsanlı etmək də doğru deyil. Çünki Allah edilən hər işin düz və möhkəm olmasını sevər. Necə ki, məşhur alim **Əliyyul-Qari** bu xüsusda belə şərh edər:

"Allahın əmrlərinə yönəlmə barəsində tələsməklə onları yerinə yetirərkən tələsmək arasında böyük fərq var. Bunlardan birincisi gözəl və mədh edilmiş, ikincisi isə pislənmişdir."

***"Ölüm mələyi qafil zənginin canını almaqla onu yuxudan oyandırır. O adam əslində sahib olmadığı mal üçün dünyada çəkdiyi əziyyətlərə peşman alar. Lakin iş-işdən keçmiş, hər şey bitmişdir."***

***(Həzrət Mövlana)***

### *Ölənədək Çalışmaq*

Mömin son dayanacağı cənnət olana qədər heç bir xeyirdən doymaz. Ayeyi-kərimədə buyurulur:

**"Sənə yəqin (ölüm) gələnə qədər Rəbbinə ibadət et!"** (əl-Hicr, 99)

Bu şüurla yaşayan möminlər üçün ömrün hər anı Allah yolunda xidmət və səy vaxtıdır. Verəcəyimiz misal bu həqiqəti nə gözəl izah etməkdədir:

Dövründəki saysız səfər və futuhatın çoxunda şəxsən komandirlik edən **Qanuni Sultan Süleyman** son səfəri olan Zigetvara çıxacağı zaman **Sədrəzəm Sokullu** belə dedi:

"-Sultanım ümmətə saysız zəfərlər hədiyyə etdiniz! Yoruldunuz! Ömrünüzü aləmi İslama vəqf etdiniz! Bu səfərin məşəqqətinə bu yaşda dözməyiniz müşküldür. Bu səbəblə siz İstanbulda qalın. Mən, vəzirlər və paşalar səfərdə iştirak edərik. Gözünüz arxada qalmasın!.."



Ulu Xaqan Qanuni, Sokulluya bu cavabı verdi:

"-Yaxşı dinlə Sokullu! Bu vəsiyyətimi məndən sonra gələcək nəslə də ötür! Bir padşah daim əsgərləri ilə birlikdə səfərə çıxmalıdır. Əsgər padşahını yanında gördükdə şücaəti artar! Düşmən isə padşah səfərdə iştirak etdiyi üçün qarşısındakı ordunu daha güclü görər. Mənəvi cəsarəti pozular, əzmi qırılar. Döyüşü qazandıran əsl səbəb, mənəvi qüvvətdir! Bizim uşaq yaşımızdan bəri dövlət idarəsində saysız təcrübəmiz var. Səfərlərdə bu təcrübəyə ehtiyac hiss edilə bilər. Anlar, dəqiqələr çox vaxt qədərin axışını təyin edər. Bu səbəblə, yaşlı olmama baxmayaraq səfərdə iştirak edəcəyəm!.. ***Sarayda qalıb başım yastıqda ölsəm, sabah məhşər günündə fateh babalarımın hüzuruna necə çıxa bilərəm?!.***"

***Hədisi-şərifdə buyurulur:***

***"Mömin sonda gedəcəyi yer cənnət olana qədər eşitdiyi hər hansı bir xeyirli işdən əsla doymaz."***

***(Tirmizi, elm, 19/2686)***

Qanuni yaşının xeyli irəliləməsinə baxmayaraq, bu düşüncələrlə ordusunun başında səfərə çıxdı. Səfər əsnasında bir ara top arabaları bataqlığa batdı. Heyvanların fiziki gücü, topları bataqlıqdan çıxarmağa kifayət etmədi. Ordu irəliləmişdi; o ətrafda az sayda əsgər və paşalar vardı. Sultan əmr verdi:

*"-Bütün yüksək rütbəli ərkan bataqlığa girsin, top arabalarına çiyin versin!.."*

Bütün paşalar bataqlığa girdi. Top arabalari o mənəvi həyəcan ilə bataqlıqdan çıxarıldı…

Möhtəşəm Süleyman bu səfər əsnasında vəfat edərək şəhidlik şərəfinə nail oldu.

## *Tarixə Nəqş Olan Fəzilətli Ölümlər*

Hədisi şərifdə buyurulur:

*“Necə yaşasanız elə ölərsiniz, necə ölsəniz elə dirilərsiniz!..”* (Münavi, Feyzul-Qadir, V, 663)

Həyatlarını bu şüurla qiymətləndirə bilən örnək möminlərin tarixə nəqş olmuş ibrət və hikmət dolu vəfatlarından bir neçə misal:

İslam tarixinə saysız zəfərlər hədiyyə edən, Mutə günü əlində doqquz qılınc parçalanan,[67] üç min nəfərlik İslam ordusuyla yüz min nəfərlik düşmənin gözünü qorxudan, Yərmukda dastanlar yazan, Suriya fatehi, nəbəvi ifadəylə “Allahın qılıncı” olan **Xalid bin Vəlid** رضي الله عنه hicri 21-ci ildə Xumusda xəstələnmişdi. Yanında silahdaşları vardı. Vəfat edəcəyi sırada qılıncını istədi. Qəbzəsindən tutaraq şəfqətlə oxşadı. Sonra:

“-Əlimdə neçə-neçə qılınc parçalandı. Bu ölümümü görəcək olan son qılıncımdır. Məni ən çox üzən; həyatı həmişə döyüş meydanlarında keçib yataq üzü görməmiş olan bu Xalidin yataqda ölməsidir. Rəsulullahın heç bir səhabələri rahat yatağında ölmədi; ya hərb meydanlarında və ya uzaq diyarlarda dini yayarkən qürbətdə şəhid oldu.

Ah Xalid! Şəhid ola bilməyən Xalid! Hərb mənim ətimi çeynəyə bilmədi. Şəhidlik mərtəbəsi xaric, əldə etmədiyim mövqe qalmadı. Bədənimdə bir qarış yer yoxdur ki, ya qılınc və ya bir mizraq yarası olmasın. Ömrü boyunca İslamı yaymaq üçün döyüşlərdə at

***Bu dünyadan gedənlər istər kölə, istər şah kimi getsinlər, oradakı bütün sərmayələri nə aparmışlarsa odur. Ora sapla samanın ayrıldığı, neçə-neçə məhrumların xəzinələr qovuşub, neçə-neçə qafil zənginlərin də əbədiyyət fəqiri və məhşər dilənçisi olduğu yerdir. Orada yalnız Haqqa sadiq qulların sədaqətlərinin və səlim qəlblərinin faydası var.***



67. Bax. Buxari, Məğazi, 44.



çapan kimsənin sonu belə yataq üzərindəmi olacaq?!

Ölümümü hərb meydanlarında, atımın üzərində, düşmənə Allah üçün qılınc çalarkən şəhid olaraq gözləyirdim.” dedi…

Sonra:

“-Vəsiyyətimi deyirəm, məni ayağa qaldırın.” dedikdə ayağa qaldırdılar.

“-Məni buraxın, indiyə qədər daşıdığım qılıncım artıq məni saxlasın.” deyərək qılıncına söykəndi.

“-Ölümü döyüşdə olduğu kimi ayaq üstə qarşılayacağam. Öldüyüm zaman atımı, müharibələrdə təhlükələrə dala bilən bir igidə verin. Atım və qılıncımdan başqa bir şeyə sahib olmadan öləcəyəm. Məzarımı bu qılıncımla qazın. Qəhrəmanlar qılınc cingiltisindən zövq alarlar.” buyurdu və yatağına düşüb kəlmeyi-şəhadət gətirərək ruhunu təslim etdi.[68]

***Hədisi şərifdə buyurulur:***

***“Allah-Təaladan bütün qəlbiylə şəhidlik istəyən kəs yatağında da ölsə Allah ona şəhidlik mərtəbəsi ehsan edər.”***

***(Müslim, İmarə, 157; Nəsai, Cihad, 36)***

Xalid bin Vəlidin oğlu Əbdürrəhmanın komandanlığındakı ordusu **Allah Rəsulu**nun:

*“Şübhəsiz ki, İstanbul fəth olunacaqdır. Onu fəth edən komandir nə gözəl komandir, onu fəth edən əsgər nə gözəl əsgərdir”*[69] müjdə və iltifatına nail olmaq ümidiylə yürüşə çıxmışdı.

Allah Rəsulunu altı ay qədər evində qonaq edən, Onunla birlikdə bütün döyüşlərdə iştirak edən, həyatı boyunca Allah yolundakı heç bir xidmətdən geri qal-

68. Bax. Sadık Dana, *İslam Qəhrəmanları*, c. 1, s. 68-69, Ərkam Yayınları, İstanbul, 1990.
69. Əhməd, IV, 335; Hakim, IV, 468/8300.

mayan **Əbu Əyyub əl-Ənsari** də ﵁ yaşının çoxluğuna baxmayaraq orduda idi. Çünki bu seçilmiş səhabə heç bir zaman əməllərini kifayət görməyəcək qədər yüksək bir qulluq məsuliyyətinə sahib idi. Səksən yaşında olmasına baxmayaraq, böyük bir iman həyəcanıyla, həm də ikinci dəfə Konstantiniyyə səfərinə qatıldı. Bu məşəqqətli səfərdə xəstələndi. Vəfatı yaxınlaşınca da əsgər yoldaşlarına belə dedi:



“-Əgər ölsəm məni özünüzlə götürün və Rum torpaqlarına doğru gedə bildiyiniz ən son nöqtəyə aparın. Düşmənlə qarşılaşıb artıq irəliləyə bilməz vəziyyətə gəldiyinizdə məni oraya, ayaqlarınızın altına dəfn edin!..” (Bax. Əhməd, V, 419, 416)

Nəhayət Əyyub Sultan bu səfərdə vəfat edib şəhid olaraq gələcək fəthin ilk əsgərlərindən olma bəxtiyarlığına nail oldu. Vəsiyyəti üzərinə də surların yaxınlığında, bu gün öz adıyla xatırlanan Əyyub səmtinə dəfn edildi. Beləcə həyatı boyunca Allah yolunda xidmətə can atdığı kimi, vəfatından sonra da qəbriylə arxasından gələcək olan İslam əsgərlərinə daha irəliyə gedə bilmələri üçün hədəf göstərərək xidmətinə davam etdi.

❀

Allah yolunda xidmətə əzm etmək üçün iman həyəcanının son nəfəsə qədər canlı qalması zəruridir. Bunun üçün qəlbin daim Allahla birgə olması lazımdır. Əsri-səadətdən sonra İslamın ən şanlı dövrünü təşkil edən əcdadımız Osmanlının yüksəliş mərhələsində padşahından əsgərinə qədər bütün cəmiyyətdə bu ruh həyəcanı yüksək sə-

***Fateh Sultan Mehmed xanın səfərlər və zəfərlərlə dolu ömrü, yenə bir səfər əsnasında sona çatdı. Üç yüz minlik bir orduyla yola çıxmışdı. Heç kim haraya getdiyini bilmirdi. Ancaq yolun başında ikən zəhərləndi və Gəbzədə vəfat etdi. Həzrət Peyğəmbərin müjdəsindən əlavə şəhadət mərtəbəsinə də qovuşdu.***

viyyədə yaşanmaqda idi. Cəngavər padşah Yavuzun halı bu həqiqətin aşkar bir misalıdır.

**Yavuz Sultan Səlim** Misir səfərindən qayıtdıqdan sonra 1520-ci ildə yeni bir səfərə hazırlanmaq üçün Ədirnə istiqamətində yola çıxar. Atasının vəfat etdiyi Uğraş kəndinə gəlir. Orada, kürəyinə çıxan bir çibanı, xəbərdarlıqlara baxmayaraq qoparıb qanadır.

Bu hadisəni Yavuzun nədimi olan Həsən Can belə danışır:

"Kürəyində şirpəncə adı verilən bir çiban çıxmışdı. Çiban qısa zamanda böyüdü, bir dəlik halına gəldi. Yaranın içindən Yavuzun ciyərini görürdük. Çox iztirab çəkirdi. Yaralı bir aslan kimi idi. Acizliyi heç cür həzm edə bilmirdi. Cəngavərlərinə təlim keçməyə davam edirdi. Yanına yaxınlaşdım. Mənə öz halını nəzərdə tutaraq:

«-Həsən Can, bu nə haldır?» dedi.

Mən də artıq fani səfərin sonuna gəlmiş, baqi həyatın başına çatmış olduğunu sezdiyim üçün ürəyimi yaxan ayrılıq hüznüylə:

«-Padşahım, artıq Allah-Təala ilə birgə olmaq zamanınız gəldi hər halda!» dedim. Böyük Sultan çevrildi, heyrətlə üzümə baxdı:



**«-Həsən, Həsən! Sən məni bu ana qədər kiminlə birlikdə zənn edirdin?! Allahla yaxınlığımda yoxsa bir qüsur müşahidə etdin?!»** dedi.

Bu sözlər qarşısında xəcalətlə:

*Ey şəhid oğlu şəhid! İstəmə məndən məqbər;*
*Sənə ağuşunu açmış duruyor Peyğəmbər!..*

*(Mehmed Akif Ersoy)*

«-Haşa Sultanım! Elə demək istəmədim. Yalnız içində olduğunuz zamanın digərlərindən fərqli olduğunu bəyan üçün söylədim.» dedim.

Böyük Sultan artıq tam fərqli aləmlərə dalmış vəziyyətdə mənə son xitabı olaraq:

**«-Həsən! Sureyi-Yasini oxu!»** dedi.

Nəmli gözlərlə oxumağa başladım. «Salam» ayəsinə gəldiyim zaman əziz ruhunu Rəbbinə təslim etdi.”



*Cəngavər Sultan Yavuzu qorxunc Sina səhrasında bir aslan, Misirə girdiyi zaman mütəvazi, gözü yaşlı, şükür edən bir mömin, Üsküdarda özünü nəfs hesabına çəkərək istiqamətləndirən bir dərviş olaraq görürük.*

Ölümü bir xüsran olmaqdan qurtarıb zəfərə çevirə bilmək, onu matəm deyil, bir “Şəbi arus” halına gətirmək, ölümə hazırlanıb ölməyi bilənlərin karıdır. Bu istiqamətdə yaşanmış feyizli bir həyatın ardından Rəbbinə qovuşan bəxtiyarlardan, şanlı tariximizə bənzərsiz bir xatirə hədiyyə etmiş nümunə bir şəxsiyyət də **Zabit Müzəffər** adlı mehmetcikdir.

Çanaqqala hərbində göstərdiyi müstəsna səylərlə böyük faydası toxunan, sinəsi imanla dolu olan bu gənc Çanaqqala hərbindən sonra da dayanmamış, vətən müdafiəsi üçün bu dəfə şərq cəbhəsinə getmişdi. Qanlı döyüşdə ağır şəkildə yaralandı. Ardından gələcək nəslə, ikinci və ülvi bir xatirə daha buraxaraq şəhadət şərbətini içdi. Belə ki:

Atəş xəttində vuruşan və vəzifəsi başında şəhid olan Zabit Müzəffər Bəy, son nəfəsində artıq səsinin çıxmadığı və gözlərinin bir şey izah edə bilmədiyi dəqiqədə cibindən bir zərf çıxardı; sonra yerdən bir çöp



götürərək yarasından axan qanlara batırıb yazmağa başladı:

**"-Əsgər! Qiblə hansı tərəfdədir?!."**

Ətrafındakılar ruhunu beytullaha yönələrək Allaha təslim etmək istəyən Müzəffər Bəyi qibləyə çevirərək onun bu son arzusunu yerinə yetirdilər. Üzü vüslət sevinciylə gülən zabit əziz ruhunu Rəbbinə təslim etdi.

***Ölümü yox olmaqdan çıxarıb zəfərə çevirə bilmək, onu matəm deyil, şəbi-arus/toy gecəsi halına gətirə bilmək ölümdən sonra arzu edilən ünvana hazırlanıb ölənlərin işidir…***

Bir bəndə ömrü boyunca hansı peşə ilə məşğul olursa olsun, qiblə istiqamətindən ayrılmamışsa, son dəmində də Allah ona bir vəsilə ilə qibləni tapmağı nəsib edər. İş həyatında, ailə yuvasında, bəşəri münasibətlərində, qulluq məsuliyyətlərində, Quran və Sünnə istiqamətində yaşayıb kəlmeyi-tövhid çərçivəsində qibləni tapmış olanlar ümumiyyətlə son nəfəslərində də qiblə yönünə daxil olarlar.

## Böyük İdeallara Sahib Olmaq

Bir müsəlman daim böyük ideallara sahib olmalı və onları reallaşdırmaq üçün çalışmalıdır. Hədəfinə çata bilməsə də Allah-Təalanın ona əməklərinin mükafatını mütləq lütf edəcəyini bilməlidir.

**Həzrət Osman** ﵁ komandirlərinə Cəbəlütariqi keçərək Əndəlüsə girmə əmrini vermişdi. Çünki o, İstanbulu qərb tərəfdən sıxışdırıb fəthi asanlaşdırmağı düşünürdü. Necə ki, Əndəlüs səfərinə qatılanlara bu məktubu yazmışdı:

*"İstanbul ancaq Əndəlüs tərəfindən fəth edilə bilər. Əgər Əndəlüsü fəth etsəniz, axır zamanda İstanbu-*

*lu fəth edənlərin əcrinə siz də ortaq olarsınız. Vəs-saləm."*[70]



Beləcə, Həzrət Osman zamanında Şimali Afrikadakı fəthlər tamamlanmış, İslamın qarşısındakı ən böyük güc olan Bizans qərbdən sıxışdırılmağa başlanmışdı.

Tabiundan **Uqbə bin Nafi** Əməvilər zamanında Afrikaya göndərilmişdi. Uqbə Qayravan bölgəsini zəbt etdi. Züheyr bin Qaysı oraya idarəçi təyin etdi və ona:

***"-Mən nəfsimi Allaha satdım. Bu səbəblə Onu inkar edənlərlə cihad etməyə sonsuza qədər davam edəcəyəm!"*** dedi və özündən sonra edilməsini istədiyi şeyləri vəsiyyət etdi.

Uqbə ﷺ fütuhata davam edərkən qarşısına dəniz əngəli çıxdı. Atını dənizə sürüb:

***"-Ya Rəbbi! Bu böyük dəniz olmasaydı Sənin yolunda cihad edərək önümdəki diyarlarda irəliləməyə davam edərdim!"*** dedi. (Bax. İbnul-Əsir, əl-Kamil fit-Tarix, IV, 105-106).

Osmanlı tarixinin bənzərsiz sultanlarından biri olan **Sultan Səlim Xan**, 10 Sentyabr 1517-ci ildə Qahirədən İstanbula qayıdarkən, tarixə keçən bu sözüylə, kamil bir mömindəki idealar və hədəflərin geniş üfüqünü göstərirdi:

***"-Könül istər ki, Afrikanın şimalından Əndəlüsə çıxım və sonra Balkanlar üzərindən təkrar İstanbula qayıdım!"***

***"Ölməyə dəyər bir məqsədi olmayan insanın, yaşamağa dəyər məqsədi də olmaz."***

70. İbn Kəsir, *əl-Bidayə*, VII, 144; İbnul-Əsir, *əl-Kamil,* III, 93; Məhəmməd Həmidullah, "Fethul-Əndəlus (İspaniya) fi Xilafəti Seyyidinə Osman sənə 27 lil-Hicrə", İ.Ü. Ed. Fak. İslam Tetkikleri Enstitüsü Dergisi, İstanbul 1978, VII, 221-225.



*“Ən böyük müvəffəqiyyətlər böyük və müsbət xəyallar qura bilən kəslər tərəfindən əldə edilmişdir.”*

Misir səfərindən sonra Hindistan və Uzaq şərq müsəlmanlarıyla da maraqlanmağa başlayan Yavuz sədrəzəm **Piri Məhməd Paşa**nı yanına çağırmış və sonradan açılmış olan Süveyş Kanalının olduğu yerə işarətlə:

***“-Buradan Aralıq dənizini Qırmızı dənizə bağlayar və dəryadan Hindistana gedərəm!”*** demişdir.

Bu sözüylə portuqaliyalıların Hindistandakı müsəlmanlara etdiyi zülmə mane olmaq niyyətini sərgiləyən Yavuz bu yolda müxtəlif hazırlıqlar da etmişdi. Hətta Piri Paşa tərəfindən fəth üçün lazımlı olan toplar da tökdürülmüşdü.

Cahangir Padşah bir gün yer üzünün genişliyi ilə maraqlanmışdı. Ona bir dünya xəritəsi gətirdilər. Heyrətlə və kiçik hesab edərək baxdı:

***“-Bir hökmdar üçün nə isə! Amma iki hökmdar üçün azdır!”*** deyərək, xəritəni atının ayaqları altına atdı və atını həyəcanla şahə qaldırdı.

Burada onu da ifadə edək ki, fəthlər torpaqları qanla sulamaq üçün edilsə, bu bir cinayət olar. Qılınc təkbaşına bir dəmir parçasıdır. Ülvi bir məqsəd üçün istifadə edilməyən bir qılıncla fəth olmaz. Qılınc ancaq zülmü ortadan qaldırmaq və hidayətlərin yolunu açmaq üçün istifadə edilər. Gerçək fəth ürəklərin fəthidir.

## Xidmət

Gənclik enerjisinin istifadə edilə biləcəyi ən gözəl sahələrdən biri də Allah rizası üçün ediləcək xidmətlərdir. Xidmət Allahın bizləri məsul etdiyi ictimai qulluq vəzifəmizdir. Mömінin həyatı bütün yaradılmışlara xidmət sayəsində bərəkət, məna dərinliyi və ülviyyət qazanar. Həqiqi səadət Allah üçün başqalarına xidmət etməklə qazanılar.

Allah biz qullarına saysız nemətlər bəxş etmişdir. Bu nemətlərlə məxluqatına xidmət etməmizi arzu etməkdədir. Özlərinə lütf edilən nemət və imkanlara baxmayaraq, yalnız öz rahatılığını düşünərək xidmətə can atmayanlar, meyvəsiz bir ağaca bənzəyərlər.

Allah-Təala xidmətə böyük bir sirr lütf etmişdir. Allaha ibadət etmək üçün yaradılan insana xidmət bir növ Allaha ibadət mövqeyindədir.

Allah-Təala dininə xidmət edən və qullarının çətinliklərinə çarə olmağa çalışan kəslərin şəxsi çətinliklərinə zamin olar. Bütün məşğuliyyəti öz dərdindən ibarət olanları isə dərdləriylə baş-başa qoyar.

Allah yolunda edilməsi lazım olan bir xidmətdən geri qalmaq, insanın mənən həlakına da səbəb ola bilər. Necə ki, **Əbu Heysəmə** رضي الله عنه Təbuk səfərinin çətinliyi səbəbiylə başlanğıcda Mədinədə qalmış, yola çıxan İslam ordusuna qoşulmamışdı.



*Asara sorarsan, məni söylər sənə kimdi?*
*Bir başqa dənizdim, kürənin rübü mənimdi!..*
…
*Asar əlimin çəkdiyi məcradan axardı,*
*Üç qitədə məğrur atımın izləri vardı…*
…
*Dünya bilir iclalımı, mən böylə deyildim!*
*Mən altı əsrdən bəri bir dəfə əyildim!..*

*(Mithat Cəmal Kuntay)*



Bir gün bağçasındakı çardaqda ailəsi ona süfrə hazırlamışdı. Əbu Heysəmə bu mənzərəni görüb bir an Allah Rəsulu və səhabələrinin nə halda olduğunu düşündü. Qəlbi sızladı və öz-özünə:

“-Onlar bu istidə Allah yolunda çətinliklərə dözərkən, bu mənim etdiyim nə qədər doğrudur?!” dedi.

Bu peşmançılıqla süfrəyə əlini də uzatmadan dərhal yola düşdü, Təbukda İslam ordusuna çatdı.

*Şeyx Sədi xidməti nemət bilməyi nə gözəl ifadə edir:*

*“Səni xeyir iş görməyə nail etdiyi üçün Allaha şükür et. Çünki Allah səni lütf və ehsanyla boş qoymadı. Padşaha xidmət edən ona minnət edə bilməz. Əksinə səni işlətdiyi üçün sən ona minnətdar ol!”*

Əbu Heysəmənin gəldiyini görən Allah Rəsulu onun bu davranışından məmnun oldu və:

***“-Ya Əba Heysəmə! Az qalsın həlak olacaqdın!..”*** buyurdu. Onun əfvi üçün Allaha dua etdi. (İbn Hişam, IV, 174; Vaqidi, III, 998)

Allah yolunda çalışmaq hər kəsin imkan və qabiliyyətinə görə dəyişə bilər. Hər kəs eyni şeydən məsul deyil. Kimi malıyla, kimi canıyla, kimi elmiylə, kimi danışmasıyla, kimi də bədən gücüylə əlindən gəldiyi qədər Allah yolunda çalışmalıdır.

**Fateh Sultan Mehmed**in həyatı xidmət barəsində gənclərin nümunə götürə biləcəyi ən gözəl örnəklərdən biridir. Uşaqlığından etibarən ağlı və ruhu daim fəth planlarıyla yoğrulan böyük sultan min bir əziyyət və məşəqqətlə dolu 53 günlük möhtəşəm bir mühasirənin ardından İstanbulu fəth etmişdir.

Fəthdən sonra böyük bir resmi parad tərtib edilmiş, Okmeydanında ox atışı müsabiqələri keçiril-

mişdir. Bu mərasim üç gün davam etdi. Fateh əsgərlərinə verdiyi ziyafətdə **Rəsulullahın** ﷺ: *"Bir qövmün rəhbəri, onlara xidmət edəndir."*[71] hədisi-şərifini oxuyaraq şəxsən özü xidmət etdi. Sonra bir çox hədiyyə payladı. O gün **Ağşəmsəddin həzrətləri** ayağa qalxaraq belə xitab etdi:

"–Ey qəhrəman İslam əsgərləri! Yaxşı bilin ki, Allah Rəsulunun bu hədisi-şərifi sizin haqqınızda varid olmuşdur:

*«Konstantiniyyə əlbəttə fəth olunacaq; onu fəth edən komandir nə gözəl komandir, onu fəth edən əsgər nə gözəl əsgərdir!»* (Əhməd, IV, 335; Hakim, IV, 468/8300)

Əldə etdiyiniz qənimətləri israf etməyin, xeyrə və yaxşı yerlərə sərf edin! Bu məmləkət

71. Beyhəqi, *Şuab,* I, 334; VI, 334; Deyləmi, *Müsnəd,* II, 324;



***Məscidi-Nəbəvi tikilərkən hər kəs kərpicləri bir-bir daşıyır, Ammar bin Yasir*** ؓ ***isə biri özü, digəri də Peyğəmbərimiz üçün olmaq üzrə iki-iki daşıyırdı. Allah Rəsulu (s.ə.s) onu görüncə, üzərindəki tozları silkələyərək:***

***"–Ey Ammar! Sən kərpicləri nə üçün yoldaşların kimi bir-bir daşımırsan?" deyə soruşdu. O da:***

***"–Allahdan, bunun əcrini gözləyirəm!" dedi. Bunun üzərinə, Peyğəmbərimiz onun kürəyini sıvazladı və:***

***"–Ey Süməyyənin oğlu! Digər insanlar üçün bir əcr var, sənin üçün isə iki əcr!" buyurdu.***

***(Əhməd, III, 91; İbn Kəsir, əl-Bidayə, III, 256)***



xalqına infaq edin! Sultanınızın sözlərini dinləyib ona itaət edin!”

Sonra Sultan Fatehə dönərək:

***“-Hökmdarım! Osmanlıların göz bəbəyi oldun! Allah yolunda həmişə belə mücahid olaraq yaşa!”*** deyərək yüksək səslə təkbir gətirdi.[72]

Bu böyük zəfər Fatehi heç bir zaman tənbəlliyə sürükləmədi. İstanbulda 18 gün qalıb şəhərdəki asayişi təmin etdikdən sonra bir başqa fəth xəyalını gerçəkləşdirmək üçün təkrar səfərə çıxdı.

Fateh Sultan Mehmed 32 illik padşahlıq müddətində İstanbulda ancaq bir neçə ay qalmış, geri qalan ömürünü səfərdən-səfərə getməklə keçirmişdir. Nəticədə təxminən 200 qala, 14 dövlət və 2 imperatorluq fəth etmişdir.

Bu hadisə də onun Allah yolundakı səy və əzminin təməlində yatan ruh həyəcanını nə gözəl əks etdirməkdədir:

Sultan Fateh **Trabzon Rum İmperatorluğu** üzərinə səfərə çıxmışdı. Şəhərə arxadan girmək üçün dağlıq və meşəlik bir ərazidən keçilirdi. Bəzən baltaçılar öndən yol açırdılar. Yolun pis bir yerində Fatehin atı büdrədi. Fateh bir qayadan yapışmağa çalışarkən əlləri qanadı. Bu halı müşahidə edən yanındakı Uzun Həsənin anası **Sara Xatın**, tam fürsət yetişdiyini düşünərək:

***Həzrət Peyğəmbər buyurur:***

***“Bir qövmün rəhbəri onlara xidmət edəndir.”*** ***(Beyhəqi, Şuab, 1, 334)***

***Xiddmət mərhəmətin təzahürüdür. İmanın ən böyük meyvəsi olan mərhəmət isə əldə olanı məhrumlarla paylaşmağı və onların ehtiyaclarını ödəməyə çalışmağı zəruri edir.***

72. Mustafa Runyun - Osman Keskioğlu, *Fatih Devrinde İlim ve O devirde Yetişen İlim Adamları*, s. 18-19.

“-Oğul! Xan oğlu xansan! Uca bir hökmdarsan! Trabzon kimi kiçik bir qala üçün bu qədər məşəqqətə məruz qalmağın rəvadırmı?” dedi.

Uzun Həsən Trabzon Rum İmperatorluğu ilə qohumluq qurmuş və buna görə anasını, bu səfərdən imtina etməsi üçün Fatehin yanına göndərmişdi. Fateh əlləri sıyrıqlarla dolu olduğu halda ona bu möhtəşəm cavabı verdi:

*“-Ey ana! Bilməzsənmi ki, əlimizdə tutduğumuz İslamın qılıncıdır. Sən zənn etmə ki, çəkdiyimiz bu qədər zəhmət quru bir torpaq üçündür. Bilmiş ol ki, bütün səyimiz Allahın dininə xidmətdir. İnsanları hidayətə qovuşdurmaqdır. Sabah Allahın hüzuruna çıxdığımızda üzümüzün qara olmaması üçündür. Əlimizdə İslamı təbliğ imkanları varkən, bəzi zəhmətlərə dözməyib rahatlığı seçsək, bizə qazi deyilməsi rəva olarmı? Əhli-küfrə İslamı çatdırmasaq, onların azğınlıqlarına mane olmasaq, hüzuri-ilahiyə hansı üzlə çıxarıq?!.”*[73]

***Allah yolunda cihaddan məqsəd sadəcə qılınc hərbi deyil. Qılınc zülmü qaldırmaq, haqqı bərqərar etmək kimi zərurət hallarında istifadə olunan bir dəmir parçasıdır. Əsl fəth qəlblərin fəthidir.***

### *Xidmət Yarışı*

**Rəsulullah** ﷺ Bədrə gedərkən Mədinəyə bir mil məsafədəki Buyutus-Suqyada mücahidləri saxladı. Yaşı kiçik olanları geri qaytardı. **Sad bin Əbi Vaqqas** رضي الله عنه belə rəvayət edir:

“Allah Rəsulu ﷺ yaşı kiçik olanları geri qaytarmadan az əvvəl qardaşım Ümeyri gizlənməyə çalışarkən gördüm:

«-Nə olub, qardaşım?» deyə soruşdum.



73. Bax. Kınalızade Ali Efendi, *Devlet ve Aile Ahlakı,* haz. Ahmed Kahraman, ts., 191-192; Mustafa Nuri Paşa, *Netaicü'l-Vukuat,* I-II, 45.

«-Allah Rəsulu məni kiçik görər də geri qaytarar deyə qorxuram! Halbuki mən Allah üçün mücadələ etməyi çox istəyirəm. Allahın mənə şəhidlik nəsib etməsini ümid edirəm!» dedi. Həqiqətən də qardaşımı Rəsulullaha göstərdikləri zaman onun hələ kiçik olduğunu görüb:

**«-Sən geri qayıt!»** buyurdu. Ümeyr ağlamağa başladı. Bunun üzərinə Rəsulullah ﷺ ona icazə verdi. Ümeyr kiçik olduğu üçün qılıncını mən bağladım. Bədirdə şəhid olarkən 16 yaşı vardı.” (Vaqidi, I, 21; İbn Sad, III, 149-150).

Rəsuli-Əkrəm Uhud Hərbinə çıxarkən, yenə bir yerdə dayanmış ordusunu təftiş edirdi. Döyüşdə iştirak edə biləcək yaşdakı gənclərə icazə verir, kiçikləri isə geri qaytarırdı. **Səmurə bin Cundəb** ilə **Rafi bin Hadic** də geri çevrilənlər arasında idi. Züheyr bin Rafi:

“-Ya Rəsulallah! Rafi çox yaxşı ox atır!” deyərək onun orduya qatılmasını istədi. **Rafi** رضي الله عنه hadisənin davamını belə danışır:

“Ayaqlarımda məstlərim vardı. Barmaqlarımın ucuna basaraq uzun görünməyə çalışırdım. Rəsulullaha ﷺ mənim orduya qatılmama icazə verdi. **Səmurə** رضي الله عنه mənə icazə verildiyini eşidincə, ögey atası Murey bin Sinana:



*Avni ləqəbiylə şeirlər yazan Fateh Sultan Mehmedin bu beytləri onun könül dünyasını nə gözəl əks etdirir:*

*İmtisali cahidu fillah oluptur niyyetim,*

*Dîn-i islamın  mücerred gayretidir, gayretim.*

*Niyyətim “Allah yolunda cihad edin” əmrinə riayət etməkdir.*

*Qeyrətim də İslam dininin xalis və ülvi qeyrətidir.*

*Enbiya-u Evliya’ya istinadım var benim,*

*Lutfu Hakk’tandır heman ümidi fethu ve nusratım.*

*Mənim Peyğəmbərlərə və Allah dostlarına bağlılığım var. Fəth və zəfər ümidim də daim Allahın lütfündəndir.*

«-Atacan! Rəsulullah ﷺ Rafiyə icazə verdi. Məni isə geri qaytardı. Halbuki mən güləşdə onu yıxıram.» dedi. Murey ﷺ vəziyyəti Peyğəmbərimizə ifadə etdi. Allah Rəsulu ﷺ bizə:



*«-Haydı güləşin görək!»* dedi.

Güləşdik, nəticədə Səmurə məni yıxdı. Bunun üzərinə Rəsulullah ﷺ ona da icazə verdi." (Təbəri, Tarix, II, 505-506; Vaqidi, I, 216)

Ənsardan Selimə oğullarının rəisi **Amr bin Cemuh** ﷺ topal bir səhabə idi. Dörd oğlu vardı, Allah Rəsulu ilə birlikdə döyüşlərdə iştirak edirdilər. Rəsulullah Uhud döyüşünə gedəcəyi zaman Amr da onlara qoşulmaq istədi. Oğulları:

"-Sən üzrlüsən, cihad ilə mükəlləf deyilsən. Biz sənin yerinə də cihad edərik!" dedilər. Amr ﷺ:

"-Siz onsuz da Bədir günü mənim cənnətə girməyimə mane oldunuz. Vallah, mən bu gün sağ qalsam da, şübhəsiz bir gün şəhid olub cənnətə girəcəyəm!" dedi. Sonra da xanımına:

"-Hər kəs şəhid olub cənnətə gedərkən mən sizin yanınızda oturub dayanacağammı?" dedi. Dərhal qalxanını götürüb:

"-Allahım! Məni ailəmin üstünə geri qaytarma!" deyə dua etdikdən sonra Allah Rəsulunun yanına getdi. Peyğəmbərimizə:

"-Oğullarım məni Mədinədə saxlamaq istəyirlər. Məni Səninlə birlikdə döyüşə çıxmaqdan daşındırmağa çalışırlar. Vallah, mən bu topal halımla cənnətə ayaq basmağı arzu edirəm." dedi. Allah Rəsulu ﷺ:

*"-Allah-Təala səni üzrlü saymışdır. Sənə cihad fərz deyil."* buyurdu. Amr ﷺ:

***"Biz bu yoldakı məsafələri sadəcə təsəvvüf kitablarını oxuyaraq deyil, oxuduqlarımızı imkan nisbətində tətbiq etmək və xalqa xidmətlə qət etdik. Hər kəsi bir yolla aparırlar, bizi də xidmət yolundan apardılar."***

***(Übeydullah Əhrar həzrətləri)***



“-Ya Rəsulallah! Siz mənim Allah yolunda ölənə qədər döyüşərək şəhid olmağımı və bu topal ayağımla cənnətdə getməyimi uyğun hesab etməzsinizmi?” dedi. Nəbiyyi-Əkrəm ﷺ:

*“-Bəli, uyğun hesab edərəm.”* buyurdu. Oğullarına da:

*“-Artıq atanızı cihaddan daşındırmağa çalışmayın. Ümid edilir ki, Allah ona şəhidlik nəsib edər.”* buyurdu.

***Xidmət əhli bir mömin qayğıkeş insandır. Öz qurtuluş bəratını ala bilməyin başqalarının da qurtuluş bəratına vəsilə olmaqdan keçdiyini bilən insandır. Sırf şəxsi mənfəətini düşünən, qaba, eqoist və xəsis bir insan modelini Rəbbimiz rədd edir.***

Amr رضي الله عنه qibləyə dönüb:

“-Allahım! Mənə şəhidlik nəsib et! Məni məhrum və məyus olaraq ev xalqımın yanına qaytarma!” deyə dua etdi və cihada qatıldı. Şəhidlik həyəcanıyla dolu bu səhabə nəticədə bir oğlu ilə birlikdə şəhid oldu. Allah Rəsulu onun haqqında:

*“-Varlığım qüdrət əlində olan Allaha and içərəm ki, Amrın cənnətdə axsayaraq getdiyini gördüm!”* buyurdu. (Vaqidi, I, 264-265; İbn Əsir, Üsdül-Ğabə, IV, 208)

Mömінin borcu etdiyi xidmətləri kifayət görməyib, başqa nələr edə bilərəm düşüncəsiylə, davamlı bir xidmət axtarışı içində olmaqdır. Bunun ən canlı misallarından biri də Osmanlı yeniçəriləridir. Gəncliklərində döyüş meydanlarında qılınc oynadan yeniçərilər saqqallarına dən düşüb döyüşəcək halları qalmadıqda, özlərinə başqa bir xidmət tapardılar. Kürəklərində meşin bir su tuluğu və əllərində qalaylı bir tasla küçə-küçə gəzərdilər. Kərbəlada bir qurtum suya həsrət qoyularaq şəhid edilən **Həzrət Hüseyn** رضي الله عنه üçün su paylayıb savab qazanmağa çalışardılar. “Həsəneynin (Həzrət Həsən və Hüseynin) ruhu üçün” deyərək insanlara su paylayardılar.[74]

74. A. Turan Alkan, Osmanlı Ansiklopedisi, İst. 1996, İz Yay. V, 20.

### *Xidmətin Qızıl Qaydaları*



**1.** Heç bir xidməti kiçik görməmək lazımdır. Çünkü xidmət edə bilmək böyük bir nemətdir və əhəmiyyətsiz kimi görünən bir xidmət Allah qatında çox qiymətli ola bilər. Bu səbəblə Allahın rizasına nail ola bilmək üçün hər cür xidmətə can atmaq lazımdır.

**2.** Xidmət etmə fürsəti Rəbbimizin bir lütfüdür, lakin bu lütf hər kəsə nəsib olmaz. Çoxları vardır ki, bir çox xüsusda xidmət qabiliyyətləri olduğu halda, zaman və məkan uyğun olmadığından xidmətdən nəsibləri yoxdur. Xidmət edənlər bu nemətə nail olduqları üçün Allaha çox şükür etməli və yenə bu nemətə vəsilə olduqları üçün xidmət edilənlərə təşəkkür ədasında olmalıdırlar. Çünki onların sayəsində Allahın rizasına nail olmaqdadırlar.

**3.** Xidmət insanı qarşılaşdığı təhlükə və çətinliklər səbəbiylə qorxmamalı, əksinə daha da güc tapmalıdır. Çünki bir xidmətin səviyyəsi, dözülən zəhmətlər və fədakarlıqlar nisbətindədir. Xidmət gəlib-keçici bir sevda deyil. Son nəfəsə qədər eşq və vəcd ilə ifa edilməsi lazım olan uca bir vəzifədir. Beləliklə xidmət əhlinin azuqəsi səbir, dayağı Uca Mövla olmalıdır.

**4.** Xidmət edən bir mömin iki şeyi qətiyyən unutmamalıdır:

a. Allah-Təala,

b. Ölüm, yəni fanilik,

İki şeyi də unutmalıdır:

a. Qürura qapılmamaq üçün etdiyi xeyirləri unutmalı,

***Günəş üçün isitməmək mümkün olmadığı kimi, ali ruhlar üçün də insanların halına acımamaq, xidmətdən boyun qaçırmaq, çilə və iztirablar qarşısında duyğusuz qalmaq və ətrafına gözəllik saçmamaq da imkansızdır.***

b. Kiminləsə arasında soyuqluq olmaması üçün özünə qarşı işlənən səhvləri unutmalıdır. Yəni bağışlaya-bağışlaya ilahi əfvə layiq hala gəlməyə çalışmalıdır.

## Dünyaya Aldanmamaq

**Həzrət Mövlana** dünya mənfəətlərinə aldanaraq ömrünü iflasa sürükləyənlər haqqında belə buyurur:

*"İnsana nə olur ki, qızılın, dünya malının köləsi olur? Haqq yolunda xərclənməyənlər nədir? Nəyi ifadə edir? Dünya malının əsiri olaraq onun qapısında ilan kimi qıvrılıb yer-*



**Məhəmməd İqbal həyatın mübarizələrdən ibarət olduğunu nəfis bir misalla necə də gözəl izah edir.**

**"Bir ceyran başqa bir ceyranla dərdləşirdi.**

**-Bundan sonra Kəbədə, Hərəmdə yaşayacağam. Orada otlayacaq, orada yatacaq və yaşayacağam. Buradakı ovalıqlarda ovçular pusqu qurmuşlar, gecə-gündüz biz ahuların içində dolaşırlar. Artıq ovçu əlindən aman tapmaq istəyirəm. Ürəyim bir az sakitləşsin!.."**

**Dostu isə buna öz münasibətini belə bildirdi:**

**-Ey ağıllı dostum, yaşamaq istəyirsənsə təhlükə içində yaşa, özünü dağa-daşa vur. Tərkibi saf qılıncdan da kəskin ol. Təhlükə qüdrəti imtahana çəkər. Cism və canın nələrə qadir olduğunu bizə o bildirir."**

*lərdə sürünmək zilləti insanı göylərə (yəni axirətə) əliboş göndərən bir səfalət səbəbi deyil də nədir?!.”*

Elələri var ki, ömür kamanında olan qızıl dəyərindəki zaman oxlarını belə boş yerə atmışdır. Eynilə uşaqların oyuncaqlara aldanıb vaxt keçirməsi kimi... Bu səbəbdən əsli buraxıb xəyalın arxasınca qaçmaq; ömrü zay edib əliboş və ürəyi qaranlıq qalmaqdan başqa bir şey deyil.

**Rəsulullah** ﷺ belə buyurmuşdur:

*“Kimin arzusu axirət olsa, Allah onun ürəyinə zənginliyindən qoyar və işlərini asanlaşdırar, artıq dünyaya xor baxmağa başlar. Kimin də hədəfi dünya olsa, Allah onun iki gözünün arasına kasıblığını qoyar, işlərini də darmadağınıq edər. Nəticə olaraq, dünyadan da əlinə, özünə təqdir edilmiş olandan artığı keçməz.”* (Tirmizi, Qiyamət, 30/2465)

**Rəsulullah ﷺ belə buyurmuşdur:**

**“Dünya və onun içində olan şeylər dəyərsizdir. Yalnız Allahı zikr etmək və Ona yaxınlaşdıran şeylərlə, elm öyrədən alim və öyrənmək istəyən tələbə bundan müstəsnadır.”**

**(Tirmizi, Zöhd, 14)**

## Həyatı Formalaşdıran Seçimlər

### *Yoldaş Seçimi və Məhəbbət*

Hal saridir, yəni insandan insana keçicidir. Adam xeyirli bir insanla yoldaş olsa xeyrə yönələr, pis biriylə birlikdə olsa pis təsirə məruz qalar. Bu hal insan psixologiyasının ən təməl qanunlarından biridir. Böyüklər bunu: ***“Üzüm üzümə baxa-baxa qaralar.”*** deyərək dilə gətirmişlər.



İnsan kimi sevər və kiminlə birlikdə olarsa, onun halı ilə həmhal olar. Çünki insan oğlunun şəxsiyyət və xarakteri digər insanlarınkına bənzəməyə və



onları təqlid etməyə meyillidir. Bu səbəbdən insan fərqində olaraq və ya olmadan, məhəbbət bəslədiyi və ünsiyyət etdiyi başqa birinin xüsusiyyətlərini götürür. Bu xüsus əsasən də şəxsiyyət və xarakterin yetkinləşdiyi gənclik dövründə daha çox əhəmiyyət daşıyır.

Bundan ötrüdür ki, allah-Təala Qurani-Kərimdə:

**"…Sadiqlərlə birlikdə olun!"** (ət-Tövbə, 119) buyurmaqdadır.

Həqiqətən insan məhəbbət bəslədiyi adamla hiss, fikir, həyat tərzi və təmayüllərində müştərəklik qazanar. Bu səbəbdən salehlərlə birlik müsbət istiqamətdə tərəqqiyə vəsilə olar.

Bu vəziyyətdə təbii ki, qafil və fasiqlərlə birlikdə olmaqdan şiddətlə çəkinmək də əhəmiyyət kəsb edir. *«Kor ilə yatan çəp qalxar.»* sözü, bu həqiqəti nə gözəl ifadə edir.

Bu xüsusu izah mahiyyətində **Peyğəmbərimiz** ﷺ aşağıdakı misalı verir:

*"Yaxşı və pis yoldaşın halı, gözəl ətir satanla körük çəkən dəmirçinin halına bənzəyər. Müşk satan adam ya sənə gözəl ətrindən bir miqdar ikram edər və ya sən ondan pulla alarsan. (Yaxud yanında olduğun müddətdə) gözəl ətir iyləmiş olarsan. Körük çəkən kimsə isə ya paltarını yandırar və ya körüyün pis qoxusundan narahat olarsan."* (Buxari, Zəbaih, 31)

**Şeyx Sədii Şirazi** Qurani-Kərimdəki Əshabi-Kəhf hekayəsini misal göstərdikdən sonra belə deyir:

***"Məzardakıların peşman olduğu şeylər üçün dünyadakılar bir-birini yeyirlər!."***

***Məzar daşlarının dilini anlaya bilmək qəlbin ən gözəl hünəridir.***

“Bir köpək salehlərə gözətçilik etdiyi üçün sadiqləşdi və Qurani bir ifadə qazandı. Həzrət Nuh ﷵ və Həzrət Lutun ﷵ xanımları isə fasiqlərlə birlikdə olduqları üçün küfrə düşüb cəhənnəm yolçusu oldular.”

**Həzrət Mövlana** da belə buyurur:

*“Allaha and içirəm ki, pis ilan pis dostdan yaxşıdır! Pis ilan insanın canını alar. Lakin pis dost, insanı əbədi atəşə məhkum edər, yandırıb-yaxar! İnsan danışmasa da pis yoldaşının xasiyyətini götüər! Könül gizlicə onun əxlaqını mənimsəyər, pis əxlaqını özünə əxlaq edər! Düzgünlükdən nəsibi olmayan, sərmayəsiz yoldaş, sənin sərmayəni də götürüb gedər!”*

**İmam Rəbbani həzrətləri** pislərə qarşı bəslənən məhəbbət və onlarla yoldaşlığın zərəri haqda belə bir misal verir:

*“Qumarbazlarla oturub-duran adam bəlkə qumar oynamaz. Beləcə özünü çirklənməmiş zənn edə bilər. Lakin qumarbazlarla birlikdə olduğu müddətcə onlardan mənfi təsir alaraq qumar oynamağı zamanla xoş görməyə başlayar. Bu isə mənəvi bir tənəzzüldür.”*

Bu səbəblə bir müsəlman xeyirli kəslərlə yoldaş olmalı və özü də yaxşı yoldaşlıq sərgiləməlidir. **Rəsulullah** ﷺ belə buyurmuşdur:



لاَ تُصَاحِبْ إِلاَّ مُؤْمِنًا وَلَا يَأْكُلْ طَعَامَكَ إِلَّا تَقِيٌّ

*“Yalnız mömin ilə yoldaşlıq et, onunla bir-*

**Rəsulullah ﷺ belə buyurmuşdur:**

**“Təklik pis yoldaşdan daha xeyirlidir; saleh bir yoldaş isə təklikdən daha yaxşıdır…”**

**(Hakim, III, 343; Beyhəqi, Şuab, 256/4993)**

*likdə ol! Yeməyini də ancaq təqva sahibləri yesin!"* (Əbu Davud, Ədəb, 16; Tirmizi, Zöhd, 56/2395)

*"Allah-Təalaya görə yoldaşların ən xeyirlisi, yoldaşına faydalı olandır..."* (Tirmizi, Birr, 28)

Digər bir xüsus da budur: İnsan elm, ədəb və ağıl kimi maddi-mənəvi xüsuslarda öz tayı ilə yoldaş olsa rahatlıq tapar. **Həzrət Mövlana** belə buyurur:

*"Quş ancaq öz cinsiylə uçar. Öz cinsindən olmayanlarla görüşmək, sanki məzara girmək kimidir. Hər cins öz cinsini çəkərkən, zərif bir ceyran eşşək və öküzlərin içində necə yaşaya bilər?.."*

*"Ah, təbiəti bizə uyğun gəlməyən dostun verdiyi iztirablardan!.. Ah, onların ürəyimizdə açdığı dərin yaralardan! Ey ulu kəslər, ey böyük insanlar; ağlınızı başınıza alın, özünüzə xeyirli dostlar, uyğun yoldaşlar axtarın!"*

***Yaxşı insanları sevmək, pis insanlara nifrət etmək, adamı mənən abad edər. Bunun əksinə sevilməyə layiq olmayan insanlara məhəbbət bəsləyib, müsbət insanlara nifrət etmək də adamı bədbəxt edər. Bu səbəblə insan kimlərə məhəbbət bəslədiyinə və kimlərdən nifrət etdiyinə son dərəcə diqqət yetirməlidir.***

**Rəsulullah ﷺ belə buyurur:**

**"Elə bir zaman gələcək ki, o vaxt bu üç şeydən daha qiymətli bir şey olmayacaq: Halal pul, can-dildən yoldaşlıq ediləcək bir qardaş və özüylə əməl ediləcək bir Sünneyi-Səniyyə."**

**(Heysəmi, I, 172)**

### *Peşə Seçimi*

İnsanın həyatına istiqamət verən seçimlərindən biri də peşə seçimidir. Bir müsəlman Allahın rizasına müvafiq və insanlara faydası toxunacaq bir peşə seçməlidir. Çünki bu xüsusdakı səhv bir seçim insanın əbədi səadətinə birbaşa təsir edər. Bir peşə seçərkən insanlar nəzdindəki etibarına deyil, əvvəlcə Allah qatındakı dəyər və məqbulluğuna baxmaq lazımdır. Necə ki, ruzisini halal yoldan qazanan bir işçi qeyri-qanuni işlərə rəhbərlik edən və mövqe sahibi birindən Haqq qatında müqayisə edilə bilməyəcək dərəcədə daha qiymətlidir.

### *Yoldaş Seçimi*

Allah-Təala bütün varlıqları cüt yaratmış, təklik və birliyi yalnız özünə xas bir xüsusiyyət etmişdir. Bu səbəbdən digər bütün varlıqlar, bir-birlərinə möhtacdır.

Digər tərəfdən Allah öz məhəbbətinə hazırlayıcı bir vəsilə olaraq kişi və qadın arasına bir məhəbbət və mərhəmət hissi qoymuşdur. Bunların qanuni bir zəmində reallaşması üçün də nikah əqdi ilə ailə yuvası qurmağı əmr etmişdir. Bu baxımdan ailə yuvası həm Allah sevgisinə vazkeçilməz bir pillə, həm də nəsillərin davamı üçün ilahi bir qanundur. Yəni evlilik həm bədəni bir ehtiyacdır, həm də mənəvi inkişafın əsaslı bir zəminidir.

Evlilik sayəsində eqoist arzular idealalşdırılaraq xeyirli nəsillərin yetişdirilməsinə vəsilə olunar. Allah-Təala bu xüsusla əlaqədar olaraq bizlərə bu duanı təlqin buyurur:

رَبَّنَا هَبْ لَنَا مِنْ اَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا قُرَّةَ اَعْيُنٍ
وَاجْعَلْنَا لِلْمُتَّقِينَ اِمَامًا

**Əshabi-kiram bir gün:**

**“–Yoldaşlıq edəcəyimiz insanların ən xeyirlisi kimdir?” deyə soruşduqda Rəsulullah ﷺ:**

**“–Gördüyünüzdə, halıyla sizə Allahı xatırladan, danışdığında elminizi artıran və etdiyi əməlləriylə sizi axirətə istiqamətləndirən adamdır.” buyurdu.**

**(Heysəmi, X, 226)**



**“Ey Rəbbimiz, bizə zövcələrimizdən və uşaqlarımızdan** (sənə itaət eməklə bizi sevindirib) **gözümüzün işığı** (bəbəyi) **olacaq övladlar ehsan buyur və bizi müttəqilərə imam** (rəhbər) **et!”** (əl-Furqan, 74)

Xoşbəxt bir ailə qurmaq üçün yoldaş seçərkən İslamın qoyduğu qaydalara həssaslıqla riayət etmək şərtdir. Bu qaydaların əsası da budur:

Evlənəcək kəslər yoldaşlarını; sırf zahiri gözəllik və zənginlik kimi keçici və nəfsə xoş gələn səbəblərlə seçməməlidirlər. Yalnız əqli və eqoist arzu və həvəslərlə reallaşan bir evlilik -əksəriyyətlə- məhəbbət və ülfət meyvəsini verməz. Çünki belə evliliklərdə insanlar ümumiyyətlə eqoist arzularının köləsi olarlar.

Bu səbəbdən evlənərkən iman və əxlaq kimi təməl mənəvi xüsusiyyətlərə ağırlıq verərək seçim etmək lazımdır. Bu barədə Rəsulullah ﷺ belə buyurmuşdur:

*“Qadınla dörd şeyi, yəni malı, gözəlliyi, soykökü və dindəki kamalı üçün evlənərlər. Siz dindar olanını seçin ki, xeyr görəsiniz!..”* (Buxari, Nikah, VI, 123; Müslim, Rada, 53)

Bu hədisi-şərif eyni zamanda evləniləcək bir insanda axtarılması lazım olan xüsusu da ehtiva etməkdədir. Çünki hər mömin üçün təqvadan sonra ən qiymətli nəsib, evləndiyi kimsənin gözəl əməl sahibi olmasıdır. ***Saleh kişi dinclik sarayının sarsılmaz***

***“Ağıllı qadınla evlənən hər şeyə nail olmuşdur. Ağıllı qadın qiymət biçilməyən bir xəzinədir. Belə bir xəzinəyə sahib olan ona qarşı mərhəmətli olsun. Nəzakətli olsun, onu əziz tutsun…***

***Ağıllı qadından məqsəd Allahı və Peyğəmbərini layiqincə tanıyan və hər xüsusda qulluq vəzifəsini ifa edən, ərinə hörmət göstərən və onun hər məşru istəyini yerinə yetirən qadındır.”***

***(Musa Əfəndi 0rəhmətullahi əleyh-)***

***dirəyi; əməlisaleh qadın da, səadət bağçalarının ən qiymətli bəzəyidir.***

Bir də ailələr arasındakı küfüv, yəni bərabərlik mütləq diqqətə alınmalıdır. Bu bərabərlik zənginlik, ədəb və mədəniyyət birliyi kimi müxtəlif ünsürlərə baxılaraq təyin edilməlidir.

Hamımız görürük ki, evlənərkən səhv seçimlər edən gənclərimiz yersiz boşanmalarla özlərini, uşaqlarını və ailələrini pərişan etməkdədirlər. Daha dəhşətlisi isə nə qədər qafillər evliliyə yanaşmayıb bir çox günah və haram girdabında pərişan olmaqdadırlar.

Nikahdan kənar bərabərliklər insanın yaradılış məqsədinə zidd olduğu üçün nəticəsi də tam bir ziyan və tənəzzüldən ibarətdir. Bu vəziyyətdən həm fərd, həm ailə, həm də millət böyük zərərlər görər.

Allah-Təala qullarını bu təhlükələrdən mühafizə etmək üçün nikahdan kənar bərabərlikləri böyük günah olaraq elan etmiş və onlar üçün son dərəcə ağır cəzalar qoymuşdur.



Nəhayət nikah məsul varlıqlar olan insanlar və cinlərə məxsus bir haldır. Digər məxluqat isə bu barədə sərbəstdir. İnsanlıq şərəf və heysiyyətini qoruya bilmək üçün iffətin mühafizəsi zəruridir.

***Evlilikdə cütlər arasında tarazlıq və uyğunluq çox mühümdür. Mövlana həzrətlərinin buyurduğu kimi:***

***"Ayaqqabının bir tayı ayağına dar gələrsə, ikisi də işə yaramaz."***



***Nikah Peyğəmbərlərin yolu, Rəsulullahın sünnəsi, nəslin baharı, kişi və qadının şərəf və ədəbi, namus və iffətin qalası, insan soyunun heyvanlardan üstünlüyüdür.***

### *Xobbilər*

İslam anlayışına görə "boş zaman" adlanan bir məfhum yoxdur. Allah-Təala belə buyurur:

**"Bir işi bitirdikdə dərhal başqa bir işə başla, onunla məşğul ol! Daima Rəbbinə yönəl, Ona yaxınlaş!"** (əl-İnşirah, 7-8)

Bir insanın əsas işində yoruldu̇ğu zaman istirahət etmək üçün məşğul olduğu "xobbilər", lazımlı və faydalı işlər olmalıdır.

Müsəlman bir gəncin Haqq qatında məşru sayılmayan bir xobbiylə məşğul olması onsuz da düşünülə bilməz. Mübah görülən və insana fayda və zərəri olmayan bir xobbiylə məşğul olmaq da vaxt israfıdır. Bu səbəbdən bir müsəlmanın xobbiləri daim məşru və faydalı işlər olmalıdır.

Unutmamaq lazımdır ki insanlar vərdişlərini özləri meydana gətirirlər. Lakin daha sonra vərdişlərinin əsiri olurlar. Məsum bir maraqla başlayan bir məşğələnin daha sonra insanın həyatını başdan-ayağa dəyişdirməsi tamamilə mümkündür.

Məsələn, istirahət etmə zamanlarını faydalı kitablar oxuyaraq qiymətləndirən bir gəncin həyatıyla, kompyuter oyunları və internetin nəfsani saytları başında vaxt israf edən gəncin həyatı eyni keyfiyyətdə deyil. Faydalı işlərlə məşğul olan bir adam həm dünyasını, həm də axirətini zənginləşdirərkən, vaxt israfı olan xobbilərlə zaman öldürən adam da böyük bir iflas və peşmançılığın eşiyinə sürüklənəcək.

Bu səbəblə idman, musiqi, oyun və əyləncə kimi insana cazibədar gələn xobbilər və vərdişlər qarşısında daha həssas olmaq lazımdır.



**Həzrət Mövlana**, insanların vərdiş halına gətirdiyi səhv davranışlara dair belə bir misal verir:

*"Şirin sözlü lakin sərt xasiyyətli bir adam yol üstünə tikanlı bir kol əkmişdi. Yoldan keçənlər ona xəbərdarlıq edərək; «Bunları çıxar at!» dedilər. Lakin o dinləmədi.*

*Tikanlı kol vaxt keçdikcə böyüyürdü. Camaatın ayağı tikan yarası ilə qana bulaşırdı. Paltarları tikanlardan cırılır, ayaqyalın gəzən yoxsulların ayaqları qan-rəvan içində qalırdı.*

*Vali o adama; «Bunları çıxar!» deyə əmr etdikdə o: «Yaxşı, bir gün sökərəm.» dedi. Bir müddət; «Sabah, o biri gün sökərəm!» deyə vəd etdi. Bu müddət içində də tikanlar yaxşıca kök atdı.*

*Bir gün vali ona; «Ey vədini yerinə yetirməyən, sözündə durmayan adam; yaxın gəl, tapşırığımızı qulaqardına atma! İşi yerinə yetir!» dedi.*

*Zərərli kolu əkən adam: «Əfəndim, önümüzdə xeyli günlər var, narahat olmayın,bir gün gələr sökərəm.» dedi. Vali: «Sən, sabah bu işi görərəm, deyirsən, amma bunu yaxşı bil ki,* ***gün keçdikcə o tikanlar daha çox***

***İmam Şafi həzrətləri buyurur:***

***"Sən nəfsini haqq ilə məşğul etməzsən, batil səni işğal edər."***

***kök atıb güclənir. Onu sökəcək olan da yaşlanıb gücdən düşür. Tez ol, vaxtını boşa keçirmə...»***

*Sən də hər bir pis xasiyyətini bir tikan bil! O tikanlar dəfələrlə ayaqlarına batdı, səni yaralayıb pərişan etdi. Sən öz təbiətindən xəstələndin. Lakin səndə duyğu olmadığından, xəstəliyin səbəbini anlamırsan.*

*Çirkin xasiyyətinin başqalarını narahat etdiyini, yaraladığını bilmirsənsə, öz yarandan da xəbərin yoxmu? Bu vəziyyətinlə sən həm özünə, həm də başqalarına dərdsən, əzabsan!*

*Sən ya baltanı götür, Həzrət Əli kimi Xeybər Qalasının qapısını qopar, yaxud da bu tikanı gül pöhrəsi halına gətir. Yəni gül pöhrəsi ilə peyvənd et ki, sənin tikanların gül bağçası halına gəlsin..."*

***Keçən zamanı geri qaytarmaq mümkün deyil. Bu baxımdan saleh əməllər işləmək üçün gün bu gündür. Əlimizdəki əmanətləri əsl sahibinin əmrinə təslim etmək üçün də gün bu gündür. Buna görə də "sabah edərəm deyənlər həlak oldular" buyurulmuşdur.***



*Qanuni Sultan Süleyman bir çox Osmanlı padşahı kimi sənətkar ruha sahib idi. Bu halı onu şeirə istiqamətləndirmişdi. "Muhibbi" təxəllüsü ilə çox gözəl şeirləri var. Divanındakı qəzəllərin sayı üç minə yaxındır.*

**Rəsulullah** ﷺ müsəlmanları ox atmaq, üzmək, at və dəvə yarışı kimi fəaliyyətlərə təşviq etmişdir. Xanımlara da fitrətlərinə görə toxuculuq, tikiş, naxış, ev işləri kimi fəaliyyətlərlə məşğul olmağı tövsiyə etmişdir. Göründüyü kimi bunların hər biri bir fayda verməkdədir. Bu sayədə insanlar boş qaldıqları zamanlarda səhv işlərə düşməkdən qorunar və da-

im inkişaf edib yüksələrlər. İslamı hər hallarıyla ən gözəl şəkildə təmsil etməyə hazırlanarlar. Ancaq buna diqqət etmək lazımdır ki, bu cür fəaliyyətlərlə məşğul olarkən istər paltar, istərsə məkan olaraq İslamın həssaslığı mühafizə edilməlidir. Təsəttürə uyğun gəlməyən paltarlarla və qadın-kişi qarışıq mühitlərdə idman edilməməlidir.



***Bir müsəlmanın Haqq qatında məşru sayılmayan bir işlə məşğul olması düşünülə bilməz. Mübah görünən və insana fayda və zərəri olmayan bir xobbiylə məşğuliyyət də vaxt israfıdır. Nəticə etibarilə bir müsəlmanın bütün məşğələləri daima məşru və faydalı işlər olmalıdır.***

Osmanlı sultanları dövlət idarəsi xaricindəki zamanlarında müxtəlif sənətlərlə məşğul olmuşlar. Bir çoxu şeir, ədəbiyyat, xəttatlıq və musiqidə mahir idi. Məsələn **Fateh Sultan Mehmed**in bağbanlığa xüsusi bir marağı vardı. Ayrıca ox üçün barmağa taxılan üzüklər, kəmər və qılınc qınları da düzəldərdi.

**Yavuz Sultan Səlim**in xobbisi zərgərlik idi.

**Sultan I Mahmud** hilalçı və zərgər idi. Əsərlərini bazarda satdırar, pulunu sədəqə olaraq paylayardı. Bir gün vəziri:

"–Şövkətlim, millətin xəzinəsi sizindir. Nə üçün belə məşğul olub zəhmət çəkirsiniz?" dedikdə:

"–Millətin xəzinəsini millətə sərf etmək lazımdır. Saniyən (ikinci olaraq), insanın çalışıb alın təri tökərək qazandığı pulun zövqü başqadır." cavabını verdi.[75]

**Sultan II Əbdülhəmid**in at minmək, üzmək, atıcılıq kimi xobbiləri vardı. Bəzəmə işlərində mahir ol-

75. Bax. Zeki Kuşoğlu, *Dünkü Sanatımız ve Kültürümüz,* İstanbul 1994. s. 26.

ması ilə yanaşı mahir dülgər idi. Zaman-zaman emalatxanasında işləyərək istirahət edərdi. Haqqında danışılan bu hadisə nə qədər gözəldir:

1897-ci ildə Türk-Yunan müharibəsi zəfərlə nəticələnmişdi. Lakin Əbdülhəmid Xanın sevincinə bir dərd mane olurdu. Sultan döyüşdə yaralananların hamısını İstanbula gətirtmiş, onları Gümüşsuyu Xəstəxanasına, Şişlidə yeni tikdirdiyi Ətfal Xəstəxanasına və Yıldız Sarayının bitişiyindəki sərgi binasına yerləşdirib müalicələrini başlatmışdı. Xəstələrin vəziyyəti ilə hər gün maraqlanırdı. Müşfiq Sultan bir gün emalatxanasına getdi və Kapitan Mehmed Əfəndiyə:

«-Haydı, Mehmed Usta! Yüz əlli dənə çəlik ağacı kəs!» deyə səsləndi. Kapitan çaş-baş qalmışdı. Maraqla soruşdu:



**Nəbiyyi-Əkrəm ﷺ Əsləm qəbiləsindən ox atma yarışı keçirən iki qrupun yanına gəlmişdi. Onlara:**

**“–Ey İsmayıl oğulları, ox atın! Şübhəsiz sizin atanız usta bir oxçu idi. Mən də bu yarışmada bu qrupla bərabərəm!” buyurub bir tərəfi tutdu. Allah Rəsulunun bu sözünü eşidən qarşı tərəf əllərini ox atmaqdan çəkdilər. Rəsulullah ﷺ:**

**“–Sizə nə oldu ki, atmırsınız?” buyurdu. Onlar da:**

**“–Ya Rəsulallah! Siz qarşı qrupla bərabərkən biz o tərəfə necə ox ataq?” dedilər. Bunun üzərinə Rəsulullah:**

**“–Haydı atın! Mən sizin hamınızla bərabərəm!” buyurdu.**

**(Buxari, Ənbiya, 12)**

«-Fərman əfəndimizindir, lakin bu qədər çəlik ağacı nəyə gərəkdir hökmdarım?»

Xeyirli bir iş görməyin xoşbəxtliyi sanki üzündən oxunan Sultan cavab verdi:

«-Araşdırdım, əsgərlərimizin bir çoxu ayaqlarından yaralanıb. Bunlar sağalsalar da gələcəkdə çəliyə ehtiyacları olacaq. Onları xəstəxanadan buraxıb məmləkətlərinə göndərərkən hərəsinə bir çəlik hədiyyə edəcəyəm.»

# *Gənçlik və Təhsil*

# FAYDALI ELM
# ÖYRƏNMƏYİN FƏZİLƏTİ

**Allah Rəsulu ﷺ belə buyurmuşdur:**

**“Elm öyrənmək, hər bir müsəlmana fərzdir.”**

**(İbn Macə, Müqəddimə, 17)**

**Peyğəmbərimiz ﷺ bəndəni həqiqətə və təqvaya aparmayan, nəfsani azğınlıqlardan uzaqlaşdırmayan faydasız elmdən Allaha sığınmışdır.**

### *Elm Özünü Bilməkdir*

Bütün elmlər Allah-Təalanın məxluqlara və hadisələrə qoyduğu qanunların kəşfindən ibarətdir. Elmlərin inkişafı da bu kəşflərin artırılması ilə mümkündür. Lakin bu təbii qanunları kəşf edib onlara ilişib qalmaq həqiqi mənada **“bilmək”** deyil.

**Bilmək** sənətdən sənətkara gedərək kainatda hökm sürən bu qanunların sahibini tanımaqdır. Onun qüdrət və əzəmətini idrak edə bilməkdir. Bunun nəticəsi də Onun rizasını qazanmaq üçün cəhd göstərməkdir.

**Bilmək** ilahi ehtişam və qüdrət naxışlarından agah olub varlıqların hal dilindən anlamaqdır. Hikmətdən agah olub kainatda sərgilənən ilahi sirlərə vaqif ola bilməkdir.



**Bilmək** ehtiyaca cavab verəni tapmaqdır. Ən mühüm ehtiyac isə, ayeyi-kərimədə bildirildiyi kimi **“müsəlman olaraq can verə bilmək”**dir.[76]

76. Bax. Ali-İmran, 102.

*Gerçək və faydalı elm maddi elmlərlə mənəvi elmləri birləşdirmək surətiylə öyrənilə bilər. Elmin bu iki cəhəti iki qanad kimidir. Heç gördünüzmü bir quş tək qanadla uçsun?..*

Məhz elmi bu məqsədlə öyrənən, yəni onu **"irfan"**a çevirə bilən adam həqiqi mənasıyla **"bilən"**lərdən olar.

Yunus Əmrə həzrətlərinin bu xüsusdakı ifadələri xüsusi bir sirr və hikmət daşıyır:

*Elm elm bilməkdir, elm özün bilməkdir,*
*Sən özünü bilməzsən, bu necə oxumaqdır?*
*Oxumaqdan məna nə, adam Haqqı bilməkdir,*
*Çün oxudun bilməzsən, ha bir quru əməkdir!*
*İyirmi doqquz heca, oxursan ucdan uca,*
*Sən əlif dersən hoca, mənası nə deməkdir?*

Zahiri və maddi məlumatlar insan üçün kafi deyil. Onlar həqiqi elmə ancaq bir vasitə ola bilər. Əsl və faydalı bir elm maddi elmlərlə mənəvi elmləri birləşdirmək surətiylə təhsil edilə bilər. Elmin bu iki istiqaməti iki qanad kimidir. Siz heç tək qanad ilə uçan bir quş gördünüzmü?..

Həqiqi elmi əldə etmək bir tərəfə, bir də öyrəndiklərini bayağı ehtiraslarına alət edərək insanlara zülm edənlər vardır. Bunlar əslində elmə xəyanət etmiş olarlar. Bu səbəblə elmin fayda verməsi üçün nəfsi duyğuların aradan qaldırılması, ağıl və iradənin Quran və Sünnəyə tabe olunması zəruridir. Mənəvi tərbiyədən məhrum bir şəkildə öyrənilən elm insanı mənfi yollara sürükləyərək bir aldanış vasitəsinə çevrilə bilər.



Çox təəssüf ki bu gün elm təhsilində insanın daha çox zehni qabiliyyətlərinə əhəmiyyət verilir. Əxlaq,



xarakter və şəxsiyyətə kifayət qədər diqqət yetirilmir. Halbuki elmin layiqincə daşına bilməsi bu kimi qəlbi fəzilətlərə bağlıdır. Elmini irfana çevirə bilməmiş bir kimsə hüquq təhsili aldıqdan sonra haqq və ədaləti bərqərar edəcəyi yerdə zalım bir cəllada çevrilə bilər. Həmçinin tibb təhsili görmüş bir kimsə də şəfa verəcəyi yerdə insan qəssabına çevrilə bilər. Mərhəmət və məhəbbətdən məhrum bir idarəçi isə sahib olduğu elmlə əmri altındakılara zülm edən bir qəddar olar. Belə insanlar elm sayəsində bir cahilin verəcəyi zərərdən qat-qat artığını verə bilərlər.

Nəhayət elm insanın həm könül dünyasını, həm də ölümündən sonrasını işıqlandıran bir sərmayə olmalıdır.

*"Nə qədər oxuyursansa oxu, öyrəndiklərinə yaraşan tərzdə hərəkət etmədikdən sonra cahil sayılırsan."*
*(Şeyx Sədi Şirazi)*

## Elm Əməl Üçündür

Elmin həqiqəti yaşanmasıyla ortaya çıxar. Bildiklərini həyata tətbiq etməyən alim **"kitab yüklü uzunqulaq"**[77] kimi boş yerə hamballıq edər. Əgər bir elm insanı Haqqa, həqiqətə, təqvaya, saleh əməllərə sövq edirsə elmdir. Yoxsa şeytanda da elm vardı, Qarun da elm sahibi idi. Lakin elm nəfslərini qabardıb onları dəhşətli bir qürur və təkəbbürə sürükləmişdi.

Bu baxımdan elm layiqincə həzm edilib əmələ çevrilməz, əxlaqa əks olunmazsa, bütün əməklər israf

77. Bax. Cumə, 5.

***Həzrət Mövlana belə deyir:***

***"Əməl edilməyən hikmətli söz borc götürülmüş bəzəkli paltar kimidir!.."***

olmuş sayılar. **Peyğəmbərimiz** ﷺ belə bir elmdən Allaha sığınmışdır:

*"Allahım! Fayda verməyən elmdən, qorxmayan qəlbdən, doymaq bilməyən nəfsdən və qəbul edilməyən duadan Sənə sığınıram."* (Müslim, Zikr, 73; Nəsai, İstiazə, 13, 65)

**İmam Qəzali həzrətləri** belə buyurur:

*"Ömrünün sonuna bir həftə qaldığını öyrənsən, bu qısa zamanda mütləq sənə faydalı olacaq bir elmlə məşğul olarsan. Dərhal qəlbini yoxlayar, dünyəvi ehtiras və mənfəətlərlə əlaqəni kəsərsən. Gözəl xasiyyətlərlə bəzənməyə çalışarsan. Halbuki insanın çıxdığı hər gün və gecədə ölməsi mümkün və ehtimaldır. Elə isə səni Allahın əzəməti qarşısında duyğulandırıb mənəviyyatını düzəldəcək elmlərlə məşğul ol!"*



**Salman Farisi** رضي الله عنه Dəclə kənarında gedərkən yanındakı yoldaşı əyilib su içmişdi.

Selman رضي الله عنه:

"- Bir daha iç!" dedi. Yoldaşı:

"- Doydum!" cavabını verdi. Həzrət Salman:

"- Yaxşı, içdiyin suyun çaydan bir şey azaltdığını söyləyə bilərsənmi?" deyə soruşdu. Yoldaşı:

"- Xeyr." dedi. Bu səfər Salman رضي الله عنه:

"- Məhz elm də belədir, tükənməz. O halda, sənə fayda verə-

cək elmi öyrən!" –deyə tövsiyə etdi. (Əbu Nuaym, Hilyə, I, 188)

## Həyat Qurtaran Elm

Bir nəhv alimi (dilçi) gəmiyə minmişdi. Səfər əsnasında elmindən razı halda gəmiçi ilə söhbətə başladı. Hərdən gəmiçiyə müxtəlif suallar verirdi. Ondan "bilmirəm" cavabını aldıqca da qürurlanaraq:

"- Yazıq! Cəhalətin üzündən ömrünün yarısı boşa gedib." –deyirdi.

Təmiz qəlbli gəmiçinin bu davranışa qəlbi qırılsa da, kamillik göstərib cavab vermədi. Bu minvalla gedərkən qəflətən güclü fırtına başladı və gəmiyə dəhşətli dalğalar hücum edərək onu yırğaladı. Hamını böyük bir təlaşın bürüdüyü o həngamədə gəmiçi dil aliminə baxıb:

"- Ey ustad, üzə bilirsən?" deyə soruşdu.

Dilçi saralıb-solmuş vəziyyətdə kəkələyərək:

"- Xeyr, bilmirəm!.." dedi.

Bu cavabı alan gəmiçi məhzun əda ilə belə dedi:

"- Nəhv bilmədiyim üçün mənim ömrümün yarısı məhv olmuşdu. İndi isə üzə bilmədiyin üçün sənin bütün ömrün məhv oldu. Çünki gəmimizin bu fırtınadan xilas olmaq imkanı yoxdur. Ey nəhv alimi! Bu dəryada nəhvdən çox üzmək elminin daha faydalı və zəruri olduğunu bilmirdinmi?.."



***Elm alimin əzbərlədiyi deyil, faydalandığıdır.***
***(İmam Şafei)***

*"Oğul, sənə tövsiyəm budur ki; bütün hallarında elm, ədəb və təqva üzrə olasan!.. Bizdən əvvəlkilərin əsərlərini oxu, əhli-beyt və əhli sünnə yolundan get! Fiqh və hədis öyrən və cahillərdən var gücünlə uzaqlaş!.."*

*(Əbdülxaliq Gucdüvani həzrətləri)*

Bu fani vücud gəmisi ölüm girdabında çırpınarkən yaşanmayan, irfana çevrilməyən və sırf nəfsə xitab edən bilgilər fayda verməyəcəkdir.

Günah dəryasında boğulmaqdan xilas olmağın yeganə çarəsi halal-haramı bilmək və bunları həyata tətbiq etməkdir. Yalnız belə bir elm bizi iki dünya səadətinə nail edə bilər.

## PEŞƏ və İXTİSAS TƏHSİLİ

Allah-Təalanın heç şübhəsiz hər insana verdiyi zəka, qabiliyyət və təmayüllər bir-birindən fərqlənir. İnsanların müxtəlif qabiliyyət və xarakter sahibi olmaları nəticəsində dəyişik peşələr ortaya çıxmışdır. Cəmiyyət rifahının davamı üçün hər peşəyə və mütəxəssisinə ehtiyac vardır. Peşə seçimində diqqət yetiriləcək ilk xüsus halal-haram sərhədlərinə riayət etməkdir.

Dinimiz işləməyi, bir peşə sahibi olub halal yoldan ruzi qazanmağı ibadət olaraq qəbul etmiş və buna çox əhəmiyyət vermişdir. Bütün peyğəmbərlərin bir peşəsi vardır. **Zəkəriyyə** عليه السلام dülgərlik, **Davud** عليه السلام dəmirçilik, **İdris** عليه السلام dərzilik etmişdir. **Allah Rəsulu** صلى الله عليه وسلم də çobanlıq və ticarətlə məşğul olmuşdur.



**Rəsulullah** صلى الله عليه وسلم belə buyurmuşdur:

*"Heç kim əsla öz qazancından daha xeyirli bir ruzi yeməmişdir. Allahın Peyğəmbəri Davud* عليه السلام *da öz əlinin əməyini yeyərdi."* (Buxari, Büyü 15, Ənbiya 37)

Bir gün **Peyğəmbərim**izin yanına kasıb bir nəfər gəlib yeməyə bir şey istədi. Allah Rəsulu ondan:

*"- Sənin evində heç bir əşyan yoxdurmu?"* deyə soruşdu. O şəxs:

"- Bir hissəsini üstümüzə örtüb, bir hissəsini yerə sərdiyimiz bir çulumuz var. Bir də su qabımız var." dedi.

Rəsuli-Əkrəm ﷺ:

*"- Onları mənə gətir!"* buyurdu.

Peyğəmbərimiz onları əlinə aldı və yanındakılardan:

*"- Bunları kim alar?"* deyə soruşdu.

Səhabələrdən biri onlara bir dirhəm verəcəyini söylədi. Rəsulullah ﷺ:

*"- Artıran yoxdurmu?"* deyə bir neçə dəfə səsləndi və iki dirhəm verən səhabəyə onları satdı. Pulu kasıb səhabəyə uzadaraq:

*"- Bunun bir dirhəmiylə ailənə yemək al. Qalan pulla da bir balta alıb mənə gətir!"* buyurdu.

Peyğəmbərimiz baltaya öz əlləriylə bir sap taxıb:

*"- Haydı, indi get bununla odun kəs və sat! On beş gün işlə; sonra yanıma gəl!"* buyurdu.

Həmin səhabə on beş gün sonra Peyğəmbərimizin yanına gəldi. On dirhəm qazanmış, bu pulla özünə və ailəsinə paltar və yemək almışdı. Rəsulullah ﷺ buna çox sevindi və belə dedi:

*"- Dilənçilik qiyamət günü üzündə bir ləkə kimi görünməkdənsə, sənin üçün bu daha xeyirli deyilmi?"* (Əbu Davud, Zəkat, 26/1641; İbn Macə, Ticarət, 25)



Bütün işləri elm və ibadət olan əshabi-suffə ehtiyaclarını qarşılayacaq qədər işləyərdilər. Gücü-qüvvəti yerində olan **Suffə əhli** dağdan odun gətirmək, su daşımaq kimi əllərindən gələn hər cür işi görərdilər. Qazandıqları pulla da infaq edər və yoldaşlarına yemək aparardılar.[78] İffət və vüqarları səbəbiylə heç kimdən heç nə istəməzdilər.

***Hədisi-şərifdə buyurulur:***

***"Allah-Təala bəndəsini halal dalınca qaçmaqdan yorulmuş vəziyyətdə görməyi sevər." (Süyuti, Camius-Sağir, 1, 65)***

**Uqbə bin Amr** ﷺ belə deyir:

"Sədəqə ayəsi[79] nazil olduqda kürəyimizdə yük daşıyaraq qazancımızdan infaq etməyə başladıq…" (Buxari, Zəkat, 10; Müslim, Zəkat, 72)

**Həzrət Ömər** ﷺ miskinliyi, tənbəlliyi və zamanın boş yerə xərclənməsini heç sevməzdi:

***"Hər hansı birinizi nə dünya, nə də axirət işiylə məşğul olmadan, heç bir iş görməyən vəziyyətdə görmək xoşuma gəlmir."*** deyərdi. (Əbu Quddə, Zamanın Qiyməti, s. 97)

***"Hərəkətdə bərəkət var."*** deyiblər. İnsan daim xeyirli bir işlə məşğul olmalı, boş qalaraq nəfsə və şeytana fürsət verməməlidir.

---

78. Buxari, Məğazi 28, Cihad 9; İbn Sad, III, 514.
79. Sədəqə ayəsi, Tövbə Surəsinin 103-cü ayəsidir: "(Ya Rəsulum!) **Onların mallarından sədəqə** (zəkat) **al. Bununla onları** (günahlarından) **təmizləmiş, pak etmiş olarsan. Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır** (rahatlıqdır)**. Allah** (hər şeyi) **eşidəndir, biləndir."**

Digər tərəfdən, boş-boş oturan bir insan lüzumsuz söhbətlərə dalmağa başlayar. Boş danışdıqda da həm özünə, həm də başqalarına zərər verər. Bu səbəblə **Həzrət Ömər** ﷺ oğullarına belə tövsiyə edərdi:

“Səhərə çıxdığınız zaman ətrafa dağılın (hər kəs özünə bir iş tapsın!) Bir yerdə toplanıb qalmayın! Çünki mən bir yerdə qaldığınız zaman münaqişə edərək bir-birinizdən küsəcəyinizdən və ya aranızda bir pislik çıxmasından qorxuram.” (Buxari, əl-Ədəbul-Müfrəd, № 415)

Elə isə hər bir müsəlman gənc Allahın lütf etdiyi imkanları ən yaxşı şəkildə qiymətləndirmək məcburiyyətindədir. Kimin nəyə qabiliyyəti varsa, özünü o istiqamətdə inkişaf etdirməyə cəhd göstərməlidir. Məsələn, elmə qabiliyyəti olan bir kimsə faydalı elmlərlə məşğul olmalı və o sahədə ən yüksək səviyyəyə çıxa bilmək üçün cəhd göstərməlidir. İdarəçi olmağa qabiliyyətli bir adam isə sövq və idarə elmi ilə birlikdə məsuliyyətlərini də öyrənməlidir. Digər peşə qabiliyyətləri də bunun kimidir.

**Rəsulullah** ﷺ buyurur:

*“İnsanların ən xeyirlisi, onlara faydalı olandır.”* (Beyhəqi, Şuab, VI, 117; İbn Həcər, Mətalib, I, 264)

Bu müjdəyə nail ola bilmək üçün müsəlman bir gənc ən faydalı və gözəl peşəni seçməlidir.

***Yenidən həyata başlamalı olsam, Haqqa və həqiqətə təşnə bir müəllim, yaxud da şəfa verən bir həkim olardım. Çünki hər ikisində də insana xidmət var.***

***(Musa Topbaş –rəhmətullahi əleyh-)***



*Mövlana -quddisə sirruh- belə buyurur:*

*“Qurani-Kərim peyğəmbərlərin hal və vəsfidir. Qurani-Kərimi xüşu ilə oxuyub tətbiq etsən, özünü peyğəmbərlər və valilərlə görüşmüş fərz et! Peyğəmbər hekayələrini oxuduqca bədən qəfəsi, can quşuna dar gəlməyə başlayar!”*

## Müsəlman Gəncin Həyat Rəhbəri:

# QURANİ-KƏRİM

Qurani-Kərimdə belə buyurulur:

**“Rəhman!** (Mərhəmətli olan Allah!) (Öz peyğəmbərinə) **Quranı öyrətdi. İnsanı yaratdı. Ona danışmağı** (fikrini və duyğularını bəyan etməyi) **öyrətdi.”** (ər-Rəhman, 1-4)

Allah-Təala əvvəlcə Quranı öyrətməsindən, sonra da insanı yaratmasından bəhs etmişdir. Buradan bunu anlaya bilərik:

“Allah Quranı öyrətmək üçün insanı yaratmışdır. Bəyanı, yəni danışmağı və sözü gözəl söyləmək sənətini də Quranı anlaması üçün öyrətmişdir.”

Buna görə insanın din və elm üçün yaradıldığını və Qurana qarşı məsuliyyətinin çox böyük olduğunu idrak etməsi lazımdır. Çünki insanın izzət və şərəfi Quranın göstərdiyi istiqamətdə yaşamaqla mümkündür.

Min dörd yüz ildən bəri İslam aləmində təlif edilən, kitabxanalar dolusu kitab əslində bir kitabı, yəni Qurani-Kərimi izah üçün qələmə alınmışdır.



Qurani-Kərim Allahın mömin könüllərə ikram etdiyi doyumsuz bir ziyafətidir. Allah ilə danışmaq istəyən möminlər Onun ziyafətinə can atmalı və bu süfrədə xidmət etməlidirlər. Bu ziyafətdən istifadə edə bil-

mək üçün Qurani-Kərimə söhbət və təzimdə qüsur etməmək lazımdır. Onu gözəlcə öyrənib oxumaq, canlı bir Quran halında yaşaya bilmək və bilməyənlərə öyrətmək lazımdır.



Heç şübhəsiz ki, Quran möminlərə iki dünya səadətini bəxş etmək üçün endirilmişdir. Qurana sarılmayan insan qulluq şərəfinə xələl gətirmiş, insanlıq nemətinə qarşı nankorluq etmiş sayılır.

Ancaq Quranın sırf sədasına qulaq asıb, ondakı hikmətlərə vaqif ola bilməyən qafillər onun əsl bərəkətindən məhrum qalarlar. Bu səbəbdən Qurani-Kərimi təfəkkür edərək oxumaq, yəni əmr və nəhylərinin hikmətini düşünmək, qissələrindən ibrət götürmək lazımdır. **Həzrət Ömər**in bu ifadəsi nə qədər ibrətlidir:

"Bəqərə Surəsini on iki ildə tamamladım və şükür olaraq bir dəvə qurban etdim." (Qurtubi, Təfsir, I, 40)

Çünki Həzrət Ömərin Quran oxuyuşu yalnız sözlərin tələffüzündən ibarət deyildi. Bu oxuyuş Quranın hikmət və sirrinə dalaraq, hökmlərini yaşayaraq oxumaqdı. Qurandan gerçək mənada istifadə etmək də ancaq bu cür mümkündür.

**Əbu Əbdürrəhman əs-Süləmi** belə nəql edir:

**Əbu Zər ﷺ deyir:**

**"- Ya Rəsulallah! Mənə nəsihət verin!" -dedim.**

**"-Sənə təqvanı tövsiyə edirəm, çünki təqva hər işin başıdır." buyurdu.**

**Mən təkrar:**

**"- Ya Rəsulallah! Mənə bir az da nəsihət verin!" dedim.**

**O: "-Quran oxumağa və Allahı zikr etməyə bax, çünki Quran yer üzündə sənin üçün bir nur, səmada da bir azuqədir." buyurdu.**

**(İbn Hibban, Səhih, II, 78)**



*Əshabi-kiram üçün vəhyin nazil olması göydən enən və dadından doyulmaz ilahi bir ziyafət süfrəsi idi. Nə zaman bir ayə nazil olduğunu eşitsələr tez o ilahi süfrəyə tələsər, böyük həyəcanla “Əcəba, Allahın rizası hansı əməldədir?” sualının cavabını yeni gələn təlimatlardan öyrənməyə çalışardılar.*

“Allah Rəsulunun səhabələrindən bizə Qurani-Kərimi təlim edən bir nəfər vardı. Bizə belə demişdi:

***«–Biz, Peyğəmbərimizdən on ayə öyrənər, bu ayələrdəki məlumatları və əməlləri öyrənmədən digər on ayəyə keçməzdik. Rəsulullah ﷺ bizə həm elmi, həm də əməli birlikdə öyrədərdi.»”*** (Əhməd, V, 410; Heysəmi, I, 165)

Qurani-Kərimi anlamaq, qavramaq, hiss edib duya bilmək və sirrinə vaqif ola bilmək üçün isə səlim bir qəlbə ehtiyac var. Çünki Qurani-Kərim sirlərini ancaq səlim qəlbə açar. Günahlarla qaralmış bir ürək Qurani-Kərimin sirrindən heç nə anlaya bilməz.

**Mövlana** -quddisə sirruh- belə buyurur:

*“Qurani-Kərimin ayələrini, Həzrət Peyğəmbərin hədisi-şəriflərini oxumazdan əvvəl özünü topla! Gül bağçalarındakı gözəl qoxuları hiss etmirsənsə, qüsuru bağçada deyil, könlündə və burnunda axtar!..”*

Qurani-Kərimə qarşı səhlənkar davranmaq insanın mənəvi həyatını qaraldan böyük bir xətadır. Bu səbəblə həm özümüzün, həm də övladlarımızın Qurani-Kərim təhsilinə laqeyd yanaşmamalıyıq. Xarici dil öyrənmələri üçün min bir əmək verib kolleclər arasında müqayisələr edərkən, Quran Kurslarını gözardı edərək -hətta xor görərək- uşaqları ilahi kəlamdan məhrum etmək, nə həzin bir aldanışdır…

**Əbu Bəkr Vərraq həzrətləri**nin kiçik bir oğlu vardı. Müəllimindən Qurani-Kərim öyrənirdi. Bir gün məktəbdən rəngi saralmış halda və titrəyərək qayıtdı. Atası təəccüb etdi:

“- Xeyirdir, oğlum! Bu nə haldır, məktəbdən niyə tez gəldin” deyə soruşdu. Oğlu:

“– Atacan! Bu gün müəllimimiz mənə Qurandan bir ayə öyrətdi, onun mənasını düşünüb qorxumdan bu hala gəldim!” dedi.

“– Övladım, o hansı ayədir?”

Kiçik uşaq oxumağa başladı:

**“Elə isə əgər küfr etmiş olsanız, uşaqları ağ saçlı qocalara döndərəcək gündən** (qiyamət gününün əzabından) **özünüzü necə qoruyacaqsınız?!”** (əl-Müzzəmmil, 17)

Daha sonra azyaşlı uşaq bu ayənin dəhşət və heybətindən xəstələnib yatağa düşdü, çox keçmədən də ruhunu Rəbbinə təslim etdi.

Əbu Bəkir Vərraq həzrətləri tez-tez oğlunun qəbirini ziyarət edər və ağlayaraq belə deyərdi:

“–Ey Əbu Bəkr! Oğlun Qurandan bir ayə öyrəndi və Allah qorxusundan ruhunu təslim etdi. Sən isə bu qədər zamandır Qurani-Kərim oxuyursan, hələ hüquqi-ilahidən bir uşaq qədər də qorxmursan!..”

**Rəsulullah ﷺ buyurur:**

**"Göndərilən hər peyğəmbərə insanların imana gəlməsinə səbəb olacaq bir möcüzə mütləq verilmişdir. Mənə verilən möcüzə də Allahın göndərdiyi Qurani-Kərimdir. Bu səbəblə qiyamət günü ümmətimin digərlərindən daha çox olmasını ümid edirəm."**

**(Buxari, Etisam, 1)**

Tarix şahiddir ki fərdlər, ailələr və millətlər, ilahi əmanət olan Qurani-Kərimə tabe olduqları nisbətdə abad olmuşlar. Qurani-Kərimə hörmət üzərinə qurulan Osmanlı Dövləti əsrlərə və qitələrə hökm etmişdir. Qurani-Kərimi qəbul etməyən birliklər belə -bugünkü Qərb aləmi kimi- yaşadıqları dünyəvi rifah və dincliyi Qurandan olduğunu bilmədən tətbiq etdikləri bəzi düsturlara borcludurlar.

## Son Peyğəmbərin Ən Böyük Möcüzəsi

Qurani-Kərim müəyyən bir zamanda baş verən əməli möcüzələr kimi deyil, söz və məna baxımından möcüzə olub, insanın ağlına və könlünə xitab edər. Nə qədər ki, ağıl və elm var, Quran ayələri təfəkkür edilib aydın olacaq, ehtiva etdiyi incəliklər gündən-günə ortaya çıxacaqdır. Hər əsrdə onun möcüzəsini qəbul edən elm adamları var olacaqdır. Bu vəsilə ilə Allah Rəsulunun ümməti artmağa davam edəcək.

Necə ki, əsrlər sonra edilən elmi kəşflər Qurani-Kərimin möcüzə olmasını təkrar-təkrar ortaya qoymaqdadır. İnsanın yaradılış mərhələləri, kainatın sirləri kimi nə qədər fiziki, coğrafi, tibbi, ictimai sahələrdə aparılan araşdırmalar hər gün bu həqiqəti gözlər önünə sərməkdədir.



Məsələn, 1400 il əvvəl ulduzlarla yalnız fala baxılır və yolu təyin etmək üçün onlar əsas alınırdı. Aralarındakı məsafələr, sahib olduqları xüsusiyyətlər bilinmirdi. Lakin Al-

lah Vaqiə surəsinin 75 və 76-cı ayələrində:

**“Xeyr! Ulduzların yerlərinə and içərəm ki, bilsəniz, həqiqətən bu, böyük bir anddır.”** buyurdu.



Müasir fizika və astrofizik mütəxəssisləri, “ulduzların yerləri”ndən məqsədin, onların doğulduğu “ağ dəliklər” və ölüb yox olduğu “qara dəliklər” olduğunu ifadə edirlər.

Ağ dəliklər, ağlasığmaz bir enerji mənbəyidir. Milyardlarla ulduz doğacaq qədər enerjiyə sahibdirlər. Bunlar sanki qalaktikaların toxumlarıdır.

1950-ci illərdən sonra kəşf edilən qara dəliklər isə əsrarəngiz bir ulduz qəbiristanlığıdır. Bunlar da ətraflarında olan maddi bütün varlıqları və zamanı, öz naməlumluqlarında yox edərlər.

Ayrıca, **“Ulduzlar söndürüldüyü zaman”** (əl-Mürsəlat, 8) ayəsində işarə edildiyi kimi, qara dəlik ulduz deyil, sönmüş bir ulduzun yeridir. Bu həqiqət Quranda keçən sözlərin nə qədər həssaslıqla seçildiyini göstərməkdədir.

Allah-Təala bu və bənzəri ayələrlə 21-ci əsrin insanına səmadakı ilahi əzəməti və qüdrət axışlarını göstərməkdədir. Bu gün elm səmadakı məsafələri ancaq işıq illəriylə ölçə bilir ki, bu da insan idrakını aciz qoyan bir məsələdir.

Vaqiə surəsindəki ayeyi-kərimənin böyük bir andla təmas etdiyi bu mövzu əsrimizin məlumatları işığında ancaq bu qədər aydın ola bilmiş-

***Ayeyi-kərimədə buyurulur:***

***“Biz göyü qüdrətimizlə (qüdrət əlimizlə) yaratdıq və Biz (istədiyimiz hər şeyi yaratmağa) qadirik.”*** *(əz-Zariyat, 47)*

***Elm xadimləri səma cisimlərinin durmadan bizim qalaktikamızdan uzaqlaşmaqda olduğunu ancaq iyirminci əsrdə kəşf edə bildilər. daha sonra bu kəşfdən yola çıxaraq kainatın genişləndiyi qənaətinə gəldilər.***

*1400 ildir elmi kəşflərlə sabitdir ki, Qurani-Kərim daima öndə getməkdə, elmsə onu şərh və təsdiq edərək arxasınca gəlməkdədir.*

dir. Şübhəsiz ki, ayə hələ açıqlanacaq olan nə qədər hikmətləri ehtiva etməkdədir.

Yenə Qurani-Kərimdə dünyanın yuvarlaq olduğuna işarə edən bir çox ayeyi-kərimə vardır. Bunların birində:

**"Allah, gecəni gündüzə, gündüzü də gecəyə dolayar!"** (əz-Zumər, 5) buyurulmaqdadır.

Bu ayədə keçən "təkvir" (يُكَوِّرُ) sözü baş kimi kürə şəklindəki bir cismin ətrafında bir şeyi, məsələn sarığı çevirərək dolamaq deməkdir.

Ay və günəşin hərəkətləriylə əlaqədar olaraq da Yasin surəsində belə buyurulur:

**"Günəş də özü üçün müəyyən olunmuş yerdə seyr edər. Bu, yenilməz qüvvət sahibi olan,** (hər şeyi) **bilən Allahın təqdiridir** (əzəli hökmüdür)**. Biz ay üçün mənzillər müəyyən etdik. Nəhayət, o** (həmin mənzilləri başa vurduqdan sonra) **dönüb xurma ağacının qurumuş əyri budağı kimi** (hilal şəklində) **olar. Nə günəş aya çatar** (yetişər), **nə də gecə gündüzü ötə bilər.** (Günəş, ay və ulduzların) **hər biri** (özünə məxsus) **bir göydə** (öz hədəqəsində, öz dairəsində) **üzər."** (Yasin, 38-40)



Quran ayələrinin nazil olduğu miladi yeddinci əsrdə ay və günəşin müəyyən bir orbitdə dairəvi hərəkətlərini düşünmək belə mümkün deyildi. Bütün bunlar göstərir ki, Quran daima öndən gedir, elmsə onu izləyir.

Beləliklə **Həzrət Mövlana**nın Qurani-Kərimə dair bu ifadələri hər keçən gün daha yaxşı aydınlıq tapır:

*“Qurani-Kərimin zahirini bir miqdar mürəkkəblə yazmaq mümkündür. Ehtiva etdiyi bütün sirləri ifadə etmək üçünsə sahilsiz dəryalar mürəkkəb, yer üzündəki bütün ağaclar da qələm olsa yenə də kifayət etməz.”*

14 əsrdən bəri, Qurani-Kərimin elmə və fənnə təzad təşkil edən bir ayəsini belə göstərmək mümkün deyil. Əksinə, hər əsrdə edilən kəşf və icadlar Quranın ucalığının daha yaxşı başa düşülməsini təmin etməkdədir. Qurani-Kərim 1400 il əvvəlki bir bədəvinin ehtiyacını qarşılayıb həyatını ən gözəl şəkildə nizama salırdı. Bugünün ən yüksək səviyyədəki elm mütəxəssisini də əhatə edəcək məlumatları ehtiva etməklə, elm dünyasını heyrət və dəhşətə salmaqdadır. Çünki o, qiyamətə qədər olmuş və olacaq bütün elmi kəşflərə liderlik edən ən mükəmməl məlumatlarla doludur.

## SİYƏR və HƏDİSİ-ŞƏRİF SAHƏSİNDƏ DƏRİNLƏŞMƏK

Məhəbbətin ilk şərti seviləni unutmamaq, söz, hərəkət, hiss və fikir baxımından ona bənzəməkdir. Yenə həyatın hər anında sevdiyini izləyib ondan ayrı düşməkdən və ona müxalifətdən çəkinməkdir. Peyğəmbərimizin eşqiylə dolu bir ürəyə sahib ola bilmək üçün əvvəlcə Onun sünneyi-səniyyəsini gözəlcə öyrənib yaşamaq lazımdır.



**Rəsulullah ﷺ belə buyurmuşdur:**

**“Nəfsim qüdrət əlində olan Allaha and olsun ki, mən sizdən birinizə anasından, atasından, övladından və bütün insanlardan daha sevimli olmadıqca həqiqi mənada iman etmiş ola bilməz.”**

**(Buxari, İman, 8)**



Çünki Onun həyatı bilinmədən və ürəklər Onun sevgisiylə bəzənmədən, məqbul bir İslami yaşayış mümkün deyil. Allahın sevgisini qazanmaq da Peyğəmbərimizə tam bir şəkildə tabe olmağa bağlıdır.[80] **Rəsulullah** ﷺ məhz bu səbəblə "məhəbbət" məsələsində həssaslıq göstərmişdir.

O, "Axırzaman Nəbisi" və "Peyğəmbərlərin Sonuncusu"dur. Bu səbəblə O, qiyamətə qədər gələcək bütün bəşəriyyət üçün ən gözəl nümunə şəxsiyyətdir.

Əvvəlki peyğəmbərlərin həyatlarından günümüzə, son dərəcə məhdud bəzi xatirələr gəlib çatmışdır. Halbuki Axırzaman Nəbisinin ən sadəsindən ən dolaşıq və mükəmməlinə qədər demək olar ki, bütün hərəkət və sözləri nəql edilmişdir. Könül aləmi də ifadə edilə bildiyi nisbətdə an-bəan təqib edilmiş və tarixə bir şərəf lövhəsi halında yazılmışdır. Bu səbəblə tarixdə bütün həyatı ən incə təfərrüatına qədər öyrənilə bilən yeganə insan Rəsulullahdır. Məhz İslam əxlaqını nəzəriyyədən praktikaya yüksəldən və digər əxlaqi sistemlərdən üstün edən də budur.

Bizim borcumuz Peyğəmbərimizin sadə həyatını və hədisi-şəriflərini ən gözəl şəkildə öyrənməyə, yaşamağa və öyrətməyə çalışmaqdır.

***Əbu Zərr** رضي الله عنه **belə deyərdi:***

***"Allaha and olsun ki, Rəsulullah axirətə köçərkən bizi elə bir halda qoyub getmişdi ki, qanadlarıyla uçan bir quş haqqında belə məlumatımız vardı. Çünki aləmlərin sərvəri bizə: "Cənnətə yaxınlaşdıran, cəhənnəmdən də uzaqlaşdıran nə varsa hamısı sizə açıqlanmış, heç nə əskik qalmamışdır."- buyurmuşdu."***

80. Ali- İmran, 31

Peyğəmbərimizin həyatı və hədisi-şəriflər Quranı anlamaq üçün vazkeçilməz bir qaynaqdır. Bunlar Qurani-Kərimin ilk və ən mükəmməl təfsiridir. Eyni zamanda bir müsəlmanın İslam mədəniyyətinə bələd ola bilməsi də Peyğəmbərimizin nümunəvi həyatından özünə pay götürərək yaşamasına bağlıdır.



Xülasə, müsəlman bir gənc həyatın hər mərhələsiylə əlaqədar ən gözəl, ən doğru və ən ülvi ölçüləri Siyəri-Nəbidə (Peyğəmbərin həyatında) tapa bilər. Bu həqiqəti qərbli bir mütəfəkkir belə etiraf etmişdir:

"Heç kim Həzrət Məhəmmədin həyat ölçülərindən daha irəliyə bir addım ata bilməz. Bütün müvəffəqiyyətlərinə baxmayaraq avropalıların qoymuş olduğu qanun və nizamlar, İslam mədəniyyətinə görə əskikdir. Biz Avropa millətləri mədəni imkanlarımıza baxmayaraq Həzrət Məhəmmədin son pilləyə qədər yüksəldiyi nərdivanın hələ ilk pilləsindəyik. Şübhə yoxdur ki, heç kim bu yarışda Ondan qabağa keçə bilməyəcək. Və bu kitab (Quran) da son dərəcə əyani olduğundan əbədi olaraq təsirini itirməyəcək və digər millətləri ətrafına toplayacaq." (Johann Wolfgang von Goethe)

***Peyğəmbərimiz ﷺ Vida Həccində belə buyurmuşdur:***

***"... Sizə elə bir əmanət qoyub gedirəm ki, ona sıx bağlandığınız müddətdə yolunuzdan azmazsınız. O əmanət Allahın Kitabı və Nəbisinin Sünnəsidir..."***

***(Hakim, 1, 171/318)***

## Elm və İrfan Məktəbi: ƏSHABİ-SUFFƏ

**Allah Rəsulu** səhabələrinin təlim və tərbiyəsinə çox böyük əhəmiyyət vermişdir. Necə ki, Məscidi-Nəbəvinin arxa tərəfinə, ətrafı açıq və üstü xurma budaqlarıyla örtülü bir suffə (çardaq) tikdirmişdi. Uzaqdan gələn və ailəsi olmayan kasıb müsəlmanlar burada qalardılar. Onlara "Əshabi-Suffə" və ya "Əhli-Suffə" deyilərdi.[81]

Bəzi qaynaqlarda Suffə əhlindən olduğu deyilən yüzdən çox səhabənin adı zikr edilir. Bunların dolanışığını Rəsulullah ﷺ təmin edər və imkanlı səhabəni də onlara kömək etməyə təşviq edərdi.

81. İbni Sad, I, 255.



**Allah Rəsulu ﷺ belə buyurmuşdur:**

**"Bir kimsə elm əldə etmək arzusuyla bir yola çıxsa, Allah o adamı cənnətin yollarından birinə sövq edər. Mələklər əməlindən məmnun olduqları üçün elm öyrənmək istəyən kimsənin üzərinə qanadlarını gərərlər. Göylərdə və yerdə olan hər şey, hətta sudakı balıqlar da alim üçün Allaha istiğfar edərlər. Alimin abidə olan üstünlüyü bütöv ayın digər ulduzlara olan üstünlüyü kimidir. Alimlər peyğəmbərlərin varisləridir. Peyğəmbərlər miras olaraq qızıl və gümüş qoyub getməzlər, onlar elmi miras qoyarlar. Kim bu mirasa sahib olarsa, böyük bir qismətə sahib olar."**

**(Əbu Davud, Elm, 1/3641; Tirmizi, Elm, 19/2682)**

Əshabi-Suffədən olan **Əbu Hüreyrə** ﷺ belə buyurmuşdur:

“Suffə əhli İslamın qonaqları idi. Onların nə sığınacaq bir ailələri, nə malları, nə də bir kimsələri vardı. Bir sədəqə gəldiyi zaman Peyğəmbərimiz onlara göndərər, özü ondan heç bir şey götürməzdi. Əgər gələn şey hədiyyə olardısa özü ondan bir az götürüb qalanını Əshabi-Suffəyə göndərərdi. Beləcə, gələn hədiyyəni onlarla paylaşardı.” (Buxari, Riqaq, 17)

Yenə Əbu Hüreyrə belə demişdir:

“Mən Suffə əhlindən yetmiş adamı gördüm. Heç birinin üzərində bütün bədənini örtən bir paltar yox idi...” (Buxari, Salət, 58)

Əshabi-Suffə dinin qaynağına ən yaxın, Allah Rəsulunun məclisinə ən çox davam edən insanlar idi. Yüksək səviyyədə və sanki sürətləndirilmiş bir təhsil alırdılar. Bu səbəblə yetişmələri daha sürətli olurdu. Müəllimləri başda **Rəsulullah** ﷺ olmaq şərtiylə **Übey bin Kəb, İbn Məsud, Muaz bin Cəbəl** və **Übadə bin Samit** kimi gənc və alim səhabələr idi.

Ən çox hədisi-şərif rəvayət edən səhabələr (muksirun) ümumiyyətlə onlar arasından çıxmışdır. Bunların başında gələn **Əbu Hüreyrə** ﷺ belə deyir:

“İnsanlar «Əbu Hüreyrə çox hədis nəql edir.» deyə təəccüb edirlər... Mühacir qardaşlarımız bazarda ticarətlə; Ənsar qardaşlarımız tarlada, bağçada əkinçiliklə məşğul ikən, Əbu Hüreyrə qarın toxluğuna Allah Rəsulunun yanında olar, digər-

***Peyğəmbərimiz ﷺ əshabi-kirama ən çətin şərtlərdə də Quranı təlim edirdi. Əbu Talha ﷺ bir gün Rəsulullahın ayaq üstə dayanan Əshabi-Suffəyə Quran öyrətdiyini görmüşdü. O Rəsullar sultanı acından ikiqat qalan belini düzəltmək üçün qarnına daş bağlamışdı.***

***(Əbu Nuaym, Hilyə, 1, 342)***



lərinin şahid olmadığı bir çox məslələrə şahid olur, onların əzbərləyə bilmədiklərini əzbərləyirdi.” (Buxari, Elm, 42)

İslamı öyrənmək üçün qısa bir müddətə Mədinəyə gələn heyətlər bir tərəfdən Peyğəmbərimizlə görüşərkən digər tərəfdən də Əshabi-Suffədən bilmədikləri xüsusları öyrənirdilər. Mədinə xaricində yeni müsəlman olan qəbilələrə İslamı öyrətmək üzrə bir müəllim göndərmək lazım gəldikdə yenə Suffə səhabələri arasından seçilirdi.

*Ədəbin ən fəzilətlisi insanın həddini bilərək sərhədini aşmaqdan çəkinməsidir. Bu səbəblə “Üləmanın yanında dilinə, övliyanın yanında qəlbinə, süfrədə əlinə, qonaq getdiyin yerdə gözünə sahib ol!” demişlər.*

## MÜƏLLİMƏ HÖRMƏT

Müəllimə hörmət təhsilin ən təməl prinsipidir. Bunun ən gözəl nümunəsi əshabi-kiramın Peyğəmbərimizə göstərdiyi hörmətdir. Onlar Peyğəmbərimizin söhbətlərində ikən sanki başları üzərində bir quş var və tərpənsələr uçacaqmış kimi ədəb və sükunət içində olardılar.[82] Rəsulullahın yanında əsla səslərini yüksəltməz, yüksək səslə danışan olarsa dərhal xəbərdarlıq edərdilər. Həzrət Əbu Bəkr və Həzrət Ömər kimi böyük səhabələr belə Peyğəmbərə bir söz deyrkən sanki sirr söyləyirmiş kimi xəfif səslə danışardılar. Hətta yüksək ehtiramları səbəbiylə Allah Rəsulunun üzünə doya-doya baxmazdılar.[83]



82. Bax. Buxari, Cihad, 37; Əbu Davud, Tibb 1, Sünnə 24; Nəsai, Cənaiz, 81; İbn Macə, Cənaiz, 37.
83. Bax. Tirmizi, Mənaqib, 16/3668; Dəavat, 98/3535; Əhməd, IV, 240.

Misir fatehi **Amr bin As** ﷺ belə demişdir:

*"Uzun müddət Rəsulullahla ﷺ birlikdə oldum. Lakin Onun hüzurunda duyduğum həya hissi və Ona qarşı bəslədiyim təzim duyğusu səbəbiylə başımı qaldırıb doya-doya mübarək və nurlu üzünə tamaşa edə bilmədim. Əgər bu gün mənə: «Bizə Rəsulullahı təsvir et.» desələr, inanın ki, izah edə bilmərəm."* (Müslim, İman, 192; Əhməd, IV, 199)



Əshabi-kiram Peyğəmbərimizə diqqətlə qulaq asar, söylədiklərini ən gözəl şəkildə anlayıb yaşamağa və təbliğ etməyə çalışardılar. Necə ki, **Allah Rəsulu** ﷺ bir yatsı namazı vaxtı səhabələrinə:

*"-Sabah namaz üçün toplanın, sizə bildirmək istədiyim xüsuslar var."* buyurmuşdu. Səhabələrdən biri yoldaşlarına belə dedi:

"-Ey filankıəs, sən Rəsulullahın söyləyəcəyi ilk sözü, sən ikinci sözü, sən də ondan sonrakını yaxşı yadda saxla ki, Allah Rəsulunun deyəcəklərindən heç bir şey qaçırmayaq…" (Heysəmi, I, 46)

**Fateh Sultan Mehmed Xan** İstanbula girərkən özünü çiçəklərlə qarşılayan insanlara ustadı **Ağşəmsəddin** həzrətlərini göstərmiş və bu iltifatların əslində onun haqqı olduğunu ifadə etmişdir. O gün ətrafındakılara belə söyləmişdir:

"- Məndə gördüyünüz bu sevinc və rahatlıq sadəcə bu şəhərin fəthi səbəbiylə deyil. Ağşəmsəddin kimi

***Rəsulullah ﷺ buyurur:***

***"Alimin abidə olan üstünlüyü mənim aranızdakı ən aşağı səviyyədə olanınıza üstünlüyüm kimidir…"***

***(Əbu Davud, Elm, 1)***

İldırım Bəyazid xanın oğlu Şahzadə Süleyman dərslərinə qarşı laqeydliyi səbəbiylə müəllimi tərəfindən yüngülcə cəzalandırılmışdı. Şahzadə buna hiddətlənərək düz saraya getdi və vəziyyəti atasına şikayətlə izah etdi. İldırım xan da dərhal müəllimi çağırdıb məsələni soruşdu:

"- Süleymanı nə üçün cəzalandırdın?"

Müəllim çox sakit və ağır bir şəkildə bu tarixi cavabı verdi:

*"-Padşahım! Şahzadəniz sabah bu dövlətin idarəsinə talib olacaq. Ümmət ona əmanət ediləcək. Onun cahil qalması millətinə zərər verər. Bəli, o indi bir şahzadədir, ancaq hələ elm və hal əhli ola bilməmişdir. Bu səbəbdən mən onu yetişdirməyə məmur və lazım olduğu şəkildə də tərbiyəsinə məcburam..."* dedi.

İldırım Bəyazid hörmətlə gözlərini yerə dikdi və:

"- Haqlısınız, müəllim! Siz lazım gəlsə, məni də cəzalandırarsınız! Sizin kimi ustadlar başımızda olduğu müddətcə biz dünyaya hökm edəcəyik." dedi.

İncə ruhlu padşahın cavabındakı bu nəzakətli nüansı qavrayan müəllim ertəsi gün dərsə gəlib, ondan oğlunu nə üçün cəzalandırdığını soruşmaq istəyən İldırım xana qəsdən iltifat etmədi. Beləcə, müəlliminin mənəvi rütbəsinin atasından yüksək olduğunu görən şahzadə səhvini anladı və o gündən sonra dərslərinə son dərəcə səy göstərən bir tələbə oldu.

əziz və mübarək bir Allah dostunun mənim zamanımda və mənimlə birlikdə olmasındandır...”

Sultan Fateh bir çox məmurlara zamanın dolanışıq şərtlərinə görə gündəlik iki-üç axça verdiyi halda müdərrislər üçün gündə əlli axça təyin etmişdi. **Əli Quşçu** kimi bəzi böyük alimlərə isə gündə iki yüz axça təyin etmiş, bütün ailə və qohumlarına da çoxlu ehsanlar etmişdi.

Tarixçi **Lətifi**nin ifadəsinə görə Fateh Sultan Mehmed harda qüdrətli bir alimin varlığını eşitsə, nə qədər uzaqda olursa-olsun onu minlərlə xələt və iltifatla məmləkətinə dəvət edər, həmin adama yüksək vəzifələr verərdi. Necə ki, zamanın ən böyük riyaziyyat və astronomiya alimlərindən Əli Quşçu İstanbula gələrkən elminə hörmət olaraq qət etdiyi hər mənzil üçün min axça təyin etmişdi. İstanbula gəldiyində bütün xalq ayağa qalxmışdı. O zamana qədər heç kim bu



**Yavuz Sultan Səlim Xan və ordusu Adana ətrafında şiddətli bir yağışa düşmüşdülər. Hər yer palçıq gölməçəsinə çevrilmişdi. Bu əsnada Səlim Xan dövrün məşhur alimlərindən Kamal Paşazadə ilə söhbət edərək yanaşı gedirdilər. Birdən Kamal Paşazadənin atı ürkdü və ayağından sıçratdığı palçıqla Yavuzun üstündəki kaftanı batırdı. Kamal Paşazadə çox kədərləndi, rəngi qaçdı. Yavuz təbəssümlü çöhrə ilə:**

**“- Üləmanın atının ayağından sıçrayan palçıq bizim üçün şərəfdir, mübarəkdir. Bu palçıqlı kaftanı mən öləndə sənduqəmin üstünə örtün!” buyurdu.**

*Alimin ölümü aləmin ölümü kimidir.*

cür qarşılanmamışdı. Fateh işlərinə öz bölgələrində davam edən bəzi elm adamlarına da hər ay yüksək miqdarda maaş göndərirdi.[84]

Elm əhlinə göstərilən bu hörmət və iltifat Osmanlı Dövlətində elmin rəvac tapıb təkamül etməsini təmin edən ən böyük qüvvət və dəstək olmuşdur.

**Osman Qazi**nin **Şeyx Ədəbali**si, **İldırım**ın **Əmir Sultanı**, **II. Murad**ın **Hacı Bayram Vəli**si, **II. Bəyazid**in **Mehdi Paşa**sı, **Qanuni**nin **Mərkəz** və **Sünbül Əfəndi**ləri, **III. Murad, I. Əhməd** və **IV. Murad**ın **Əziz Mahmud Hüdayisi**... Bu böyük şəxsiyyətlər müəllim ilə tələbə arasındakı hörmət və məhəbbətin ən şanlı misallarıdır.

84. Mustafa Runyun - Osman Keskioğlu, *Fatih Devrinde İlim ve O devirde Yetişen İlim Adamları,* Ankara 1953, s. 6-7, 13, 18.

# *Gənclik və Əxlaq*

# GÖZƏL ƏXLAQ SAHİBİ OLMAQ

**Allah Rəsulu ﷺ buyurur:**

**"Qiyamət günündə mömin bəndənin tərəzisində gözəl əxlaqdan daha ağır bir şey ola bilməz. Allah-Təala çirkin hərəkətlər edən, çirkin sözlər söyləyən kimsəyə nifrət edər."**

**(Tirmizi, Birr, 62/2002)**

Əxlaq Allah-Təalanın biz bəndələrində görmək istədiyi gözəl xasiyyətlərdən ibarətdir. Bu baxımdan gözəl əxlaq sahibi olmaq Allaha yaxınlığımızın ən bariz əlamətidir. Qulluq həyatımızın səviyyəsini taclandıran ülvi bir qiymətdir.

İnsanın izzət və şərəfini təşkil edən əxlaq onun ən diqqətə çarpan şəxsiyyətini də ortaya qoyar. Buna görə əxlaq insan oğlunun üstün bir xüsusiyyətidir.

Əxlaqın məqsədi insana daima ilahi kameralar altında yaşadığı idrak və şüurunu qazandırmaqdır. Onu xam keyfiyyətlərdən təmizləyib **"insani-kamil"**ə çevirməkdir. Nəzakət, zəriflik, ədəb, həya, comərdlik, şəfqət, mərhəmət kimi yüksək xüsusiyyətləri, təbiəti-əsliyyə halında insana nəqş edə bilməkdir. Bu baxımdan əxlaq din və imanın ayrılmaz bir parçası, hətta onun ruhu və özəyi mövqeyindədir. Necə ki, **Allah Rəsulu** da uca vəzifəsini:



Bir gün Həzrət Əli belə buyurdu:

"–Sübhanallah! İnsanların çoxu xeyir işləməkdən nə qədər də geri qalırlar! Düzü, çox təəccüblüdür, birinin yanına müsəlman qardaşı bir ehtiyacı üçün gəlir, o adam isə özünü xeyir işləməyə möhtac görməz, (qardaşının ehtiyacını qarşılamaz)! O adamın savaba ehtiyacı yoxsa cəzaya uğramaqdandamı qorxmur?! Halbuki onun gözəl əxlaqa can atması lazımdır. Çünki gözəl əxlaq insanı qurtuluşa aparır."

Bu əsnada bir adam qalxıb:

"–Anam-babam sənə fəda olsun, ey Möminlərin Əmri! Sən bunları Peyğəmbərimizdənmi eşitdin?" deyə soruşdu.

Həzrət Əli ﵁ belə cavab verdi:

"–Bəli. Ancaq bundan daha gözəlini də eşitdim. O da budur: Tayy qəbiləsinin əsirləri gətirildiyində içlərindən bir qadın, çox fəsih bir dillə:

«–Ey Məhəmməd! Əgər münasib görürsənsə bizi azad et! Ərəb qəbilələrini bizə güldürmə! Mən bu qövmün rəisinin qızıyam. Atam insanların şərəf və heysiyyətini qoruyar, əsirləri xilas edər, borclu və xəstə olanlara kömək edərdi. Acları doyurar, möhtacları geyindirər, qonağı saxlayar, yemək yediyərər, salamı yayardı. Bir ehtiyacı üçün gələn adamı əsla geri qaytarmazdı. Mən Xatəmi Tainin qızıyam.» dedi.

Bunun üzərinə Rəsulullah ﷺ:

«–Ey qadın! Bu saydıqların gerçək möminlərin vəsfləridir. Əgər atan müsəlman olsaydı ona mərhəmət edər, çox yaxşı davranardıq. Bu qadını sərbəst buraxın! Çünki onun atası gözəl əxlaqı sevərdi. AllahTəala da gözəl əxlaqı sevər.» buyurdu.

Əbu Bürdə ﵁ ayağa qalxıb heyrətlə soruşdu:

«–Ya Rəsulallah! Allah gözəl əxlaqı sevərmi?»

Rəsulullah ﷺ belə cavab verdi:

«–Nəfsim qüdrət əlində olan Allaha and içirəm ki, heç kim gözəl əxlaqa sahib olmadan cənnətə girə bilməz!»" (Beyhəqi, Dəlail, № 2087 [Vəfdu Tayy]; Şuab, VI, 241/8013)

*"Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim."* hədisi ilə xülasə etmişdir. (Muvatta, Hüsnül-Xulq, 8)

Deməkki, əxlaqi gözəlliklərdən məhrum bir dini həyat düşünülə bilməz. Əxlaqi keyfiyyətlərlə bəzədilməyən iman qorumasız şam işığı kimidir. Eqoist və şeytani fırtınalar qarşısında daim böyük bir təhlükə və risk altındadır.

Elə isə dinimizi və imanımızı sanki mənəvi bir zireh olan gözəl əxlaq ilə mühafizə altına almalıyıq. **Rəsulullah** ﷺ:

*"Cəbrayıl mənə Allah-Təalanın belə buyurduğunu söylədi:*

*«Bu din (yəni İslam) Zatım üçün seçib razı olduğum bir dindir. Ona ancaq* ***comərdlik və gözəl əxlaq*** *yaraşar. Müsəlman olaraq yaşadığınız müddətcə onu bu iki xüsusiyyətlə ucaldın!»"* (Heysəmi, VIII, 20; Əli əl-Müttəqi, VI, 392)



Bu hadisə gözəl əxlaqın, insanı iman və hidayət iqliminə aparan mənəvi bir körpü nisbətində olduğunu nə gözəl ifadə etməkdədir:

**Həzrət Xədicə** anamızın qohumu olan **Hakim bin Hizam** رضي الله عنه gözəl əxlaq sahibi idi. Bu səhabə müsəlman olmadan əvvəl də son dərəcə comərd, müşfiq, xeyir-həsənat sahibi idi. Qızlarını diri-diri basdırmaq istəyən atalardan onları pul verərək alar, həyata qovuşdurar və himayəsinə götürərdi. Cahiliyyə dövründə yüz kölə

***İnsanın sadəcə surət olaraq deyil, əxlaqi cəhətdən də insan ola bilməsi ancaq gözəl vərdişlərlə bəzənib pis vərdişləri tərk etməsiylə mümkündür.***

azad etmiş və yüz dəvəni həcc əsnasında qurban kəsmək və möhtaclara paylamaq surətiylə sədəqə vermişdi. Müsəlman olduqdan sonra da yenə Allah yolunda yüz dəvə infaq etdi və yüz köləni azadlığına qovuşdurdu. Bir gün **Peyğəmbərimiz**dən:

"-Ey Allahın Rəsulu! Cahiliyyə dövründə etdiyim bəzi xeyir işlər var: Sədəqə vermək, kölə azad etmək, qohum-əqrəbanı himayə etmək kimi… Bunlara müqabil mənə əcr veriləcəkmi?" deyə soruşdu.

Rəsulullah ﷺ:

*"-Sən əslində daha əvvəl etdiyin bu xeyirlər hörmətinə İslamla şərəfləndin!"* buyurdu. (Bax. Buxari, Zəkat 24, Büyü 100, İtq 12, Ədəb 16; Müslim, İman 194-196)

İnsanı həyatda ən böyük nemət olan "iman" ilə şərəfləndirən gözəl əxlaqın Haqq qatındakı dəyərini düşünmək lazımdır. Bir də bunu düşünmək lazımdır ki, kafirlərin hidayətinə vəsilə olan gözəl əxlaq kim bilir iman əhlini nə kimi ülvi mərtəbələrə nail edər…

Gözəl əxlaqa sahib olmağın yolu heç şübhəsiz Allah Rəsuluna və Onun izindən gedən saleh qullara dost olmaqdan keçər. Fəzilətlər halqasına daxil olmağın ilk şərti budur. Onların dostluğundan uzaqlaşmaq isə adamı pis əxlaqa və qəflət girdabında həlak olmağa sürükləyər.

***Kamil bir imanın ilk meyvəsi mərhəmətdir. İnsan imanda kamilləşdikcə könül dünyası getgedə genişlənərək bütün məxluqatı qucaqlayan mərhəmət dərgahına çevrilir.***



## Mərhəmət

Mərhəmət insanlığımızın bu aləmdəki ən qiymətli cövhəridir ki, bizi qəlbən Haqqın vüslətinə çatdırar. Mərhəmətli mömin comərd,

tәvazökar, xidmәt әhli vә eyni zamanda ruhlara hәyat aşısı edәn bir könül hәkimidir.



Bir mömindә imanın ilk meyvәsi, şәfqәt vә mәrhәmәtdir. Ondan uzaq bir könül canlı sayılmaz. Necә ki, Qurani-Kәrimi açdığımızda qarşımıza çıxan ilk sifәti-ilahiyyә **“Rәhman”** vә **“Rәhim”**dir. Daha sonra isә 300-dәn çox ayәdә mәrhәmәt tәlqin edilmәkdәdir. Rәbbimiz Uca Zatını, **“mәrhәmәtlilәrin әn mәrhәmәtlisi”** olaraq müjdәlәyir vә biz qullarına özünün bu әxlaqıyla әxlaqlanmağımızı әmr edir. Bu sәbәbdәn Haqqa mәhәbbәtlә dolu olan bir mömin qәlbinin Rәbbimizin bütün mәxluqatını şәfqәt vә mәrhәmәtlә qucaqlaması lazım olar.

**Allah Rәsulu**nun şәfqәt vә mәrhәmәti cahanşümul bir xüsusiyyәtә sahib idi. O, bir gün:

*“-Nәfsim qüdrәt әlindә olan Allaha and içәrәm ki, bir-birinizә mәrhәmәt etmәdikcә cәnnәtә girә bilmәzsiniz.”* buyurmuşdu.

Әshab-ı kiram:

“-Ya Rәsulallah! Hamımız mәrhәmәtliyik.” dedilәr.

Allah Rәsulu:

*“-(Mәnim nәzәrdә tutduğum) mәrhәmәt, sizin anladığınız şәkildә yalnız bir-birinizә olan mәrhәmәt deyil. Әksinә bütün mәxluqata şamil olan mәrhәmәtdir, (bәli) bütün mәxluqata şamil mәrhәmәt!..”* buyurdu. (Hakim, IV, 185/7310)

Bir şәxs:

**Rәsulullah ﷺ belә buyurur:**

**“Mәrhәmәt edәnlәrә Rәhman olan Allah-Tәala mәrhәmәt edәr. Yer üzündәkilәrә şәfqәt vә mәrhәmәt edin ki, sәmadakılar da sizә mәrhәmәt etsin!”**

**(Tirmizi, Birr, 16/1924)**

*Allah Rəsulunun bildirdiyinə görə susuzluqdan ləhləyən bir köpəyə su verən günahkar bi qadın sırf bu mərhəməti səbəbiylə bağışlanaraq cənnətlik olmuşdur. Bir pişiyə mərhəmətsizlik edərək onun ac qalmasına əhəmiyyət verməyən ibadət əhli bir qadın da cəhənnəmə düçar olmuşdur.*

*(Bax. Müslim, Salam, 151-153)*

"–Ya Rəsulallah, mən qoyun kəsərkən ona mərhəmət edirəm." demişdi.

Rəsulullah ﷺ:

*"–Qoyun da olsa bir canlıya mərhəmət etsən Allah da sənə mərhəmət edər."* buyurdu. (Əhməd, III, 436; Hakim, IV, 257)

Yenə Rəsulullah ﷺ belə buyurmuşdur:

*"Bir quşu kəsərkən belə kim mərhəmət etsə, Allah da ona qiyamət günü mərhəmət edər."* (Təbərani, Kəbir, VIII, 234/7915; Beyhəqi, Şuab, VII, 482)

Müsəlmanlar düşmənləri də olsa, Allahın qullarına şəfqət və mərhəmətlə rəftar edərlər. Musab bin Ümeyrin qardaşı **Əbu Əziz** Bədirdə müşriklərin bayraqdarlığını etmişdi. Döyüşün sonunda əsir düşdü. Əsarəti əsnasında müsəlmanlardan gördüyü şəfqət və mərhəməti belə nəql edir:

"Ənsardan olan bir birliyə təslim edilmişdim. Bədirdən qayıdarkən səhər və axşam yeməkləri gəldiyində çörəyi mənə verər, özləri quru xurma ilə keçinirdilər. Çünki Allah Rəsulu əsirlərə gözəl rəftar etmələrini tövsiyə etmişdi. Birinin əlinə bir çörək parçası keçsə dərhal mənə gətirərdi. Mən həya edər, çörəyi onlardan birinə qaytarardım, ancaq o təkrar mənə verər, əsla çörəyə əl dəyməzdi." (İbn Hişam, II, 288; Heysəmi, VI, 86)



**Əsma binti Əbu Bəkr** deyir ki:



“Cahiliyyə dövründə **Zeyd bin Amr**in ayaq üstə durub kürəyini Kəbəyə söykəyərək belə dediyini eşitdim:

«-Ey Qüreyş camaatı! Vallah mən xaric heç biriniz İbrahimin (ə) dini üzrə deyilsiniz!»

Zeyd diri-diri torpağa basdırılacaq qızları qurtarıb həyatlarını bağışlayardı. Qızını öldürmək istəyən adama:

«-Onu öldürmə! Onun xərclərini mən öz üzərimə götürürəm.» deyərdi. Qız böyüyüb yetkinlik yaşına çatdıqda atasına:

«-İstəyirsənsə onu sənə təslim edim, istəmirsənsə ehtiyaclarını qarşılamağa davam edim.» deyərdi.” (Buxari, Mənaqibul-Ənsar, 24)

Zeyddəki bu mərhəmət duyğusu onu şirk və küfrdən mühafizə etmiş, “hənif” olaraq axirətə köçməsini təmin etmişdir. **Rəsulullah** (s) onun haqqında:

*“O, qiyamət günündə, mənimlə İsa (ə) arasında ayrı bir ümmət olaraq dirildiləcək.”* buyurmuşdur. (Heysəmi, IX, 416)

## Təvazö

Bir mömin mənən kamala çata bilmək üçün əvvəlcə təvazö sahibi olmalıdır. Çünki özünü mükəmməl qəbul edənlər, qüsur və nöqsanlarını düzəltməyə yönəlməzlər. Çünki o qüsurların varlığını qəbul etməzlər.

***Haqqı sevən Onun məxluqatını da sevər. Haqla dost olan Onun yaratdıqlarıyla da dost olar. Bütün məxluqata Xaliqin şəfqət və mərhəmət nəzəriylə baxa bilməksə ilahi əxlaqla əxlaqlanmağın zəfəridir.***



**İmam Şafi həzrətləri buyurur:**

**“İnsanların qiymətcə ən yüksəyi özündə bir qiymət görməyəndir.”**

**Haqq dostu Bəhaəddin Nəqşbənd həzrətləri də belə deyir:**

**Aləm buğda mən saman,**

**Hər kəs yaxşı mən yaman!..**

Ayeyi-kərimələrdə insanın qürur və təkəbbürdən imtina etməsi əmr edilir:

**“Yer üzündə təkəbbürlə gəzib dolanma. Çünki sən nə yeri yara bilər, nə də** (boyca) **yüksəlib dağlara çata bilərsən!”** (əl-İsra, 37)

**“Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz!”** (Loğman, 18)

Hədisi-şərifdə belə buyurulmuşdur:

*“Kim Allah-Təalanın razılığı üçün bir dərəcə təvazö göstərsə, bu səbəblə Allah onu bir dərəcə yüksəldər. Kim də Allaha qarşı bir dərəcə qürur göstərsə, Allah da onu bu səbəblə bir dərəcə alçaldar. Nəticədə onu əsfələ-səfilinə (alçaqların aşağısına) düçar edər.”* (İbn Macə, Zöhd, 16)

**Rəsulullah** ﷺ kölələrin belə dəvətinə gedər, zaman-zaman eşşəyə minərdi. Miniyinin tərsinə insanları mindirər, yeməyini yerdə yeyərdi. Qalın yundan paltar geyər, oturub qoyun sağar, qonaqlarına şəxsən xidmət və ikram edərdi. Dulların, yoxsulların, biçarələrin işini görmək üçün ehtiyacları görülənə qədər onlarla birlikdə getməkdən çəkinməz və əsla təkəbbürlənməzdi

**Salman Farisi** رضي الله عنه Mədain valisi olduğu vaxt Şamdan bir nəfər gəlmişdi. Yanında əncir yükü vardı. Həzrət Salmanın əynində bir pal-

tar, bir də əba vardı. Şamdan gələn onu tanımırdı. Onu bu halda görüb:

"–Gəl bunu daşı!" dedi. Salman ﷺ gedib yükü götürdü. Xalq bu mənzərəni görüncə şamlıya:

"–Yükünü daşıyan bu adam validir!" dedilər. Şamlı:

"–Üzr istəyirəm, səni tanıya bilmədim." desə də Salman ﷺ:

"–Zərər yoxdur, yükü evinə aparana qədər kürəyimdən endirməyəcəyəm." qarşılığını verdi. (İbn Sad, IV, 88)

Şair nə gözəl söyləyir:

*Malu mülkə olma məğrur, demə; "Varmı mən kimi!"*

*Bir müxalif yel əsər, sovurar xırman kimi...*

## Comərdlik

Comərdlik əldə olanı ondan məhrum olana ikram etməkdir. Comərdliyin zirvəsi isə "isar"dır. İsarın ən gözəl tərifi, bu ayeyi-kərimələrdə verilmişdir:

**"Onlar öz iştahaları çəkdiyi** (özləri yemək istədikləri) **halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər.** (Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər:) **"Biz sizi**

***Mövlana həzrətləri belə buyurur:***

***"Bir padşah başqa bir padşaha qalib gələrsə, onu ya öldürər və ya zindana atdırar. Lakin eyni padşah bir yaralını, yazıq bir dərdlini görsə, yarasına məlhəm olar, ona ehsan edər.***

***Özünü üstün görmək, padşah olduğu üçün qürurlanmaq, bir zəhər olmasaydı, o qalib padşah, məğlub olmuş sultanı günahı olmadığı halda nə üçün öldürsün ki? Özünə xidmət və qulluq etmədiyi halda o düşkün dərdliyə nə üçün yaxşılıq edib halına acısın ki? Artıq bu iki vəziyyətə baxıb qürurun necə bir zəhər olduğunu anlaya bilərsən."***





**ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən** (bu ehsan müqabilində) **nə bir mükafat, nə də bir təşəkkür istəyirik. Həqiqətən, biz Rəbbimizdən, çox sərt** (müdhiş)**, çətin gündən** (üzlərin dəhşətdən eybəcər kökə düşəcəyi, çöhrələrin tutulub qaralacağı qiyamət günündən) **qorxuruq!" Allah da onları o günün şərindən qoruyacaq, onlara gözəllik və sevinc bəxş edəcəkdir** (üzlərinə təravət verəcək, qəlblərini sevindirəcəkdir)**."** (əl-İnsan, 8-11)

Comərdlik Allahın sifətlərindən biridir. Çünki Onun bir adı da "kərəm və ehsanı bol olan, sonsuz comərd" mənasına gələn **"Kərim"**dir. Ayrıca Rəhman, Rəhim, Vəhhab, Lətif, Təvvab, Ğaffər, Afuv, Rauf və Hadi kimi ilahi sifətlər də Allahın comərdliyini fərqli istiqamətlərdən ifadə etməkdədir.

**Allah Rəsulu** ﷺ də o qədər comərd bir insan idi ki, özündən bir şey istəndikdə əsla "yox" deməzdi. O, comərdliyin və bu xüsusiyyətə sahib olanların fəzilətini bəyan mahiyyətində belə buyurmuşdur:

*"Comərdlik budaqları dünyaya uzanan cənnət ağaclarından bir ağacdır. Kim onun budaqlarından hər hansı birindən tutarsa, bu onu cənnətə aparar. Xəsislik isə, budaqları dünyaya uzanmış cəhənnəm ağaclarından bir ağacdır. Kim də onun budaqlarından birindən yapış-*

***Həzrət Əli buyurur: "İki nemət vardır ki, məni hansının daha çox sevindirdiyini bilmirəm:***

***Birincisi, bir adamın ehtiyacını qarşılayacağımı umaraq yanıma gəlməsi və bütün səmimiyyətiylə məndən yardım istəməsidir.***

***İkincisi də, Allah-Təalanın o adamın arzusunu mənim vasitəmlə yerinə yetirməsi, yaxud asanlaşdırmasıdır."***

*sa, bu da onu cəhənnəmə sürükləyər!..”* (Beyhəqi, Şuab, VII, 435)



Comərdlik imandan gələn bir mərhəmət məhsuludur. Hədisi-şərifdə buyurulur:

*“Gerçək bir mömində bu iki xüsusiyyət əsla bir araya gəlməz: Xəsislik və pis əxlaq!..”* (Tirmizi, Birr, 41/1962)

**Şeyx Sədi** Bostan adlı əsərində belə deyir:

*“Əlindəki nemətləri sağlığında özün ver! Sən öldükdən sonra bunlar əlindən çıxar, sahib ola bilməzsən!.. Azuqəsini o biri dünyaya özü aparan kəs böyük bir nemətə nail olmuş sayılır. Çünki kürəyini heç kim səni düşünərək qaşımaz, ancaq öz dırnağınla qaşıyarsan.*

*Qapına bir qərib gələrsə, əliboş göndərmə. -Allah göstərməsin- bəlkə bir gün sən də qərib olar, qapıları gəzərsən!.. Madam ki, bu gün bir şey istəmək üçün kimsənin qapısına getmirsən, bunun şükrü olmaq üzrə qapına gələn ehtiyac sahibinə ikram et!”*

Lakin comərdlik yerli-yersiz saçıb sovurmaq deyil. Allahın qullarına, diqqətlicə və nemətin qiymətini bilərək ehsan etməkdir. Necə ki, Haqq-Təala bu barədə ölçünü qoymuşdur:

**“Nə əldən çox bərk ol, nə də əlini tamamilə açıb israfçılıq et. Yoxsa həm qınanarsan, həm də peşman olarsan!”** (əl-İsra, 29)

***Hər kəs imkanı daxilində comərd olmalıdır. Bir gün Rəsulullah ﷺ:***
***“-Bir dirhəm yüz min dirhəmi keçmişdir.” buyurmuşdu.***
***Əshabi-kiram:***
***“-Bu necə ola bilər, ey Allahın Rəsulu?” deyə soruşdular. Bu cavabı verdi.***
***“-Bir adamın iki dirhəmi vardı. Bunlardan ən yaxşısını sədəqə verdi. (Yəni malının yarısını sədəqə vermiş oldu. Çox imkanlı olan) digər bir nəfər də malının yanına gedib, malından yüz min dirhəm çıxardı və onu sədəqə verdi.”***
***(Nəsai, Zəkat, 49)***



*"Ey iman gətirənlər! Əgər siz Allaha (Allahın dininə və Peyğəmbərinə) yardım göstərsəniz, O da sizə"*
*(Məhəmməd, 7)*

***Həzrət Osman buyurur:***

***"Əgər sən öz nəfsindən qafil olar və özün üçün hazırlıq görməzsən, əlbəttə ki, başqası sənin üçün hazırlıq görməz. Allahın hüzuruna mütləq çıxacağını unutma. Buna görə də nəfsinin hazırlığını görüb ona tədarük hazırla. Əsla bu işi başqasına həvalə etmə."***

## Fədakarlıq və Din Qardaşının Dərdiylə Dərdlənmək

Bir mömin din qardaşlarıyla maraqlanmalı, onları düşünməli, dərdləriylə dərdlənməlidir. Hətta özündən əvvəl onların ehtiyacını aradan qaldırmağa çalışmalıdır.

Məhəbbətin ən bariz əlaməti fədakarlıqdır. Bir sevginin böyüklüyü sevilən uğrunda edilən fədakarlıqla ölçülər. O halda Allaha və dininə sevgi bəsləyən möminlərin Allah yolunda infaq edib bəzi məşəqqətlərə könüllü olaraq dözmələri lazımdır.

Allah yolunda maldan və candan fədakarlıq cənnətə girə bilmək üçün zəruri olan iki mühüm şərtdir. Bunu aşağıdakı rəvayət açıq şəkildə ortaya qoymaqdadır:

**Bəşir bin Həsasiyyə** izah edir:

"**Rəsulullah**a beyət etmək üçün yanına getdim. Mənə Allahdan başqa ilah olmadığına və Məhəmmədin də Onun qulu və Rəsulu olduğuna şahidlik etməmi, namazı, zəkatı, həcci, Ramazan orucunu və Allah yolunda cihad etməyi şərt qoydu. Mən də belə dedim:

«-Ey Allahın Rəsulu! Vallah bunlardan ikisinə gücüm çatmaz. Onlar da cihad və sədəqədir. İnsanlar cihaddan qaçan kimsəyə Allahın qəzəb etdiyini söyləyirlər. Mən isə cihad meydanına girdikdə nəfsimi ölüm qorxusu bürüyüb qaçmaqdan qorxuram. **Sədəqə**yə gəlincə, mənim malım bir neçə qoyun və

üç-beş dəvədən ibarətdir. Onlar da əhlimin məişət qaynağı və minik heyvanlarıdır.»

Rəsulullah ﷺ əlini yumdu, yellədi və belə buyurdu:

*«-Cihad yox, sədəqə yox, bəs nə ilə cənnətə girəcəksən?!»*

Bunun üzərinə:

«-Ya Rəsulallah, beyət edirəm.» dedim və Allah Rəsulunun qoyduğu bütün şərtlərə razı olaraq beyət etdim." (Əhməd, V, 224)

Çanaqqala hərbindəki iman ordusunun ərləri Peyğəmbərimizin tərbiyəsində yetişən əshabi-kiramın əxlaqını nümunə götürürdülər. Bunlardan biri olan **Hüseyn** çox ağır yaralanmış, müalicə alırdı. Ancaq vəziyyəti heç də yaxşı deyildi. Bunu özü də bilirdi. Bunun üçün yoldaşlarının verdiyi çörəyi əlinə almış, tam dişləmək üzrə idi ki, birdən dayandı. Mömin qardaşlarını özünə tərcih edərək böyük bir iman vəcdiylə:

***"-Can dostlarım! Bu çörəyi mənim yeməyim doğru deyil. Çünki mənim ölümüm qapıdadır. Alın bunu yaşayacaq olan igidlərə verin!.."*** dedi.

Əlindəki çörəyi silah yoldaşı Mustafaya uzatdı. Nə qədər israr edib "Olmaz!" dedilərsə də qəbul etdirə bilmədilər. Nəhayət bir müddət sonra, qəlbi imanla dolu bu abidə şəxsiyyət nail olduğu



***Allahın rizasını axtaran adam matəmlərin ətrafında gəzməlidir. Rəvayətə görə Musa عليه السلام bir gün:***

***"–Ya Rəbb! Səni harda axtarım?" deyə dua etmişdi. Allah-Təala ona:***

***"–Məni qəlbiqırıqların yanında axtar!" buyurdu.***

***(Əbu Nuaym, Hilyə, II, 364)***

*Həzrət Əbu Bəkr buyurur:*

*“Allah bəndəsinin əməlsiz sözündən razı qalmaz.”*

mənəvi ruzilərin həzz və sevinci içində şəhidlik şərbətini içdi.

Xülasə, Allaha qovuşmağı arzulayan həssas və rəqiq könüllü möminlər matəmlərin ətrafında olaraq insanların dərdləriylə dərdlənməyi adət halına gətirməlidirlər. Quluna xidməti, Allah-Təalaya ibadət; ümmətinə xidməti də Peyğəmbərimizə xidmət bilməlidirlər.

## İxlas və Səmimiyyət

Allah Rəsulu ﷺ:

*“Əməllər, niyyətlərə görədir...”* buyurmuşdur. (Buxari, İman, 41)

Beləliklə başda ibadətlər olmaq üzrə bütün xeyirli əməllərin Allah rizası üçün edilməsi əsasdır. İxlas əməlləri sırf Allah rizası üçün ifa etmək və onların üstünə eqoist məqsədlərin kölgəsini belə salmamaqdır. Başda riya və ucüb olmaq şərtiylə ürəyimizi hər cür mənəvi kirdən təmizləməkdir. Çünki bunlar ixlasa ləkə gətirən və onu yox edən qəlbi xəstəliklərdir.



Allah qatında əməllərin məqbul olmasının əsl şərti ixlasdır. Bədən üçün ruh nədirsə, əməl üçün də ixlas o nisbətdədir.

Xorasanın məlik və qəhrəmanlarından olan **Amr bin Leysi** vəfatından sonra saleh bir şəxs yuxusunda görmüşdü. Aralarında bu söhbət oldu:

"-Allah sənə necə rəftar etdi?"

"-Allah məni bağışladı."

"-Allah səni hansı əməlinə görə bağışladı?"

"-Bir gün bir dağın zirvəsinə çıxmışdım. Yüksəkdən əsgərlərimə baxıb, saylarının çoxluğu xoşuma gəldi və:

«Kaş ki, Rəsulullah zamanında yaşasaydım və Ona kömək edib



***Əbu Cəhlin oğlu İkrimə azğın bir İslam düşməni olduğu üçün Məkkənin fəthi günü ölüm qorxusuyla bir gəmiyə minərək qaçmışdı. Dənizdə fırtınaya düşdülər. Gəmidəkilər:***

***"-Artıq indi ixlaslı olub (yalnız Allaha yönəlin)! Çünki burada ilahlarınız sizə bir fayda verə bilməz." dedilər.***

***Bunun üzərinə könlü həqiqətə açılan İkrim belə dedi:***

***"-Vallah, dənizdə məni ancaq ixlas qurtarsa, quruda da ixlasdan başqası qurtara bilməz. Allahım, Sənə söz verirəm; əgər məni içində olduğum bu fəlakətdən qurtarsan, Həzrət Məhəmmədin yanına gedib əlimi əlinə qoyacağam və Onun bağışlayıcı və kərəm sahibi olduğunu görəcəyəm."***

***Fırtınadan xilas olan İkrimə ﷺ qərarını tətbiq edərək dərhal Peyğəmbərizin hüzuruna çıxdı və müsəlman oldu.***

***(NəsAi, Təhrimud-dəm, 14/4064)***

Gənc bir adam padşahın qızının qapısına gəlmiş və ona aşiq olduğunu söyləmişdi. Özünə xəbər verilən padşahın qızı qapıya gəldi və gəncə:

“-Bu min dirhəmi götür; bir daha mənə də, sənə də zərər verəcək belə bir şey etmə!” dedi. Gənc imtina etdikdə:

“-Elə isə iki min dirhəm verirəm!” -dedi.

Nəhayət məbləğ on min dirhəmə çatdıqda gənc qəbul etdi. Bu vəziyyəti görən padşahın qızı:

“-Bu necə bir sevgidir ki, gözün pul-para ilə qamaşıb məni görməz oldu. Başqasını məndən üstün tutanların cəzasının nə olduğunu bilirsənmi?” dedi və sevgisində səmimi olmayan gəncin boyunu vurdurdu.

Bu halı eşidən bir Haqq dostu huşunu itirdi. Özünə gəldikdə belə dedi.

“-Ey insanlar! Baxın dünyada saxta sevgilərin başına nələr gəlir! Gör Haqqı sevdiyini iddia edib, Ondan başqasına yönələnlərin başına axirətdə nələr gələcək!..”

**Həzrət Mövlana** bu hekayədəki mesajı nə gözəl xülasə edir:

***“İnsana axtardığı şeyə baxaraq dəyər verilər.”***

dəstək olsaydım...» deyə duyğulandım. Məhz bu niyyət və istəyimin əvəzində Uca Allah məni bağışladı.” (Qazı İyaz, Şəfa, II, 28-29)



Lakin belə gözəl bir niyyət asanlıqla əldə edilə bilməz. Ona nail olmaq üçün qüvvətli bir ixlas və səmimiyyətə sahib olmaq lazımdır.

Haqq dostlarından birinə:

“-İxlas xüsusunda sizi təsiri altında qoyan bir hadisə yaşadınızmı?” deyə sual etdilər. O da:

“-Bəli, belə bir hadisə yaşadım.” dedi və bunları izah etdi:

“-Məkkeyi-Mükərrəmədə pul kisəmi itirmişdim. Bəsrədən pul gözləyirdim, lakin heç cür gəlmirdi. Saç-saqqalım da çox uzanmışdı. Bir bərbərin yanına gedib xahiş etdim:

«-Pulum yoxdur, Allah rizası üçün saçlarımı düzəldə bilərsənmi?»

O əsnada bərbər bir adamı təraş edirdi. Dərhal yanındakı boş yeri göstərib; «Bura otur.» dedi və müştərisini gözlədərək məni təraş etməyə başladı. Müştəri etiraz etdi. Bərbər isə:

«-Üzrlü sayın, sizi pul qarşılığında təraş edirəm, lakin bu şəxs, Allah rizası üçün özünü təraş etməmi istədi. ***Allah üçün olan işlər daim öndədir və maddi bir əvəzi yoxdur. Allah üçün olan işin əvəzini qullar əsla bilə bilməz və ödəyə bilməz!»*** dedi.

Təraşdan sonra da cibimə zorla bir neçə qızıl qoydu:

***“Könlünün dərdli olmasını istəmirsənsə, dərdli könülləri dərdlərindən qurtar.”***

***(Şeyx Sədi Şirazi)***

*Həzrət Osman ﷺ buyurur: "Gözü haramdan qorumaq necə də gözəl şəhvət pərdəsidir." İffət məxluqat içində insana verilmiş bir fəzilət vəsfidir. Lakin insan bu insani vəsfini ititrərsə digər varlıqların səviyyəsinə düşmüş olar.*

«-Vacib ehtiyaclarını həll edərsən, imkanım bu qədərdir, üzrlü say!» dedi.

Bir müddət sonra Bəsrədən gözlədiyim pul gəldi. Bərbərə bir kisə qızıl apardım:

«-Əsla götürməm! Allah üçün olan işin əvəzini ödəməyə qulların gücü çatmaz!» dedi. Nə qədər çalışsam da pulu qəbul etmədi.

Halallaşıb ayrıldım, lakin düz qırx ildir ki, hər gecə qalxıb ona dua edirəm."

Məhz bu cür xalisanə, yəni yalnız Allah üçün edilən saleh əməllərin və xeyirlərin qarşılığını Allah-Təala öz şanına layiq bir gözəllikdə lütf edəcəkdir.

## İffət və Həya

İffət nəfsi hər cür şəhvətlərdən və bayağı arzulardan mühafizə etməkdir. Bu, insana aid bir xüsusiyyətdir. İnsanı digər məxluqatdan ayıran ən mühüm xüsusiyyətdir. İffətin itirilməsi; insanlıq şərəfini məhv etmək və digər məxluqatın vəziyyətinə düşmək deməkdir.



İmandan bir şöbə olan həya isə pis və çirkin sayılan şeylərdən uzaq durmaq, rəftar və davranışlarda ölçülü olmaq, hər hansı bir işdə həddi aşmamaqdır. Həya duyğusu bütün xeyirlərin təməli, hər cür pislik və çirkinliyin ziddidir.

Allah-Təala iffət sahibi qullarından belə bəhs edir:

**"O kəslər ki, ayıb yerlərini** (zinadan) **qoruyub saxlayarlar; Ancaq zövcələri və cariyələri istisna olmaqla. Onlar** (zövcələri və cariyələri ilə görəcəkləri bu işdən ötrü) **qınanmazlar. Bundan artığını istəyənlər** (halaldan harama addayaraq) **həddi aşanlardır** (Allahın əmrini pozanlardır)**."** (əl-Muminun, 5-7)

Allah Rəsulu iffətə o qədər əhəmiyyət vermişdir ki, qadınlardan xüsusilə iffətlərini mühafizə barəsində beyət almışdı. Bütün möminlərə də:

*"Kim mənə iki çənəsi arasındakı (dili) ilə iffət və namusunu qorumağa söz versə, mən də ona cənnəti vəd edərəm."* buyurmuşdur. (Buxari, Riqaq, 23)

Rəsulullah ﷺ həya ilə bağlı da belə buyurmuşdur:

*"Həya imandandır və həyalı olan kimsə cənnətdədir! Həyasızlıq isə ürəyin qatılığındandır; ürəyi qatı olan da cəhənnəmdədir!.."* (Buxari, İman, 16)

*"Həya və iman birlikdədir; biri getdikdə digəri də gedər!"* (Təbərani, Əvsat, VIII, 174; Beyhəqi, Şuab, VI, 140)

Kişilərlə qadınlar arasında həya, iffət, ədəb və nəzakətin hakim olması çox mühüm bir məsələdir. Kişi ilə qadının qeyri-qanuni əlaqəsi daha çox, "baxış"la başlayar. Bu səbəblə müsəlman kişi və qadınların bir-birlərinə şəhvani nəzərlərlə baxmamaları, tə-



**Ənəsin رضي الله عنه nəql etdiyinə görə, bir gün Həzrət Osmanın yanına gedərkən yolda bir qadın görür. Qadının gözəlliyi ağlını başından alır. Bu düşüncə ilə Həzrət Osmanın hüzuruna çıxır. Onu görən Həzrət Osman:**
**"-Ey Ənəs! Gözlərində zina izləri var." deyir. Buna çox təəccüblənən Ənəs رضي الله عنه:**
**"-Allahın Rəsulundan sonra vəhy gəlir?" deyə soruşur. Həzrət Osman isə:**
**"-Xeyr, bu bir bəsirət və doğru bir fərasətdir." buyurur.[1]**

1. Quşeyri, Risalə, Beyrut 1990, səh. 238.

səttürə riayət etmələri əmr edilmişdir. Bir-birləriylə danışmalı olduqda başlarını önlərinə əymələri, bir-birlərini cəzb edəcək söz, rəftar və hallardan çəkinmələri əmr edilmişdir.

Həyasızlığın cəmiyyətdə yayılmasını istəyənlər vətəninə və millətlərinə qarşı ən böyük pisliyi etmiş insanlardır. Özləri də zərərlərin ən böyüyünə uğrayarlar. Çünki həyasızlıq Allah Rəsulunun bildirdiyinə görə həlaka səbəbdir:

*"Heç şübhəsiz Əziz və Cəlil olan Allah bir qulu həlak etmək istədiyi zaman, ondan həyanı alar. Həyanı alındıqda da o qul qəzəbə düçar olar. Qəzəbə uğradığı zaman, ondan əmanət (etibar) qaldırılar. Əmanət qaldırıldıqda o xain olar. Xain olduğu zaman ondan rəhmət qaldırılar. Rəhmət qaldırıldıqda o lənətə uğrayar və lənətlənmiş olar. Lənətə uğradığı və lənətlənmiş olduğu zaman da, İslam ilə əlaqəsi kəsilər.* (İbn Macə, Fitən, 27)



**Qanuni dövründə Fransada tans adlanan həyasızlıq və rüsvayçılıq yeni-yeni ortaya çıxmağa başlamışdı. Bunu eşidən Qanuni dərhal Fransa kralına bu təlimatı göndərdi:**

**"...Eşitdim ki, məmləkətinizdə qadın və kişilərin tans adı altında bir-birlərinə sarılmaq surətiylə xalq qarşısında əxlaq və həyaya zidd hərəkət etdikləri bir əyləncə icad edilmiş! Bu rüsvayçılığın sərhəd qonşusu olmamız səbəbiylə məmləkətimə sirayət etmə ehtimalı vardır. Bu etibarla nameyi-humayunum əlinizə çatar-çatmaz dərhal bu rüsvayçılığa son verilə! Əks halda şəxsən gəlib o rüsvayçılığı aradan qaldırmağa əlbəttə müqtədirəm."**

**Məşhur tarixçi Hammer bu məktubdan sonra Fransada bu əxlaqsızlığın düz yüz il qadağan edildiyini deyir.**

Hər məsələdə olduğu kimi qılıq-qiyafət məsələsində də dinimizin qoymuş olduğu ölçülərə diqqət etmək lazımdır. Allah Rəsulu ﷺ belə buyurur:

*"Çılpaqlıqdan çəkinin! Yanınızda, sizdən heç ayrılmayan (mələklər) vardır. Bunlar yalnız dəfi-hacət zamanı və insan yoldaşına yaxınlaşdıqda sizdən ayrılarlar. Onlardan utanın və onlara yaxşı davranın."* (Tirmizi, Ədəb, 42/2800)



Osmanlı Dövlətində insanların iffət və namusları təminat altında idi. Məsələn **Fateh** Bosniya fəthindən sonra verdiyi bir fərmanda:

*"-Əsla serb qızları su götürmək üçün bulaq başlarına gəldiklərində, əsgərlərim oralarda olmayalar!.."* demişdir.

Fateh bu fərmanı ilə həm əsgərlərini, həm də təminatı altındakı xristian təbənin iffətini mühafizə etmiş sayılırdı.

Nəfsani arzu və hisslərin qaynağı, təsəvvür və təxəyyüldür. Bu səbəblə ürəyi daim gözəl hisslərlə, zehni də ülvi düşüncələrlə məşğul etmək lazımdır. Ayrıca, bu xüsusda pis yoldaşlardan çəkinmək də çox mühüm bir əsasdır.

**Ənəs bin Malik** رضي الله عنه **belə deyir:**

**Nəbi ﷺ bizə söhbət edərkən çox vaxt bu sözü söyləyərdi:**

**"Əmanəti olmayanın imanı yoxdur, əhdinə riayət etməyənin də dini yoxdur."**

(Əhməd, III, 135, 154)

**Əbu Musa ﵁ belə deyir:**

**"Ey Allahın Rəsulu! Müsəlmanların ən fəzilətlisi kimdir?" –deyə soruşdum. "Dilindən və əlindən müsəlmanların əmin olduğu kəsdir." cavabını verdi.**

(Buxari, İman 4, 5, Riqaq 26; Müslim, İman 64, 65)

## Sədaqət və Əhdə Vəfa

Əmanət, sədaqət və əhdə vəfa, müsəlmanın başda gələn xüsusiyyətlərindəndir. Allah-Təala belə buyurur:

**"...Əhdə vəfa edin. Çünki** (insan) **əhd barəsində** (qiyamət günü) **cavabdehdir.."** (əl-İsra, 34)

Allah-Təala qurtulaşa çatan möminlərin xüsusiyyətlərindən birini də:

**"O möminlər ki, əmanətlərini və əhdlərini qoruyub saxlayarlar."** (əl-Muminun, 8) şəklində ifadə buyurmaqdadır.

Bunu heç bir zaman unutmamaq lazımdır ki, insanlara verilən bütün sözlər və onlarla edilən hər cür razılaşmalar, eyni zamanda Allaha verilən sözlərdir. Allahın hüzurundakı razılaşma və verilən sözlərə isə mütləq riayət olunmalı və bu xüsusda həssaslıq göstərilməlidir.



**Aləmlərin Fəxri** ﷺ sədaqətin zirvəsində idi. Onun bu halını hətta ən qatı düşmənləri də etiraf etmək məcburiyyətində qalmışdılar.[85] Allah Rəsulu heç bir zaman haqq olmayan bir söz söyləməmiş, hətta zarafat ed-

85. Bax. Buxari, Bədul-Vəhy, 6; Müslim, Cihad, 74; Təbəri, *Təfsir,* VII, 240; İbn Kəsir, *əl-Bidayə,* III, 113.

ərkən də sədaqətdən və doğruluqdan ayrılmamışdır.

Əmin olmayan və sözündə durmayan kəslər haqqında çox dəhşətli xəbərdarlıqlar mövcuddur. Allah Rəsulu ﷺ belə buyurur:



*"Dörd xüsusiyyət vardır ki, bunlar kimdə olarsa, o adam tam münafiq olar. Kimdə də bu xüsusiyyətlərdən biri olarsa, onu tərk edənə qədər o adamda münafiqlikdən bir sifət qalmışdır: Özünə bir şey əmanət edildiyi zaman ona xəyanət edər. Danışanda yalan danışar. Söz verdikdə sözündən dönər. Düşmənçilikdə həddi aşar, haqsızlıq edər."* (Buxari, İman 24, Məzalim 17; Müslim, İman 106)

Bir adamın yanındakılara güvən verməməsi, imanının zəiflədiyinə, şərəfini itirdiyinə və İslami həssaslıqdan məhrum qaldığına işarədir. **Həzrət Ömər** ؓ bu xüsusu nə gözəl ifadə edir:

"Bir adamın qıldığı namaza, tutduğu oruca baxmayın. Danışanda düz danışırmı, özünə bir şey əmanət edildikdə ona riayət edirmi, dünyaya meyil etdiyi zaman halal-haram güdürmü, ona baxın." (Beyhəqi, Kübra, VI, 288; Şuab, IV, 230, 326)

**Ziya Paşa** nə gözəl söyləyir:

*İnsana sədaqət yaraşar görsə də ikrah,*
*Yardımçısıdır doğruların Həzrət Allah!..*

**Səid Paşa** da belə deyir:

*Qorxma düşməndən kim ataş olsa yandırmaz səni,*
*Müstəqim ol Həzrət Allah utandırmaz səni.*

**"Möminlər içərilərində elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (verdikləri sözü) əsla dəyişməzlər."**
**(əl-Əhzab, 23)**

**Rəsulullah ﷺ belə buyurmuşdur:**

**“İgid adam güləşdə rəqibini məğlub edən deyil. Əsl igid qəzəbləndiyi zaman hirsini boğan adamdır.”**

(Buxari, Ədəb, 76; Müslim, Birr, 107, 108)

# Bağışlayıcılıq

İnsanların səhvlərini bağışlamaq və qüsurlarını örtmək həm çətin, həm də son dərəcə mühüm bir xüsusiyyətdir. Allahın sevdiyi bu gözəl xüsusiyyət iman və əxlaqın kamalına işarədir. Çünki Allah-Təalanın əsmayi-hüsnasından biri də, Onun bağışlayıcılığını ifadə edən **“əl-Afuv”** ismi-şərifidir. Ayələrdə belə buyurulur:

**“Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!”** (əl-Əraf, 199)

**“…Odur ki, Sən** (onları) **gözəl tərzdə bağışla.”** (əl-Hicr, 85)

Əsl əfv bir insanın cəzalandırmağa gücü çatdığı halda günahkarı bağışlaya bilməsidir. Həqiqi üstünlük budur.

**Allah Rəsulu** ﷺ belə buyurur:



*“Gərəyini etməyə gücü çatdığı halda hirsini boğan kimsəni Allah-Təala qiyamət günü hər kəsin gözü qarşısında çağırar, hurilər arasından istədiyini seçməkdə onu sərbəst buraxar.”* (Əbu Davud, Ədəb 3/4777; Tirmizi, Birr 74, Qiyamət 48; İbn Macə, Zöhd 18)

*“…Qul başqalarının səhvlərini bağışladıqca Allah da onun şərəfini yüksəldər…”* (Müslim, Birr, 69; Tirmizi, Birr, 82)

Əfvin sahibi Haqq-Təaladır. Möminlər könüllərindəki Allah məhəbbəti ölçüsündə bağışlaya bilərlər. Düşünmək lazımdır ki, Allahın qullarını bağışlama iradəsini göstərə bilməyən mənfəətpərəst və ehtiraslı bir

insan sabah ilahi hüzurda necə əfv diləyə bilər?! Mühüm olan bağışlaya-bağışlaya bağışlanılmağa layiq hala gələ bilməkdir.

Əfvin ən gözəl misalları **Rəsulullah**ın həyatındadır. O, Uhud Hərbində əmisi **Həzrət Həmzə**nin ciyərini ehtirasla dişləyən **Hindi**, Məkkənin fəthi günü kəlmeyi-tövhidin şanı hörmətinə bağışladı.

Qızı **Zeynəbi** nizəylə vuraraq dəvədən salıb şəhid olmasına səbəb olan azğın İslam düşməni **Həbbar bin Əsvədi** də iman etdiyi üçün bağışladı. Hətta əvvəllər işlədiyi günahları xatırladaraq onu qınamağı müsəlmanlara qadağan etdi.[86]

Allah Rəsulu ﷺ şəxsinə qarşı işlənən günahları heç tərəddüdsüz bağışlayardı. Lakin topluma qarşı işlənən cinayətlər xüsusunda haqq və ədalət yerini tapana qədər Onu heç kim sakitləşdirə bilməzdi. Çünki bağışlamaq bağışlayanın şəxsinə qarşı işlənən cinayət və günahlarda mümkündür. Əgər bir cinayət cəmiyyətə zərər verirsə o zaman cəmiyyətin haqqını qorumaq lazımdır. Çünki belə bir günahkar bağışlanıldıqda daha böyük haqsızlıqlara yol açacağı şübhəsizdir.

## Ədalət

Ədalət sahibi və ədalətin özü mənalarına gələn **"əl-Ədl"** ismi-şərifi Allah-

**Rəsulullah ﷺ belə buyurur:**

**"Sizdən əvvəlki ümmətlərdən bir adam hesaba çəkildi; xeyir adına heç bir şeyi tapılmadı. Lakin bu adam insanlarla durub-oturan zəngin bir adam idi. Xidmətçisinə darda qalan kasıbların borcunu silməsini əmr edərdi. Əziz və Cəlil olan Allah: «Biz bağışlamağa ondan daha layiqik; onun günahlarını örtün!» buyurdu."**

**(Müslim, Müsaqat, 30; Əhməd, IV, 120)**



86. Bax. Vaqidi, II, 857-858.

Təalanın əsmayi-hüsnasındandır. (Tirmizi, Dəavat, 82/3507)

İslam hər xüsusda ədalətə riayəti əmr etmişdir. İnsanlar ədaləti hakim etdikləri zaman Allahın razı olduğu dinc və ruhani bir qulluq həyatı yaşayarlar. Beləcə dünya və axirətin bütün xeyirlərini qazanaraq əbədi səadətə nail olarlar.



**“Ədalət nədir? Ədalət, meyvə ağaclarını sulamaqdır. Zülm nədir? Tikanları sulamaqdır. Ədalətdən bixəbər adam qurd balasını əmizdirən keçiyə bənzəyər (Hansı ki, bəsləyib böyütdüyü zalım, gün gələr onun özünü də parçalayar.)”**

(Həzrət Mövlana –quddisə sirruh-)

Ədalət o qədər mühümdür ki, ona riayət edən kimsə kafir də olsa, dünyada maddən yüksələr və önə keçər. Ədalətə müxalif davranan adam da mömin belə olsa dünyada geri qalar, maddi və mənəvi çətinliklərə məruz qalar. Axirətdə də ədalətsizliyi səbəbiylə əzaba düçar olar. Necə ki, ***“Küfr ilə payidar olunar, lakin zülm ilə olunmaz!”*** demişlər.

Ədalət ortadan qalxdıqda dünya üzərində haqq, hüquq, insaf və tarazlıqdan bəhs etmək mümkün olmaz. Tarix boyunca insanlar zülmə meyil edib cəmiyyətdə işlər cığırından çıxmağa başladıqda Allah ədaləti bərqərar etmək üçün peyğəmbərlər göndərmişdir. Ayədə belə buyurulur:

**“Ey iman gətirənlər!** (Şahidliyiniz) **sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun!** (Əleyhinə şahidlik edəcəyiniz şəxs) **istər dövlətli, istər kasıb olsun, hər halda Allah onların hər ikisinə** (sizdən) **daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin! Əgər dilinizi əyib büzsəniz və ya** (doğru şəhadət verməkdən, yaxud ümumən şahidlikdən) **boyun qaçırsanız, (bilin ki) Allah etdiyiniz işlərdən xəbərdardır!”** (ən-Nisa, 135)

**Rəsulullah** ﷺ belə buyurmuşdur:

*“Qiyamət günündə insanların Allah-Təalaya ən sevimli olanı və Ona ən yaxın yerdə olanı ədalətli idarəçidir. Qiyamət günündə insanların Allah-Təalaya ən xoşagəlməz olanı və Ona ən uzaq məsafədə olanı da zalım idarəçidir.”* (Tirmizi, Ehkam, 4/1329; Nəsai, Zəkat, 77)

Bir müsəlman yalnız hökm verərkən deyil, ölçərkən, şahidlik edərkən, bir sözlə, hər vaxt və hər məsələdə ədalətli olmalıdır. Əsəbi vaxtlarda da, sakit olanda da ədalətdən ayrılmamalıdır.[87]

**İldırım Bəyazid Xan** ordusuyla Konyaya yaxınlaşanda şəhərin qapıları bağlanmışdı. Xırman vaxtı olduğu üçün Konya düzənliyinin hər tərəfi arpa və buğda yığınlarıyla dolu idi. Xalq təlaşla qalaya sığındığı üçün məhsullarını içəri ala bilməmişdi. Bu əsnada Osmanlı ordusunun arpa və buğdaya ehtiyacı oldu. Əsgərlər qalanın dibinə yaxınlaşaraq Konya xalqına səsləndilər:

“-Ey əhali! Ordumuzun ehtiyacı var, gəlib bizə arpa və buğda satarsınızmı?!”

Xalq bu təklifə məəttəl qaldı və bir neçə adam:

“-Görək, dedikləri doğrudurmu?” deyə sınamaq üçün qaladan çıxdı. Bəyazid Xan hər ehtimala qarşı əsgərlərinə bu təlimatı verdi:

**Rəsulullah ﷺ bir gün:**
**“-Qiyamət günü (hərarətin şiddətindən və çətinliklərdən xilas olmaq üçün ən birinci) kölgəyə qaçan sabiqunun kim olduğunu bilirsinizmi?” buyurdu. Əshabi-kiram:**
**“-Allah və Rəsulu daha yaxşı bilər.” dedilər.**
**Rəsulullah:**
**“-Onlar özlərinə haqq verildikdə onu qəbul edən, haqq istəndikdə bunu comərdliklə verən və insanlar haqqında hökm edərkən özlərinə hökm edirmiş kimi davranan kəslərdir.” buyurdu.**
(Əhməd, VI, 67, 69)



87. Bax. Heysəmi, I, 90.

*Tarixində təbəsindəki bir adamla məhkəməyə çıxaraq bütün dünyaya nümunəvi bir ədalət anlayışı sərgiləyən bir Fatehin var. Unutma ki, sən böyük millətsən!..*

***“-Bunlar bizim müsəlman qardaşlarımızdır. Əsla heç kimə zülm etməyin! Qul haqqına riayətkar olun; qoy arpa sahibləri mallarını istədikləri kimi satsınlar!..”***

Beləcə gələnlər öz istədikləri kimi və tələb etdikləri qiymətə satdılar. Axçalarını alıb böyük bir heyranlıq və məmnuniyyətlə qalaya qayıtdılar.

Konya xalqı bu göz yaşardıcı ədalət və insanlığı görüb, şəhərin qapılarını öz istəkləriylə ardına qədər açdı və Osmanlını içəri dəvət etdi. Bu hadisəni eşidən ətrafdakı digər bəzi şəhərlər də elçilər göndərib Osmanlını diyarlarına dəvət etdilər:

“-Buyurun, gəlin! Şəhərlərimizi siz idarə edin!” dedilər.


*Fatehin ittiham olunduğu məhkəmə, Üsküdar.*

Digər tərəfdən ədalət qətiyyən gecikdirilməməlidir. Çünki ən pis ədalət, kec təcəlli edəndir. Sonunda hökm məqsədəuyğun olsa belə, gecikən ədalət də, bir növ zülmdür.

Bəzi insanlar gözəl nitqləri və iti zəkaları sayəsində, etdikləri zülmü örtbasdır edə bilərlər. Lakin onlar əslində heç bir zaman xilas ola bilməzlər.[88] Bu dünyada bəşəri ədalətdən min bir hiylə ilə yaxalarını qurtaranlar bir gün **“Hakimlərin Hakimi”** olan Allah-Təalanın hüzurunda

88. Bax. Buxari, Şəhadət 27, Hiyəl 10, Əhkam 20; Müslim, Əqdiyyə 4.

çarəsiz halda boyun büküb hesab vermək məcburiyyətində qalacaq və nəticədə ziyana uğrayacaqlar.

**Rəsulullah** ﷺ ümmətini bu xüsusda belə xəbərdarlıq edir:

*"Kimin üzərində din qardaşının isməti, namusu və ya malıyla əlaqədar bir zülm varsa, qızıl və gümüşün olmayacağı qiyamət günü gəlmədən əvvəl o kimsəylə halallaşsan! Yoxsa özünün saleh əməlləri varsa, etdiyi zülm miqdarınca savablarından alınıb haqq sahibinə verilər. Əgər yaxşılıqları yoxsa, zülm etdiyi qardaşının günahlarından alınaraq onun üzərinə yüklənər."* (Buxari, Məzalim 10, Riqaq 48)

**Ümmü Sələmə** (r.anhə) belə deyir:

"Peyğəmbərimizin son vəsiyyətlərindən biri bu oldu:

*"Aman namaza diqqət yetirin! Aman namaza diqqət yetirin! Əmriniz altındakıların haqlarına riayət edin!"*

Rəsulullah ﷺ bu sözləri o qədər təkrarladı ki, mübarək dili söyləyə bilməz hala gəlincə belə, bunları pıçıltıyla söyləməyə davam etdi. (Əhməd, VI, 290, 315)

Bir nəfər Haqq dostlarından birinin yanında zalım **Haccac**a təhqirdə həddi aşmışdı. Haqq dostu ona bu dərsi verdi:

"-Ona təhqirdə o qədər irəli getmə! Çünki Allah malına və canına qıydığı kəslərdən ötrü Haccaca cəza verəcək. Lakin iş bu qədərlə qalmaz.

***Həzrət Ömər*** رضي الله عنه ***buyurur:***

***"Pis əməlin ən gizli şahidi vicdanımızdır." Vicdanımız insanlığımızın səviyyəsini göstərir.***



Səhabədən biri **Allah Rəsulu**nun hüzuruna gəlib:

"-Ey Allahın Rəsulu! Mənim xidmətçilərim var. Elə hey yalan danışır, xəyanət edir və etiraz edirlər. Mən də onları danlayıram, bəzən də döyürəm. Mənim halım necə olacaq?!" dedi.

Allah Rəsulu belə buyurdu:

*"-Onların xəyanət, üsyan və yalanları ilə sənin verdiyin cəzalar hesablanacaq. Əgər sənin verdiyin cəzalar onların günahına bərabər olsa sənin lehinə, ya da əleyhinə heç nə edilməyəcək. Əgər sənin verdiyin cəzalar onların günahından az isə, bu sənin lehinə bir fəzilət olacaq. Əgər verdiyin cəzalar onların günahından çox olarsa o çoxluğu ödəmək məcburiyyətində qalacaqsan. Bu, səndən qisas yoluyla alınacaq."*

Adam bir kənara çəkilərək hönkür-hönkür ağlamağa başladı. Bunun üzərinə Rəsulullah ﷺ belə buyurdu:

*"-Allah-Təalanın:* **«Biz qiyamət günü üçün ədalət tərəzisi qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə onu** (hər hansı bir əməli tərəziyə) **gətirərik. Haqq-hesab çəkməyə Biz kifayətik.»**[1] qövli-cəlilini oxumursanmı?"

O da belə dedi:

"-Vallah, ya Rəsulallah, həm özüm, həm də onlar üçün bir-birimizdən ayrılmaqdan daha xeyirli bir yol qalmadı. Şahid olun, onların hamısını azad edirəm." (Tirmizi, Təfsir, 21/3165)

---

1. əl-Ənbiya, 47.

Digər tərəfdən də Haccacın haqqını alaraq onun şərəfinə təcavüz edənlərə də cəzalarını verəcək."

Yəni bir qul zülmə uğrayar, sonra özünə zülm edənə o qədər təhqir edər və pis şeylər söyləyər ki, o zalımın günahı səviyyəsinə çıxar. Hətta daha da həddi aşdığı üçün zalımın ondan alacağı olar və bu səbəblə məzluma qisas uyğulanar.[89]

Allah-Təala belə buyurur:

**"Cəza verəcək olsanız, sizə nə cəza verilibsə, eynilə həmin cəzanı verin.** (Artıq cəza isə zülm etməkdir ki, bu da günahdır)**."** (ən-Nəhl, 126)

89. Babanzade Ahmed Naim, *İslam Ahlakının Esasları,* İstanbul 1963, s. 86.



***1528-ci ildə baş verən Mohaç Müharibəsində Osmanlılara əsir düşən və xilas olduqdan sonra Türklərin Adət-Ənənələri adlı bir kitab yazan macar əsilli Bartholomaus Georgievic belə deyir: "…Müsəlman hakimlər fərq qoymazlar, hər kəsə eyni ədaləti tətbiq edərlər. Öldürən öldürülər. Yol kəsib oğurluq edən və ya zorla bir şey alan asılar. Hətta bazarda bir qadından süd alıb içən və pulunu ödəməyən bir yeniçəri də ədalətlə cəzalandırıldı. Mən Şamda buna şahid oldum."[1]***

1. Onur Bilge Kula, *Alman Kültüründe Türk İmgesi,* s. 165.

*Bir nəfər tabiunun böyüklərindən İmam Şabini təhqir etmişdi. Həzrət çox yumşaq bir üslubla ona bu cavabı verdi:*

*"-Dediklərin doğrudursa, Allah məni bağışlasın! Əgər səhv isə səni bağışlasın!"*

Xülasə, zülm hər nə qədər parlaq kimi görünsə də sonu zülmət qaranlıqdır. Ədalət də nə qədər çətin görünürsə görünsün, sonu nurlu və xeyirdir. Hər zaman, hər yerdə və hər kəsə qarşı ədalətli olan bir müsəlman Allahın və Onun sevdiyi qullarının sevgisini qazanar, iki dünyada da əziz və bəxtiyar olar.

## Helm

Allah-təala özünün "əl-Halim", yəni helm sahibi olduğunu bildirir. Allahın sevdiyi bir sifət olan helm peyğəmbərlərin də sifətlərindən biridir.

Mərhəmət, şəfqət və məhəbbət kimi gözəl xüsusiyyətlərin ən təbii bir nəticəsi olan helm və bağışlayıcılıq bəşəri münasibətlərdə də mühüm bir əsasdır. Allahın əmri və Peyğəmbərimizin təbiəti-əsliyyəsidir.

Allah Rəsulu ﷺ belə buyurmuşdur:

"Yumşaqlıq harada olsa oranı gözəlləşdirər. Yumşaqlığın olmadığı hər davranış çirkindir." (Müslim, Birr, 78, 79)




"Rifqdən (yumşaq xasiyyətlilikdən, mülayimlikdən) nəsibi olana, xeyirdən də nəsib verilmişdir. Rifqdən nəsibi olmayan da xeyirdən məhrum qılınmışdır." (Tirmizi, Birr, 67/2013)

Bir gün Ənəs رضي الله عنه:

"-Rəsulullahın ətrindən daha gözəl nə bir ənbər, nə bir müşk, nə də hər hansı bir xoş qoxu iylədim. Allah

Rəsulunun mübarək bədənindən daha yumşaq nə bir atlasa, nə də bir ipəyə toxundum.” demişdi.



Onu dinləməkdə olan tələbəsi Sabit:

“-Ey Ənəs, sən sanki hər daim Allah Rəsuluna baxırmış və Onun mübarək sədasını eşidirmiş kimi yaşayırsan, elə deyilmi?” dedi.

Ənəs ﷺ bu cavabı verdi:

“-Bəli, vallah qiyamət günü Ona qovuşmağı ümid edirəm. Yanına getdikdə:

«-Ya Rəsulallah! Kiçik xidmətçin gəldi!» deyəcəyəm. Ona Mədinədə on il xidmət etdim. Mən o zamanlar kiçik bir uşaqdım. Hər etdiyim iş, Rəsulullahın arzu etdiyi kimi deyildi. Buna baxmayaraq Rəsulullah ﷺ mənə etdiyim heç bir iş üçün «uf» belə demədi, «Bunu nə üçün etdin, bunu nə üçün etmədin?!» deyə danlamadı.” (Əhməd, III, 222; Buxari, Savm 53, Menakıb 23; Müslim, Fedail 82)

**Müaviyə bin Hakəm** ﷺ belə nəql edir:

“Rəsulullahın ﷺ arxasında namaz qılarkən camaatdan biri asqırdı. Mən də dərhal “yərhəmukəllah” dedim. Camaat mənə tərs-tərs baxmağa başladı. Mən də:

«-Vay başıma gələnlər! Mənə niyə elə baxırsınız?» dedim. Bu səfər əllərini dizlərinə vurmağa baş-

***Həzrət Ömər ﷺ buyurur:***

***“Şiddət göstərməmək şərtiylə qüvvətli, zəiflik göstərməmək şərtiylə də mülayim ol!” Çünki sərtlik həddən artıq olarsa kinə səbəb olar. Mülayimlik də həddən artıq olarsa ciddiyyəti zədələyər. Müvəffəqiyyət bu ikisi arasında tarazlığı saxlaya bilməklə mümkündür.***




ladılar. Onların məni susdurmağa çalışdıqlarını anlayınca hirsləndim, amma yenə də susdum.[90]

**Anam-atam Rəsuli-Əkrəmə fəda olsun. Nə Ondan əvvəl, nə də Ondan sonra özündən daha gözəl bir müəllim görmədim.** Vallah məni nə danladı nə də döydü. Namazı qıldıqdan sonra yumşaq bir dillə mənə:

*«-Bu ibadətin adı namazdır. Namaz qılarkən dünya kəlamı danışılmaz. Çünki namaz təsbeh, təkbir və Quran oxumaqdan ibarətdir.»* buyurdu. Yaxud buna bənzər ifadələr istifadə etdi. Mən də:

«-Ya Rəsulallah! Mən hələ yeni müsəlman oldum…» dedim…" (Müslim, Məsacid, 33)

Bütün xüsusiyyətlər kimi helm və mülayimliyində də bir ölçüsü vardır. Mülayim xasiyyətli olmaq adına zülmə boyun əymək və ya ilahi qanunların pozuntusuna göz yummaq əsla doğru bir rəftar deyil. Helmihimari (uzunqulaq itaətkarlığı) deyilən belə bir davranış pis niyyətli insanların pislik etmə arzusunu və cəsarətini artıracağından, son dərəcə səhv bir rəftardır.

## Nəzakət (İncitməmək-İncíməmək)

İnsan əşrəfi məxluqat, yəni yaradılmışların ən şərəflisi və mükəmməlidir. Onun ürəyi isə nəzərgahi-ila-

**Mövlana Həzrətləri belə buyurur:**

**"Bu könül evinin içində kimin olduğunu bilirsinizsə, o könül sahibinin qapısı qarşısında etdiyiniz tərbiyəsizlik nədir? Axmaqlar insan əməyinin məhsulu olan məscidə hörmət göstərərlər, amma könül sahiblərinə biganə qalaraq onların könüllərini qırarlar."**

90. Namazda ibadet dışı hiçbir fiilde bulunulmaz. Lakin bu misaldeki sahabîlerin tavırlarını mazur görmelidir. Zira o zamanlar İslam yeni geldiği için, insanlar ibadet adabını yeni öğreniyorlardı.

hidir. Bu vəziyyətdə insanın xətrinə dəyməyin və ya qəlbini qırmağın nə dərəcədə ağır bir cinayət olduğu aşkardır.

Şair nə gözəl söyləyir:

*Füqəra qəlbinə hər kim toxuna,*
*Toxuna sinəsi Allah oxuna...*

Müsəlman həssas və rəqiq bir könlə sahib olmalı və heç kimi incitməməlidir. Çünki Allah Rəsulunun təsvir etdiyi və sevdiyi mömin hər kəslə ülfət edən və özüylə ülfət edilən bir könül insanıdır.[91]

**Rəsulullah** ﷺ müsəlmanın halını belə bəyan edir:

*"(Əsl) müsəlman dilindən və əlindən müsəlmanların əmin olduğu adamdır. (Əsl) mühacir də Allahın qadağan etdiklərini tərk edəndir."* (Buxari, İman 4, 5, Riqaq 26; Müslim, İman 64-65)

**Həzrət Mövlana** -quddisə sirruh- qəlbin qiymətini belə ifadə edir:

*"Əgər səndə bəsirət varsa, könül Kəbəsini təvaf et! Torpaqdan tikilmiş Kəbənin əsl mənası könüldür… Bunu yaxşı bil ki, sən Allahın nəzərgahı olan bir qəlbi incidər, qırarsansa, Kəbəyə piyada da getsən, qazandığın savab qəlb qırmağın günahını qarşılaya bilməz."*

*"Sənin bir saman çöpü qədər dəyər vermədiyin qırılmış qəlb Ərşdən də üstündür, Kürsüdən də, Lövhdən də, Qələmdən*

91. Bax. Əhməd, II, 400, V, 335.



"Könül al (çünki könül almaq) həcci-əkbərdir.
Bir könül minlərlə Kəbədən daha yaxşıdır.
Kəbə Azər oğlu İbrahimin tikdiyi binadır.
Könül isə Cəlil və Əkbər olan Allahın nəzərgahıdır."
(Molla Cami)



*də!.. Əsla könlü xor görmə! O, xorluğuyla yenə də üstündən üstündür. Qırıq qəlb, Allahın nəzər etdiyi varlıqdır. Onu bərpa edən can nə mübarəkdir. Qırılmış, iki yüz parça olmuş könlü təmir etmək Allah qatında bir çox xeyir-həsənatdan daha üstündür... Sus! Hər telində iki yüz dil də olsa, yenə də könlü anlatmaq olmaz."*

**Zeyd bin Sabit ﷺ buyurur:**

**"Qəlbi dilinə sahib olmayan kəsdə helm olmaz."**

**Şeyx Sədi:**

*"Bir xəbərin könül incidəcəyini bilirsənsə sən sus, başqaları söyləsin!."* -demişdir.

Haqq dostları da nə gözəl söyləmişlər:

*"İnsanları incidən zalımdan daha bədbəxti yoxdur. Çünki müsibət günündə heç kim ona yar olmaz."*

*"Payızda gül ağacını kəsmə ki, yazda onun gözəl mənzərəsindən məhrum qalmayasan!"*

**Yunus Əmrə həzrətləri** də belə deyir:

*Bir kəz könül yıxdın isə,*
*Bu qıldığın namaz deyil!*
*Yetmiş iki millət dəxi,*
*Əlin üzün yumaz deyil!*

...

*Ağ saqqallı pir hoca,*
*Biləməz halı necə,*
*Əmək yeməsin hacca,*
*Bir könül yıxar isə.*

...

*Könül Çalabın taxtı,*
*Çalab könülə baxdı,*
*İki cahan bədbaxtı,*
*Kim könül yıxar isə…*

Heç kimi incitməmək hər nə qədər çətin də olsa, nisbətən insanın əlindədir. Lakin bir də kimsədən inciməmək var ki, o daha çətindir. Çünki iradə ilə ürəyə hakim olmaq çox müşküldür. "İncitməmək"də dil susdurula bilər, lakin ürək səssizcə deyinməyə davam edər. "İnciməmək"də isə dil ilə birlikdə ürək də susdurulmalıdır. Ürəyini susdura bilmək isə ancaq kamil möminlərin bacardığı bir işdir. Bu səbəbdən incitməmək yolun başlanğıcı isə, inciməmək də sonudur. İkisi arasında qət edilməsi lazım olan uzun məsafələr vardır.



**Abdullah bin Zübeyrin oğulu Amir ﷺ kasıb və abidlərə kömək edəcəyi zaman onları incitməmək üçün son dərəcə nəzakətli hərəkət edərdi: Kömək edəcəyi kəslər səcdədə ikən pul kisələrini ayaqqabılarının yanına hiss edəcəkləri şəkildə qoyar və görünmədən uzaqlaşardı.**

**Ondan:**

**"-Niyə verəcəyini kiminləsə göndərmirsən?" deyə soruşulduqda belə cavab verdi:**

**"-Onlardan birinin, göndərdiyim adamla və ya mənimlə qarşılaşdıqda yerə baxmasını istəmirəm, onun üçün belə edirəm."**

**(İbnul-Cövzi, Sifətus-Safvə, II, 411)**




Xülasə, kimsəni incitmədən və kimsədən incimədən böyük bir iman ləzzəti içində dinc bir ibadət və xidmət ömrü yaşaya bilmək İslam əxlaqının zirvə xüsusiyyətlərindəndir.

## Səbir

Səbir dəyişən maddi və mənəvi vəziyyətlər qarşısında tarazlığı pozmamaq, orta yolu mühafizə etmək, dözüm göstərmək, ağlın və dinin göstərdiyi yolda sabit olmaqdır.

Bütün əxlaqi gözəllikləri ehtiva etdiyi üçün səbrin dinimizdəki mövqeyi çox yüksəkdir. Allahıln adlarından biri də **“əs-Sabur”**dur. Yəni O, qullarına möhlət verər və bu zaman ərzində özünə nankorluq edənlərə də ruzi bəxş edər. Əgər Rəbbimiz dünyada günahkarlardan dərhal intiqam alsaydı, təsəvvür edək ki, kainat nə hala düşərdi!..

Səbir imanın yarısı, rahatlığın açarıdır. Dünyəvi tərəfi acı, lakin axirət tərəfi böyük bir səadətdir. Çünki Allah səbir edənlərlə bərabərdir. Səbir cənnət nemətlərinə qovuşduran böyük bir fəzilətdir. Hər cür xeyirlər və yüksək qazanclar onda olduğu üçün bütün peyğəmbərlər və Haqq dostları səbri təbiəti-əsliyyələri halına gətirmişlər.

Qurani-Kərimdə yetmişə yaxın yerdə səbirdən bəhs olunur. Müxtəlif ayələrdə Peyğəmbərimizə və Onun şəxsində bütün ümmətə səbir tövsiyə edilir. Bu ayələrdən bir neçəsi belədir:

**Allah Rəsulu ﷺ belə buyurmuşdur:**

**“Həqiqi səbir fəlakətin ilk anında göstəriləndir!”**

**(Buxari, Cənaiz, 32)**

**“Ey iman gətirənlər! Səbir edin, dözümlü olun, hazır olun və Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!”** (Ali-İmran, 200)

**“Ey iman gətirənlər! Səbir və namaz ilə Allahdan kömək istəyin! Çünki Allah şübhəsiz səbir edənlərlə bərabərdir.”** (əl-Bəqərə, 153)

**“Səbir edənlərə mükafatları hesabsız ödənəcək.”** (əz-Zumər, 10)

**Rəsulullah** ﷺ səbrin növlərini və fəzilətlərini bildirdiyi bir hədisi-şərifində belə buyurmuşdur:

*“Səbir üçdür: Müsibətlərə qarşı səbir, qulluqda səbir və günah işləməməkdə səbir.*

*Kim üstündən qaldırılana qədər müsibətə gözəlcə səbir etsə, Allah ona üç yüz dərəcə yazar. Hər iki dərəcə arasında səma ilə yerin arası qədər məsafə vardır.*

*Kim də qulluq və itaətdə səbir etsə Allah ona altı yüz dərəcə yazar. Hər iki dərəcə arasında yer üzü ilə yeddi qat aşağısı arası qədər məsafə vardır.*

*Kim də günaha qarşı səbir etsə, Allah ona doqquz yüz dərəcə yazar. İki dərəcə arasında yer ilə Ərş arası qədər məsafə vardır.”* (Süyuti, əl-Camius-Sağir, II, 42; Deyləmi, II, 416)



**Rəsulullah ﷺ belə buyurmuşdur:**

**“Etidal, təənni, hal və gedişat baxımından yaxşı olmaq, peyğəmbərliyin iyirmi dörd cüzündən biridir.”**

(Əbu Davud, Ədəb, 2/4776; Tirmizi, Birr, 66/2010; Muvatta, Şaar, 17)

# Etidal və Təənni

İslam dini və dünyəvi hər xüsusda ifrad və təfridə düşmədən etidal üzrə hərəkət etməyi əmr edər. Yəni orta yolu izləyərək hər şeyi lazımi şəkliylə etməyi tövsiyə edir.

Uca Rəbbimiz bütün kainatı böyük bir tarazlıqla yaratmışdır. Qurani-Kərimdə bu tarazlığın mühafizə edilməsi əmr edilir. Elə isə həyatda orta yolu tuta bilməyin ən mühüm yolu, ilahi əmrlər istiqamətində yaşamaqdır. Allah-Təalanın çəkdiyi sərhədlərin xaricinə çıxıldıqda tarazlıq itər, hər şey qarışar və fəsad çıxar. Buna işarə edən ayeyi-kərimədə belə buyurulur:

**"Göyü O ucaltdı, tərəzini (ədalət tərəzisini) O qoydu! Ona görə ki, çəkidə həddi aşmayasınız (insafı əldən verməyəsiniz)."** (ər-Rahmən, 7-8)

**Allah Rəsulu** ﷺ də:

*"İşlərin xeyirlisi, etidal üzrə (orta yollu) olandır."* buyurur. (Beyhəqi, Şuab, V, 261)

Bir işin davamlı olmasını təmin edən xüsus etidaldır. Etidaldan uzaqlaşıldıqda o işin sonu gəlmiş sayılır. Çünki zidd qütblərdən bir-birinə, yəni ifraddan təfridə keçiş tez olar. Bu barədə:

*"Söz və davranışlarında irəli gedib həddi aşanlar həlak oldular."* (Müslim, Elm, 7) hədisi-şərifi mühüm bir xəbərdarlıqdır.

Xülasə, bir müsəlman hisslərində, sözlərində və

**Allah Rəsulu** ﷺ **buyurur:**

**"Dostunu sevərkən həddi aşma, çünki günün birində düşmənin ola bilər. Düşməninə də nifrətdə həddi aşma, çünki günün birində dostun ola bilər."**

**(Tirmizi, Birr, 60/1997)**



davranışlarında orta yolu tutmalıdır. Çünki etidal hər şeyin əsasıdır.




Allahın sevdiyi gözəl xüsusiyyətlərdən biri də **"təənni"**dir. Təənni bir iş görərkən tələsik etməmək, ediləcək işi ölçüb-biçib düşünmək və ehtiyatlı davranmaqdır. Bu, səhv etmə ehtimalını minimuma endirən və insanı peşmanlığa düşməkdən qoruyan bir xüsusiyyətdir.

İslam tədbirli olmağa və təənni ilə hərəkət etməyə çox əhəmiyyət verir. Çünki ilk baxışda mühüm görülməyən şeylər nəticədə heç də kiçik hesab edilməyəcək hadisələrə səbəb ola bilər. **Mövlana həzrətləri**nin *Məcalisi-Səba* adlı əsərində verdiyi bu misal nə qədər mənalıdır:

*"Dəni görən quşcuğaz tələ olub-olmadığını yoxlamaqçün öndən, arxadan, sağdan, soldan yüz dəfə baxar. Quşun ağlı daim zidd olanları düşündüyündən, ondakı can qorxusu yem eşqindən çoxdur."*

**Rəsulullah** ﷺ təənni sahibi bir səhabəsini mədh edərək belə buyurmuşdur:

*"Səndə Allahın sevdiyi iki xüsusiyyət vardır:*

1. *Helm (mülayim xasiyyət).*

2. *Təənni (tələsməmək, ehtiyatla hərəkət etmək)."* (Müslim, İman, 25, 26; Əbu Davud, Ədəb, 149; Tirmizi, Birr, 66/2011)

Yenə Rəsulullah:

**Həzrət Ömər** ؓ **buyurur:**

**"Görmədiyim müddətdə sizin mənə ən sevimliniz adı ən gözəl olanınızdır. Gördüyüm zaman mənə ən sevimli olanınız əxlaqı ən gözəl olanınızdır. Sınadığım zaman sizin mənə ən sevimliniz ən düz danışanınızdır."**

Bəra ﷺ belə deyir:

**"Vallah, döyüş qızışdığında biz Allah Rəsuluna sığınardıq. Ən cəsurumuz Rəsulullah ilə eyni səfdə dayana bilən idi."**

**(Müslim, Cihad, 79)**

*"Təənni Allah-Təaladan, tələsməksə şeytandandır."* buyurmuşdur. (Tirmizi, Birr, 66/2012)

Bununla birlikdə, xeyirli olduğu qəti olan işlərdə tələsmək də zəruridir. Lakin bu tələsiklik xeyirli bir işə qərar verib başlama xüsusunda lazımlıdır, yoxsa o işi edərkən tələsiyə salıb gərəkli həssaslığı göstərməmək doğru deyil.

## Şücaət və Cəsarət

Şücaət igidlik, bahadırlıq, mətanət, təhlükə əsnasında cəsarət göstərmək kimi mənalara gəlir.

Şücaətin əsası Allah-Təalanın təqdirinə razılıq və təslimiyyətdir. Bu səbəblə qədərə iman və Allaha təvəkkül edən bir müsəlmana, qorxaqlıq və zillət əsla yaraşmaz.



*Peyğəmfərimizin ﷺ qılınc və yayı, Topqapı Sarayı*

**Rəsulullah** ﷺ bir dəfə:

*"Sizə hücum etmək üçün yad qövmlərin eynilə süfrəyə yığışan yeyicilər kimi bir-birlərini çağıracaqları zaman yaxındır."* buyurmuşdu. Orada olanlardan biri:

"-O gün sayca az olacağımız üçünmü bu vəziyyət başımıza gələcək, ya Rəsulallah!?" deyə soruşdu.

Peyğəmbərimiz ﷺ:

*"-Xeyr, əksinə o gün siz çox olacaqsınız. Lakin siz selin gətirib yığdığı çör-çöp kimi heç bir ağırlığı olmayan kəslərin vəziyyətinə düşəcəksiniz. Allah düşmənlərinizin ürəyindən sizə qarşı*

*qorxu duyğusunu çıxaracaq və sizin ürəyinizə zəifliyi qoyacaq!"* buyurdu.

"-Zəiflik nədir, ey Allahın Rəsulu?" deyə soruşulduqda:

*"-Dünya sevgisi və ölüm qorxusudur!"* buyurdu. (Əbu Davud, Məlahim, 5/4297)



*Uhud Şəhidliyi, Mədineyi-Münəvvərə*

Peyğəmbərimizdən daha böyük bir qəhrəman təsəvvür etmək mümkün deyil. Çünki həyatında qorxu və təlaşa qapılaraq yersiz hərəkət etdiyi əsla görülməmişdir. Fövqəladə hallar qarşısında səbir və səbat mövzusunda müstəsna bir nümunə olmuşdur.

**Həzrət Əli** ﵁ buyurur:

*"Bədirdə döyüş bütün şiddətiylə davam edərkən, biz bəzən Peyğəmbər Peyğəmbərimizin arxasına sığınardıq. Hamımızın ən cəsuru O idi. Düşmən səflərinə ən yaxın yerdə O dayanardı."* (Əhməd, I, 86)

O, Allahın dini ən uca olsun deyə daim ən qabaqda döyüşərdi. Hüneyn döyüşündə əvvəlcə müsəlmanlar arasında dağılma müşahidə olundu. O isə mətanətini heç pozmadı. Mindiyi heyvanını elə hey irəli sürərək səhabələrinin şücaətini artırdı və nəhayət Allahın köməyi ilə zəfər nəsib oldu.[92]

**Həzrət Əli** ﵁ deyir:

"Mühacirlərdən elə bir adam tanımıram ki, gizli olaraq hicrət etmiş olmasın. Ömər bin Xəttab ﵁ bun-

***Allah Rəsulu ﷺ buyurur:***

***"Qüdrət və iradəsiylə yaşadığım Allaha and olsun ki, Allah yolunda vuruşub şəhid olmağı, sonra (dirildilib) vuruşaraq yenə şəhid olmağı, təkrar vuruşaraq şəhid olmağı arzu edirəm…"***

***(Müslim, İmarə, 103)***

92. Bax. Müslim, Cihad, 76-81.

dan müstəsnadır. O, hicrət edəcəyi zaman qılıncını götürdü, yayını çiyininə asdı, oxlarını və mizrağını əlinə aldı və Kəbəyə getdi. Qüreyş müşriklərinin liderləri o əsnada Kəbənin yanında idilər. Ömər ﷺ Kəbəni təvaf etdikdən sonra onların yanına getdi və:



«-Budur, mən də Mədinəyə gedirəm! Anasını ağlar, xanımımı dul, uşaqlarını yetim qoymaq istəyən arxama gələ bilər. Bu vadinin arxasındayam!» dedi.

Ancaq heç kim Onun ardınca düşüb təqib edə bilmədi.” (İbn Əsir, Usdul-Ğabə, IV, 152-153)

*“Cəsarət insanı zəfərə, qərarsızlıq təhlükəyə, qorxaqlıq da ölümə aparır.”*

*(Yavuz Sultan Səlim)*

Xanım səhabələrdən **Ümmü Umarə** (r.anhə) Uhud döyüşündə iştirak edərək oxu və yayı ilə düşmənlə vuruşanlardan biridir. Döyüşdən sonra Mədinəyə qayıdan **Allah Rəsulu** ﷺ:

*“–Döyüş əsnasında sağıma, soluma baxdıqda hər dəfə Ümmü Ümarənin yanımda vuruşduğunu görürdüm.”* demişdir. (İbn Həcər, əl-İsabə, IV, 479)

Xülasə, möminlər təvəkkülləri səbəbiylə Allahdan başqa heç bir şeydən qorxmazlar. [93]Cəsarət və mətanətlə Allahın əmrlərini tətbiq edərlər. Şücaətlərini fərasət və bəsirətlə ortaya qoyaraq, harda necə hərəkət edəcəklərini bilərlər.

93. Bax. əl-Əhzab, 39.

# PİS ƏXLAQDAN ÇƏKİNMƏK

Gözəl əxlaqın zidd idi olan xüsusiyyətlər pis əxlaqı təşkil edir. Ədalətin, comərdliyin, əhdə vəfanın olmadığı yerdə, zülm, haqsızlıq, israf, xəsislik və xəyanət vardır.



Pis əxlaqdan qorunmaq insanı əbədi qurtuluşa aparar. Allah-Təala belə buyurur:

**"Nəfsini** (günahlardan) **təmizləyən mütləq nicat tapacaqdır!"** (əş-Şəms, 9)

Gözəl əxlaq baxımından insanlığın zirvəsini təşkil edən **Rəsulullah** belə buyurmuşdur:

*"Gerçək mömində bu iki xüsusiyyət əsla bir araya gəlməz: Xəsislik və pis əxlaq!.."* (Tirmizi, Birr, 41/1962)

*"Allah-Təala Cavaddır, yəni comərd və ehsan sahibidir, bu səbəblə comərdliyi sevər. Yenə O, gözəl əxlaqı sevər,* ***pis əxlaqı isə bəyənməz."*** (Süyuti, əl-Camius-Sağir, I, 60)

Allahın razı olmayacağı və Allah Rəsulunu incidəcək pis və çirkin xüsusiyyətlərin hamısından uzaq durmaq lazımdır. Bunların bəzilərini belə sıralaya bilərik:

## Ehtiras və Həsəd

Ehtiras və həsəd bütün günahların qaynağıdır. Hədisi-şərifdə belə buyurulur:

**Rəsulullah ﷺ buyurur:**

**"Əsla həsəd etməyin! Çünki həsəd alovun odunu yediyi kimi, savabları və yaxşılıqları yeyib bitirər."**

(Əbu Davud, Ədəb, 44; İbn Macə, Zöhd, 22)



"Ey Mülkün (Gərçək) Sahibi!.."

**Əhməd bin Hənbəl həzrətləri buyurur:**

**"İnsana az mal bəsdir, çox malsa kifayət etməz." Ən gözəl zənginlik qənaətdir. İnsan malıyla deyil, qənaətiylə zəngindir.**

*"Üç şey vardır ki, bütün günahların qaynağıdır; bunlardan uzaq olun:*

*1. İblisi Adəmə* ﷺ *səcdə etməməyə sövq edən şey **qürur**dur.*

*2. Adəmi* ﷺ *cənnətdəki qadağan olunmuş ağacdan yeməyə sövq edən şey **ehtiras**dır.*

*3. Adəmin* ﷺ *oğlu Qabilin qardaşı Habili öldürməsinə səbəb olan şey **həsəd**dir."* (Süyuti, əl-Camius-Sağir, I, 101)

Həsəd qulun özünə təqdir edilənə, yəni ilahi bölgüyə razı olmamasıdır. Bu da Allahın iradəsinə qarşı gəlmək kimi böyük bir cürətdir. Halbuki qullarını çox sevən Allah hər birinə ayrı-ayrı nemətlər lütf etmişdir. İnsanın başqalarına lütf edilən nemətlərə həsəd etmək yerinə, öz üzərindəki nemətlərə şükür etməsi lazımdır. Çünki bizim sahib olduğumuz nemətlərdən məhrum olan nə qədər insanlar var. Bu səbəblə ehtiras və həsədin yeganə müalicəsi, ancaq qənaət və riza halının dinclik və ruhaniyyətinə bürünməklə mümkündür. **Allah Rəsulu** ﷺ:

*"Qənaət tükənməz bir xəzinədir."* buyurmuşdur. (Deyləmi, Müsnəd, III, 236/4699)

İlahi əzəməti və nemətləri layiqincə təfəkkür, mömini könül rahatlığına sövq edər. İlan, əqrəb, tısbağa kimi varlıqları gördüyümüzdə ***"Mən də belə yaradıla bilərdim."*** deyə düşünmək lazımdır. Bu təfəkkür bizə üzərimizdəki ilahi nemətlərin qədrini bildirər. Məsələn, "Gözlərini ver, qarşılığında sənə dünyanı verək!" desələr, bunu kim qəbul edər?! Ayeyi-kərimədə:

**“Allahın nemətlərini saymağa çalışsanız, sayıb qurtara bilməzsiniz!..”** (ən -Nəhl, 18) buyurulur. Ən böyük nemətlər isə, məxluqat içində “insan” olaraq yaradılmaq, Qurani-Kərimin xitabına məzhər olmaq və Peyğəmbərimizə ümmət olmaqdır.

Həsəd, ilk dəfə şeytanda müşahidə olunmuşdur. Atəşdən yaradıldığı üçün özünü; torpaqdan yaradılan Həzrət Adəmdən üstün görmüşdü. Bu səbəblə də Allaha üsyankar olmuşdu.

Rəvayət olunur ki, Musa عليه السلام Tur dağına çıxarkən kürəyində odun daşıyaraq dolanışığını təmin edən bir qocayla rastlaşmışdı. O qoca Həzrət Musaya:

“-Filan qonşumun eşşəyi var. Odunlarını onunla daşıyır. Mən isə bu qoca halımla kürəyimdə daşıyıram. Nə olar, Allaha dua et, mənə də bir eşşək lütf etsin!” deyə yalvarır.

Musa عليه السلام Tur dağından qayıdanda qocanın tələbini belə cavablandırır:

“-Allah sənə bir eşşək lütf edəcək. Lakin qonşuna bir eşşək də verəcək!..”

Bunu eşidən qoca:

“-Xeyr, istəmirəm!.. Mənə də verməsin; ona da...” deyir.

Həsədin nə qədər pis olduğunu göstərən bu hekayənin bənzərləri həddən artıq çoxdur.

Həsədin həsəd ediləndən çox həsəd edənə zərəri var. Bu hal başqasını daşlayan, lakin atdığı daşla özünü yaralayan kimsənin halına bənzəyir.

*“Maddiyyata meyil edənlər üçün həyat dəniz suyu içməyə bənzəyər. İçdikcə susayarlar.”*
*(Muhyiddin Ərəbi həzrətləti)*



*"...(Bir-birinizin eybini, sirrini) arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir)..."*

*(əl-Hucurat, 12)*

Ancaq qibtə belə deyil. Çünki qibtə mənəvi üstünlüklərə can atmaqdır. **Allah Rəsulu** ﷺ belə buyurur:

*"Yalnız iki adama qibtə etmək olar: **Biri,** Allahın Quran bəxş etdiyi adamdır. O adam Quran ilə gecə-gündüz məşğul olub, onunla əməl edər. **Digəri,** Allahın mal verdiyi kəsdir. O da gecə-gündüz bu malı Allah yolunda xərcləyət."* (Müslim, Müsafirin, 266, 267. Ayrıca bax. Buxari, Təmənni, 5; Tövhid, 45)

## Qeybət

Qeybət bir müsəlmanın digər müsəlman qardaşının arxasınca danışaraq, eşitdiyi zaman kədərlənəcəyi və ya utanacağı bir qüsurundan bəhs etməsidir. Bunu rəmzlə və ya qaş-göz, əl-qol hərəkətləriylə etməsi, eyham vurması, yaxud da təqlidini etməsi də qeybətə girər.

**Rəsulullah** ﷺ bir gün:

*"-Qeybət nədir, bilirsinizmi?"* deyə soruşmuşdu.

Əshabi-kiram:



"-Allah və Rəsulu daha yaxşı bilər." dedi.

Allah Rəsulu ﷺ:

*"-Qeybət din qardaşını xoşuna gəlməyən bir şeylə xatırlamaqdır."* buyurdu.

"-Deyilən ayıb əgər o qardaşımda varsa, odna necə?" deyə soruşdular.

Peyğəmbərimiz ﷺ:

*"-Əgər söylədiyin şey onda varsa qeybətdir; yoxsa böhtan atmış sayılarsan."* buyurdu. (Müslim, Birr, 70; Əbu Davud, Ədəb, 40/4874)

Allah-Təala quluna elə dəyər vermişdir ki, onun qüsurlarının yoxluğunda deyilməsini də ağır bir günah olaraq elan etmişdir.

Qeybət ürəklərə kin və düşmənçilik zəhəri saçaraq İslam qardaşlığını pozan, birlik və bərabərlik ruhunu öldürən böyük bir günahdır. Necə ki, ayələrdə belə buyurulur:

**"**(Dalda) **qeybət edib** (üzdə) **tənə vuran hər kəsin vay halına! O kimsə ki, mal yığıb onu dönə-dönə sayar** (çoxaldar)**!"** (əl-Huməzə, 1-2)

Haqq dostlarından **Fudayl bin İyaz:**

"Qeybətin girdiyi yerdən qardaşlıq çıxıb gedər." demişdir.

Təcrübəylə sabitdir ki, bir din qardaşını ayıb və qüsurları səbəbiylə qınayanlar, çox keçmədən eyni səhvləri işləməyə başlarlar. Necə ki, Rəsulullah ﷺ:

*"Kim bir qardaşını günahı səbəbiylə ayıblasa, o günahı işləmədən ölməz."* buyurmuşdur. (Tirmizi, Qiyamət, 53/2505)



Qeybətin təməlində qürur, təkəbbür, özünü bəyənmə, Allahın qullarını kiçik görmə, həsəd, kin kimi bir çox pis xüsusiyyət var. Bu da qeybət mərəzindən xilas ola bilməyən bir ürəyin nə qədər acınacaqlı halda olduğunu göstərməyə kafidir.

**Həzrət Aişə (r. anhə) belə deyir:**

**"Nə qəribədir ki, insan müsəlman qardaşı haqda danışdığı çirkin sözdən ötrü deyil, yediyi halal loğmadan ötrü ağzını yuyar!"**

**(Əhməd bin Hənbəl, əz-Zöhd, 1, 59)**

## Hirs



Hirs insanı bir anda özündən çıxaran təhlükəli bir vəsfdir. Ağlı başdan çıxardan və könlü pərdələyən bir haldır. Tarazlığı pozar, insanı dəli olmaq həddinə çatdırar. Necə ki, həbsxanaları dolduran insanların çoxu, bir anlıq hirsin nəticəsində məhkum olmuşlar.

Hirsli insanın daxili dünyası "kin, intiqam, təhqir, döyüş və cinayət" kimi şərlərlə doludur.

Həyat kitabının hirs fəsli bir faciə tarixidir. Bu dəhşətli təhlükədən qurtuluşun çarəsi hirs qarşısında qardaşlıq, əfv və səbrə yönələrək, müvazinəti qorumaq və sükunətə bürünməkdir.

**Əbud-Dərda ﷺ Peyğəmbərimizə:**

"-Cənnətə girməyimə vəsilə olacaq bir şey öyrədərsinizmi?" dedikdə Allah Rəsulu ﷺ:

*"-Hirslənmə!"* buyurdu. (Buxari, Ədəb, 76; Tirmizi, Birr, 73)

Bir başqa hədisi-şərifində də Peyğəmbərimiz belə buyurmuşdur:

*"Diqqət edin! İnsanların eləsi var, yavaş hirslənər, hirsindən tez dönər.*

*Eləsi də var, tez hirslənər, tez sakitləşər; bu iki vəsf bir-birini tarazlayar, bu səbəbdən tərifləmək və ya tənqid etmək lüzumsuzdur.*

*Diqqət edin! Eləsi var ki, tez hirslənər, gec sakitləşər. Bunların ən xeyirlisi gec hirslənib, tez*

**Rəsulullah ﷺ buyurur:**

**"Diqqət edin! Hirs Adəm oğlunun ürəyində bir atəşdir. Hirslənən adamın gözlərinin qızardığını, boyun damarlarının şişdiyini görmürsünüzmü? Kim hirslənməyə başladığını hiss etsə, dərhal otursun və ya yatsın!"**

**(Tirmizi, Fitən, 26/2191; İbn Macə, Fitən, 18)**

*sakitləşəndir. Bunların ən şərlisi də tez hirslənib gec sakitləşəndir."* (Tirmizi, Fitən, 26/2191; İbn Macə, Fitən, 18; Hakim, IV, 551/8543; Beyhəqi, Şuab, VI, 309)

Şeytanın işini asanlaşdıran ən mühüm insani zəiflik "hirs"dir. İnsan hirsləndiyi zaman şeytan bir uşağın topla oynadığı kimi o kimsəylə oynamağa başlayar.

Ən ağıllı insan hirsinə hakim ola bilən adamdır. Yəni hirs ağlın ən böyük düşmənidir. Necə ki, belə deyilmişdir:

***"Hirs gələr göz qaralar, hirs gedər üz qızarar."***

**Rəsulullah** ﷺ yalnız bir haqq tapdalandığı və bunda israr edildiyi zaman hirslənər, ancaq haqqı bərqərar etdikdən sonra sükunətə bürünərdi. Əsla öz nəfsi üçün hirslənməz, heç kimlə münaqişəyə girməzdi.

Allah-Təala hirsini boğan və insanları bağışlayanlar haqqında belə buyurur:

**"O müttəqilər ki, bolluqda da, qıtlıqda da** (mallarını yoxsullara) **xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər."** (Ali-İmran, 134)

*"Atəşə düşən bir canlı yanaraq son nəfəsini verdiyi kimi, ürəyə də hirs atəşi düşdükdə ağıl orada can verər."*

**Rəsulullah** ﷺ hirslənən bir insana bunu tövsiyə etmişdir:



*"Biriniz hirsləndikdə ayaq üstədirsə otursun, hirsi keçdisə nə gözəl, əks halda yatsın!"* (Əbu Davud, Ədəb, 3/4782; Əhməd, V, 152)

**Əbu Vail** belə deyir:

"Bir gün biz **Urve bin Məhəmməd**in yanı-



na getmişdik. Orada bir adam bəzi sözlər söyləyib Urvəni hirsləndirdi. Bunun üzərinə Urvə qalxdı, dəstəmaz alıb yanımıza gəldi və **Rəsulullah**ın belə buyurduğunu nəql etdi:

*"Hirs şeytandandır. Şeytan isə atəşdən yaradılmışdır. Atəş su ilə söndürülər. O halda biriniz hirsləndiyi zaman dəstəmaz alsın!"* (Əbu Davud, Ədəb, 3/4784; Əhməd, IV, 226)

Ancaq burada onu da ifadə etmək lazımdır ki hirs nəfsi və şeytani istiqamətdən olduqda pislənmişdir. Əgər o, ilahi cəhətdəndirsə, yəni Allah yolunda və sırf Allah üçündürsə, bu təqdirdə bir fəzilətdir. Allahın rizasını qazanmaq üçün hirsi boğmaq mühüm olduğu qədər, lazım gəldikdə Allah üçün hirslənmək də son dərəcə mühüm bir vəzifədir.

**Həzrət Ömər ﷺ belə deyir:**

**"Allah sizə bol-bol lütf etdikdə siz də özünüzə yaxşı baxın, (təmiz geyinin). (İsrafa qaçmamaq şərtiylə) hər kəs geyiminə əhəmiyyət versin!"**

**(Muvatta, Libas, 3)**

## Dəbdəbə Vurğunluğu və İsraf

İnsan nəfsinə hakim olmalı və hər istədiyini əldə etmək üçün büdcəsini xərcləyib bitirməkdən çəkinməlidir. Çünki bu, sonda həddindən artıq yükün altına girməyə, narahatlığa və böhranlara səbəb olar. İndiki vaxtda getdikcə yayılan kredit kartları səbəbiylə insan hər istədiyini asanlıqla ala bilməkdədir. Buna aldanan bir çoxları lüzumsuz xərcləmələr səbəbiylə borc və faiz girdabına düşüb pərişan olmaqdadırlar. Neçə-neçə xoşbəxt ailə buna görə dağılmış və ya dağılmağa üz tutmuşdur.

Maddi vəziyyəti çox yaxşı olmasına baxmayaraq insan saçıb-sovurmamalı, israfdan uzaq durmalıdır. Çünki hər nemətin hesabı veriləcək. Bunun şüurunda olan bir müsəlman ehtiyacından çoxunu xərcləməz. Riyazət halında yaşamağa cəhd göstərər, qənaət etdiyi imkanlarını Allah yolunda infaq edər.

Allah-Təala belə buyurur:

**“Qohum-əqrəbaya da, miskinə də,** (pulu qurtarıb yolda qalan) **müsafirə də haqqını ver. Eyni zamanda** (mal-dövlətini əbəs yerə) **sağa-sola da səpələmə! Həqiqətən,** (malını əbəs yerə) **sağa-sola səpələyənlər şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur!”** (əl-İsra, 26-27)

**Yavuz Sultan Səlim Xan** çox sadə bir həyat yaşayardı. Hər dəfə yemək vaxtı bir növ yemək yeyərdi. Taxtadan düzəldilmiş qabdan istifadə edərdi. Dünyəvi ləzzətlərdən özünü mühafizə üçün riyazət halında yaşayardı. Bir gün oğlu Süleymanın (Qanuni) çox bəzəkli bir paltar geydiyini görüb, istehza ilə:

“-Oğlum, o qədər bəzənmisən ki, anana geyəcək bir şey qoymamısan!..” dedi.

Özündən nə üçün sadə geyindiyini soruşanlara:

*Comərdlik və fədakarlıq İslamın mədh etdiyi ali əxlaqdır. Şəxsi rahatlıqdan, evlərin bəzəyindən və gündəlik məsrəflərdən ediləcək azacıq fədakarlıqlarla da olsa bu uca əxlaqdan hər kəs mükün mərtəbə pay almalıdır. Yalnız öz rahatlığını düşünüb başqa insanlara qarşı laqeyd qalmaq müsəlman əxlaqına ziddir.*





"-Bəzəkli və parıltılı geyinmək əziyyətdən başqa bir şey deyil. Nə üçün boş yerə bu əziyyətə dözək?" deyərdi.

Bir paltarı köhnələnə qədər geyərdi. Bütün dövlət ərkanı da ondan nümunə götürərək belə davranardılar.

Bir dəfə Venedik elçisinin İstanbula gəlib hüzuri-şahanəyə üz sürəcəyi xəbəri gəldi. Bunun üçün vəzirlər əyinlərindəki xeyli köhnəlmiş paltarları dəyişdirmə ehtiyac hiss edərək vəziyyəti Yavuza bildirdilər. Yavuz da bu tələbi uyğun gördü.

Elçinin gələcəyi gün bütün vəzirlər yeni paltarlarıyla padşahın hüzuruna gəldilər. Ancaq gördüklərinə inana bilməyərək dəhşət və heyrətə düşdülər. Çünki Yavuzun əynində yenə köhnə paltarları vardı. Taxtında oturmuş, iti qılıncını da çəkib taxtın pilləsinə qoymuşdu. Qarşı pəncərədən düşən gün işığı altında qılıncın parıltısı gözləri qamaşdırırdı.

Görüşmə qurtarıb elçi çölə çıxdıqdan sonra Yavuz sədrəzəmə:

"-Paşa! Get elçidən soruş gör, bizim haqqımızda təəssüratı nədir?" dedi.

Sədrəzəm elçinin dediklərini nəql etdi:

"-Sultanım! Venedik elçisi: «O qılıncın parıltısı gözümü elə qamaşdırdı ki, padşahın özünü görə bilmədim...» deyir."

Yavuz təbəssüm etdi və şəhadət barmağıyla qılıncını sədrəzəmə göstərərək:

"-Qılıncımızın ağzı kəsdiyi müddətdə kafirin gözü ondan əsla ayrıla bilməz və bizi görməz! Amma

***Səhabə nəslinin idealı Allah Rəsulunun əxlaqıyla əxlaqlanmaq idi. Buna görə də o cəmiyyət zöhd və riyazət halında yaşayırdı. Həddən artıq istehlak, lüks həyata meyil etmək kimi israf işlər səhabə nəslinə yad bir həyat tərzi idi. Onların zənginləri əğniyayi-şakirin (şükür və infaq edən varlılar), kasıbları da füqərayi-sabirin (səbir, riza və qənaət edən yoxsullar) idi.***

Allah qorusun, bir gün qılıncımız kəsməz olar və parıldamazsa, o zaman düşmənlər bizi həm xor görər, həm də üstdən aşağı baxarlar!..” dedi.



Bu həssaslıq Osmanlını dünyaya hökm edən bir dövlət halına gətirdi. Ancaq zaman keçdikcə nəfsani həyata meyil edilincə hüdudları və sərvəti mühafizə edə bilmək çətinləşdi. Dövləti ucaldan bu mənəvi güc itib Sədabad səfaları və seyfiyyə əyləncələrinin ön plana çıxmasıyla fəth ruhu zədələndi. Lüks və israf artdı. Belə ki, bir lalə soğanının min qızıla satıldığı zamanlar oldu. Beləcə, böyük bir dövlətin qədəri dəyişdi. Qərb dövlətləriylə ehtişam yarışları başladı. Nə ibrətlidir ki, təvazökarlıq və zəriflik abidəsi olan Topqapı Sarayı xaricində bütün lüks saraylar Osmanlının son illərində tikilmişdir.

## Səhv Model Seçimi

İnsan yaradılış etibarıyla sevib heyran olduğu kəslərdən nümunə götürməyə və qabiliyyəti ölçüsündə onları təqlid etməyə meyillidir. Xüsusilə xarakter və şəxsiyyətin formalaşdığı gənclik illərində bu xüsusun həyati bir rolu var. Yəni arxasından gediləcək doğru nümunələri seçə bilmək əbədi səadətin açarı kimidir.

İnsan üçün ən mükəmməl nümunə şəxsiyyətlər peyğəmbərlər və onların izindən gedən salehlərdir. Çünki peyğəmbərlər vəhyi-ilahiyə əsaslandıqları üçün bir-birlərini təsdiq edərək gələn hidayət rəh-

***Lüks və israfa sürüklənmək cəmiyyətlərin pozulmasına, nəticədə də böyük fəlakətlərə düçar olmasına zəmin hazırlayar. Buna görə də Rəbbimiz həddi aşaraq israf çılğınlığına düşənlərin yolu ilə getməyi bizə belə qadağan edir: “(Günah etməklə) həddi aşanların əmrinə tabe olmayın (onlara boyun əyməyin)! O kəslər ki, yer üzündə fitnə-fəsad törədər və (pis işlərdən, günah əməllərdən əl çəkib özlərini) islah etməzlər!”*** ***(əş-Şuara, 151-152)***

bərləridir. Halbuki insanlara yol göstərməyi hədəfləyən filosoflar yalnız ağılları ilə hərəkət etdikləri üçün bir-birlərinin fikirlərini boşa çıxarmağa və təkzib etməyə çalışmışlar. Buna görə də nə özlərini, nə də cəmiyyətlərini irşad edə bilmişlər.

Məsələn Aristotel əxlaq fəlsəfəsinə dair bəzi qaydalar qoymuş olmasına baxmayaraq, ona inanıb fikirlərini tətbiq edərək səadətə qovuşmuş bircə nəfər də görmürük. Çünki filosofların qəlbləri təsfiyə, nəfsləri təzkiyə olmamış, fikir və hərəkətləri vəhyin müstəsna köməyiylə yetkinləşməmişdir.

Həyatları boyunca təfəkkür ilə məşğul olan filosoflar belə insana tam mənasıyla rəhbərlik edə bilmədikləri kimi, dəbdəbəli aləmlərində ömürlərini çürüdən film ulduzları, sənətçi, idmançı və bu kimi insanların gəncliyə



**Bəhlul Danəndə həzrətləri yol üstündəki bir viranənin yıxılmaq üzrə olan əyilmiş divarına baxıb aqibətini təfəkkürə dalardı. Yenə bir gün bu fikirlə baxarkən qəflətən divar çökdü. Bəhlul Danəndə həzrətləri buna sevindi. Onun bu sevincinə məna verə bilməyən insanlar maraqla səbəbini soruşduqda:**
**"–Divar meyil etdiyi tərəfə yıxıldı!" dedi.**
**"–yaxşı, bunda gülünc nə var?!" dedikləri zaman bu hikmətli cavabı verdi:**
**"–Madam ki, dünyadakı hər şey sonda meyil etdiyi tərəfə yıxılır, mənim də meylim Haqqa tərəfdir, o halda mən də ölüncə Haqqa qovuşacağam. Ey əhali, rüku və səcdələrimizlə Haqqa meylimizi artıraq ki, başqa istiqamətlərə yıxılmayaq!"**

rəhbər olması da düşünülə bilməz. Onların arxasından gedən nəsillərin yolu görəsən hara çıxar?!.

Müsəlman bir gəncin həyatında özünə rəhbər edəcəyi kəslərin ən başında **Allah Rəsulu** ﷺ gəlir. Sonra **əshabi-kiram**, ardından da **Allahın saleh qulları…**

Necə ki, Əbu Cəhldən bəri bir çox inkarçılar belə Peyğəmbərimizin şəxsiyyətinin aliliyini etiraf etmək məcburiyyətində qalmışdır. Bunlardan biri:

Amerikalı elm adamı **Michael Hart**, 1979-cu ildə dünyanın gəlib-keçmiş ən təsirli 100 böyük insanını seçmək üçün çalışmalara başladı. Böyük insanların qabiliyyətlərini, mübarizələrini, iş və müvəffəqiyyətlərini kompyuterə qeyd etdi. Bir neçə ay sürən çalışmadan sonra kompyuter verilən məlumatlar əsasında dünyanın ən böyük adını seçdi: **Həzrət Məhəmməd Mustafa** ﷺ…

Araşdırmanın ardınca Fransız jurnalı Le Point Həzrət Məhəmmədi 1979-cu ildə **"İlin Adamı"** seçdi. 29 dekabr 1979 tarixli qəzetlər bu xəbəri yazarkən səbəb olaraq aşağıdakı fikri qeyd etdilər:

***"Həzrət Məhəmməd 571-632-ci illər arasında yaşamış olmasına baxmayaraq onun dünyadakı təsiri qar topası kimi böyüyür və milyonlarla insan hələ də Onun göstərdiyi yolla gedir."*** (Zəfər Jurnalı, 97/3-8)

Çünki Onun göstərdiyi yolda getmək, insan oğlu üçün yeganə səadət, rəhmət və qurtuluş qapısıdır…

***"Heç bir zaman bəşərin islah olunması Həzrət Məhəmmədin yaşadığı zamanda olduğu kimi daha çətin olmamışdır. Lakin vəfat edərkən qoyub getdiyi səadət və müvəffəqiyyətdən daha kamil bir islah və nailiyyət də tanımırıq."***

*(Sir Muir)*

# SON SÖZ

*"Ey bəsirətli insan, bir millətin sərmayəsi pul, gümüş, parça və qızıl deyil. Onun əsl sərmayəsi sağlam, dinc və qüdrətli beyinlərə sahib, çox çalışqan, əzmkar və çevik övladlarıdır."*

*(Məhəmməd İqbal)*

Gənclik millətlərin həyatında son dərəcə əhəmiyyətli bir yerə malikdir. Çünki gənclik hər millətin gələcəyi və ən mühüm güc qaynağıdır. Öz gələcəyini təminat altına almaq, milli və mənəvi dəyərlərini mühafizə etmək istəyən hər bir cəmiyyət gənclərinə əhəmiyyət verməlidir. Onları elmli, mədəni və üstün xarakter sahibi nəsillər olaraq yetişdirməlidir. Ancaq belə millətlər gələcəyə ümidlə baxa bilərlər.

Bunun əksinə, gənc nəslin tərbiyəsinə laqeyd yanaşan, təlim və tərbiyələrinə əhəmiyyət verməyən, onların yalnız ağılını və bədənini bəsləyib könülünü, ruhunu ac qoyan millətlər isə qan və gözyaşlarıyla tarix səhnəsindən silinib gedərlər.

Tarixin şahidliyiylə sabitdir ki, əcdadımız Osmanlını neçə əsr ayaqda tutan ən möhkəm təməllərdən biri də gənc nəsillərini iman eşqi və vəcdi ilə təchiz etmələri olmuşdur.



Əsasən də gələcəyin sultanı olacaq şahzadələr, xüsusi bir təhsildən keçmişdir. Ömürləri cihaddan-cihada atılmaqla keçən sultanlar şahzadələrini qarşılarına qoyub, əsrlərə hökm edəcək bir dövlətin

təməllərini onların gənc beyinlərinə ilmə-ilmə işləmişlər. Məhz onlardan biri olan **Ərtoğrul Qazi** gənc oğulu Osmana bu nəsihətləri vermişdir:

***"Bax oğul! Məni incit, Şeyx Ədəbalini incitmə! O, bizim mənəviyyat günəşimizdir. Tərəzisi bir dirhəm də səhv etməz! Mənə qarşı gəl, ona qarşı gəlmə! Mənə qarşı gələrsənsə kədərlənər, inciyərəm; Ona qarşı gələrsənsə gözlərim sənə baxmaz olar, baxsa da görməz olar! Sözümüz Ədəbali üçün deyil, sənin üçündür! Bu dediklərimi vəsiyyətim bil!.."***



**Şeyx Ədəbali həzrətləri**nin Osman Qaziyə etdiyi nəsihətlərdən bir qisimi isə belədir:

***"Ey oğul! Bundan sonra bölmək bizə; bütünləmək sənə... Tənbəllik bizə; xəbərdar etmək, canlandırmaq, şəkilləndirmək sənə..."***

***"Oğul! Güclü, qüvvətli, ağıllı və natiqsən... Lakin bunları harada və necə istifadə edəcəyini bilməzsənsə, səhər küləklərində sovrulub gedərsən... Hirsin və nəfsin bir olub ağlını məğlub edər. Bunun üçün daim səbirli, səbatkar və iradənə sahib ol!.."***

Bu nəsihətlərə könül verərək böyüyən bir gəncin gələcəyini təxmin etmək heç də çətin deyil. Necə ki, o gənc, dörd yüz atlıdan ibarət bir bəylikdən -Allahın lütfüylə- möhtəşəm bir dünya dövləti qurmuşdur.

Tarixin nadir şahid olduğu nadir gənclərdən bir başqası isə İstanbulu fəth edərək yeni çağ açan **Fateh Sultan Mehmed**dir. Uşaqlıq və gəncliyindəki

***"...Dövlətə mənən güc verən fəzilət sahibi saleh alimlərə qarşı hörmət və ehsanla rəftar et. Başqa bir ölkədə kamil bir alimin, bir arifin, bir vəlinin olduğunu eşitsən, onu nəzakət və təzimlə məmləkətinə dəvət et! Din dövlət işləri onların bərəkət və yardımları ilə istiqamətlənsin!.."***

***(Osman Qazinin oğlu Orxan Qaziyə nəsihətlərindən)***

**Fateh Sultan Mehmed Xan hələ 14 yaşındadır. Müəllimi bir gecə yarısı mədrəsəni gəzərkən görür ki, Fatehin otağında işıq yanır. “Şahzadəm bu saatda nə edir, görəsən?” deyə maraqla otağa girir. Masasının üstündə bir yığın kağız görür: İstanbulun fəth planları… Daha o yaşdakı şahzadə: “İstanbulu necə fəth edə bilərəm, bu zamana qədər aşıla bilməyən surların sirri nədir, bunları necə ala bilərəm?” kimi sualların cavabını axtarmaqla məşğul idi...**

yüksək idealları, həyəcan və çalışmaları onun gələcəkdə nə qədər böyük bir insan olacağının ilk nişanələri idi. Necə ki, onun bu istedad və qabiliyyətlərini görən atası **II Murad** iki dəfə taxtı kiçik yaşdakı oğlu Mehmedə vermək istəmişdi.

Bir gün Şahzadə Mehmed saray bağçasında gördüyü atası ilə hal-əhval tutduqdan sonra atası ona bu nəsihətləri edir:

“-Ey mənim sevimli oğlum!.. Bunu yaxşı bil ki, hər hansı bir şeyin davamı, yalnız qaba qüvvət, qılınc və güclə mümkün deyil. Bu xüsusda iman dolu bir ürək, ağıl, tədbir, səbir, uzaqgörənlik, imtahanlara fədakarlıqla dözmək və bütün bunların nəticəsində əldə edilən təcrübələr çox mühümdür. Birinci yol, yəni qaba qüvvət hər vaxt etibarlı olmadığı kimi, üzrləri də çoxdur. İkinci yol da heç vaxt təkbaşına bir işə yaramaz. Böyük nailiyyətlər üçün hər ikisindən birlikdə istifadə etmək lazımdır! Unutma ki, ali əcdadımızın böyük zəfərləri görünüşdə qılıncın kölgəsində görünsə də əslində ağıl, məntiq, iman eşqi və bunların nəticəsində Allahın köməyinə nail olmaqla reallaşmışdır.



Oğlum! Bir anlıq da olsa əsla ədalətdən ayrılma! Çünki Uca Allah ədalətlidir və ədalətli olanı sevər…”

Məhz Fateh uşaqlıq və gənclik illərində könül iqlimini ilmə-ilmə toxuyan və

gələcək yolunu işıqlandıran bu kimi öyüd və nəsihətlərə riayət etmişdir…

Osmanlıya bir-birindən qiymətli zəfərlər hədiyyə edən hər bir sultan gəncliyində qurduğu fəth xəyalları, gördüyü fəth yuxuları sayəsində bu zəfərlərə nail olmuşdur.

**Çanaqqala** hərb meydanlarını bir qəhrəmanlıq səhnəsi halına gətirən mənəvi güc də, sinəsi imanla dolu gənclərin şəhidlik eşqi deyildimi?

**Xınalı Murad** şəhidlik şərbətini içərkən neçə yaşı vardı? **Seyid Onbaşı** təxminən 276 kiloluq top gülləsini kürəyinə aldığı zaman neçə yaşı vardı? Yeni doğulan körpəsini görmədən; *"Adını Didar qoysunlar"* deyə arxasında bir vəsiyyət və yetim bir körpə qoyan **Yüzbaşı Həsən**in neçə yaşı vardı? 57-ci alay şəhidlərinin neçə yaşı vardı? 63 silahdaşı ilə birlikdə 3 alaya qarşı dünya tarixində misli görülməmiş bir müdafiə olunan **Yəhya Çavuş** və yoldaşlarının neçə yaşı vardı?

Bu sualların cavabını vermək o qədər də çətin deyil. Çanaqqala şəhidliklərindəki məzar daşlarına baxdığımızda əziz şəhidlərimizin yaşlarının 16 ilə 23 arasında olduğunu görürük. Bu gün Anadoluda ocağı tüstüləyən hər evin xatirəsində bir Çanaqqala şəhidinin olduğu şübhə-

**Ulubatlı Həsən və yoldaşlarını Bizans surlarına çıxaran ruh nədir? Uca bir ideala çatmaq həyəcanı… Surlara elə bir eşq ilə çıxırdılar ki, çıxarkən vəcd içində; "Bu gün şəhid olmaq növbəsi bizdədir!" deyirdilər. Nə suyun söndürə bilmədiyi rum alovlarını görürdülər, nə üstlərinə tökülən qızğın yağları, nə də surlardan yağan ox yağışını... Yeganə hədəf Peyğəmbərimizin müjdəsinə nail ola bilmək idi. Məhz fəth dastanını yazan qüdrət bu gənclərin iman həyəcanı idi.**



sizdir. Hər ailə bir Çanaqqala yetimidir. Bu hal nəsildən-nəslə keçən bir şərəf ordenidir.

Tarix şahiddir ki mənəvi xislət və fəzilətlərlə bəzənmiş şüurlu bir nəsil yetişdirənlər əsrlər boyunca varlıqlarını davam etdirərək abad olmuşlar. Din, vətən və bayraq əmanətləri də belə imanlı nəsillərin çiyinlərində şərəflə daşınaraq günümüzə qədər gəlmişdir. Bunun əksinə, Qurana və mənəviyyata arxa çevirərək nəfsani zövq-səfa aləmində kor bir qəflət qaranlığına dalanların aqibəti də bərbad olmuşdur. Necə ki, bu xüsus hədisi-şərifdə belə bəyan edilmişdir:

*"Şübhəsiz ki, Allah-Təala, bu Kitab (Qurani-Kərim) səbəbiylə (yəni ona bağlılıq sayəsində) bəzi millətləri ucaldar, (bu istiqamətdən uzaq olan) bəzi millətləri də alçaldar."* (Müslim, Müsafirin, 269)

Vaxtilə dörd yüz çadırlıq bir tayfa ikən **Qurani-Kərimə** dastanlaşan bir hörmətlə təməli atılan Osmanlının qitələrə yayılan bir dünya dövləti halına gəlməsinin və *"ardına çil-çil qübbələr səpən ordu"*lar[94] meydana gətirə bilməsinin hikmətini bu ilahi təcəllidə axtarmaq lazımdır.

Həmçinin **Sultan Səlim Xan** zamanında müqəddəs əmanətlərin İstanbula gətirilib onlara Topqapı Sarayında xüsusi bir bölmə təsis edilərək bu əmanətlərin yanında əsrlərlə davam edəcək şəkildə Qurani-Kərim tilavəti ənənəsinin başladılması və ilk Quran oxuyanın da Yavuz Xanın özü olması bu dastani hörmətin başlıca nümunə-




94. Bax. N. F. Qısakürək - Sakarya Türküsü.

***"Bayraqları bayraq yapan üstündəki qandır***
***Torpaq, əgər uğrunda ölən varsa vətəndir!.."***
***(Mithat, Camal Kuntay)***

lərindəndir. Bunun üçündür ki, Osmanlı misilsiz ilahi lütfə məzhər olaraq altı yüz il şanla, şərəflə hökmran olmuşdur.

Unutmamaq lazımdır ki, millətlərin maddi və zahiri sahədəki ehtişamının təməlində yatan sirr mənəviyyat aləmindəki hikmətlərə riayətdir. Osmanlının heç bir İslam dövlətinə nəsib olmayan altı yüz illik ehtişamı mənəviyyata verdiyi əhəmiyyətdən qaynaqlanmışdır.

Bu baxımdan bizim vəzifəmiz də imanlı, mənəvi dəyərlərinə bağlı, vətənpərvər bir nəsil yetişdirməkdir. Çünki imanı, namusu, isməti, canı və malı mühafizə vətəni mühafizə ilə mümkündür. Necə ki, bizdən əvvəl bu torpaqlarda yaşayan əcdadımız, canları və qanları bahasına onu bizlərə hədiyyə etmişlər, biz də bu mübarək vətəni Quran sədaları, azanları və dalğalanan bayrağı ilə özümüzdən sonrakı nəsillərə daha da inkişaf etdirərək miras qoymaq məcburiyyətindəyik.

Biz əcdadımızın milli və mənəvi dəyərləriylə bütünləşdiyimiz zaman onların bizə miras qoyduqları müqəddəs əmanətləri şərəflə daşıya bilmiş olarıq. Əks halda milli və mənəvi dəyərlərimiz talan edilərkən səssizcə seyr etmək əmanətin əldən çıxmasıyla nəticələnə biləcək dəhşət verici bir qəflətdir. Uğrunda nə qədər canlar verilərək əldə edilən əmanətləri mühafizə üçün bu gün layiqiylə səy göstərək ki, sabah o ağır əvəzləri təkrar ödəmək məcburiyyətində qalmayaq. Tarixi bir həqiqətdir

***Osmanlının dörd yüz atlı ilə atdığı toxum ulu bir çinar olmuş, budaqları üç qitəni kölgəsinə almış, altı əsr izzət və şərəflə yaşamış, sonra da ardında bir çox yetim dövlətciklər qoymuş və tarix qəbiristanlığında şanlı bir türbəyə çevrilmişdir. İndi bizim borcumuz bu şanlı türbənin layiqli türbədarı olmaqdır...***





*“Din, vətən, bayraq və millətin qorunması, ancaq fədakar bir gəncliyin yetişməsinə bağlıdır.”*

*(Musa Topbaş –rəhmətullahi əleyh-)*

*Çanaqqalada olduğu kimi, əgər bir müharibədə Allah üçün, vətən və millət üçün əsl şəhidlər verilərsə, bu qurbanların ardınca böyük zəfərlər gələr. Fəqət bunun əksinə, bir müharibədə yalnız müqəvvalar, yəni daxili aləmi bomboş ürəklər ölərsə, onların ardında da dağıntıdan başqa heç nə qalmaz.*

ki, qorunmayan əmanətlər əldən çıxmış və ona layiq olunana qədər də əldə edilə bilməmişdir.

Çanaqqalada olduğu kimi, əgər bir müharibədə Allah üçün, vətən və millət üçün əsl şəhidlər verilərsə, bu qurbanların ardınca böyük zəfərlər gələr. Fəqət bunun əksinə, bir müharibədə yalnız müqəvvalar, yəni daxili aləmi bomboş ürəklər ölərsə, onların ardında da dağıntıdan başqa heç nə qalmaz.

Bir mütəfəkkirin bu sözü nə qədər ibrətlidir:

***“Hakim millətlərlə məhkum millətlər arasındakı yeganə fərq tərəzinin bir tərəfini digərindən ağır gətirən bir qram kimidir. Yetişmiş bir ovuc insanın varsa qalib millətsən, yoxsa məhkum…”***

Həm millətimiz, həm də bütün dünya bu bir ovuc insana həsrətdir. Özünü Haqqa həsr etmiş, könlünü məxluqata geniş bir şəfqət və mərhəmət dərgahı halına gətirmiş, ruhundan aləmə rəhmət saçan bir ovuc insan!..

Həqiqətən insanlar darda qaldıqları, çətinlik çəkdikləri və içindən çıxa bilmədikləri hər işdə bir qurtarıcı gözləyərlər. Bunun üçündür ki, **Ömər bin Əbdüləziz**lər daim axtarılır; **Osman Qazilər, Qanunilər, Fatehlər** daim axtarılır; Çanaqqalanın, İstiqlal Hərbinin imanlı ərləri və komandirləri daim axtarılır.

Bu axtarışlar əsl ehtiyacın fərqində olmaq baxımından çox gözəldir. Lakin bütün bu axtarışlar ideal insan yetişdirmə səyinə çevrilərsə, məhz o zaman axtarılan insan tapılmış deməkdir. Cəhd etməkdən uzaq axtarış və intizardansa heç bir nəticə hasil olmaz. Çırpınmayan, tənbəl və paslı ürəklər həyat okeanının dalğalarında həlak olmaqdan xilas ola bilməzlər.

Keçmişin ibrət və fəzilət tablolarını düzgün oxuyub, ümmətin qədərində xeyirli xidmətlərə namizəd olan gənclər nə xoşbəxtdirlər… Kökləri keçmişə, budaqları gələcəyə uzanan, qədirbilən, əsil və gənc nəsillər nə xoşbəxtdir…

**Rəbbimiz hamımızı rizasına müvafiq, ülvi idealların insanı etsin! Hamımızı fani həyatın sadə oyuncaqlarına aldanaraq nəfsani su gölməçəsində boğulmaqdan mühafizə etsin! Hər birimizi bəşəriyyətə rəhmət və səadət saçan dərya könüllü möminlərdən etsin!**

**Amin!**

***Ey Gənc!***

***Sən böyük bir millətin davamçısı və nəvəsisən! Fəzilətlərlə dolu bir mədəniyyətin təqibçisi, şanlı bir keçmişin bugünkü təmsilçisisən. Ruhun daima bu şüurla yoğrulsun, şəxsiyyətin bu vüqarla kamilləşsin! Nəcib Fazilin dediyi kimi: "Kökünü bəyənməyən budaq və budağını bəyənməyən meyvə yetişmədən çürüyər."***

# İÇİNDƏKİLƏR

**ÖN SÖZ** ..... 5

**Bütün Zamanlara Örnək Bir Gənc:**
**MƏHƏMMƏDUL ƏMİN** ﷺ / 13

**İnsanın Örnək Alma Ehtiyacı** ..... 15
**Yeganə Örnək Həzrət Peyğəmbər** ﷺ ..... 17
**Rəsulullahın** ﷺ **Yaşadığı Gənclik** ..... 21
**Həzrət** ﷺ **Peyğəmbər və Gənclər** ..... 27
*Gəncləri Elmə Sövq Edərdi* ..... 29
*Allah və Rəsulunun* ﷺ *Sevdiyi Gənçlər* ..... 29
*Gənclər, Rəsulullahın* ﷺ *Yol Yoldaşı İdi* ..... 31
*Rəsulullah* ﷺ *Gənclərə Dəyər Verirdi* ..... 32
*İslamı Qitələrə Yaydılar* ..... 33
**İlk Müsəlmanlar** ..... 34
**Peyğəmbərimizin Gənclərə Verdiyi Vəzifələr** ..... 40

**QURANİ-KƏRİMDƏ GƏNCLƏR** / 47

**Qurani-Kərimdə Gənclər** ..... 49
**Həzrət İbrahim** عليه السلام ..... 49
**Haqqa Qurban Olan Gənc: Hazrət İsmayıl** عليه السلام ..... 53
**Həzrət Yusif** عليه السلام ..... 56
*Çətin Bir İmtahan* ..... 56
*Zindanda da Haqqı Təbliğ* ..... 57
*Həzrət Yusifin* عليه السلام *Gənc Heyəti* ..... 58

**Həzrət Musa və Köməkçisi Yuşa** عليه السلام ... 59
**Əshabi-Kəhf** ... 60
**Əshabi-Rəqim** ... 62
**Həzrət Loğman** عليه السلام **və Oğlu** ... 64
**Həzrət Yəhya** عليه السلام ... 65
**Həzrət İsa** عليه السلام ... 67
**Həzrət Məryəm** ... 68
**Həzrət Asiyə** ... 69

**MÜSƏLMAN GƏNCİN HƏYAT ANLAYIŞI** / 73

**Müsəlman Gəncin Həyat Anlayışı** ... 75
**DİN, DİL və TARİX ŞÜURU** ... 79
**a. Din Şüuru** ... 79
*Axirət İnancının Faydaları* ... 85
**b. Dil Şüuru** ... 88
*Quranın Dilinə Yaxın Kəlmələr Hədəf Alınır* ... 90
*Din Dildə Yaşayar* ... 91
*"Uydurma Dil"ə Qarşı Həssas Olmalıyıq* ... 92
*Yunusların, Füzulilərin Dili* ... 93
**c. Tarix Şüuru** ... 94
*İftixar Tablolarımız* ... 96
*Tarix Təkrar Edərmi?* ... 97
*Sən Böyük Millətsən!* ... 99
**İSLAMI ÖYRƏNMƏK** ... 102
**İSLAMI YAŞAMAQ** ... 106
*Gənc Səhabələr İbadətə Təşnə İdilər* ... 109
*Müamilələr* ... 110
**ALLAHA MƏHƏBBƏT** ... 111
**PEYĞƏMBƏRƏ MƏHƏBBƏT** ... 116

*Əshabi-Kiramın Məhəbbəti* .......... 120
*Sonrakı Nəsillərin Məhəbbəti* .......... 125
**ALLAH və RƏSULUNUN ƏMRLƏRİNƏ İTAƏT** .......... 126
**AXİRƏTİ DÜNYADAN ÜSTÜN TUTMAQ** .......... 132
**Müsəlman Gəncin Abi-Həyatı: NAMAZ** .......... 138
*Namazdan Məhrum Qalanlar* .......... 142
*Beş Vaxt Namaz* .......... 144
*Cumə Namazı* .......... 145
*Namazda Xüşu* .......... 145
*Namazı İlk Vaxtında Qılmaq* .......... 149
*Namazları Camaatla Qılmaq* .......... 151
*Son Nəfəsə Qədər Namaz* .......... 155
**DİN QARDAŞLIĞI** .......... 156
*Küsülü Qalmamaq* .......... 159
*Qardaşının Dərdinə Əlac Olmaq* .......... 161
*Din Qardaşına Dəstək Olmaq* .......... 163
**QUL HAQQI** .......... 164
**Ata-Ana Haqqı** .......... 169
**Ailə Haqqı** .......... 173
**Sileyi-Rəhm (Qohum Haqqı)** .......... 177
**İSLAMI TƏBLİĞ** .......... 180
**Təbliğdə Diqqət Ediləcək Xüsuslar** .......... 189
**HALAL-HARAM HƏSSASLIĞI** .......... 193
**Təsəttür Həssaslığı** .......... 199
**Zina** .......... 202
**Bütün Pisliklərin Anası: İçki** .......... 205
**Qumar** .......... 207
**ZAMAN ŞÜURU** .......... 210
*İslamın Öyrətdiyi Zaman Həssaslığı* .......... 219
**MƏSULİYYƏT ŞÜURU** .......... 221
**FƏRASƏTLİ OLMAQ** .......... 227

**TƏFƏKKÜRDƏ DƏRİNLƏŞMƏK** ........ 229
**BİRLİK və BƏRABƏRLİK** ........ 233
**Məşvərət** ........ 238
**Həzrət Ömərin Məşvərəti** ........ 241
**ƏDƏB** ........ 242
**GƏNCLİK ENERJİSİNDƏN DOĞRU YERDƏ İSTİFADƏ ETMƏK** ........ 246
*Dünyanın Bir Günü Axirətin Min İlindən Daha Xeyirlidir* ........ 251
*Xeyirdə Tələsmək* ........ 252
*Ölənədək Çalışmaq* ........ 255
*Tarixə Nəqş Olan Fazilətli Ölümlər* ........ 257
**Böyük İdeallara Sahib Olmaq** ........ 262
**Xidmət** ........ 265
*Xidmət Yarışı* ........ 269
*Xidmətin Qızıl Qaydaları* ........ 273
**Dünyaya Aldanmamaq** ........ 274
**Həyatı Formalaşdıran Seçimlər**
*Yoldaş Seçimi və Məhəbbət* ........ 275
*Peşə Seçimi* ........ 279
*Yoldaş Seçimi* ........ 279
*Xobbilər* ........ 282

**GƏNCLİK və TƏHSİL / 289**

**FAYDALI ELM ÖYRƏNMƏYİN FƏZİLƏTİ** ........ 291
**Elm Özünü Bilməkdir** ........ 291
**Elm Əməl Üçündür** ........ 293
**Həyat Qurtaran Elm** ........ 295
**PEŞƏ və İXTİSAS TƏHSİLİ** ........ 296
**Müsəlman Gəncin Həyat Rəhbəri: QURANİ-KƏRİM** ........ 300
**Son Peyğəmbərin Ən Böyük Möcüzəsi** ........ 304
**SİYƏR və HƏDİSİ-ŞƏRİF SAHƏSİNDƏ DƏRİNLƏŞMƏK** ........ 307

**Elm ve İrfan Məktəbi: ƏSHABİ SUFFƏ** ..... 310
**MÜƏLLİMƏ HÖRMƏT** ..... 312

**GƏNCLİK və ƏXLAQ** / 317

**GÖZƏL ƏXLAQ SAHİBİ OLMAQ** ..... 319
**Mərhəmət** ..... 322
**Təvazö** ..... 325
**Cömərdlik** ..... 327
**Fədakarlıq və Din Qardaşının Dərdiylə Dərdlənmək** ..... 330
**İxlas və Səmimiyət** ..... 332
**İffət və Həya** ..... 336
**Sədaqət və Əhdə Vəfa** ..... 340
**Bağışlayıcılıq** ..... 342
**Ədalət** ..... 343
**Helm** ..... 350
**Nəzakət (İncitməmək-İncimək)** ..... 352
**Səbir** ..... 356
**Etidal və Təənni** ..... 358
**Şücaət və Cəsarət** ..... 360
**PİS ƏXLAQDAN ÇƏKİNMƏK** ..... 363
**Ehtiras və Həsəd** ..... 363
**Qeybət** ..... 366
**Hirs** ..... 368
**Dəbdəbə Vurğunluğu və İsraf** ..... 370
**Səhv Model Seçimi** ..... 373
**SON SÖZ** ..... 376
**İÇİNDƏKİLƏR** ..... 384

# Qeydlər